# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ALTMIŞ ÜÇÜNCÜ KİTAB

## MAY 2014 - İYUL 2014

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 408 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycanın ev sahibliyi etdiyi bir sıra beynəlxalq tədbirlərdə görüş və danışıqlarına aid materiallar toplanmışdır.

Kitabda dövlət başçısının Vyetnam Sosialist Respublikasına, Çin Xalq Respublikasına, Türkiyə, Yunanıstan və Fransaya rəsmi və işgüzar səfərləri, həmçinin İsveçrə Konfederasiyasının Prezidenti və Avropa Komissiyası sədrinin Azərbaycana rəsmi səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, hərtərəfli əməkdaşlıq, xüsusən də Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normalarına uyğun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinə, dair müzakirələr kitabın əsas mövzularından biridir.

Nəşrin bu cildində dövlət başçısının bölgələrə səfərləri zamanı söylədiyi nitqlər və ictimaiyyətin nümayəndələri ilə görüşlərindən bəhs edən məlumatlar, həmçinin dövlət başçısının Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin keçirdiyi irimiqyaslı birgə əməliyyat-taktiki təlimlərini izləmə mərasimindəki nitqi də yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

$$\text{Я}\ \frac{0801000000}{\text{M}-651(07)-2018}$$

**ББК - 32**

© Azərnəşr, 2018

## VYETNAM SOSİALİST RESPUBLİKASINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Hanoy*

*19 may 2014-cü il*

*Vyetnam Sosialist Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 19-da Vyetnam Respublikasının Prezident sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Vyetnamın və Azərbaycanın dövlət bayraqlarının dalğalandığı sarayın həyətində prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanq və xanımı Mai Thi Hanh Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Vyetnamın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Vyetnam Sosialist Respublikasının rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan Respublikasının nümayəndə heyətinin üzvləri prezident Truonq Tan Sanqa təqdim edildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Sonra prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.*

## VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*Hanoy*

*19 may 2014-cü il*

Rəsmi qarşılanma mərasimindən sonra mayın 19-da Hanoyda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanqın məhdud tərkibdə görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Azərbaycan prezidenti İlham Əliyevin Vyetnama dövlət səfərinin münasibətlərimizin möhkəmləndirilməsi baxımından önəmi qeyd edildi. Əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Görüşdə ikitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Hanoy*

*19 may 2014-cü il*

*Məhdud tərkibdə görüş başa çatdıqdan sonra mayın 19-da Hanoyda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanqın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**T r u o n q  T a n  S a n q:** Hörmətli cənab Prezident!

İcazə verin, nümayəndə heyətinin adından Sizi Vyetnam torpağında dövlət səfərinə gəlməyinizlə bağlı bir daha salamlayaq. Siz bizim köhnə və yaxın dostumuzsunuz. Ümidvarıq ki, səfəriniz uğurlu olacaq. Siz özünüzə çox yaxın olan bir ölkədəsiniz və ümid edirəm ki, burada özünüzü Vətəninizdəki kimi hiss edəcəksiniz. Sizin səfəriniz Vyetnam ilə əlaqələrin inkişafına daha güclü təkan verəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm, cənab Prezident! Nümayəndə heyətimizin üzvləri özlərini Sizin gözəl ölkənizdə çox yaxşı hiss edirlər. Fürsətdən istifadə edərək, Sizi də münasib bir vaxtda Azərbaycana səfərə dəvət edirəm. Biz münasibətlərimizi yüksək qiymətləndiririk və əminəm ki, səfər ikitərəfli əməkdaşlığa daha güclü rəvac verəcək. Əminəm ki, səfərin çox yaxşı nəticələri olacaqdır. Səfər nəticəsində siyasi əlaqələr daha da möhkəmlənəcəkdir.

*Geniş tərkibdə görüşdə Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanq ulu öndər Heydər Əliyevin Sovet İttifaqı rəhbərliyində olduğu dövrdə bu ölkəyə səfərini xatırlatdı. Ümummilli lider Heydər Əliyevin şəxsən Vyetnama göstərdiyi diqqətin Vyetnam xalqı tərəfindən dərin minnətdarlıqla xatırlandığını bildirdi.*

*Görüşdə Azərbaycan ilə Vyetnam arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən beynəlxalq təşkilatlarda əməkdaşlıq, energetika, elm, təhsil, turizm, investisiyaların qoyulması və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Hanoy*

*19 may 2014-cü il*

*Geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra mayın 19-da Hanoyda Azərbaycan–Vyetnam sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev və Vyetnam prezidenti Truonq Tan Sanq iştirak etmişlər.*

*«Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Vyetnamın Xarici İşlər naziri Pham Binh Minh imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya»nı Azərbaycanın Vergilər naziri Fazil Məmmədov və Vyetnamın Maliyyə naziri Dinh Tien Dunq imzaladılar.*

## VYETNAM RESPUBLİKASININ PREZİDENTİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Hanoy*

*19 may 2014-cü il*

*Hanoyda sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanq mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Vyetnam prezidenti Truonq Tan Sanqın bəyanatı

Hörmətli cənab prezident İlham Əliyev!

Əziz dostlar!

İcazə verin, Vyetnamda dövlət səfərində olan cənab Prezidenti və Azərbaycan nümayəndə heyətinin üzvlərini hərarətlə salamlayım.

Mən çoxtərəfli və qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi və genişləndirilməsinə güclü təkan verən cənab Prezidentin səfərini yüksək qiymətləndirirəm. Cənab prezident İlham Əliyevlə açıq, etimad və əməkdaşlıq mühitində faydalı və səmərəli danışıqlar apardıq. Biz bir daha bildirdik ki, ölkələrimiz arasındakı ənənəvi dostluq əlaqələri daim möhkəmlənəcək və inkişaf edəcəkdir. Vyetnam Azərbaycanın bizim xalqımıza göstərdiyi dəstəyi və çox qiymətli köməyi xatırlayır və yüksək qiymətləndirir.

*Ölkələrimiz arasında siyasi, ticari-iqtisadi və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkanların olduğunu bildirən Vyetnam prezidenti Truonq Tan Sanq dedi:*

– Tərəflər bu müsbət meyilli fəaliyyəti davam etdirməli, bütün sahələrdə, xüsusən də yüksək səviyyədə nümayəndə

heyətlərinin qarşılıqlı səfərlərinin sayını artırmalı, əvvəllər imzalanmış sazişləri, həmçinin bir qədər əvvəl əməkdaşlıq barədə imzalanmış vacib sənədləri səmərəli həyata keçirməlidirlər. Biz cənab Prezidentlə Vyetnam–Azərbaycan əlaqələrini, xüsusən də ticari-iqtisadi və investisiya sahələrində inkişaf üzrə tədbirləri müzakirə etdik və razılaşdırdıq. Belə qənaətə gəldik ki, tərəflər güclü istiqamətləri inkişaf etdirməli, eyni zamanda, əmtəə mübadiləsinin artırılması, o cümlədən neft-qaz sahəsini prioritet, strateji və uzunmüddətli istiqamət hesab edərək, fəal addımlar atmalıdırlar. Azərbaycan və Vyetnam informasiya mübadiləsi, birbaşa əlaqələrin qurulması və səmərəli əməkdaşlıq formalarının axtarışı sahələrində hər iki ölkənin biznes dairələrinə kömək edəcəkdir. Vyetnam bank işi, daşınmaz əmlak, turizm, yüngül sənaye kimi perspektivli sahələrə investisiya qoymaq üçün azərbaycanlı sahibkarlara əlverişli şərait yaratmağa hazırdır.

*Beynəlxalq tədbirlərdə, xüsusən də BMT-də ölkələrimiz arasında sıx və səmərəli əməkdaşlığın olduğunu vurğulayan prezident Truonq Tan Sanq Azərbaycan–Vyetnam münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edərək bildirdi:*

– Mən qəti əminəm ki, hər iki tərəfin iradəsi və ümumi səyləri nəticəsində Vyetnam ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətləri gələcəkdə daha da genişlənəcək, hər iki tərəfə fayda gətirəcəkdir.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

İlk növbədə, mənə və Azərbaycan nümayəndə heyətinin üzvlərinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Əminəm ki, mənim səfərim iki ölkə arasındakı münasibətlərə yeni təkan verəcəkdir. Fürsətdən istifadə edərək, Sizi, cənab Prezident, Sizin üçün münasib olan vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Bu gün biz Vyetnam–Azərbaycan əlaqələrinin müxtəlif aspektlərini geniş müzakirə etdik. Biz bu münasibətlərə xüsusi əhəmiyyət veririk. Keçən il Vyetnamda Azərbaycan səfirliyi açılmışdır. Bu, ikitərəfli münasibətlərimizin inkişafında öz müsbət rolunu oynayır. Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Bu gün söhbət əsnasında qərara gəldik ki, bundan sonra da üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik.

Mən cənab Prezidentə regionda baş verən hadisələr haqqında məlumat verdim. Xüsusilə regional təhlükəsizlik üçün ən böyük təhdid olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında mövqemi bildirdim. 20 ildən çoxdur ki, Ermənistan Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağı və ətraf 7 bölgəni işğal altında saxlayır. Bu işğal nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasına dair bəyanat vardır. Ancaq buna baxmayaraq, Ermənistan buna məhəl qoymur və torpaqlarımızı işğal altında saxlamaqda davam edir. Bu münaqişə bölgə üçün ən böyük təhlükədir və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Bu gün ikitərəfli iqtisadi əlaqələrimizə böyük diqqət göstərildi, vaxt ayrıldı. Ticarət dövriyyəsi iki ölkə arasında 400 milyon dollara çatmışdır. Bu gün biznes-forum keçiriləcək. Azərbaycandan 50-dən çox şirkət rəhbəri bu biznes-forumda iştirak edəcəkdir. Əminəm ki, forum zamanı kontraktlar da müzakirə ediləcək və beləliklə, forumun nəticəsi ikitərəfli ticarət dövriyyəsinin artırılmasında özünü göstərəcəkdir.

Əlbəttə ki, bu gün neft-qaz sektorunda mümkün olan əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Azərbaycan nefti Vyetnama ixrac edilir. Biz bu ixracın artırılması ilə bağlı əlavə tədbirlər görəcəyik. Neft-qaz və digər sektorlara qarşılıqlı investisiyaların qoyuluşu ilə bağlı fikir mübadiləsi aparıldı. Əminəm ki, yaxşı nəticələr olacaqdır.

Humanitar sahədə, xüsusilə təhsil, mədəniyyət, turizm sahələrində əməkdaşlığın inkişafı üçün çox gözəl perspektivlər və imkanlar vardır. Bir sözlə, ikitərəfli gündəliyimiz kifayət qədər genişdir, müxtəlif sahələri əhatə edir. Şübhə etmirəm ki, səfərin nəticələri çox müsbət olacaq və bizim dostluğumuz və əməkdaşlığımız uğurla inkişaf edəcəkdir.

Cənab Prezident, Sizə bir daha təşəkkür edirəm!

**T r u o n q  T a n  S a n q:** Çox sağ olun, cənab Prezident! Hörmətli dostlar, sizə bildirmək istəyirəm ki, cənab prezident İlham Əliyevin məni Azərbaycana rəsmi səfərə dəvət təklifini qəbul etdim. Düşünürəm ki, bu səfər ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə, dostluğumuzun genişləndirilməsinə təkan verəcəkdir.

Əziz dostlar, mən Vyetnama dövlət səfərinə gələn Azərbaycan Prezidentini bir daha salamlamaq istəyirəm. Kütləvi informasiya vasitələrinin nümayəndələrinə bildirmək istəyirəm ki, cənab İlham Əliyev 1993–2003-cü illərdə Azərbaycan Prezidenti və keçmiş Sovet İttifaqının rəhbərlərindən biri, bizim Vyetnamın yaxın dostu Heydər Əliyevin oğludur. Bu sözləri deməklə bir daha təsdiqləmək istəyirəm ki, cənab İlham Əliyev də Vyetnamın yaxın dostudur.

## AZƏRBAYCANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN VYETNAMLI MƏZUNLARI İLƏ GÖRÜŞ

*Hanoy*

*19 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Hanoyda ölkəmizin ali təhsil müəssisələrinin vyetnamlı məzunları ilə görüşmüşdür.*

*Əvvəlcə prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin SSRİ nümayəndə heyətinin rəhbəri kimi, Vyetnama səfəri zamanı burada keçirdiyi görüşlərin əks olunduğu fotolara baxdı.*

*Sonra vaxtilə Azərbaycanda təhsil alan vyetnamlı tələbələrlə görüş keçirildi.*

*Görüşü açan Vyetnamın Birlik və Dostluq Təşkilatının sədri Vu Xuan Honq Azərbaycan prezidenti İlham Əliyevi, nümayəndə heyətini və digər qonaqları salamladı, Vyetnam ilə Azərbaycanı gözəl dostluq tellərinin bağladığını və bu dostluğun yarım əsrdən çox tarixi olduğunu vurğuladı.*

**Vu Xuan Honq**: Azərbaycanlılar keçmiş sovet xalqları ilə birlikdə Vyetnama azadlıq mübarizəsi və dinc quruculuq dövründə böyük, təmənnasız və səmərəli kömək göstəriblər. 1959-cu ildə Ho Şi Minin Bakı şəhərinə səfərindən sonra Azərbaycan Vyetnam üçün minlərlə elmi işçi, xalq təsərrüfatımızın vacib sahələri, o cümlədən müdafiə və təhlükəsizlik, xüsusilə də neft sənayesi, investisiya və energetika sahəsi üçün yüksəkixtisaslı mütəxəssis hazırladı. Bütün bunlar Azərbaycan ilə Vyetnam arasında böyük dostluq körpüsünün və təməlinin qurulmasında əhəmiyyətli rol oynayıb. Bu gün, hörmətli dostlar, bizə doğma torpağımızda Azərbaycan

prezidenti İlham Əliyevlə görüşmək şərəfi nəsib olub. İcazə verin, cənab Prezident, Sizə hərarətli və səmimi salamlarımı yetirim. Sizin simanızda qardaş Azərbaycan xalqına hərarətli, səmimi salamlarımızı çatdıraq.

*1995-ci ildən bəri Sovet İttifaqı respublikalarında, o cümlədən Azərbaycanda ali təhsil alan vyetnamlıların mütəmadi görüşlərinin keçirildiyini deyən Vu Xuan Honq bu baxımdan Azərbaycanda ali təhsil alan vyetnamlıların prezident İlham Əliyev ilə görüşünün mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı. O, vaxtilə Azərbaycanda təhsil alan və hazırda Vyetnamda yüksək vəzifə tutan şəxsləri dövlətimizin başçısına təqdim etdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, mən ilk növbədə, sizin hamınıza – taleyi Azərbaycan ilə bağlı olan şəxslərə bütün Azərbaycan xalqının dərin ehtiramını çatdırmaq və Azərbaycandakı dostlarınız adından hamınızı salamlamaq istəyirəm. Mən sizin ölkənizdə olmaqdan məmnunluq duyuram. Prezident ilə bugünkü görüş və danışıqlar, eləcə də qarşıdakı görüşlər ölkələrimiz arasındakı münasibətlərin inkişafına daha da təkan verəcəkdir. Biz bu münasibətlərə çox böyük əhəmiyyət veririk və bu münasibətlər uğurla inkişaf etməkdədir. Bu münasibətlərin təməlini siz – Azərbaycanda təhsil alan, bizim ölkədə yaşayan, xoşbəxt gənclik çağlarını yaddaşında saxlayan insanlar qoyub. Bu gün biz qarşılıqlı hörmət, dostluq və əməkdaşlıq prinsipləri əsasında dövlətlərarası münasibətlər qurarkən bu təmələ əsaslanırıq. Bu, insanlar arasında olan münasibətdir. Bu təməl bizim xalqlarımız arasında qarşılıqlı rəğbət deməkdir. Bu təməli də siz qoymusunuz. Çünki sizin ikitərəfli münasibətləri inkişaf etdirmək istiqamətlərində fəaliyyətiniz bu təməli daha da möhkəmləndirir.

Siz çox gözəl bilirsiniz ki, Azərbaycan xalqı Vyetnama həmişə böyük sevgi və rəğbətlə yanaşıb. Sizin ölkənizin ən çətin dövrlərində azərbaycanlılar Vyetnam ilə həmrəy olublar. Azadlıq uğrunda mübarizənizdə həmişə sizinlə yanaşı olublar.

Elə bu dostluq, əməkdaşlıq, qarşılıqlı dəstək hissləri bizim bugünkü ikitərəfli münasibətlərimizin xarakterini və formasını müəyyənləşdirib.

Mənim Vyetnama səfərim Azərbaycan Prezidentinin Vyetnam Sosialist Respublikasına ilk səfəridir. Hərçənd, bayaq foyedə nümayiş etdirilən fotoşəkillərdən məlumdur ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyev Sovet İttifaqı nümayəndə heyətinin tərkibində sizin ölkənizdə səfərdə olub. 1959-cu ildə isə Vyetnam xalqının böyük oğlu, prezident Ho Şi Min Azərbaycanda səfərdə olub. Bu tarixi faktlar bizim münasibətlərimizi möhkəmləndirir. Biz bu faktlarla irəli addımlayırıq. Tarixsiz nə bu günümüz, nə də gələcəyimiz ola bilər.

Bizim xalqlarımız arasında münasibətlər tarixi dostluğa və qardaşlığa əsaslanır. Biz də bu münasibətləri bu gün, XXI əsrdə dinamik inkişaf edən iki müstəqil dövlət kimi, inkişaf etdirməli və möhkəmləndirməliyik. Buna görə də mən əminəm ki, bu səfərim münasibətlərimizin inkişafında mühüm mərhələ olacaq, siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrimizə güclü təkan verəcəkdir.

Bu gün biz artıq əməkdaşlığımızın perspektivlərini yüksək səviyyədə müzakirə etdik. Ölkələrimiz arasında əmtəə mübadiləsi çox böyük deyil, təxminən 400 milyon dollara bərabərdir. Lakin artım perspektivləri mövcuddur. Bu gün Vyetnam–Azərbaycan biznes-forumu keçiriləcək. Mənimlə birlikdə Azərbaycanın 50-dən çox müxtəlif şirkətinin nümayəndəsi buraya gəlib və biznes-forumda iştirak edəcəkdir. Əminəm ki, tədbirin nəticələri müsbət olacaq, əmtəə mübadiləsini artırmağa imkan yaradacaq.

Biz neft-qaz sahəsində əlaqələrin yaxşı perspektivinə malikik, bu gün də həmin məsələ müzakirə olunub. Azərbaycanda təhsil alan vyetnamlıların əksəriyyəti Neft-Kimya İnstitutunda oxuyublar. Buna görə də Azərbaycanda neft-qaz əməliyyatları ənənələrinə yaxşı bələddirlər və bilirlər ki, Azərbaycan dünyada sənaye üsulu ilə neft hasil edən ilk ölkədir.

Dəniz yataqlarından da neft ilk dəfə Azərbaycanda hasil edilib. Bu gün biz həmçinin humanitar və təhsil sahələrini də inkişaf etdiririk və bu ənənəni bərpa etmək niyyətindəyik. Çünki bu əlaqələr Sovet İttifaqının süqutundan sonra kəsilmişdi. Amma fikrimcə, biz bu gün təhsil sahəsində əməkdaşlığa yenidən baxmalıyıq. Biz indi tələbələrimizi xaricdə təhsil almağa göndəririk. Buna görə də istərdik ki, bizim üçün vacib olan ixtisaslar üzrə sizin imkanlarınızdan da istifadə edək. Həmçinin vyetnamlı tələbələr üçün hər cür şərait yaratmağa hazırıq ki, gəlib Azərbaycanda təhsil alsınlar, köhnə ənənələri bərpa etsinlər. Çünki sizin nəsil də bu xatirələrlə yaşayır.

Görürəm ki, bu zalda gənclər çoxdur. Əsas odur ki, onlar da bir-birini tanısınlar, ünsiyyət qursunlar, bir-birinə hörmət etsinlər, dəstəkləsinlər və əməkdaşlıq etsinlər. Turizm, mədəniyyət sahələrində mümkün olan potensialdan maksimum istifadə etməliyik. Vyetnam bizim üçün dost ölkədir, xalqımızın tarixən bağlandığı və qarşılıqlı rəğbət bəslədiyi dost ölkədir. Biz gərək münasibətlərimizi möhkəmləndirək. Bu gün Azərbaycan müstəqil dövlət kimi, dünyada öz mövqeyini qəti şəkildə bəyan edir. Biz dünya miqyasında böyük nüfuza malikik və son 2 ildə BMT Təhlükəsizlik Şurasının üzvü olmuşuq. Bu quruma 155 ölkənin dəstəyi ilə seçilmişik. 20 ildən bir qədər artıq müstəqillik dövründə dünya ölkələrinin əksəriyyətinin dəstəyini qazanmaq o qədər də asan deyildir. Bizim dəstəklənməyimizin əsas səbəbi isə budur ki, həmişə müstəqil yol tutmuşuq, müstəqil xarici siyasət, eləcə də fəal regional siyasət aparırıq. Bizim mövqemiz beynəlxalq hüquqa və ədalət prinsiplərinə əsaslanır. Əgər dünyada bu iki əsas aparıcı tərəqqi və inkişaf elementinə riayət olunsa, nə müharibə, nə işğallar, nə də ədalətsizlik olar. Buna görə də biz BMT Təhlükəsizlik Şurasında beynəlxalq hüquq prinsiplərini, beynəlxalq təşkilatların qətnamələrinə əməl olunmasını, eləcə də ədalət prinsiplərini möhkəm qoruyurduq.

Bizim ölkəmizdə təhsil alarkən əminəm ki, siz də Azərbaycanda tolerantlıq, dözümlülük mühitinin şahidi olmusunuz.

Xalqımız çox qonaqpərvərdir. Azərbaycan çoxmillətli ölkədir. Ölkəmiz sovet dövründə də belə olub, indi də belədir. Heç vaxt milli və dini zəmində anlaşılmazlıq, qarşıdurma və münaqişələr baş verməyib. Elə o vaxt da, ələlxüsus indi də müstəqil dövlət kimi, Azərbaycanda müxtəlif xalqlara və müxtəlif dinlərə mənsub insanlar sülh və əməkdaşlıq şəraitində yaşayır, bir-birini yaxşı başa düşür, hörmət edir və onların hamısı çoxmillətli Azərbaycanın inkişafı naminə öz töhfələrini verirlər. Buna görə də siz yəqin ki, Azərbaycana Ermənistan tərəfindən məkrli təcavüz olduğunu eşidəndə təəccübləndiniz. Çünki bunun üçün heç bir səbəb yox idi. Bütün başqa xalqların nümayəndələri kimi, ermənilər də Azərbaycanda rahat yaşayır, bütün nemətlərdən istifadə edirdilər. Təəssüf ki, Ermənistanda hakimiyyətə gələn millətçi qüvvələr ölkəmizə qarşı məkrli, rəzil müharibəyə başladılar. Onilliklər ərzində çörəyini yedikləri Azərbaycan xalqına qarşı müstəsna naşükürlük etdilər. Bu müharibə nəticəsində bizim ərazilərimiz işğal altına düşdü, vətəndaşlarımız öz doğma ocaqlarını tərk etməyə məcbur oldular. Azərbaycanlılar doğma yurdlarından, tarixi torpaqlarından qovuldular. İndi bu torpaqlar işğal altındadır. Ərazilərimizin 20 faizi işğal olunub. Beynəlxalq təşkilatların qərar və qətnamələrinə baxmayaraq, bu işğal davam edir. Buna görə də mən deyəndə ki, beynəlxalq təşkilatların qərarları kimliyindən asılı olmayaraq, hamı tərəfindən yerinə yetirilməlidir, məhz beynəlxalq hüquqa riayət olunmasını nəzərdə tuturam. Bəs əslində necə olur? Bəzi hallarda Təhlükəsizlik Şurasının qərarları bir gün ərzində yerinə yetirilir. Bizə gəldikdə isə artıq 22 ildir ki, yerinə yetirilmir.

BMT Təhlükəsizlik Şurası dünya birliyinin ali orqanıdır. O, erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib, lakin onlar yerinə yetirilmir. Ermənistana qarşı da heç bir sanksiyalar, beynəlxalq qınaq irəli sürülmür. Münaqişənin indiyədək nizama salınmamasının səbəbi də elə budur. Digər beynəlxalq təşkilatlar da bu münaqişə ilə əlaqədar beynəlxalq hüquqa əsaslanan öz prinsipial mövqelərini bildiriblər, lakin görünür,

bu, kifayət deyildir. Amma Azərbaycan öz iqtisadi, hərbi, siyasi potensialını gücləndirəcəkdir.

Biz, əlbəttə, öz əzəli torpaqlarımıza – Qarabağa, Şuşaya, Xankəndiyə qayıdacağıq, əvvəlki kimi orada yaşayacağıq, nə dağıdılıbsa bərpa edəcəyik və ölkəmizin layiqli gələcəyini təmin edəcəyik. Deməliyəm ki, bu münaqişə ölkəmizin iqtisadiyyatına güclü ziyan vurub. Buna baxmayaraq, müstəqil siyasi xətt aparmaqla və yalnız öz təbii ehtiyatlarımıza güvənərək biz iqtisadiyyatımızı qısa müddət ərzində – son 10 ildə artım sürətinə görə birinci etmişik. Əsas səbəb milli ideya, yəni məhz müstəqillik ideyası ətrafında cəmiyyətin birliyi oldu. Eləcə də hökumətin əhalinin sosial səviyyəsinin yaxşılaşdırılması üzrə məqsədyönlü siyasəti mühüm rol oynadı.

Son 10 ildə əmək haqları 5 dəfə, pensiyalar, demək olar ki, 10 dəfə artıb. Xeyli sosial proqramlar həyata keçirilib. Əlbəttə ki, iqtisadi islahatlar da mühüm rol oynayıb, biz bunsuz indiki inkişaf səviyyəsinə çata bilməzdik. Xarici investisiyaların fəal cəlb olunması, Azərbaycan şirkətlərinin dövlət səviyyəsində dəstəklənməsi, fəal beynəlxalq əməkdaşlıq və iqtisadi mühitin, biznes mühitinin yaxşılaşdırılmasına yönəldilmiş islahatlar öz bəhrəsini verdi. Azərbaycanın inkişaf tarixinə nəzər yetirdikdə bir daha əmin olursan ki, milli maraqlar hər şeydən üstün tutulanda, ölkələr uğur və tərəqqiyə nail ola bilər. Sizin ölkəniz bunun bariz nümunəsidir. Siz də təcavüz və işğaldan keçmisiniz. 10 minlərlə insanın iztirabını görmüsünüz. Böyük itkilər vermisiniz. Buna baxmayaraq, siz dirçəldiniz və güclü dövlətə çevrildiniz. Siz öz taleyinizin sahibisiniz. Buna görə də milli maraqlara, eləcə də əməkdaşlığa və dünyaya açıqlığa əsaslanan xarici siyasət kursu aparan Vyetnam və Azərbaycan kimi ölkələrin nümunəsi, fikrimcə, çox yaxşı göstəricidir. Tərəqqiyə can atan hər bir ölkə üçün bu, yaxşı nümunədir.

Azərbaycanda təhsil sahəsində bir çox məsələlər həll olunur. Təbii ki, bu bizim üçün önəmlidir. Məktəblərin, ali təhsil müəssisələri binalarının inşası çox sürətli templərlə aparılır. Əlbəttə, biz təhsilin keyfiyyətinin yüksəldilməsi sahəsində xeyli

iş görürük və bu proses hökumətimizin diqqət mərkəzində durur. Bizim ölkəmiz son illər ərzində regional miqyasda böyük uğurlar qazanıb.

Bu gün biz Prezidentlə neft-qaz sahəsində əməkdaşlıq məsələsini müzakirə etdik. Deməliyəm ki, Azərbaycanda həyata keçirdiyimiz layihələr regionun enerji xəritəsini tamamilə dəyişib. Biz ilk dəfə olaraq neft-qaz kəmərləri şəbəkələri vasitəsilə Xəzər regionunu Qara dəniz və Aralıq dənizi regionu ilə birləşdirmişik. Bu da həm bizə, həm də qonşularımıza neft-qaz ehtiyatlarından daha səmərəli istifadə etməyə imkan verir. Gələcəkdə biz daha böyük layihələr həyata keçirəcəyik. Bu layihələr dünya miqyasında ən iri layihələrdir. Bütün bunlara da onun sayəsində nail olmuşuq ki, həm ölkə daxilində, həm də xaricdə bizim inkişafımıza böyük inam vardır. Biz öz siyasətimizi milli inkişaf və müstəqilliyimizi möhkəmləndirmək əsasında aparırıq. Siz bizim ölkəmizdə təhsil aldığınız müddətdə Azərbaycan müstəqil ölkə deyildi. Hətta o dövrdə də siz bizim cəmiyyətdə açıqlığı, inkişafı görürdünüz. Müstəqillik illərində Azərbaycan cəmiyyətində müsbət meyillər güclənib. Biz öz taleyimizin sahibi olmuşuq, üstün cəhətləri və gələcəyimizi özümüz təyin edirik. Dünyada da bundan böyük xoşbəxtlik ola bilməz.

Eyni zamanda, bizim mövqemiz həm regional, həm də daha böyükmiqyaslı əməkdaşlığa əsaslanır. Sizin regionla əməkdaşlıq da bizim üçün mühüm istiqamətlərdən biridir. Vyetnamla isə ən mühüm istiqamətdir. Azərbaycanın ilk səfirliyi sizin regionda məhz Vyetnamda açılıb. Bu səfirlik 1 ildir ki, fəaliyyət göstərir. Bu bizim hörmətimizin əlamətidir. Eyni zamanda, sizin Azərbaycana marağınızı əks etdirir. Mən əminəm ki, Azərbaycan Vyetnam üçün regionda mühüm strateji tərəfdaş olacaqdır.

Bugünkü səfər, əlbəttə ki, tarixdə qalacaqdır. Çünki bu, Azərbaycan Prezidentinin Vyetnama ilk dövlət səfəridir. Əminəm ki, bu səfəri başqa səfərlər də əvəz edəcək. Mən bu gün Vyetnam Sosialist Respublikasının Prezidentini Azərbaycana rəsmi səfərə

dəvət etdim və bu dəvət qəbul olundu. Biz öz münasibətlərimizi daha da gücləndirəcəyik. Siyasi əlaqələrimizi möhkəmləndirəcəyik, bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik. İqtisadiyyatlarımıza fəal sərmayələr qoyacağıq. Mədəni-humanitar əlaqələrimizi inkişaf etdirəcəyik. Başqa sözlə, ölkələrimiz arasında tammiqyaslı əməkdaşlıq artıq gerçəkliyə çevrilir. Əlbəttə ki, bu əməkdaşlıqda Azərbaycanı tanıyan, Azərbaycanı xatırlayan insanlara da xeyli yer vardır. Buna görə də siz bizim münasibətlərimizin inkişafında hərəkətverici qüvvəyə çevrilməlisiniz.

Mən bu gün sizinlə görüşməyimə çox şadam. 2 mindən çox vyetnamlı vaxtilə Azərbaycanın ali təhsil müəssisələrində hazırlıq keçib və təhsil alıb. Əlbəttə ki, sizin hamınızı Bakıda görmək istərdim. Fürsətdən istifadə edərək, sizi ölkəmizə dəvət edirəm. Düşünürəm ki, biz bunu mütləq həyata keçirməliyik. Bakıda Vyetnam–Azərbaycan dostluğu forumu keçirmək olar. Bu forum çərçivəsində də Azərbaycanın ali məktəblərinin vyetnamlı məzunları forumunu təşkil etmək mümkündür. Elə indi burada Azərbaycanın Təhsil nazirinə və Vyetnamdakı səfirimizə tapşırıq vermək istəyirəm ki, Vyetnam tərəfi ilə birgə həmin forumun hazırlıq işlərinə başlasınlar və ümid edək ki, tezliklə bu forumu keçirək və Bakıda görüşək. Diqqətinizə görə sağ olun.

* * *

*Dövlətimizin başçısı İlham Əliyevi və nümayəndə heyətini Azərbaycanda təhsil alan vyetnamlılar adından salamlayan Vyetnam Sosialist Respublikasının Milli Yığıncağının Sədr müavini Uonq Tyu Lıu 1959-cu ildə Vyetnamın o zamankı prezidenti Ho Şi Minin Azərbaycana səfərini xatırlatdı, bu səfərin Vyetnam ilə Azərbaycan arasında dostluq əlaqələrinin inkişafına təkan verdiyini dedi.*

*Vyetnam ilə Azərbaycan arasında Sovet İttifaqının süqutundan sonra qurulan diplomatik münasibətlərin ölkələrimizin ənənəvi dostluğu və əməkdaşlığı üçün yaxşı əsaslar yaratdığını*

*qeyd edən Vyetnam Milli Yığıncağının Sədr müavini bildirdi ki, prezident İlham Əliyevin bu səfəri Azərbaycan–Vyetnam əlaqələrini daha da genişləndirəcək, bir sıra sahələrdə, o cümlədən neft-qaz sferasında kəşfiyyat və hasilatın aparılmasında əməkdaşlığı möhkəmləndirəcəkdir. Uonq Tyu Lıu vurğuladı ki, Azərbaycanda təhsil alan vyetnamlı tələbələr müəllimlərin onların yüksəkixtisaslı kadrlar kimi yetişməsindəki rolunu və xidmətini daim xatırlayır. «Ötən il Azərbaycana səfər edən, əksəriyyətinin Bakıda təhsil alan vyetnamlı olduğu Vyetnamın Milli Yığıncağının nümayəndə heyətinə rəhbərlik etməkdən şərəf hissi duyuram» – deyən Milli Yığıncağın Sədr müavini bu səfərin nəticəsi olaraq parlamentlərarası dostluq qruplarının yaradıldığını bildirdi.*

**U o n q T y u L ı u:** Biz fəxr edirik ki, köhnə universitetimizi və Bakını ziyarət edə bildik. Biz tarixi şəhər olan Bakının necə müasir və dinamik olduğunu gördük. Biz Azərbaycan xalqının müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı uğurlara çox sevinirik. Xüsusilə qeyd etmək istərdim ki, bu gün də vyetnamlı tələbələr Azərbaycanda təhsillərini davam etdirir, orada yaşayır və işləyirlər. Bizim vətəndaşlar Azərbaycan dövləti və xalqı tərəfindən qayğı ilə əhatə olunurlar, onlara kömək göstərilir. Bunun nəticəsində isə onlar təhsil almaq və uzunmüddətli sabit çalışmaq üçün yaxşı şərait əldə edirlər.

*Bütün bunlara və ümumilikdə, Azərbaycan dövləti və xalqı tərəfindən Vyetnama göstərilən dəstəyə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirən Milli Yığıncağın Sədr müavini Uonq Tyu Lıu Azərbaycan Respublikasına gələcəkdə də inkişaf və tərəqqi arzuladı.*

*Prezident İlham Əliyevin Vyetnama dövlət səfəri ilə bağlı Azərbaycanın ali təhsil ocaqlarının məzunları olan vyetnamlıların əlaqələndirmə komissiyasının xətti ilə Azərbaycan–Vyetnam dostluq cəmiyyətini yaratmaq istədiklərini vurğulayan Vyetnamın Birlik və Dostluq Təşkilatının sədri Vu Xuan Honq*

*sözü həmin komissiyanın sədri, elmlər doktoru Nev Bu Xauya verdi.*

**N e v  B u  X a u:** Möhtərəm cənab Prezident, dostlar, icazə verin, Azərbaycan ali məktəblərinin vyetnamlı məzunları adından sizə möhkəm cansağlığı, xoşbəxtlik və prezidentlik vəzifənizdə uğurlar arzulayım. Qoy Azərbaycan ilə Vyetnam arasında dostluq münasibətləri inkişaf edib möhkəmlənsin. Azərbaycan həmişə bizim qəlbimizdədir.

*Azərbaycanın Vyetnam üçün neft və qaz sənayesi işçiləri ordusu hazırladığını, həmin mütəxəssislərin böyük bir qisminin bu görüşdə iştirak etdiyini deyən tədbirin aparıcısı Vu Xuan Honq sözü Azərbaycan Neft-Kimya İnstitutunun məzunu, «Veso Petrol» birgə müəssisəsinin İdarə Heyətinin sədri Tıl Tenyaya verdi.*

**T ı l  T e n y a:** Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev!

Hörmətli azərbaycanlı qonaqlar, əziz vyetnamlı dostlar! Əvvəlcə Sizi «Veso Petrol» birgə müəssisəsinin beynəlmiləl kollektivi adından Vyetnam Sosialist Respublikasına gəlişiniz münasibətilə salamlayıram, sizə möhkəm cansağlığı, xoşbəxtlik və böyük uğurlar arzulayıram. Demək olar ki, «Veso Petrol» birgə müəssisəsi neft-qaz sahəsindəki nailiyyətlərinin başlanğıcını 1959-cu ildə Bakıya rəsmi səfər etmiş prezident Ho Şi Minin strateji düşüncələrindən götürür.

*Tıl Tenya xatırlatdı ki, 1959-cu ildə Vyetnamın o zamankı prezidenti Ho Şi Min Azərbaycana səfəri zamanı Vyetnamda da zəngin neft yataqlarının olduğunu, lakin müharibə şəraiti hökm sürdüyündən hasilatın mümkünsüzlüyünü vurğulamış və müharibə bitdikdən sonra ölkəsində neft-qaz sənayesinin inkişaf etdirilməsinə Azərbaycanın töhfələrini əsirgəməyəcəyinə inandığını ifadə etmişdi. Tıl Tenya 1981-ci ildə «Veso Petrol» birgə müəssisəsinin Sovet İttifaqının köməyi ilə yaradıldığını vurğuladı, bu işdə sovet, o cümlədən Azərbaycan neftçilərinin də yaxından iştirak etdiklərini bildirərək dedi:*

– Təsadüfi deyil ki, «Veso Petrol» birgə müəssisəsinin ilk baş direktoru Məmmədov Cəlal Heydəroviç olub. Onun rəhbərliyi altında sovet neftçiləri vyetnamlı neftçilərlə birgə çiyin-çiyinə çalışaraq «Veso Petrol» müəssisəsini yaratmağa başladılar. Bu gün mən bu zalda vaxtilə «Veso Petrol» müəssisəsində çalışmış bəzi şəxsləri görürəm – Məhəmmədov Tofiq Quliyeviç, Rəfiyev Namiq və başqaları. Hansı ki, onlar mənim dostum və müəllimim olublar. Eyni zamanda, Azərbaycan neftçilərinin bizə göstərdikləri köməyi heç vaxt unutmuruq. Bilirsiniz ki, bizim baş ofisimiz yerləşən Hun Tau şəhərinin ən böyük küçəsi Bakının adını daşıyır.

*Vyetnamın Birlik və Dostluq Təşkilatının sədri Vu Xuan Honq sözü bir daha prezident İlham Əliyevə verdi.*

**İ l h a m  Ə l i y e v:** Mən ilk növbədə, ölkəmiz və xalqımız haqqında səmimi-qəlbdən çıxış edənlərə, öz fikirlərini söyləyənlərə, bu görüşə gələnlərə, yaddaşında o dövrü əziz xatirə kimi saxlayanlara minnətdarlığımı bildirmək istərdim. Həmçinin bu gün burada olmayanlara, ölkəmizdə yaşayan və təhsil alan və əminəm ki, bu gün bizimlə birgə olmağı arzulayan yüzlərlə, minlərlə vyetnamlıya minnətdarlığımı bildirmək istəyirəm. Düşünürəm ki, Bakıda forumun keçirilməsi bu gün burada olmayanlara da bizim birgə tədbirlərimizdə iştirakına imkan yaradacaqdır. Bu gün çox vacib və təsiredici gündür. Ona görə vacibdir ki, bu mənim sizin ölkənizə ilk səfərimdir. Bu səfər əməkdaşlıq üçün böyük perspektivlər açır.

Biz bu gün sizinlə və Prezidentlə neft-qaz sahəsində əməkdaşlıq, birgə əməliyyatlar, qarşılıqlı investisiyalar, iqtisadi perspektivlərlə bağlı razılığın əldə ediləcəyinə əmin olduğum bugünkü biznes-forum barədə müzakirələr apardıq. Eyni zamanda, bu gün çox təsiredici bir gündür, çünki bu, köhnə dostların görüşüdür, bu zalın ab-havasında dostluq, sevgi, xatirələr hiss olunur. Münasibətlərimizin tarixində elə bir gündür ki, hisslər siyasi və iqtisadi maraqlarla qarışır. Düşünürəm ki, bu elə bizim münasibətləri təcəssüm etdirir. Bu münasibətlər qarşılıqlı rəğbətə, dostluğa, qarşılıqlı anlaşmaya

əsaslanır. Eyni zamanda, bu münasibətlər ölkələrimizin və xalqlarımızın maraqlarına cavab verir.

Həmçinin onu da demək istəyirəm ki, yalnız vyetnamlılar Azərbaycanda deyil, azərbaycanlılar da Vyetnamda yaşayıb, işləyiblər və bu gün mənim nümayəndə heyətimin tərkibində Vyetnamda işləyən və həyatları bu ölkə ilə bağlı olan Azərbaycanın neft-qaz sahəsinin təmsilçiləri də vardır. Yəni bu proses qarşılıqlı olub. Yəqin məhz bu səbəblərdən bənzərsiz dostluq və qarşılıqlı anlaşma mühiti yaranıb. Həmçinin bugünkü belə səmimi ab-havanı nəzərə alaraq, protokolun, müəyyən olunmuş çıxışların çərçivəsindən kənara çıxaraq, həm Vyetnamla bağlı olan, həm də Azərbaycanın neft-qaz sahəsinin inkişafı üçün töhfələr verən şəxsə söz vermək istərdim. Bu, nəzərdə tutulmamışdı. İndi qərara aldım ki, bu, bir çox səbəblərə görə düzgün olacaqdır. Məhz ona görə ki, biz onunla 9 il ərzində bir-birimizdən 2 metrlik məsafədə oturub işləmişik. Mən təhsilcə neftçi deyiləm, amma taleyim elə gətirib ki, 9 il mən Azərbaycanın neft şirkətində işləmişəm və mənimlə Xoşbəxt Yusifzadənin kabinetinin eyni qəbul otağı olub. Biz hər gün bir-birimizlə ən azı 2 dəfə görüşürdük. Mən artıq 11 ildir ki, neft şirkətində işləmirəm, o isə hələ orada çalışır. Onun bilikləri və zəngin təcrübəsindən xüsusi danışmaq olar, yəqin ki, buna bir gün vaxt sərf etmək lazım gələrdi. Çünki o, qazma üçün yerin müəyyənləşdirilməsində, dünyanın aparıcı neft şirkətləri ilə mübahisələrdə səhv etmir. Onların avadanlığı, 3D seysmik qurğuları, müxtəlif yeni texnologiyaları vardır. Onun gücü isə təbii istedadı və Xəzərin havası ilə bağlıdır. O həmişə haqlı olur və tarix bunu dəfələrlə təsdiqləyib. Mən 1994-cü ildə neft şirkətinə gələndə Xoşbəxt müəllimdən çox şey öyrənmişəm. Mən əvvəllər bilmədiyim bir çox məsələləri öyrəndim. Həm peşəkarlıq, həm də həyati təcrübə baxımından Xoşbəxt Yusifzadə ilə ünsiyyət mənim üçün çox qiymətli, faydalı olub.

Mən münasibətlərimizi çox yüksək dəyərləndirirəm. Biz hazırda eyni binada fəaliyyət göstərmirik, amma kabinetlərimiz arasında məsafə təqribən 100–150 metr məsafə təşkil edir. Bu

baxımdan biz yenə də yaxınlıqda fəaliyyət göstəririk. Yeri gəlmişkən, o, xidmətlərinə görə Vyetnam Sosialist Respublikasının yüksək ordeni ilə təltif olunub. Mən istərdim ki, yekun sözü Xoşbəxt Yusifzadə desin, çünki bizim xalqları daha bir vacib xüsusiyyət – böyüklərə, ağsaqqallara hörmət birləşdirir. Ağsaqqallara hörmət əlaməti olaraq istərdim ki, Xoşbəxt Yusifzadə bugünkü görüşümüzə yekun vursun.

**X o ş b ə x t Y u s i f z a d ə** *(Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik):* Bilmirəm nədən başlayım. Bu xoş sözlərə görə təşəkkür edirəm, cənab Prezident. Kadrların hazırlanmasına görə «Dostluq» ordeni ilə məni təltif edən Vyetnam Prezidentinə minnətdarlığımı bildirirəm. Bu, xüsusi münasibətdir. İş ondadır ki, biz indi neçə nəfərin Azərbaycan Sənaye İnstitutunu bitirdiyindən danışırıq. Onların hazırlanmasında mənim də zəhmətim vardır. Bu gün buraya gətirdiyim sənəddən də görünür ki, mən 69 vyetnamlı mütəxəssis hazırlamışam. Bu sənədlərdə onların hansı qiymətlər aldıqları da əksini tapıb. Son zamanlar yataqların yeri barədə danışıqlarla bağlı mənim yanıma gələnlərə deyirəm: gözləyin, burada mənim qeyd dəftərim var, baxım görüm soyadınız, adınız nədir, sizə hansı qiyməti vermişəm. Əgər beşdirsə, danışıqlar aparmaq olar. Mən bu gün onları burada görəndə fəxr etdim ki, Vyetnam üçün nə isə etmişəm.

Mən neft müqavilələri haqqında danışmıram, amma kadrların hazırlanması başqa məsələdir. Sənəddəki qiymətlərə baxanda görürük ki, hamısı əla oxuyub, çox yaxşı. Mən düşünürəm ki, məhz buna görə onlar nazir, nazir müavini olublar. Əla oxumaq o mənanı verir ki, insan çalışmağı bacarır, insan özünü səylə işləməyə məcbur edə bilir. Əgər o, təhsildə səylə çalışırsa, deməli, öz işində də o cür olacaqdır. Təsadüfi deyil ki, əla qiymət alanlar Vyetnamda və ölkənin neft sənayesində yüksək vəzifələrdə qərarlaşıblar.

Onu da demək istəyirəm ki, Vyetnamda neft sənayesinin inkişaf tarixi mənim gözlərimin önündən kinolent kimi keçir.

Ötən əsrin 80-ci illərində Sovetlər İttifaqı Vyetnamda işləri təşkil etməyə başlayanda – nəzərə alın, dənizdə neft işlərini Azərbaycandan yaxşı bilən yox idi – demək olar ki, Vyetnamdakı mütəxəssis kontingentinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Burada adlar çəkildi, hətta baş direktor da Azərbaycandan idi – Məmmədov Cəlal Heydər oğlu. Demək istəyirəm ki, indiyə qədər necə işlədiklərini onlar da xatırlayırlar. Münasibət çox gözəl idi, dostcasına. Bizim həmişə Vyetnama münasibətimiz gözəl olub. Mən bunu ona görə demirəm ki, Vyetnamdayam. Prezidentin də dediyi kimi, mən hər şeyin düzünü deyən adamam.

Bizim vyetnamlılarla sıx dostluq münasibətlərimiz vardır. Danışıqlar aparırıq. Onu da demək istəyirəm ki, əgər Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə danışıqlardan söhbət açsaq, bizim elə bir böyük layihələrimiz yoxdur. Amma biz danışıqları davam etdiririk. Burada əyləşən mütəxəssislər Muradxanlı yatağı barədə məlumatlıdırlar. Bu çox mürəkkəb yataqdır. Vyetnam mütəxəssisləri bizimlə birgə orada işləmək istəyirlər. Vyetnam bizə dost olduğundan mən bu yatağın mürəkkəbliyini onlara bir daha xatırlatdım. Məlumatlandırdım ki, bu elə də asan iş deyil, öhdəsindən gələ biləcəksiniz, ya yox? Onlar Mezazoy qatında çox işlədiklərinə görə bunun öhdəsindən gələ biləcəklərinə əmin idilər. Amma məncə bu heç də belə deyildir. İqtisadi baxımdan bu, əlverişli deyildir. Amma danışıqlar hələ davam edir. Düşünürəm ki, gələcəkdə Muradxanlıda deyil, hansısa digər yataqlarda vyetnamlı mütəxəssislərlə birgə çalışa bilərik.

Nə deyə bilərəm?! İlk növbədə, Azərbaycan Prezidentinə məni nümayəndə heyətinin tərkibinə daxil etdiyi üçün minnətdarlığımı bildirirəm. Bu məni çox təsirləndirdi ki, dostlarımla bir daha görüşüb, söhbət edəcəyəm. Vyetnam Prezidentinə məni «Dostluq» ordeni ilə təltif etdiyi üçün minnətdaram. Düşünürəm ki, «Dostluq» ordeni yalnız Xoşbəxt Yusifzadənin deyil, Azərbaycan neftçiləri və alimlərinin xidmətinə verilən mükafatdır. Fikrimcə, cənab İlham Əliyevin

Vyetnama budəfəki səfəri də dostluq xarakteri daşıyır. Bu səfər, keçirilən görüşlər Azərbaycan–Vyetnam dostluğunun gələcəyinə dəlalət edir. Hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Siz neft-qaz sənayesində sıfırdan başlayaraq hazırkı səviyyəyə qədər gəlib çatmısınız. Böyük miqdarda neft, qaz hasil edirsiniz. Düşünürəm ki, gələcəkdə bu həcm daha da artacaqdır. Sağ olun, xoşbəxt olun, öz xalqınızın rifahı naminə çalışmaqda davam edin.

* * *

*Sonda məzunlardan bir qrupu Azərbaycan dilində «Tələbə» mahnısını ifa etdilər.*

*Azərbaycan dövlətinin başçısına xatirə hədiyyəsi təqdim edildi.*

**İ l h a m  Ə l i y e v:** Bugünkü görüşə görə sizə təşəkkür edirəm, dostlar. Sizə minnətdarlığımı çatdırıram. Qardaş Vyetnam xalqına tərəqqi, firavan həyat, sülh arzulamaq istəyirəm. Yaşasın Vyetnam–Azərbaycan dostluğu!

## VYETNAM MİLLİ ASSAMBLEYASININ SƏDRİ NQUYEN SİNH HANQ İLƏ GÖRÜŞ

*Hanoy*

*19 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Hanoyda Vyetnam Sosialist Respublikasının Milli Assambleyasının Sədri Nquyen Sinh Hanq ilə görüşmüşdür.*

Görüşdə Milli Assambleyanın Sədri Nquyen Sinh Hanq Azərbaycan prezidenti İlham Əliyevin Vyetnama dövlət səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının böyük uğurlara nail olduğunu deyən Nquyen Sinh Hanq bu münasibətlə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin vaxtilə Azərbaycana, ulu öndər Heydər Əliyevin Sovet İttifaqının rəhbərlərindən biri olduğu dövrdə Vyetnama etdiyi tarixi səfərləri xatırlatdı. Münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev vaxtilə Azərbaycanda təhsil almış Vyetnam vətəndaşlarının ölkələrimiz arasında münasibətlərin inkişafında xüsusi rol oynadığını qeyd etdi. Azərbaycan parlamentində Vyetnam ilə dostluq qrupunun fəaliyyət göstərdiyini, Vyetnamda Azərbaycan səfirliyinin açıldığını deyən prezident İlham Əliyev bütün bunların ikitərəfli əməkdaşlığın genişlənməsinə imkan yaratdığını bildirdi.

Görüşdə ölkələrimiz arasında möhkəm dostluq əlaqələrinin münasibətlərimizin bundan sonra da inkişafına töhfə verəcəyinə əminlik ifadə olundu.

## VYETNAM KOMMUNİST PARTİYASININ BAŞ KATİBİ NQUYEN PHU TRONQ İLƏ GÖRÜŞ

*Hanoy*

*19 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Hanoyda Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Baş katibi Nquyen Phu Tronq ilə görüşmüşdür.*

*Görüşdə Vyetnam Kommunist Partiyasının Baş katibi Nquyen Phu Tronq ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini, prezident İlham Əliyevin Vyetnama dövlət səfərinin münasibətlərimizin genişlənməsində yeni səhifə açacağını vurğuladı. Sovetlər dönəmində Azərbaycan xalqının Vyetnamın müstəqilliyinin qorunmasına töhfə verdiyini deyən Nquyen Phu Tronq kadr hazırlığı istiqamətində həyata keçirilən işlərdən danışdı, Azərbaycanda hazırlanan kadrların Vyetnamda neft-qaz sektorunun inkişafına yardım etdiyini bildirdi. Baş katib Azərbaycanda sabitliyin və inkişafın təmin olunması, əhalinin rifah halının yaxşılaşdırılması ilə bağlı görülən işləri yüksək qiymətləndirdi və bunun ölkəmizin inkişafı baxımından önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycan–Vyetnam əlaqələrinin böyük tarixi olduğunu deyərək münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı əlaqələrimizin bundan sonra da inkişafı üçün böyük potensialın olduğunu qeyd etdi. Azərbaycan Prezidenti partiyalararası əməkdaşlıq məsələlərinə toxunaraq Yeni Azərbaycan Partiyası*

*ilə Vyetnam Sosialist Respublikası Kommunist Partiyası arasında əməkdaşlığın genişlənəcəyinə əminliyini vurğuladı.*

*Görüşdə dövlətimizin başçısı torpaqlarımızın işğalı ilə müşayiət* olunan *Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat* verdi.

*Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı* maraq *doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## VYETNAM SOSİALİST RESPUBLİKASININ BAŞ NAZİRİ NQUYEN TAN DANQ İLƏ GÖRÜŞ

*Hanoy*

*19 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Vyetnam Sosialist Respublikasının Baş naziri Nquyen Tan Danq ilə görüşmüşdür.*

*Görüşdə Baş nazir Nquyen Tan Danq bu səfərin ikitərəfli əlaqələrimizin yeni inkişaf səviyyəsinə çatmasında böyük əhəmiyyət daşıdığını bildirdi. Səfər çərçivəsində səmərəli görüşlərin keçirildiyini deyən Nquyen Tan Danq prezident İlham Əliyevin başçılığı ilə Azərbaycanın qazandığı nailiyyətlərdən məmnunluğunu ifadə etdi. Azərbaycan ilə Vyetnam arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişaf etdiyini deyən Baş nazir ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq qurduqlarını vurğuladı. Nquyen Tan Danq iqtisadi əlaqələrimizin daha da inkişaf etdirilməsi, xüsusilə də investisiyaların qoyulması üçün yaxşı potensialın olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Vyetnam arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurlu inkişafından məmnunluğunu ifadə etdi, iqtisadi əlaqələrin genişlənməsi, ticarət dövriyyəsinin artırılması üçün konkret addımların atılmasının vacibliyini bildirdi. Bununla bağlı ölkələrimiz arasında iqtisadi əlaqələrin strukturu və formalarının genişləndirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən energetika, investisiyaların qoyulması, elm, təhsil, turizm və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğunu vurğulayaraq*

*bu sahələrdə əlaqələrin genişlənəcəyinə, dövlət səfərinin bu prosesə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ DÖVLƏT ZİYAFƏTİNDƏ İŞTİRAK

*Hanoy*

*19 may 2014-cü il*

*Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Sanq və xanımı Mai Thi Hanh tərəfindən mayın 19-da Hanoyda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilmişdir.*

*Mərasim Azərbaycanın və Vyetnamın dövlət himnlərinin səsləndirilməsi ilə başlandı.*

*Sonra Vyetnam prezidenti Truonq Tan Sanq və Azərbaycan prezidenti İlham Əliyev çıxış etdilər.*

### Vyetnam prezidenti Truonq Tan Sanqın çıxışı

Hörmətli cənab prezident İlham Əliyev!

Hörmətli birinci xanım Mehriban Əliyeva!

Hörmətli qonaqlar və dostlar!

Vyetnama dövlət səfərinə gələn cənab Prezidenti və Azərbaycandan olan fəxri qonaqları Vyetnam dövləti və xalqı adından bir daha ürəkdən salamlayır, Azərbaycan xalqına ən səmimi və mehriban hisslərimi, Vyetnam ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin inkişafı perspektivlərinə inamımı bildirirəm.

Hörmətli cənab Prezident, biz, Vyetnam xalqı Azərbaycanı həmişə zəngin və qədim mədəniyyəti, qonaqpərvər və dost xalqı olan gözəl bir ölkə kimi tanımışıq.

Vyetnam ilə Azərbaycan coğrafi baxımdan bir-birindən uzaqda yerləşsələr də, bizi dostluq, qardaşlıq münasibətləri

birləşdirir. Vyetnam xalqı müstəqillik uğrunda mübarizənin və yeni dövlət quruculuğunun çətin illərində Azərbaycan xalqının göstərdiyi böyük və qiymətli köməyi heç vaxt unutmayacaq. Bizim sabiq prezident Ho Şi Min 1959-cu ildə Bakının neft sənayesi zonasına səfərdən sonra demişdi: «Vyetnam bu müqavimət müharibəsində qalib gələndən sonra bütün SSRİ, o cümlədən Azərbaycan neft və qaz hasilatı və emalında, Bakıdakı kimi güclü neft sənayesi zonaları yaradılmasında Vyetnama kömək etməlidir». Azərbaycanın sabiq prezidenti Heydər Əliyev hələ 1983-cü ildə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi, Vyetnama səfər etmiş, müharibədən sonra ölkənin bərpasında və quruculuq işlərində Vyetnam xalqını dəstəkləmişdi.

Biz fəxr edirik ki, çoxsaylı yüksəliş və enişlərdən, tarixi hadisələrdən sonra ölkələrimiz arasında yaxşı münasibətlər qorunub saxlanmışdır. Bu münasibətlər möhkəmləndirilir və inkişaf etdirilir. Vyetnam ölkələrimizin xalqları arasında dostluq münasibətlərinə həmişə hörmətlə yanaşır, onları qoruyub saxlayır və sonrakı nəsillərə ötürür. Bu gün bizdə Vyetnam ilə Azərbaycan arasında çoxtərəfli, qarşılıqlı faydalı əməkdaşlığın daha da möhkəmlənməsi üçün hər cür əlverişli şərait vardır. Cənab Prezidentin və Azərbaycanın yüksək vəzifəli nümayəndə heyətinin Vyetnama bugünkü səfəri buna sübutdur.

Hörmətli cənab Prezident, mən bizim bugünkü danışıqlarımızın nəticələrini və Azərbaycan Prezidentinin Vyetnamın yüksək vəzifəli rəhbərləri ilə görüşlərinin nəticələrini yüksək qiymətləndirirəm. Biz ikitərəfli münasibətlərə və qarşılıqlı maraq doğuran mühüm beynəlxalq məsələlərə dair əməkdaşlıq və qarşılıqlı anlaşma ruhunda fikir mübadiləsi apardıq, yaxın gələcəkdə ölkələrimiz arasında bütün sahələrdə, xüsusən ticari-iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətləri və bununla əlaqədar tədbirlər haqqında yekdil qərar qəbul etdik. Səfər çərçivəsində əldə edilmiş nəticələr bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə güclü təkan verəcək, Vyetnam ilə Azərbaycan arasında münasibətlərin inkişafını yeni

səviyyəyə çatdıracaqdır. Hesab edirəm ki, iki ölkənin rəhbərlərinin və xalqlarının yaxın, ənənəvi dostluq münasibətləri, əzmkarlığı və qətiyyəti yeni dövrdə ölkələrimizin xalqlarının mənafeləri və firavanlığı naminə, regionda və dünyada sülh və sabitlik naminə sıx əməkdaşlığın davam etdirilməsi və inkişafı üçün möhkəm zəmindir.

Cənab Prezident, Vyetnam ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi şərəfinə! Vyetnam və Azərbaycan xalqlarının əmin-amanlığı, firavanlığı şərəfinə! Cənab Prezidentin və xanımının şərəfinə! Bu gün burada iştirak edən bütün azərbaycanlıların və vyetnamlıların şərəfinə!

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanım Mai Thi Hanh!

Əziz dostlar!

Cənab Prezident, ilk növbədə, mənə və nümayəndə heyətimizin üzvlərinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Fürsətdən istifadə edərək, Sizi, cənab Prezident, Sizin üçün münasib olan vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Bildiyiniz kimi, mənim səfərim iki ölkə arasındakı münasibətlərdə ilk dövlət səfəridir. Səfər artıq başa çatır. Deyə bilərəm ki, səfərin nəticələri çox uğurlu olmuşdur. Biz bu gün iki ölkə arasındakı əlaqələrin bütün aspektlərini geniş müzakirə etdik. Görülən işlərə qiymət verildi və görüləcək işlər haqqında konkret istiqamətlər müəyyən edildi.

Siz, cənab Prezident, qeyd etdiyiniz kimi, bizim əlaqələrimizin təməlini Vyetnam xalqının böyük oğlu, prezident Ho Şi Min 1959-cu ildə qoymuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfəri də bizim yadımızdadır. Çox şadam ki, Vyetnamda da o səfəri xatırlayırlar və o səfərə çox yüksək qiymət verirlər.

Bu gün Azərbaycanda təhsil almış vyetnamlı keçmiş tələbələrlə mənim görüşüm olmuşdur. Bu görüş xüsusi bir dostluq və mehribanlıq atmosferində keçmişdir. Çox gözəl sözlər deyildi, yaxşı xatirələr ifadə edildi. Hətta vyetnamlı dostlarımız Azərbaycan mahnısı da ifa etdilər. Budur bizim ikitərəfli münasibətlərimizin əsas təməl daşı. Bu gün Vyetnam–Azərbaycan ikitərəfli əlaqələri bu möhkəm təməl üzərində qurulur və uğurla inkişaf edir.

Biz bu gün ikitərəfli əlaqələrimizin siyasi, iqtisadi, humanitar aspektlərini geniş müzakirə etdik. Deyə bilərəm ki, bütün mövzularla bağlı bizim fikrimiz birdir. Biz siyasi əlaqələri inkişaf etdirəcəyik, ticarət dövriyyəsini ən azı 2 dəfə artırmaq fikrimiz vardır. Təhsil sahəsində o gözəl ənənələri bərpa etməliyik. Vyetnamlı tələbələr Azərbaycanda, azərbaycanlı tələbələr Vyetnamda təhsil almalıdırlar. Neft-qaz sektorunda, investisiya qoyuluşu, mədəniyyət, turizm sahələrində gələcək əməkdaşlıqla bağlı konkret tapşırıqlar verilmişdir. Əminəm ki, növbəti illərdə Vyetnam–Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə daha da möhkəmlənəcəkdir.

Azərbaycanda Vyetnam xalqına çox böyük rəğbət vardır. Müstəqillik uğrunda mübarizədə azərbaycanlılar vyetnamlılarla həmrəy olmuşlar. Biz bu ənənələri qoruyacağıq, dostluğumuzu daha da möhkəmləndirəcəyik.

* * *

*Mərasimdə Vyetnam incəsənət ustalarının ifasında konsert proqramı təqdim olundu.*

*Dövlət başçıları və xanımları incəsənət ustaları ilə görüşdülər.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasına dövlət səfəri mayın 19-da başa çatmışdır.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Hanoyun Noi Bai Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Vyetnamın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDURABBİH MƏNSUR HADİYƏ**

Hörmətli cənab Prezident!

Yəmən Respublikasının milli bayramı – Yəmən Birliyi Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Yəmən arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yəmən xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 may 2014-cü il*

## ÇİN XALQ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*19 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 4-cü Zirvə toplantısında iştirak etmək üçün mayın 19-da Çin Xalq Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Şanxayın Pudong Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Çinin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ Sİ CİNPİN İLƏ GÖRÜŞ

*Şanxay*

*20 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Şanxayda Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşmüşdür.*

*Dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

**Si Cinpin:** Cənab prezident Əliyev!

Sizi Çində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Zirvə toplantısında səmimi salamlayıram. Yadımdadır, Sizinlə axırıncı dəfə Soçi Olimpiadasının açılışı mərasimində görüşmüşdük. Mən ilk növbədə, Sizi Azərbaycan Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə bir daha təbrik etmək istəyirəm. Çin tərəfi Azərbaycanın yaxşı dostu və etibarlı tərəfdaşı kimi, son illərdə iqtisadiyyatın və cəmiyyətin inkişafında qazandığınız uğurlara ürəkdən sevinir. Əminəm ki, Azərbaycan xalqı cənab Prezidentin rəhbərliyi ilə böyük milli dirçəliş və tərəqqi işində daim yeni uğurlar qazanacaqdır.

Çin və Azərbaycan xalqlarını hələ 2 min il bundan əvvəl böyük İpək yolu birləşdirirdi. Bizim ənənəvi dostluğumuzun çox uzun tarixi vardır. Azərbaycanlılar həmişə deyirlər ki, bərabərlik olmayan yerdə dostluq da yoxdur. Ölkələrimiz 22 il ərzində bərabərlik, qarşılıqlı fayda və hörmət ruhunda dostluğu

və əməkdaşlığı daim inkişaf etdirir. Hazırda bizdə siyasi münasibətlərin çox möhkəm təməli, qarşılıqlı etimadın yüksək səviyyəsi formalaşmışdır, praktiki əməkdaşlığın böyük nəticələri göz qabağındadır. Sizin atanızı ayrıca xatırlatmaq istəyirəm. Çin xalqı ona dərin hörmət bəsləyir. Hörmətli prezident Heydər Əliyev haqqında kitab, habelə «Çin azərbaycanlıların gözü ilə» məcmuəsi artıq hər iki ölkədə çapdan çıxmış və geniş müsbət ictimai rəy doğurmuşdur. Çin Azərbaycan ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verir. Sintszyan və Tibet kimi mühüm məsələlər barədə Sizin qətiyyətli dəstəyinizi təqdir edir və buna görə Sizə təşəkkür edirik. Biz bundan sonra da Azərbaycan xalqının milli xüsusiyyətlərinə müvafiq inkişaf yolunda seçimini dəstəkləyəcəyik. Biz Sizin suverenliyin, müstəqilliyin qorunmasına və iqtisadi inkişafa yönəlmiş səylərinizi dəstəkləyirik. Biz əvvəllər olduğu kimi, yenə azərbaycanlı tərəfdaşlarımızla birlikdə Çin ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın davamlı inkişafını stimullaşdırmağa hazırıq.

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Sədr!

Bizim ölkəmiz haqqında səmimi sözlərinizə, xalqlarımız, dövlətlərimiz arasında münasibətlərə verdiyiniz qiymətə görə sağ olun! Mənə və bizim nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm. Sizin gözəl ölkənizə yenidən səfər etməyimə və Çin Xalq Respublikasının quruculuq və tərəqqi yolu ilə sürətli inkişafının bir daha şahidi olduğuma görə çox şadam.

Mən 9 il bundan əvvəl Şanxayda olmaq imkanı qazanmışdım. Bu şəhər o vaxt da çox güclü təsir bağışlamışdı. Bu gün isə Şanxay buraya gələn hər bir insanı özünün inkişafı, Çin xalqının son illərdə nail olduğu dəyişikliyin möhtəşəmliyi və miqyası ilə valeh edir. Mənim atam, Azərbaycanın böyük oğlu, müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyev haqqında səmimi sözlərinizə görə də çox təşəkkür edirəm. Onun həyat və fəaliyyəti haqqında kitabın Çin dilində nəşr edilməsi böyük ehtiram əlamətidir. Biz

Azərbaycanda bunu çox yüksək qiymətləndiririk və buna görə Sizə çox təşəkkür edirik.

Biz Çin Xalq Respublikası ilə bütün istiqamətlər üzrə əməkdaşlıq siyasətinə sadiqik. Biz bu əməkdaşlığı inkişaf etdirmək, dərinləşdirmək istəyirik və bu istiqamətdə konkret addımlar atmağa hazırıq. Siz beynəlxalq qurumlarda bizim bir-birimizi qarşılıqlı dəstəkləməyimizi qeyd etdiniz. Bir daha vurğulamaq istəyirəm ki, Azərbaycan Sizin ölkənizi Birləşmiş Millətlər Təşkilatında həmişə dəstəkləyib və bundan sonra da dəstəkləyəcəkdir.

* * *

*Görüşdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında energetika, infrastruktur, nəqliyyat, ticarət dövriyyəsinin artırılması, texnologiyalar, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, humanitar, investisiya qoyuluşu və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu.*

*Söhbət zamanı beynəlxalq, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ İŞTİRAK

*Şanxay*

*20 may 2014-cü il*

*Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 4-cü Zirvə toplantısında iştirak etmək üçün Şanxaya gələn dövlət və hökumət başçılarının şərəfinə mayın 20-də axşam ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ziyafətdə iştirak etdilər.*

*Çin Xalq Respublikasının Sədri Si Cinpin və xanımı Pen Liyuan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.*

## ASİYADA QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMAD TƏDBİRLƏRİ ÜZRƏ MÜŞAVİRƏNİN 4-cü ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*Şanxay*

*21 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Şanxayda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 4-cü Zirvə toplantısında iştirak etmişdir.*

*Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, həmçinin digər dövlət və hökumət başçılarını qarşıladı.*

*Sonra Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 4-cü Zirvə toplantısının birinci iclası keçirildi.*

*İclası açıq elan edən Çin Xalq Respublikasının Sədri Si Cinpin nümayəndə heyətlərinin başçılarını salamladı. O, dünyada təhlükəsizliyin təmin olunmasının önəminə diqqət çəkərək, bunun dialoq və çoxtərəfli əməkdaşlıq sayəsində mümkün olduğunu vurğuladı. Bildirdi ki, regional və beynəlxalq səviyyədə əməkdaşlıq Müşavirə iştirakçısı olan ölkələrin yürütdüyü siyasətin əsas tərkib hissəsi olmalıdır. Si Cinpin Müşavirənin bundan əvvəl Türkiyənin sədrliyi ilə uğurlu yol keçdiyini, bir çox vacib qərarların qəbul edildiyini bildirdi, Qətərin və Banqladeşin Müşavirəyə bərabərhüquqlu üzv qəbul olunduğunu diqqətə çatdırdı. O, Zirvə toplantısının əsas müzakirə mövzularının regionda və dünyada beynəlxalq təhlükəsizlik məsələlərinə həsr edildiyini vurğuladı.*

*Bundan əvvəl quruma sədrlik edən Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlu bildirdi ki, bu Müşavirə 4 milyard insanın yaşadığı regionda təhlükəsizlik məsələlərinin həll olunmasına böyük dəstək verir. Müşavirənin təhlükəsizlik baxımından yeni konsepsiyanın qəbul olunmasına geniş imkanlar açdığını deyən Əhməd Davudoğlu qurumun digər beynəlxalq təşkilatlarla əlaqələrinə də toxundu. Türkiyə Xarici Siyasət İdarəsinin rəhbəri 2016-cı ilə qədər Müşavirəyə sədrliyi Çinin həyata keçirəcəyini diqqətə çatdırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasda çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Çin Xalq Respublikasının Sədri cənab
Si Cinpin!
Hörmətli nümayəndə heyətlərinin rəhbərləri!
Xanımlar və cənablar!

İlk növbədə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə uğurla sədrlik etdiyinə görə Türkiyəyə təşəkkür edirəm. Eyni zamanda, səmimi qonaqpərvərliyə və Zirvə toplantısının yüksək səviyyədə təşkilinə görə Çin Xalq Respublikasının Sədrinə minnətdarlığımı bildirirəm. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə öz fəaliyyəti ilə sülhün, sabitliyin və əməkdaşlığın təşviq olunmasında artıq nüfuzlu Beynəlxalq foruma çevrilmişdir. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyin Çin tərəfinə keçməsi münasibətilə Çin Xalq Respublikasını səmimi-qəlbdən təbrik edirəm. Əminəm ki, 2 il ərzində Çinin sədrliyi Asiyada sülhün və təhlükəsizliyin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir.

Bu gün Azərbaycan–Çin əlaqələrinin siyasi, iqtisadi, humanitar və digər sahələrdə inkişafı məmnunluq doğurur. Eyni zamanda, biz beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edirik. Son 2 il ərzində Birləşmiş Millətlər

Təşkilatının Təhlükəsizlik Şurasında birgə fəaliyyət göstərmişik.

Fürsətdən istifadə edərək, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyini dəstəkləyən bütün dövlətlərə təşəkkür etmək istərdim. BMT Təhlükəsizlik Şurasının üzvü kimi, Azərbaycan quruma sədrliyi dövründə beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması ilə əlaqədar mühüm məsələləri müzakirəyə çıxarmış, beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi təşəbbüsünü irəli sürmüşdür.

Asiyada təhlükəsizlik tədbirləri qlobal təhlükəsizliyin bir hissəsidir. Biz təhlükəsizlik tədbirlərinə kompleks yanaşmanın tərəfdarıyıq. Terrorizmə qarşı mübarizə, regional, enerji, nəqliyyat və informasiya təhlükəsizliyinin təmin olunması, dondurulmuş münaqişələrin həlli kimi məsələlər bir-biri ilə sıx bağlıdır və bəşəriyyətin təhlükəsizliyi üçün vahid mövqenin ortaya qoyulmasını zəruri edir.

Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə səylərin birləşdirilməsini dəstəkləyir. Azərbaycan özü terrorizmin qurbanı olub. Təkcə müstəqillik illərində erməni terror təşkilatları Ermənistanın dövlət qurumlarının rəhbərliyi ilə Azərbaycana qarşı 30-dan artıq terror aktı törədiblər ki, bunun da nəticəsində 2000-dən çox insan həlak olub.

Bu terror aktları Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin tərkib hissəsidir. Bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizi, tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon Ermənistan tərəfindən işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. 1992-ci ilin fevral ayında erməni silahlı qüvvələri Xocalıda dinc əhaliyə qarşı soyqırımı törətmişdir. Bu soyqırımı nəticəsində 613 günahsız insan qətlə yetirilmişdir. Bu gün dünyada 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən tanımışdır.

Beynəlxalq birlik və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq

normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, «Qoşulmama Hərəkatı», ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Mən həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üzvü olan dövlətlərə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh yolu ilə həllini dəstəklədiklərinə görə təşəkkür edirəm.

ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlarda bu günə qədər irəliləyiş əldə edilməyib. Ermənistan münaqişənin həllində maraqlı deyil. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Münaqişə şəraitində olmasına baxmayaraq, Azərbaycan son illərdə sürətli inkişaf dövrünü yaşayır. İqtisadiyyatımız 3 dəfədən çox artmış, işsizliyin səviyyəsi 5 faizə, yoxsulluğun səviyyəsi isə 5,3 faizə düşmüşdür. Bu inkişaf Azərbaycanda sabitliyin təmin olunması nəticəsində əldə edilmişdir. Eyni zamanda, bu nailiyyətlər sabitliyi daha da möhkəmləndirir.

Azərbaycanın bu gün iştirakçısı və təşəbbüskarı olduğu müxtəlif beynəlxalq layihələr geniş regional əməkdaşlıq üçün artıq möhkəm əsas yaradıb. Mən xüsusən də enerji təhlükəsizliyinə aid olan layihələri qeyd etmək istəyirəm. Bu layihələr həm Cənubi Qafqazın, həm də daha geniş regionun enerji xəritəsini tam dəyişərək, bütün iştirakçılara fayda gətirən çox mühüm əməkdaşlıq nümunəsinə çevrilmişdir.

Ölkəmizin neft ixracının təxminən 28 faizi Asiyadakı tərəfdaşlarının payına düşür. Bununla Azərbaycan Asiya ölkələrinin enerji təhlükəsizliyinə töhfə verir. Düşünürəm ki, bu əməkdaşlığın daha böyük perspektivləri vardır.

Azərbaycan artıq Asiya ilə Avropanı birləşdirən tranzit ölkəyə çevrilərək, 2 qitənin nəqliyyat təhlükəsizliyində vacib rol

oynamağa başlayır. Son illər ərzində Azərbaycan nəqliyyat infrastrukturunun müasirləşdirilməsinə böyük sərmayələr yatırıb. 2003–2014-cü illər ərzində ölkənin nəqliyyat sahəsinə 21 milyard ABŞ dollarına yaxın investisiya, o cümlədən avtonəqliyyat sektoruna 13,6 milyard, dənizçilik sektoruna 1,3 milyard, hava nəqliyyatına isə 2,7 milyard ABŞ dolları vəsait qoyulub.

Azərbaycan Xəzər dənizində ən böyük limanı inşa edir. Bakı yaxınlığında tikilən Ələt Beynəlxalq Dəniz Ticarət Limanı yükdaşımalarının birinci mərhələdə 10 milyon tona, ikinci mərhələdə isə 20 milyon tonadək artırılmasına imkan verəcəkdir. Bu ilin aprel ayında Bakıda Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni terminalı da açılmışdır.

Biz həmçinin tarixi İpək yolunun bərpasına töhfə veririk. Maliyyə yükünün böyük hissəsini Azərbaycanın öz üzərinə götürdüyü Bakı–Tbilisi–Qars dəmir yolu yaxın vaxtlarda istismara veriləcəkdir. Bu, Asiya ilə Avropanı birləşdirən ən rahat və qısa yol olacaqdır.

Azərbaycanın orbitə çıxardığı telekommunikasiya peyki, təşəbbüskarı olduğu Trans–Avrasiya Super İnformasiya Magistralı layihəsi, Azərbaycandan keçməklə Avropa ilə Asiyanı birləşdirən tranzit optik xətlər ölkəmizin informasiya təhlükəsizliyinə verdiyi töhfədir.

Sonda mən bir daha ev sahibi cənab Si Cinpinə səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirir və Zirvə toplantısının işinə uğurlar arzulayıram.

Diqqətinizə görə minnətdaram.

* * *

*Şanxay Zirvə toplantısında Bəyannamə qəbul edildi. Bəyannamədə Azərbaycan üçün önəmli olan müddəalar əksini tapmışdır.*

## DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ NAHARDA İŞTİRAK

*Şanxay*

*21 may 2014-cü il*

*Mayın 21-də Şanxayda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 4-cü Zirvə toplantısında iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi nahar verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak etmişdir.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri mayın 21-də başa çatdı.*

**İORDANİYA KRALI ƏLAHƏZRƏT
II ABDULLAH İBN AL HÜSEYNƏ**

Əlahəzrət!

Əziz qardaşım!

İordaniyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycan–İordaniya münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, Azərbaycan ilə İordaniya arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş İordaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 may 2014-cü il*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ**

Hörmətli xanım Prezident!

Argentina Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Argentina münasibətlərinin inkişafı istiqamətində atdığımız addımlar dostluq əlaqələrimizin möhkəmlənməsinə, əməkdaşlığımızın genişlənməsinə bundan sonra da mühüm töhfələr verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Argentina xalqına daim sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 may 2014-cü il*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB GEORGİ MARQVELAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Gürcüstanın milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Xalqlarımızı dərin tarixi kökləri olan möhkəm dostluq və mehriban qonşuluq münasibətləri birləşdirir. Eyni zamanda, qarşılıqlı anlaşma və etimada əsaslanan dövlətlərarası münasibətlərimiz bütün sahələrdə səmərəli əməkdaşlığımız üçün geniş imkanlar açmışdır.

Bu yaxınlarda Tbilisidə keçirdiyimiz görüşümüzü məmnuniyyətlə xatırlayıram. İnanıram ki, Azərbaycan ilə Gürcüstan arasındakı sıx əməkdaşlıq və strateji tərəfdaşlıq bundan sonra da ölkələrimizin çiçəklənməsinə, regionda sülhə, sabitliyə və tərəqqiyə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 may 2014-cü il*

## AVROPA ŞURASININ BAŞ KATİBİ TORBÖRN YAQLAND İLƏ GÖRÜŞ

*22 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Avropa Şurasının baş katibi Torbörn Yaqlandı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi qeyd olundu, sivilizasiyalararası dialoqda və Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində Azərbaycanın rolu xüsusi vurğulandı, əməkdaşlığımızın inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ ANN BRASÖRÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Avropa Şurası Parlament Assambleyasının sədri xanım Ann Brasörün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## XX AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ VIII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*22 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Bakı Sərgi Mərkəzində «World Food Azerbaijan–2014» XX Azərbaycan Beynəlxalq qida sənayesi və «Agrihort Azerbaijan–2014» VIII Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə reallaşdırılan sosial-iqtisadi siyasət qeyri-neft sektorunun inkişafını tamamilə yeni mərhələyə çıxarıb. Bu sektorun əsas sahələrindən olan aqrar bölmənin inkişafı respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunmasına, əhalinin rifahının yüksəldilməsinə önəmli töhfə verir. Qida sənayesində ən son texnologiyaların tətbiqi bu sahənin inkişafı, istehsal olunan məhsulların keyfiyyəti və rəqabətədavamlılığı baxımından çox mühümdür. Bu baxımdan ölkəmizdə təşkil olunan «World Food Azerbaijan–2014» XX Azərbaycan Beynəlxalq qida sənayesi və «Agrihort Azerbaijan–2014» VIII Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri böyük əhəmiyyət kəsb edir. Həmin sərgilər ölkəmizdə bu sahədə əldə edilən nailiyyətləri nümayiş etdirməyə imkan yaradır və aqrar sahənin inkişafına müsbət təsir göstərir.*

*Bu il özünün 20 illik yubileyini qeyd edən «World Food Azerbaijan» Beynəlxalq qida sənayesi sərgisi ötən dövrdə qida məhsulları bazarında həm yerli, həm də xarici istehsalçılar üçün istiqamətləndirici funksiyasını yerinə yetirib. Ötən müd-*

*dətdə bu istiqamətdə mühüm nailiyyətlər əldə olunub. Mayın 10-da Mərkəzi Botanika Bağında ümummilli lider Heydər Əliyevin doğum gününə həsr edilmiş «Üzüm tənəklərinin əkilməsi» aksiyası keçirilib. Sərginin iş günlərində «Premium şagird» adlı tədbir çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetinə qəbul zamanı yüksək bal toplamış 6 tələbənin mükafatlandırılması planlaşdırılır. Təsadüfi deyil ki, bu gün sənayedə liderlik edən bir çox şirkətlərin Azərbaycan bazarında fəaliyyətə başlaması üçün sərgi start meydançasına çevrilib.*

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi ilə keçirilən «World Food Azerbaijan–2014» XX Beynəlxalq qida sənayesi və «Agrihort Azerbaijan–2014» VIII Beynəlxalq kənd təsərrüfatı sərgilərinin təşkilatçıları qismində «Iteca Caspian» MMC və onun Böyük Britaniyadan olan tərəfdaşı «ITE Group Plc» şirkəti çıxış edir.*

*«World Food Azerbaijan» sərgisi dünyaca məşhur «World Food» sərgi brendinin bir hissəsidir. Sərgi Rusiya, Ukrayna, Qazaxıstan, Özbəkistan, Hindistan, Türkiyə və digər ölkələrin qida sənayesi üzrə ən iri sərgilərini özündə birləşdirir. Böyük üstünlüyü olan bu cür tərəfdaşlıq təşkilati təcrübəni mənimsəməyə və bu ölkələrdə həm sərgini, həm də onun iştirakçılarını təşviq etməyə imkan verir. Artıq 7 ildir ki, sərgi «UFI» – Dünya Sərgi Sənayesi Assosiasiyası tərəfindən təqdir olunur. Bu barədə nişan sərgilərin bütün beynəlxalq standartlara uyğunluğunu təsdiq edir və tədbirin yüksək səviyyədə təşkil olunduğunu bildirir.*

*«World Food Azerbaijan» sərgisi ilk dəfə öz qapılarını 1995-ci ildə açmışdır və o vaxtdan etibarən onun nüfuzu Azərbaycan, Xəzəryanı region və bütün dünyanın mütəxəssisləri arasında durmadan artır. Bu illər ərzində sərgidə 1400-dən artıq şirkət iştirak edib. Sərgi Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası tərəfindən dəstəklənir. Sərginin qarşıya qoyduğu və uğurla reallaşdırdığı əsas məqsədlərdən biznes üçün yeni tərəfdaşlar tapmaq, mövcud*

işgüzar münasibətləri daha da möhkəmləndirmək, müqavilələr bağlamaq və yeni məhsul növlərini təqdim etmək kimi məsələləri qeyd etmək olar.

Sərgi 20 illik yubileyini rekord sayda iştirakçı şirkətlə qarşılayır. İlk dəfədir ki, sərgidə dünyanın 36 ölkəsindən nümayəndələr iştirak edir. İştirakçıların sayına görə liderlik edən ölkə Türkiyədir. Sərgi hər il yeni iştirakçıları cəlb edir. Belə ki, bu ilin debütantları, o cümlədən Azərbaycan, Niderland, Belçika, Türkiyə, İtaliya, İspaniya, İran və digər ölkələrdən gələn şirkətlər ümumi iştirakçıların 45 faizini təşkil edir. Dövlət dəstəyi və peşəkar assosiasiyaların əlaqələndirilməsi çərçivəsində təşkil olunan milli ekspozisiyalarla 6 ölkə – İtaliya, İran, Niderland, Macarıstan, Latviya və Estoniya çıxış edir. Milli stendlərin bu cür fəal iştirakı «World Food Azerbaijan» sərgisinin beynəlxalq qida məhsulları bazarındakı nüfuzunu bir daha təsdiq edir.

Builki sərgidə iştirakçıların sayının 26 faizini təşkil edən yerli istehsalçılar və distribüterlər də böyük fəallıq göstərirlər. Qida sənayesinin inkişaf etdirilməsində regionlara daha çox önəm verilir. Regionlarda ən yeni avadanlıq və istehsal texnologiyalarının tətbiqini təmin etmək məqsədilə «World Food Azerbaijan» və «Agrihort Azerbaijan» sərgilərində Bərdə, Qəbələ, Gəncə, Lənkəran, Saatlı, Sabirabad, Xaçmaz və digər rayonlardan gələn sahibkarlar üçün infoturlar təşkil edilib. Ümumilikdə, iştirakçılar öz məhsullarını 3 əsas istiqamətdə nümayiş etdirir.

«World Food Azerbaijan–2014» sərgisinin yubileyi ilə əlaqədar əlavə tədbirlər planlaşdırılıb. Üzüm «World Food Azerbaijan–2014» sərgisinin rəmzidir və buna görə də sərgidə xarici iştirakçılara və ziyarətçilərə Azərbaycan mətbəxinin zənginliyini nümayiş etdirmək üçün üzümdən istifadə etməklə, müxtəlif növ milli xörəklərin hazırlanması planlaşdırılır. Beləliklə, sərgilər ölkənin qida və aqrar sektorlarının inkişafı üzrə bütün müsbət təmayülləri nümayiş etdirir, həmçinin beynəlxalq müstəvidə sıx əməkdaşlığın qurulmasına, investisiya artımına və sənayedə ən yeni texnologiyaların tətbiqinə şərait yaradır.

*Mayın 24-dək davam edəcək sərgilərin ilk 2 günü yalnız mütəxəssislər, qida sənayesinin nümayəndələri, topdan və pərakəndə satıcılar, kənd təsərrüfatı məhsullarının idxalçıları və distribüterlər üçün açıq olacaqdır.*

*Kənd Təsərrüfatı naziri Heydər Əsədov prezident İlham Əliyevə məlumat verdi ki, sərgidə dünyanın 35 ölkəsindən 173 şirkət iştirak edir. Bu siyahıda MDB və Avropa ölkələrindən gələn şirkətlər üstünlük təşkil edir. Artıq 20 ildir ki, keçirilən «World Food Azerbaijan» sərgisi qida sənayesinin peşəkarları, eləcə də ərzaq məhsulları və istehlak mallarını istehsal, ixrac və idxal edən şirkətlər üçün səmərəli iş meydanı kimi fəaliyyət göstərir. Sərgi qida sənayesinin bir neçə istiqamətini – avadanlıq, qida məhsulları və qablaşdırma kimi sahələri bir məkanda toplayaraq sənaye peşəkarlarının geniş spektrini əhatə edir. Burada ət və quş, süd məhsulları, dondurma, konservləşdirilmiş məhsullar, şirniyyat və çörək məmulatları, o cümlədən kənd təsərrüfatı və quşçuluq fabrikləri üçün avadanlıq, habelə istixanalar, suvarma sistemləri, toxumlar, gübrələr və s. məhsullar nümayiş olunur.*

*Prezident İlham Əliyev «Azərtoxum» MMC-nin stendi ilə tanış oldu. 2009-cu ildə təsis edilən şirkət fermerləri yüksək keyfiyyətli və məhsuldar toxumlarla təmin edir. Şirkət Azərbaycanda hazırlanan və həyata keçirilən qida təhlükəsizliyi strategiyasına uyğun satılan toxumlar üzrə texniki yardım xidmətləri göstərir. Şirkətin qarşısına qoyduğu əsas məqsəd seçilmiş toxumlar üzrə öz texnologiyasını hazırlamaq və həmin məhsullarla dünya bazarına daxil olmaqdır.*

*2005-ci ildə yaradılan «Grand Motors» MMC Azərbaycan bazarının tikinti, kənd təsərrüfatı, istirahət və əyləncə sektorunu əhatə edir. Şirkət ağır texnika və yük avtomobillərinin Azərbaycana idxalını və satışını həyata keçirir. Hazırda bu şirkət dünyada tanınmış 14 istehsalçının Azərbaycanda rəsmi təmsilçisidir.*

*Prezident İlham Əliyev İspaniyanın «İnvernaderos El Pilar» şirkətinin stendinə də baxdı. Şirkət istixanaların layihə-*

*ləndirilməsi, quraşdırılması və* tam *təhvili üzrə fəaliyyət göstərir. Bundan başqa, kənd təsərrüfatı istehsalçıları şirkətin istixana texnologiyaları, həmçinin* suvarma, *isitmə, iqlim və avtomatlaşdırma sistemləri xidmətindən də istifadə edə bilər.*

*Bu sərgidə Latviya 5 şirkətlə təmsil* olunur. *Dördüncü dəfədir ki, sərgiyə qatılan Latviyanın stendində əsasən ağartı məhsulları nümayiş* etdirilir. *Burada iştirak edən Latviya şirkətlərinin sayının ilbəil artması, ümumilikdə, Baltikyanı* regionda *sərgiyə* olan *marağı nümayiş etdirir.*

*«Grand Motors» MMC-nin* «Agrolend» *şirkəti də sərgidə dünyanın ən aparıcı kənd təsərrüfatı texnikasını nümayiş etdirir.*

*Prezident İlham Əliyev «Amkodor Baku» MMC-nin stendinə baxdı. Ötən ilin dekabrında yaradılan Belarus şirkəti 100-dən artıq müxtəlif* texnika istehsal edir. *Şirkətin istehsal etdiyi və nadirliyi ilə seçilən texnikası dünyanın 30-dan artıq ölkəsinə ixrac* olunur.

*Türkiyənin* «Agrional» *şirkəti də kənd təsərrüfatı istehsalçılarına müxtəlif növ* texnika *təklif* edir. *Onların arasında əkin, biçin, torpağın işlənilməsi və digər* aqrotexniki *qurğuları göstərmək* olar. *Artıq 14 ildir ki, Azərbaycanda fəaliyyət göstərən şirkət ilk dəfədir sərgiyə qatılır.*

*Almaniyanın «CLAAS Global Sales GMBH» şirkəti də sərgidə təmsil* olunur. *Şirkətin Azərbaycandakı təmsilçiliyi müştərilərə kənd təsərrüfatı texnikası təqdim edir.*

*Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının «John Deere» şirkətinin məhsullarına* da *baxdı. Artıq 200 ildən çoxdur ki, fəaliyyət göstərən və bütün dünyada böyük nüfuza* malik *şirkət sərgidə iştiraka mühüm önəm verir.*

*Buradan* da *görünür ki, «World Food Azerbaijan–2014» sərgisi artıq bütün dünyada böyük nüfuza* malikdir. *İştirakçılar sərgiyə qatılmaqla qısa müddətdə bazarı* maksimum *əhatə etmək imkanı əldə* edir, *qida sənayesinin liderlərindən yeni məhsullar və məxsusi təkliflər alır,* etibarlı *işgüzar əlaqələr* qurmaq, *dünya brendlərinin nümayəndələri ilə zəruri danışıqlar*

*aparmaq və qarşılıqlı faydalı müqavilələr* imzalamaq *şansı qazanır.* Bundan *başqa, sərgidə iştirakçılar* qida *sənayesi avadanlığını* istehsal *edən aparıcı şirkətlərin yeni təklif və texnologiyaları ilə də tanış* olurlar. *Burada ABŞ,* Almaniya, Avstriya, *İtaliya, İsveçrə,* Rusiya, *Türkiyə,* Yaponiya *və digər ölkələrin nüfuzlu şirkətlərlə təmsil olunması sərgi iştirakçılarının coğrafiyasının ilbəil artmasının göstəricisidir.*

*Sərgidə və ümumiyyətlə,* regionda ilk *dəfə* olaraq milli *stendlərdə İran, İtaliya və* Estoniya *şirkətlərinin məhsulları nümayiş* etdirilir.

*«World* Food Azerbaijan*–2014» sərgisi ilə* paralel olaraq *keçirilən «*Agrihort Azerbaijan*–2014» VIII Beynəlxalq kənd təsərrüfatı sərgisi hər* il aqrar kompleksin *aparıcı nümayəndələrini, eləcə də kənd təsərrüfatı məhsullarının istehsalçı və təchizatçılarını* bir araya *gətirir.* Builki *sərginin əsas fərqləndirici xüsusiyyəti isə kənd təsərrüfatı texnikasına həsr olunmuş* ekspozisiya *sahəsinin ötən illə müqayisədə 2,5 dəfə genişlənməsidir. Bu sahə Bakı Sərgi Mərkəzinin həm* daxilində, *həm də açıq meydançada təşkil* edilib.

*Prezident İlham Əliyev açıq meydançada nümayiş* olunan *kənd təsərrüfatı texnikası ilə tanış* oldu.

## GƏNC ALİMLƏRİN ÜMUMDÜNYA BAKI FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi – dünyanın bütün guşələrindən Bakıya toplaşmış gənc alimləri səmimi-qəlbdən salamlayır və forumunuzun işinə müvəffəqiyyətlər arzulayıram. Əminəm ki, ölkəmizə xas qonaqpərvərlik və işgüzarlıq ab-havası sizə gələcək planlarınızın müzakirəsi üçün gözəl imkanlar yaradacaqdır.

Sürətlə qloballaşan dünyada elmin rolu gündən-günə artmaqdadır. İnformasiya cəmiyyətinin formalaşması, biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olması, sənayenin kreativ sahələrinin inkişafı və digər amillər yeni ideyalar və yanaşmalar tələb etməklə, gənclərin yaradıcılıq potensialının aşkarlanmasına güclü təkan verir. Sizin forumun da bu istiqamətdə atılan mühüm addım olacağına inanıram.

Azərbaycan indi dünyanın yüksək templə irəliləyən ölkələrindən biridir. Qazandığımız uğurlar ilk növbədə, insan kapitalının düzgün və səmərəli istifadəsinin bəhrəsidir. Gənclərə ünvanlanmış bir çox proqramlar, o cümlədən xaricdə təhsil proqramı onların elmə cəlb olunması üçün lazımi şəraiti təmin etmişdir. Azərbaycanda mövcud olan Milli Elmlər Akademiyası, çoxsaylı universitetlər və Elmin İnkişafı Fondu gənc alimlər nəslinin yetişdirilməsinə xidmət göstərir.

Tarix boyu Şərqlə Qərb arasında körpü rolunu oynamış ölkəmiz antik dövrün elmi nailiyyətlərinin qorunub saxlanılması və bəşər mədəniyyəti xəzinəsinin zənginləşdirilməsinə öz töhfələrini vermişdir. XIX əsrdən etibarən neftin sənaye üsulu ilə çıxarılmasını ilk dəfə həyata keçirən Bakı dünyada neftlə bağlı elm sahələrinin bünövrəsinin qoyulduğu məkan kimi tanınır. Bu gün ölkəmizdə dayanıqlı inkişafın təmin olunması

və yüksək texnologiyalara xüsusi diqqət göstərilməsi gənclər qarşısında geniş üfüqlər açır.

Ümidvaram ki, forum zamanı quracağınız qarşılıqlı əlaqələr hamınıza birgə layihələrin işlənib hazırlanması, müştərək araşdırmaların aparılması və bütövlükdə gələcəyə yönəlmiş elmi fəaliyyətinizin uğurla gerçəkləşdirilməsinə kömək edəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2014-cü il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Urumçi şəhərində çoxsaylı insan tələfatına səbəb olmuş terror aktı bizi olduqca hiddətləndirdi.

Biz bu cür amansız hərəkətləri kəskin pisləyir, terrorizmin bütün təzahürlərinə qarşı qətiyyətlə mübarizə aparılmasına tərəfdar çıxırıq.

Baş vermiş faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Çin xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2014-cü il*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ**

Hörmətli xanım Prezident!

Litva Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Litva tarixində ilk dəfə dövlət başçısının bu ali vəzifəyə təkrar seçilməsi Sizə xalqınız tərəfindən göstərilən etimadın ifadəsidir.

Bu gün Azərbaycan ilə Litva arasındakı münasibətlər dinamik inkişaf yolundadır. Ümidvaram ki, xalqlarımızın iradəsindən qaynaqlanan dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Litva xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2014-cü il*

**NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM BARAN YADAVA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, birgə səylərimizlə Azərbaycan ilə Nepal arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daha da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2014-cü il*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyə Respublikasının Xarici İşlər naziri Əhməd Davudoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xarici İşlər naziri Əhməd Davudoğlu Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Dövlətimizin başçısı Türkiyə, Azərbaycan və Türkmənistan xarici işlər nazirlərinin yeni formatda keçiriləcək görüşünün önəmini vurğuladı və bu görüşün nəticələrinin uğurlu olacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev xarici işlər nazirləri səviyyəsində keçirilən bu cür görüşlərin ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün səmərəli bir format olduğunu vurğuladı.*

*Türkiyə Respublikasının Xarici İşlər naziri Əhməd Davudoğlu ölkələrimizin təşəbbüsü ilə reallaşan Türkiyə–Azərbaycan–İran, Türkiyə–Azərbaycan–Gürcüstan və Türkiyə–Azərbaycan–Türkmənistan arasında yeni əməkdaşlıq formatının əhəmiyyətini qeyd etdi.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD MEREDOV İLƏ GÖRÜŞ

*26 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkmənistanın Xarici İşlər naziri Rəşid Meredovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin qədim tarixi köklərə malik olduğunu və bu gün müstəqil dövlətlər kimi, ikitərəfli münasibətlərimizin fəal şəkildə inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. İkitərəfli əlaqələrin gələcək illərdə də inkişaf etdiriləcəyinə və möhkəmləndiriləcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı bunun üçün qarşılıqlı marağın olduğunu dedi. Münasibətlərimizin hazırkı səviyyəsinin razılıq doğurduğunu bildirən prezident İlham Əliyev ölkələrimizin qarşılıqlı fəaliyyətinin regional əməkdaşlığın genişlənməsi baxımından da mühüm əhəmiyyət daşıdığını qeyd etdi.*

*Xarici işlər nazirlərinin yeni formatda keçiriləcək ilk görüşünün önəmini vurğulayan dövlətimizin başçısı görüşdə səmərəli müzakirələrin aparılacağına və yaxşı nəticələr əldə ediləcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev üçtərəfli formatda keçirilən bu cür tədbirlərin regional əməkdaşlıqla yanaşı, ikitərəfli əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini vurğuladı.*

*Xarici İşlər naziri Rəşid Meredov Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun salamlarını və ən xoş arzu-*

larını dövlətimizin başçısına çatdırdı. Rəşid Meredov ölkəsinin Prezidentinin Azərbaycan ilə əlaqələrin iqtisadi, enerji, mədəni, humanitar və digər sahələrdə genişləndirilməsinə böyük önəm verdiyini dedi. Azərbaycana səfərinin Respublika Günü ərəfəsinə təsadüf etdiyini vurğulayan nazir Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun bu əlamətdar bayram münasibətilə ən səmimi təbriklərinin, ölkəmizin və Azərbaycan xalqının həyatında mühüm rol oynayan bu böyük gün ilə əlaqədar ən xoş arzularının ifadə olunduğu məktubu prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı prezident Qurbanqulu Berdıməhəmmədovun təbrikinə və salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

## TÜRKİYƏ RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ ƏFQAN ALAN İLƏ GÖRÜŞ

*26 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyə Respublikasının Daxili İşlər naziri Əfqan Alanı qəbul etmişdir.*

*Əfqan Alanı Türkiyə Respublikasının Daxili İşlər naziri təyin olunması münasibətilə təbrik edən dövlətimizin başçısı ölkələrimizin daxili işlər nazirlikləri arasında mövcud sıx əməkdaşlığın bundan sonra da genişləndiriləcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimizin dövlət və hökumət başçılarının, nazirlərin ilk xarici səfərini qardaş ölkələrə etməsinin artıq bir ənənə halı aldığını vurğulayan prezident İlham Əliyev Əfqan Alanın Türkiyə Respublikasının Daxili İşlər naziri kimi, Azərbaycana ilk səfərinin önəmini qeyd etdi və səfərin əməkdaşlığımızın inkişafı ilə bağlı səmərəli müzakirələr aparılması üçün yaxşı fürsət yaratdığını dedi.*

*Əfqan Alan nazir kimi, ilk xarici səfərini Azərbaycana etməsindən məmnunluğunu diqqətə çatdırdı. Türkiyənin Daxili İşlər naziri Soma kömür mədənində kütləvi insan tələfatı ilə nəticələnən faciə ilə əlaqədar Azərbaycan xalqının, şəxsən prezident İlham Əliyevin Türkiyə xalqının dərdinə şərik çıxmasına görə minnətdarlığını bildirdi.*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA**

Hörmətli cənab Prezident!

İtaliyanın milli bayramı – Respublika Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə İtaliyanı möhkəm dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir. Ümidvaram ki, siyasi, iqtisadi və mədəni əlaqələrimizin daha da dərinləşdirilməsi, qarşılıqlı maraqlarımızı əks etdirən tərəfdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 may 2014-cü il*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2014-cü il*

*1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olmuşdur. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirmişdir.*

*1918-ci il mayın 28-də Tiflisdə qəbul edilmiş «İstiqlal Bəyannaməsi»ndən – «Əqdnamə»dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirmişdi.*

*XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görmüş, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etmişdir. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoydu.*

*Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoymuşdu. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi – 28 Mayı Respublika Günü kimi qeyd edir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə mayın 27-də ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*«Buta» sarayı*

*27 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 27-də «Buta» sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak etmişlər.*

*Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm, bu gözəl bayram ərəfəsində bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, müsəlman aləmində ilk demokratik respublika məhz Azərbaycanda yaradılmışdır. Azərbaycanın mütərəqqi nümayəndələri bu respublikanı yaratmışlar. Bu, tarixi hadisə idi. 96 il bundan əvvəl müsəlman aləmində ilk demokratik respublikanın yaradılması böyük hadisə idi və ondan sonra digər müsəlman ölkələrində respublika quruluşu yaradıldı. Ancaq ilk təcrübə məhz Azərbaycan xalqının istedadı, zəhməti, uzaqgörənliyi hesabına

mümkün olmuşdur. Əfsuslar ki, respublikanın ömrü uzun olmadı. Azərbaycan cəmi 2 il müstəqil ölkə kimi yaşamışdır. Ancaq bu illər ərzində böyük işlər görülmüşdür. Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə həmişə böyük hörmətlə yanaşır və onların əziz xatirəsi həmişə bizim ürəyimizdədir. O illərdə demokratik təsisatlar qurulmuş, ordu quruculuğu sahəsində böyük işlər görülmüş, qadınlara səsvermə hüququ verilmişdir. Bir sözlə, Azərbaycanın gələcək uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Əgər 1920-ci ildə müstəqillik əlimizdən alınmasaydı, mən tam əminəm ki, bu gün Azərbaycan dünyada ən zəngin ölkələrdən biri olacaqdı.

Əfsuslar olsun ki, müstəqillik əlimizdən alındı, 1920-ci ildə respublika süqut etdi və beləliklə, Azərbaycanın uğurlu inkişafına son qoyuldu. Bizim təbii sərvətlərimizi, coğrafi vəziyyətimizi, xalqımızın istedadını, mütərəqqi insanların fəaliyyətini nəzərə alaraq tam əminliklə deyə bilərəm ki, əgər biz müstəqil həyat yaşasaydıq, bu gün çox qabağa gedə bilərdik. Ancaq nə edək, Azərbaycan Xalq Cümhuriyyətinin böyük gücü yox idi ki, öz müstəqilliyini qoruya bilsin. Bu təbiidir və 71 il ərzində biz Sovet İttifaqı tərkibində yaşamışıq. Əlbəttə, xalqımız o illərdə inkişaf etmişdir, Azərbaycan da inkişaf etmişdir və deyə bilərəm ki, sovet dövrünün ən parlaq səhifəsi ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Çünki məhz keçən əsrin 70-ci illərindən sonra Azərbaycanda sürətli inkişaf dövrü başlamışdır. Deyə bilərəm ki, biz o vaxta qədər müttəfiq respublikalar arasında axırıncı yerdə idik. Ancaq XX əsrin 70-ci illərinin sonlarında artıq birinci yerlərə çıxmışdıq. 2 donor respublika var idisə, onlardan biri də Azərbaycan idi. Məhz o illərdə sənaye potensialımız yaradılmış, xüsusilə neft sənayesi inkişaf etmişdir. O potensial bu gün də bizə böyük dəstəkdir. Kənd təsərrüfatının yüksəlişi, infrastruktur layihələrinin icrası, əlbəttə ki, Azərbaycanın inkişafını təmin edirdi. Ancaq biz müstəqil, azad deyildik və taleyimiz əlimizdə deyildi.

İkinci şans bizə 1991-ci ildə nəsib oldu. Sovet İttifaqının dağılması nəticəsində başqa müttəfiq respublikalarla bərabər biz də müstəqilliyə qovuşduq. Ancaq o illəri biz hamımız yaxşı xatırlayırıq. Azərbaycan üçün çox ağır, təhlükəli illər idi. Əfsuslar oslun ki, müstəqilliyimizin ilk illərində bu tarixi şansdan o vaxtkı rəhbərlik istifadə edə bilməmişdir. Ölkədə xaos, böhran hökm sürürdü – iqtisadi böhran, siyasi böhran. Nəticədə bu, vəziyyəti hərbi böhrana gətirib çıxarmışdı və vətəndaş müharibəsi təhlükəsi vardı. Yəni 2 ildən sonra, demək olar ki, bizim müstəqilliyimiz yenə də sual altına qoyulurdu. Sanki tarix təkrarlanırdı, sanki birinci demokratik respublikanın təcrübəsi, yəni mənfi mənada o təcrübəsi yenə təkrarlanırdı və təkrarlana da bilərdi. Biz bunu yaxşı bilirik. Çünki o vaxt iqtisadiyyat tamamilə çökmüşdü, sənaye istehsalı dayanmışdı, ölkə iflic vəziyyətində idi, erməni işğalı, daxili çəkişmələr, rəhbərlikdə olan şəxslərin fəaliyyətsizliyi və xəyanətkarlığı nəticəsində müstəqillik əldən gedirdi. Xüsusilə AXC–Müsavat hakimiyyətinin yarıtmaz, xəyanətkar, faciəvi hakimiyyəti nəticəsində ölkəmiz uçuruma gedirdi. Torpaqlar itirilirdi, Şuşa, Laçın, Kəlbəcər işğal altına düşdü, daxildə vəziyyət çox ağır idi. Biz o illəri yaxşı xatırlayırıq və bu gün qonşuluqda baş verən hadisələri izləyərkən yenə də əminəm ki, hər bir Azərbaycan vətəndaşı o illərə qayıdır, o illəri xatırlayır və bir daha əmin olur ki, Azərbaycan xalqının böyük xoşbəxtliyi ondan ibarət idi ki, xalqımız həlledici anlarda düzgün seçim etmişdir, müdriklik göstərmişdir və ulu öndərə üz tutub onu hakimiyyətə dəvət etmişdir. Əgər Heydər Əliyev o illərdə Azərbaycan rəhbərliyinə gəlməsəydi, ölkə tamamilə dağıla bilərdi.

Ona görə 1993-cü il əslində real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı. Qanunsuz silahlı birləşmələr tərk-silah edildi, separatçı qüvvələrə böyük zərbə vuruldu və Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Azərbaycanda demokratik təsisatlar məhz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və möhkəmləndirilmişdir. Müstəqil Azərbaycanın Konstitusiyası da Heydər Əliyevin əsəridir. 1995-ci ildə Konstitusiya qəbul edilmişdir. Siyasi sistem formalaşmışdır. Siyasi sistemin formalaşmasında yenə də ulu öndərin rolu danılmazdır. Məhz 1992-ci ildə müxalifət partiyası kimi qurulan Yeni Azərbaycan Partiyası müasir siyasi sistemin yaradılmasında müstəsna rol oynamışdır. Azərbaycanda siyasi islahatlar aparılmağa başlanmışdır. Dünyaya inteqrasiya dövrü başlanmışdır. Azərbaycanı dünyada tanımağa başlamışlar. Bizə qarşı aparılan müharibə sadəcə olaraq, erməni işğalı ilə bitmirdi. Azərbaycana qarşı informasiya müharibəsi aparılırdı. Biz informasiya blokadası şəraitində yaşayırdıq və bu blokadanı aradan götürmək, Azərbaycanı dünyaya təqdim etmək və Azərbaycanın potensialını nümayiş etdirmək üçün ulu öndər böyük səylər göstərmişdir və bu səylər öz gözəl nəticələrini vermişdir.

İqtisadi islahatlar siyasi islahatlarla paralel şəkildə aparılırdı. Milli ideologiyamız məhz o illərdə yaradılmışdır – bu gün də bizim inkişafımız üçün bu əsasdır – dövlətçiliyin əsasları qoyulmuşdur və əlbəttə ki, ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən neft kontraktları imzalanmışdır. İndi Azərbaycanın inkişafını neft sənayesiz təsəvvür etmək mümkün deyildir. Ancaq hamımız yaxşı bilirik, mütəxəssislər də yaxşı bilirlər ki, Sovet İttifaqı dağılanda bizim neft sənayemiz artıq dağılmış vəziyyətdə idi. Neft hasilatı təxminən 10 milyon ton səviyyəsində idi. Bu heç bizim gündəlik tələbatımızı ödəmək üçün kifayət etmirdi. Bütün ölkədə zülmət, qaranlıq müşahidə olunurdu, elektrik enerjisi çatışmazlığı, elementar infrastruktur layihələrinin olmaması – yəni bu idi bizim o vaxtkı vəziyyətimiz. Ona görə neft kontraktlarının, xüsusilə «Əsrin kontraktı»nın – o gündən artıq 20 il keçir – imzalanması dönüş yaratdı. Həm iqtisadi, həm siyasi sahədə.

1993–2003-cü illər tarixdə sabitlik, inkişaf illəri kimi qalacaqdır. Azərbaycanın müstəqil ölkə kimi yaşamasını təmin

edən bir dövr kimi tarixdə qalacaqdır. Biz bu gün öz fəaliyyətimizi o illərdə müəyyən edilmiş strategiya çərçivəsində aparırıq, Azərbaycanı inkişaf etdiririk. Siyasi xətt dəyişməz olaraq qalır. Bu xəttin alternativi yoxdur. Ölkədə aparılan, dərinləşən siyasi və iqtisadi islahatlar bu gün Azərbaycanı çox güclü bir ölkə kimi, regional dövlət kimi, artıq dünyaya təqdim edir.

Son 10 il ərzindəki nailiyyətlər haqqında çox danışmaq istəmirəm. Bütün bunlar artıq bəllidir. Bu da tarixdir. Son 10 ilin təcrübəsi sürətli inkişaf tarixidir. Bu da tarixdə qalacaqdır. Çünki son 10 il ərzində iqtisadi sahədə Azərbaycan kimi inkişaf edən ikinci ölkə olmamışdır.

Bütün statistik göstəricilər bunu təsdiqləyir. Bizim gündəlik həyatımız da bunun əyani sübutudur. Son 10 il ərzində biz islahatları dərinləşdirərək, cəmiyyətimizi səfərbər edərək, Azərbaycan cəmiyyətində həmrəylik hisslərini gücləndirərək böyük və uğurlu yol keçmişik. Bu yolun təməli 1993-cü ildə qoyulmuşdur. Müstəqilliyimizin, real müstəqilliyimizin ilk ilində qoyulmuşdur. Biz bu gün beynəlxalq arenada söz sahibiyik. Bizimlə hesablaşırlar, bizim mövqemiz böyük əhəmiyyət daşıyır. Bizim mövqemiz ədalətə, beynəlxalq hüquqa söykənir. Əminəm ki, prinsipial mövqemiz həm bölgədə, həm də dünyada bizə əlavə hörmət qazandırır.

Hər bir məsələ ilə – istər daxili siyasət, istər xarici siyasət ilə bağlı bizim konkret mövqemiz vardır. Biz bunu gizlətmirik, ifadə edirik. Öz niyyətimizi, siyasətimizi açıq şəkildə bəyan edirik və bizim addımlarımız da siyasətimizin davamıdır. Sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Ona görə bizim sözümüz imzamız qədər dəyərlidir və əhəmiyyətlidir. Əgər söz veririksə, onu yerinə yetiririk. Əlbəttə ki, qarşı tərəflərdən də eyni yanaşmanı gözləyirik.

Son 10 il ərzində iqtisadi sahədə, regionların inkişafı sahəsində, infrastruktur layihələrin icrası istiqamətində tarixi nailiyyətlər əldə edilmişdir. Beynəlxalq aləmdə Azərbaycan dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasına

üzv seçilmişdir. Böyük dəstək hesabına, inam hesabına. Biz bu şərəfli missiyanı ləyaqətlə icra etmişik. Bizə hörmət daha da artmışdır və bu gün biz nəinki regional məsələlərin həllində, qlobal məsələlərdə də öz sözümüzü deyirik.

Bu illər ərzində biz güclü enerji potensialı yaratmışıq. Bu gün heç kimə sirr deyil ki, enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyini təmin edir. Bəlkə hərbi potensialdan sonra ikinci yerdə dayanan enerji təhlükəsizliyidir. O ölkələr ki, enerji təhlükəsizliyini təmin edib, onlar özlərini rahat hiss edə bilərlər. Biz bunu etmişik. Zəhmətimiz hesabına, aparılan siyasət nəticəsində. Bu, göydən düşən nemət deyildir. Buna biz özümüz nail olmuşuq. Buna Azərbaycan xalqı nail olub. Bizim siyasətimiz bu sahədə də öz səmərəsini bir daha göstərmişdir.

Bu gün Azərbaycan başqa ölkələrin də enerji təhlükəsizliyinə töhfə verərək həm iqtisadi, həm siyasi maraqlarını tam şəkildə təmin edir. Bizim maliyyə vəziyyətimiz bütün ölkələr üçün örnək ola bilər. Yəni bu sözləri sadəcə olaraq, özümüzü tərifləmək üçün demirəm. Sadəcə olaraq, ona görə deyirəm ki, bu reallıqdır. Bizim böyük maddi imkanlarımız, maliyyə imkanlarımız vardır. Biz heç bir beynəlxalq maliyyə qurumunun dəstəyindən asılı deyilik. Bu da bizim müstəqilliyimizi möhkəmləndirir. Nədir müstəqilliyimizi şərtləndirən əsas amillər? Müstəqil siyasət, müstəqil xarici siyasət, güclü ordumuz müstəqilliyimizin dayağıdır, əsasıdır. İqtisadi müstəqillik, enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi, hər bir ölkənin öz coğrafi vəziyyətindən səmərəli şəkildə istifadə etmək imkanları – bunlardır bugünkü dünyada müstəqilliyi müəyyən edən amillər. Fəxr edirik ki, biz, sözün əsl mənasında, müstəqilik, müstəqillik bizim üçün ən böyük sərvətdir və ən böyük nailiyyətdir.

Əlbəttə, bu gözəl bayram ərəfəsində biz gələcək işlər haqqında bir daha öz fikirlərimizi ifadə edirik. Əslində bizim gələcək fəaliyyətimizlə bağlı bütün proqramlar ictimaiyyət üçün açıqdır. Biz istər xarici siyasətlə, istər daxili siyasətlə, istərsə də iqtisadi sahə ilə bağlı bunları bəyan etmişik. Sadəcə olaraq, bir

neçə istiqamət üzrə fikirlərimi bu gözəl gündə ifadə etmək istəyirəm.

Daxili siyasətlə bağlı deməliyəm ki, biz Azərbaycanda bundan sonra da sabitliyi qoruyacağıq. Sabitliyin təmin edilməsinin əsas şərti xalqla iqtidar arasındakı birlikdir. Bu da vardır. Azərbaycan bu gün nadir ölkələrdəndir ki, əsas mövzular ətrafında cəmiyyətdə heç bir fikir ayrılığı yoxdur. Əlbəttə ki, islahatların sürəti, çatışmayan cəhətlərin tezliklə aradan qaldırılması və bunun yolları, iqtisadi sahədə islahatlar, siyasətlə bağlı, xarici siyasətlə bağlı müxtəlif fikirlər ola bilər. Bu təbiidir. Ancaq ölkəmizin ümumi inkişafı ilə bağlı fikir ayrılığı yoxdur, o cümlədən daxili siyasətimizlə bağlı. Ona görə sabitliyin qorunması Azərbaycanda təbii bir prosesdir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan dövləti və hökuməti islahatları apararaq daha da yaxşı şərait yaratmaqla bu sabitliyi möhkəmləndirir. Dünyanın müxtəlif yerlərində sabitlik pozulduqda təhlil aparılır. Nə üçün belədir? Hansı səbəblər buna şərait yaradır? İnamsızlıq, idarəetmə qaydalarında kobud səhvlər, iqtisadi və sosial problemlər – bax, bunlar istənilən yerdə sabitliyi poza biləcək amillərdir.

Biz isə bütün məsələlərə düşünülmüş şəkildə yanaşırıq. Bizim əsas məqsədimiz Azərbaycanı daha da güclü dövlətə çevirməkdir, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaqdır. Biz daxili siyasətlə bağlı prinsipial xəttimizi bundan sonra da aparacağıq. İslahatlar dərinləşəcəkdir. Demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, azad cəmiyyətin formalaşması istiqamətində islahatlarımız davam etdiriləcəkdir. Bu islahatları kiminsə xoşuna gəlmək üçün deyil, gələcəyimiz üçün edirik, aparırıq və aparacağıq.

Bu gün Azərbaycan müasir dövlətdir və bu dövlətin çox möhkəm əsasları vardır. Bu əsaslar bizim milli dəyərlərimizdir, Azərbaycan dəyərləridir. Bu da çox önəmlidir. Daxili siyasətdə bu amil daim diqqət mərkəzindədir. Biz bundan sonra da ölkəmizin inkişafı üçün bütün tədbirləri görəcəyik. Biz bu möhkəm təməli daha da möhkəmləndirəcəyik.

Şadam ki, gənc nəsil də milli ruhda böyüyür, vətənpərvərlik ruhunda tərbiyə alır. Vətənpərvərlik ruhunda tərbiyə almaq üçün bütün imkanlar vardır. Çünki bu gün hər bir vətənpərvər insan fəxr edir ki, Azərbaycan kimi müasir və güclü dövlətin vətəndaşıdır. O dövlətin ki, öz vətəndaşlarını darda qoymur. O dövlətin ki, öz vətəndaşlarının arxasında dayanır. O dövlətin ki, öz vətəndaşlarının rifahı üçün əlindən gələni əsirgəmir. Milli dəyərlərin üzərində müasir dövlətin qurulması, əlbəttə ki, bu gün bizi fərqləndirən cəhətlərdən biridir.

Daxili siyasətlə bağlı islahatlar davam etdiriləcəkdir. Cəmiyyəti incidən, narazılıq yaradan xoşagəlməz hallara qarşı mübarizə daha da ciddi aparılacaqdır. Xüsusilə korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılmalıdır. Əlbəttə, son illərdə bu istiqamətdə çox böyük nailiyyətlər, uğurlar vardır. Bu bizi sevindirir, daha da ruhlandırır. Cəmiyyəti də ruhlandırır. Cəmiyyətdə bu işlərin aparılmasına böyük dəstək, inam vardır. Biz bu yolla gedəcəyik. Çünki Azərbaycanda xoşagəlməz hallar olmamalıdır. Azərbaycan cəmiyyəti nümunəvi cəmiyyət olmalıdır. Azad, müstəqil və güclü dayaqları olan cəmiyyət olmalıdır. Biz bu yolla gedirik və gedəcəyik.

Bizim xarici siyasətlə bağlı təşəbbüslərimiz gözəl nəticələr verir. Biz xarici siyasətdə ikitərəfli formata üstünlük veririk. Mən hesab edirəm ki, bu ən məqbul formatdır. Əlbəttə, digər formatlar da vardır. Onlardan da istifadə olunur. Ancaq ikitərəfli format ən böyük səmərə verən formatdır. Bütün ölkələrlə bizim yaxşı münasibətlərimiz vardır. Biz çalışırıq və çalışacağıq ki, ikitərəfli münasibətləri həm region ölkələri ilə, həm də başqa ölkələrlə inkişaf etdirək. Buna nail olmaq üçün böyük imkanlar vardır. O cümlədən bizim artan iqtisadi imkanlarımız və yeni investisiya siyasətimiz vardır. Biz artıq investisiyaları xarici ölkələrə yönəldirik. Beləliklə, xarici tərəfdaşlar üçün Azərbaycan təkcə bir siyasi mərkəz kimi yox, eyni zamanda, bir investisiya mənbəyi kimi də maraqlıdır.

İlk növbədə, qonşu ölkələrlə münasibətlər daha da möhkəm olmalıdır. Burada bizim bütün qonşu ölkələrlə, təbii ki, Ermənistan istisna olmaqla, fikirlərimiz üst-üstə düşür. Bütün qonşularla münasibətlər bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri üzərində qurulmuşdur. Gələcəkdə qonşu ölkələrlə əməkdaşlıq bizim xarici siyasətimiz üçün prioritet olaraq qalacaqdır. Böyük imkanlar vardır. Həm iqtisadi sahədə, həm də regional əməkdaşlıq sahəsində. Biz ikitərəfli formatdan maksimum dərəcədə fayda götürməliyik. Eyni zamanda, Azərbaycanın təşəbbüsü ilə artıq bir neçə üçtərəfli format da yaradılmışdır. Dünən Bakıda Azərbaycan, Türkiyə və Türkmənistan xarici işlər nazirlərinin birinci üçtərəfli görüşü keçirildi. Biz buna böyük əhəmiyyət veririk. Bundan əvvəlki dövrdə Azərbaycan–Türkiyə–Gürcüstan, Azərbaycan–Türkiyə–İran üçtərəfli formatları olmuşdur. Artıq bu formatlar fəaliyyət göstərir. Əlbəttə ki, hər 3 formatda Azərbaycan öz yerini tutur. Beləliklə, regional təhlükəsizlik, əməkdaşlıq, siyasi və iqtisadi maraqlarımızın təminatı üçün bu formatlar çox böyük məna daşıyır. Biz gələcəkdə bu üçtərəfli görüşləri, əlbəttə ki, davam etdirəcəyik. Bu, artıq mütəmadi xarakter alıbdır.

Biz beynəlxalq təşkilatlarda da fəal iştirak edirik və edəcəyik. Mən BMT-ni xüsusi vurğulamaq istəyirəm. Qeyd etmək istəyirəm ki, BMT dünyanın bir nömrəli təşkilatıdır, bütün dünyanı əhatə edir. BMT-də bizim mövqelərimiz kifayət qədər möhkəmdir və 155 ölkənin dəstəyi ilə Təhlükəsizlik Şurasına seçilməyimiz də bunu göstərir. Bundan sonra da öz fəaliyyətimizi davam etdirəcəyik. Biz digər təşkilatlarda da fəal iştirak edirik. «Qoşulmama Hərəkatı» BMT-dən sonra üzvlərinin sayına görə ikinci böyük təşkilatdır. Orada da bizim mövqemiz kifayət qədər möhkəmdir. Biz bu təşkilata üzv olandan dərhal sonra Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyən qətnamə də qəbul edilmişdir. İslam Əməkdaşlıq Təşkilatında biz çox fəal rol oynayırıq. Bakıda çoxsaylı

tədbirlər, nazirlər səviyyəsində tədbirlər keçirilir. Əlbəttə ki, İslam Əməkdaşlıq Təşkilatında bizim fəaliyyətimiz bundan sonra da uğurla davam etdiriləcəkdir. Çünki biz islam aləminin bir parçasıyıq. Bizim milli dəyərlərimizin təməlində islam dəyərləri dayanır. Eyni zamanda, Avropa Şurası ilə bağlı əməkdaşlıq üçün yaxşı imkanlar, perspektivlər vardır. Biz artıq Avropa Şurasına da sədrlik edirik. Əlbəttə ki, bu sədrlik növbəlilik əsasında olan sədrlikdir. Ona görə hesab etmirəm ki, biz bundan, necə deyərlər, xüsusi bir qürur hissi ilə danışmalıyıq. Sadəcə olaraq, növbəmiz gəlib çatıb. Ancaq hər halda, biz də bu imkanlardan səmərəli şəkildə istifadə edəcəyik. Avropada demokratiyanın inkişafı, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, islamofobiyaya qarşı mübarizəmiz daha da təsirli olacaqdır.

Əlbəttə ki, müxtəlif beynəlxalq təşkilatlarda üzvlüyümüz bizim siyasi maraqlarımıza xidmət göstərir. Biz bütün bu təşkilatlarda fəaliyyətimizi uğurla davam etdirəcəyik, prinsipial mövqemizi həmişə ifadə edəcəyik.

Əlbəttə, xarici siyasətimizin əsas məsələsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, Minsk qrupunun 20 ildən artıq fəaliyyətinə baxmayaraq, bu sahədə heç bir irəliləyiş olmamışdır. Ona görə ki, Ermənistan tərəfi bunu istəmir. Artıq heç kimə sirr deyil ki, məsələnin həll olunmaması Ermənistanın qeyri-konstruktiv mövqeyindən asılıdır. Ermənistan status-kvonu saxlamaq istəyir. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçıları status-kvonun qəbuledilməz olduğunu dəfələrlə demişlər, Ermənistan isə buna məhəl qoymur. Bu səbəbdən də məsələ öz həllini tapmır. Ancaq mən hesab edirəm ki, artıq münaqişənin həlli üçün bütün lazımi diplomatik və hüquqi əsaslar qoyulubdur və bu əsasları biz qoymuşuq. Çünki münaqişə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini tapa bilər. Beynəlxalq hüquq isə bizim mövqemizi dəstəkləyir və müdafiə edir. Ölkələrin ərazi bütövlüyü mübahisə mövzusu deyil, o cümlədən Azərbaycanın ərazi bütövlüyü mübahisə

mövzusu deyildir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar predmeti olmamışdır və olmayacaqdır. Münaqişə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında öz həllini tapmalıdır. Başqa həll variantı yoxdur. Biz imkan verməәrik ki, öz ərazimizdə ikinci qondarma erməni dövlətini yaratsınlar. Birinci erməni dövləti bizim ərazimizdə, qədim Azərbaycan torpağında – İrəvan, Göyçə, Zəngəzurda qurulubdur. İkinci erməni dövləti olmayacaqdır. Heç vaxt qondarma Dağlıq Qarabağa heç bir hüquqi status verilməyəcəkdir. Beləliklə, məsələnin həlli üçün hüquqi və diplomatik əsaslar vardır. Bu əsaslar kifayət edirmi ki, məsələ öz həllini tapsın? Yox! Əgər kifayət etsəydi, məsələ öz həllini tapardı. Əlavə nə edilməlidir ki, məsələ öz həllini tapsın?! Biz bunu da çox yaxşı bilirik. Əlavə – iqtisadiyyat daha da güclü olmalıdır. Biz Ermənistanı bundan sonra da mümkün qədər təcrid vəziyyətində saxlamalıyıq. Halbuki indi tam təcrid deyil və onun digər ölkələrlə qapıları açıqdır. Ancaq biz Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bunun nəticəsində Ermənistandan kütləvi köç müşahidə olunur. Onların statistik məlumatlarına əsasən ölkədən hər il 80–90 min insan həmişəlik gedir və gedəcəkdir. Nə qədər ki, Ermənistanın rəhbərliyində kriminal, korrupsiyalaşmış diktatura rejimi varsa, o qədər də tez Ermənistanın vəziyyəti daha da ağır olacaqdır. Ona görə əgər erməni xalqı qonşularla mehribanlıq şəraitində yaşamaq istəyirsə, ilk növbədə, kriminal, qaniçən, qanunsuz rejimdən imtina etməlidir, onları tarixin arxivinə göndərməlidir. Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır ki, bir qədər nəfəs ala bilsin. Əks təqdirdə bu ölkənin taleyi çox qaranlıq olacaqdır.

Biz isə öz səylərimizi davam etdirəcəyik. Biz heç vaxt indiki vəziyyətlə barışmayacağıq. Orduya daha da böyük dəstək veriləcəkdir, daha da böyük vəsait ayrılacaqdır. Bu gün dünyada və bölgədə gedən proseslər bir daha onu göstərir ki, ordu quruculuğuna ayrılan böyük diqqət müstəqilliyimizin əsasıdır.

Biz gələcək illərdə hərbi potensialımızın gücləndirilməsi üçün nə qədər lazımsa, o qədər vəsait ayıracağıq, ən müasir texnika alınır və alınacaqdır. Azərbaycan Ordusu dünya miqyasında texniki təchizat baxımından güclü ordular sırasındadır. Ordu quruculuğunda, orduda gedən islahatlar bizim döyüş qabiliyyətimizi artırır, orduda nizam-intizam möhkəmlənir, struktur islahatları aparılır, təmas xəttində əlavə işlər görülür və görüləcəkdir.

Biz həmsədr ölkələrdən etimad tədbirləri haqqında dəfələrlə eşidirik. Ən gözəl etimad tədbiri erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasıdır. Başqa etimad tədbiri ola bilməz. Nə qədər ki, torpaqlarımız işğal altındadır, müharibə bitmiş hesab oluna bilməz. Mən dəfələrlə demişəm ki, müharibə davam edir. Müharibənin birinci mərhələsi başa çatıbdır. Əgər Ermənistan istəmirsə ki, ikinci mərhələ başlasın, onda düzgün nəticə çıxarsın, işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxsın. Bəlkə bu halda gələcəkdə müstəqil erməni dövləti xəritədə qala bilər. Halbuki bu gün də erməni dövlətini müstəqil adlandırmaq olmaz. Bir sözlə, biz bundan sonra da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində prinsipial mövqemizdən dönməyəcəyik və bütün imkanlardan istifadə edib Ermənistanı işğalçı, kriminal ölkə kimi ifşa edəcəyik.

İqtisadi siyasətimizlə bağlı proqramlar dərc edilib. «Azərbaycan – 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası dərc edilibdir. Bu barədə çox danışmaq istəməzdim. Sadəcə, onu demək istəyirəm ki, 2020-ci ilə qədər və bəlkə də ondan da tez ölkəmizdə mövcud olan bütün əsas infrastruktur layihələri başa çatmalıdır. Proqramlar var, büdcədə vəsait var və biz bunu edəcəyik.

Qeyri-neft sektorunun inkişafı bizim diqqətimizi daha çox cəlb edir. Bu istiqamətdə də bizim verdiyimiz bütün tapşırıqlar yerinə yetirilir. Qeyri-neft sektorumuz hər il təxminən 10 faiz artır. Əgər bu, növbəti illərdə davam edərsə – buna mən şübhə etmirəm – o zaman iqtisadiyyatımızın şaxələndirilməsi tam təmin ediləcəkdir.

Nəhayət, enerji təhlükəsizliyi barədə bir-iki kəlmə demək istərdim. Azərbaycan artıq özü üçün enerji təhlükəsizliyi məsələlərini çoxdan həll edibdir. Başqa ölkələrin enerji təhlükəsizliyinə töhfə verir. Bu gün bizim qarşımızda duran əsas layihə TANAP layihəsidir. Bu layihənin də təşəbbüskarı biz olmuşuq. 2012-ci ildə Türkiyə və Azərbaycan arasında saziş bağlamışıq. Bu da «Cənub Qaz Dəhlizi»nin yaradılması işində dönüş nöqtəsi olmuşdur. Çünki o vaxta qədər, təqribən 7-8 il ərzində ancaq danışıqlar gedirdi və «Cənub Qaz Dəhlizi»nin yaradılması üçün kifayət qədər beynəlxalq səylər göstərilməmişdi. Biz vəziyyəti təhlil etdik və gördük ki, belə davam edərsə, bu danışıqlar hələ bir 10 il də davam edəcək, heç bir fayda vermədən. Ona görə də məsuliyyəti və təşəbbüsü öz üzərimizə götürərək, çox düşünülmüş addım atdıq. TANAP layihəsi bu gün bölgənin enerji xəritəsini dəyişdirən bir layihədir. Azərbaycan bu layihənin əsas səhmdarıdır, əsas təşəbbüskarıdır və əsas icraçısıdır. Əminəm ki, bu qlobal layihə vaxtında – 2018-ci ilə qədər icra ediləcəkdir. Bunu etmək üçün bütün imkanlarımız – həm maliyyə, həm də texniki imkanlarımız vardır. Bizim peşəkar mütəxəssislərimiz vardır. Bu layihəni icra etmək üçün bizim siyasətimiz davam etdirilməlidir.

Azərbaycan seçdiyi yolla getməlidir və gedəcəkdir. Bizim yolumuz azadlıq yoludur, inkişaf yoludur, müstəqillik yoludur. Biz müstəqillik illərində sübut etmişik ki, müstəqil ölkə kimi yaşaya bilərik, yaxşı yaşaya bilərik, inkişaf edə bilərik. Ən böyük sərvətimiz olan müstəqilliyimizi bundan sonra da qorumalıyıq və qoruyacağıq. Sağ olun!

* * *

*Daha sonra prezident İlham Əliyevin mayın 27-də imzaladığı sərəncamla 2014-cü il üçün elm, mədəniyyət və ədəbiyyat sahələrində Dövlət mükafatlarının təqdimat mərasimi oldu.*

*Mədəniyyət sahəsində mükafat Azərbaycan təsviri incəsənətinin inkişafındakı xidmətlərinə görə Oqtay Sadıxzadəyə, konsert ifaçılıq fəaliyyətinə görə isə Ramiz Quliyevə verildi.*

**R a m i z  Q u l i y e v** *(Xalq artisti):* Əziz və möhtərəm cənab Prezident!

Çox hörmətli Mehriban xanım!

Hörmətli xanımlar və cənablar!

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Azərbaycan Respublikası Günü – milli bayramımız günündə Azərbaycan Respublikasının Dövlət mükafatını mənə bizim çox əziz, sevimli, möhtərəm Prezidentimiz təqdim etdi.

Bu mənim üçün çox böyük şərəfdir. Bu mükafatı mənim timsalımda Azərbaycan tarına, Azərbaycan tar ifaçılığına və uzun illər, əsrlərboyu inkişaf edə-edə gəlib bu gün öz halal yerini, yüksək zirvəsini tutan tar sənətinə, tar ifaçılığına verilən mükafat hesab edirəm, möhtərəm cənab Prezident.

Dünya ölkələrində çoxlu sayda tar vardır. Amma, möhtərəm cənab Prezident, Azərbaycan tarından dünyada yoxdur. Bu Sizin apardığınız çox yüksək, gözəl siyasət və bizim hamımızın əzizi olan unudulmaz Heydər Əliyevin adını daşıyan Fondun rəhbəri çox hörmətli Mehriban xanımın gördüyü işlər nəticəsində sübut olundu.

Bu gün tarımızın səsi dünya səhnələrindən gəlir, böyük orkestrlərdə ifa olunur. Azərbaycan tarının məhz dünya musiqi alətləri içərisində ilk dəfə olaraq YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi Azərbaycan dövlətinin, Azərbaycan hökumətinin və şəxsən hörmətli Mehriban xanımın çox böyük cəsarəti, şəxsi nüfuzu hesabına başa gəlmişdir.

Möhtərəm cənab Prezident, mən bu gün çox həyəcanlıyam və çox sevinirəm. Ona görə ki, bizim hamımız üçün, şəxsən mənim üçün xatirəsi çox əziz olan unudulmaz böyük tarixi şəxsiyyət Heydər Əliyevin siyasi kursu uğurla davam edir. Onun Azərbaycan milli musiqisinə, mədəniyyətimizə, incəsənətimizə, bütün sahələrə göstərdiyi qayğı doğrudan da uğurla davam etdirilir.

*Ramiz Quliyev bu gün ölkəmizdə bütün sektorlarda müşahidə olunan inkişafın mədəniyyət sahəsini də əhatə etdiyini bildirdi. Qeyd etdi ki, bu inkişaf istedadlı gənc nəslin yetiş-*

*məsinə töhfə verir. Bundan əlavə, xalqımızın milli-mənəvi dəyərlərinin dövlət səviyyəsində qorunmasının, bu istiqamətdə mühüm tədbirlərin görülməsinin sənət adamlarını daha da ruhlandırdığını vurğulayan Ramiz Quliyev dedi:*

– Bu məsuliyyəti dərk edərək, Sizə söz verirəm ki, neçə-neçə belə tarzənlər yetişəcək və verdiyiniz bu qiymət üzü Mirzə Sadıq Əsəd oğlundan – Sadıqcandan bəri bu günə qədər fəaliyyət göstərən bütün tarzənlərin sənətinə və fəaliyyətinə verilən qiymətdir. Siz tarımızı, mədəniyyətimizi qorudunuz. Allah Sizi qorusun, Allah Sizi bizim xalqımıza və tarımıza, sənətimizə, mədəniyyətimizə çox görməsin! Sizə və möhtərəm Mehriban xanıma tarımız qədər ömür arzulayıram. Allah Sizi qorusun! Var olun, minnətdaram, möhtərəm cənab Prezident!

*Elm sahəsi üzrə Dövlət mükafatı «Hidrogen peroksidlə koherent-sinxronlaşmış oksidləşmə reaksiyaları» monoqrafiyasına görə Tofiq Nağıyevə təqdim edildi.*

*Bu diqqətə görə Dövlət mükafatı laureatı prezident İlham Əliyevə təşəkkür etdi.*

**T o f i q N a ğ ı y e v:** Çox hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün mənim çox xoşbəxt günümdür. Ona görə ki, cənab Prezident, Siz elm sahəsində olan yüksək Dövlət mükafatını mənə təqdim etdiniz. İcazə verin, mən Sizə öz dərin minnətdarlığımı bildirim.

Cənab Prezident, Siz Azərbaycan elminin nüfuzunun artmasına böyük qayğı göstərirsiniz. Bu Sizin elmə, təhsilə və yüksək mədəniyyətə söykənən missiyanızın, böyük maarifçiliyə vurğunluğunuzun təcəssümüdür. Biz alimlər isə Sizin etimadınızı doğrultmağa çalışırıq. Çox sağ olun, cənab Prezident!

*Ədəbiyyat sahəsi üzrə Dövlət mükafatı «Heydər Əliyev. Şəxsiyyət və zaman» altıcildlik sənədli-bioqrafik kitabına görə Elmira Axundovaya təqdim olundu.*

*Bu mükafatı almaqdan şərəf hissi duyduğunu, yaradıcı insanlar üçün bunun böyük dəyər olduğunu deyən Elmira*

*Axundova 2003-cü ildən üzərində işlədiyi «Heydər Əliyev. Şəxsiyyət və zaman» altıcildliyinin ötən il Heydər Əliyev Mərkəzində uğurla təqdim olunduğunu bildirərək dedi:*

– Gərgin işlə, düşüncələrlə, daimi axtarışlarla, müxtəlif insanlarla söhbətlərlə, dahi Heydər Əliyevə hədsiz sevgi, məhəbbət və ehtiramla dolu bu illər ərzində mən ilk növbədə, doğrudan da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqətini daim hiss etmişəm, onun mənə olan inamına arxalanmışam. Məhz cənab İlham Əliyevin icazəsi ilə mənə Heydər Əliyevin şəxsi arxivində işləmək kimi çox böyük bir xoşbəxtlik nəsib olmuşdur. Mən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və Fondun vitse-prezidenti Leyla Əliyevaya çox minnətdaram. Çünki məhz onların göstərişi, onların icazəsi ilə kitabın təqdimatları ayrı-ayrı illərdə nəinki respublikamızda, xarici ölkələrdə də çox yüksək səviyyədə təşkil olunmuş və dünya ictimaiyyəti artıq bu kitabla tanış olmağa başlamışdır.

Mən Heydər Əliyevin yaxınlarına, doğmalarına minnətdaram. Çünki onların dəyərli xatirələri bu kitabı zənginləşdirdi və ümumiyyətlə, burada, bu zalda əyləşən insanlar bütün bu illər ərzində mənə dəstək olublar. Prezidentimiz başda olmaqla, onlara hədsiz minnətdarlığımı bildirirəm. Çünki onlarsız bu kitab olmazdı. Çox sağ olun! Mən sizin qarşınızda baş əyirəm!

*Elmira Axundova yeni cildlərin hazırlanması ilə bağlı işlərin davam etdirildiyini bildirdi. Növbəti mərhələdə bu kitabların xarici dillərə tərcümə edilərək dünyada yayılmasının diqqət mərkəzində olacağını vurğulayan Elmira Axundova dedi:*

– Mənim sevimli qəhrəmanımın məşhur bir kəlamını xatırlatmaq istəyirəm: «Mən ömrümün qalan hissəsini öz xalqıma bağışlayıram». Mən də Sizə söz verirəm ki, etimadınızı doğruldacağam və ömrümün qalan hissəsini də Heydər Əliyevin ölməz obrazının ədəbiyyatda, publisistikada, bəlkə də kinoda bədii təcəssümünə həsr edəcəyəm. Çox sağ olun!

* * *

*Rəsmi qəbul incəsənət ustalarının maraqlı konsert proqramı ilə davam etdirildi.*

**UKRAYNA RESPUBLİKASININ
YENİ SEÇİLMİŞ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB PYOTR POROŞENKOYA**

Hörmətli cənab Prezident!

Ukraynada keçirilmiş prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan ilə Ukrayna arasında mövcud dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın və ölkələrimizin maraqlarına uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə cansağlığı, gələcək işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 may 2014-cü il*

## NEFTÇALA RAYONUNA SƏFƏR

*28 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Neftçala rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində yeni ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev prezident İlham Əliyevə abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ NEFTÇALA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Neftçalada Heydər Əliyev Mərkəzinin açılışı mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*Müstəqilliyimizin daimi, əbədi, dönməz olmasında, dövlətçiliyimizin möhkəmlənməsində, respublikamızın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsi Azərbaycanın hər yerində əziz tutulur, böyük hörmət və rəğbətlə anılır. Ulu öndərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə bütün bölgələrdə mühüm işlər görülür, vacib layihələr reallaşdırılır. Bu tədbirlər sırasında dahi şəxsiyyətin adını daşıyan, onun siyasi irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən mərkəzlərin rolu böyükdür.*

*Belə mərkəzlərdən biri də Neftçalada yaradılıb. Orijinal layihə əsasında tikilən Mərkəz ümummilli lider Heydər Əliyevin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir. Burada dahi rəhbərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar sərgilənir. Müstəqilliyin möhkəm dayaqlar üzərində bərqərar olması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, ölkəmizin indi bütün sahələrdə qazandığı uğurlar ulu öndərin adı ilə bağlıdır. Müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısını alan, iqtisadiyyatı ağır böhran vəziyyətindən xilas edərək inkişaf yoluna çıxaran, qüdrətli ordu quruculuğu istiqamətində tarixi işlər görən ümummilli liderin xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır. Belə mərkəzlərin*

yaradılması isə dahi rəhbərin siyasi irsinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Mərkəzin tikintisinə 2012-ci ildə başlanılıb. Binanın ətrafında geniş abadlıq-quruculuq işləri görülüb. Müasir interyeri ilə diqqəti cəlb edən foyedə ümummilli liderin büstü qoyulub. Mərkəzdə yaradılan Heydər Əliyev Muzeyində ulu öndərin müxtəlif dövrlərdə, o cümlədən Neftçala rayonuna səfərləri zamanı çəkilən fotoları nümayiş olunur. Bundan başqa, muzeydə ümummilli lider Heydər Əliyev ilə bağlı kitablar, sənədlər və digər maraqlı eksponatlar sərgilənir.

Mərkəzdə elektron kitabxana, xalçaçılıq və toxuculuq, rəqs və xalq çalğı alətləri dərnəkləri fəaliyyət göstərəcəkdir. Bu dərnəklər gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtının səmərəli təşkil edilməsinə geniş imkanlar yaradır. Mərkəzdəki xarici dil kursları, 3D kinozalı, olimpiya və interaktiv tirlər, intellektual oyun zalı, fotostudiya da müasirliyi ilə diqqəti cəlb edir. Müasir akustik sistemlə təchiz edilən 400 yerlik konfrans zalında Neftçala rayonunun ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək mümkün olacaqdır.

Qeyd edildi ki, Mərkəzdə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili də nəzərdə tutulur. Binada prezident İlham Əliyevin Neftçalaya səfərlərini əks etdirən fotolardan ibarət stend də maraq doğurur. Mərkəzin tikintisində şəhərsalma memarlığının son nailiyyətlərindən istifadə olunub. Burada sərgi salonu, kafe, istirahət otağı və digər yardımçı otaqlar vardır.

Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxış etdi.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

İlk növbədə, sizi Respublika Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu gün böyük bayramdır, Respublika Günüdür, Müstəqillik Günüdür. Dünən Bakıda təntənəli tədbir keçirilmişdir və bu gün bu bayramı qeyd etmək üçün mən Neftçalaya gəlmişəm. Bu gün – bu gözəl bayram günündə Heydər Əliyev Mərkəzi açılır. Bu hadisə də rəmzi xarakter daşıyır. Çünki bizim müstəqilliyimizin banisi məhz Heydər Əliyevdir. Məhz onun fəaliyyəti, səyləri nəticəsində Azərbaycan dövlət müstəqilliyini möhkəmləndirdi və 20 ildən artıqdır ki, uğurla inkişaf edir.

Bu gözəl Mərkəz göz oxşayır. Həm xarici görünüşü, həm daxili dizaynı çox gözəldir, zövqlə tikilib. Eyni zamanda, bu Mərkəzin funksional cəhəti də çox müsbətdir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün gözəl şərait var, dərnəklər, xarici dil kursları, kompüter mərkəzi fəaliyyət göstərəcəkdir. Bir sözlə, bu Mərkəz doğrudan da bir mərkəz olacaqdır. Əminəm ki, Neftçala rayon sakinləri, gənclər bu Mərkəzdən səmərəli şəkildə istifadə edəcəklər.

Neftçalanın bu hissəsi abadlaşır, gözəlləşir, rayon mərkəzində quruculuq işləri aparılır. İstərdim ki, hər bir kənddə də işlər bu səviyyədə olsun. Bizim əsas məqsədimiz də bundan ibarətdir. Çünki regional inkişaf proqramlarının qəbulu məhz bu məqsədi daşıyırdı. Hər bir rayonda inkişaf olmalıdır. Hər bir rayonda, hər bir kənddə quruculuq işləri aparılmalıdır.

Biz bu gün – Müstəqillik Günündə görülən işlərə bir daha qiymət veririk və görüləcək işlər haqqında da, əlbəttə ki, öz fikirlərimizi ifadə edirik. Mən dünən rəsmi qəbulda gələcək planlarımız haqqında fikirlərimi bildirdim, onları təkrarlamaq istəmirəm. Sadəcə olaraq, bu gün burada olarkən bir daha regionların inkişafı ilə bağlı bir neçə kəlmə demək istəyirəm. Qəbul edilmiş proqramlar icra olunur. Bu çox müsbət haldır. Deyə bilərəm ki, 2 proqram artıqlaması ilə icra edilmişdir. İndi 3-cü proqram icra edilir, 2018-ci ilə qədər tamamilə icra

olunacaq və o vaxta qədər bütün rayonlarımızda əsas infrastruktur layihələri başa çatmalıdır. Əminəm ki, biz buna nail olacağıq. Çünki bunlar çox konkret proqramlardır. Proqramların icrası üçün maddi təminat da vardır. Bu gün Azərbaycanın maliyyə vəziyyəti elədir ki, biz istənilən layihəni özümüz icra edə bilərik və edirik. Bunun üçün dövlət büdcəsindən vəsait ayrılır, regionların inkişafı ilə bağlı nəzərdə tutulmuş məsələlər öz həllini tapır. Əsas məsələ ondan ibarətdir ki, bütün işlər vaxtında və keyfiyyətlə görülsün. Əminəm ki, biz buna nail olacağıq və artıq bütün bölgələrdə infrastruktur layihələri 2018-ci ildə başa çatacaqdır. O cümlədən Neftçala rayonunda da həllini gözləyən layihələr icra edilir və ediləcəkdir.

İlk növbədə, yolların tikintisi diqqət mərkəzində olmalıdır. Bu məqsədlə 2 il bundan əvvəl burada bir neçə kəndi birləşdirən yolun tikintisinə vəsait ayrılmışdır və o layihə icra edilib. Salyan–Neftçala avtomobil yolunun əsaslı təmiri nəzərdə tutulur. İndi cari təmir aparılmışdır, ancaq bu yol əsaslı təmir olunacaqdır və biz yaxın zamanlarda buna da başlayacağıq. Bakı–Salyan yolunun böyük hissəsi artıq istifadəyə verilib, dördzolaqlı çox gözəl yoldur. Yəni buradan həm Bakı, həm digər rayonlarla əlaqələr daha da möhkəm olacaqdır. Kənd yollarının tikintisi də gündəlikdə duran məsələdir. Biz bütün rayonlardan, həm yerli icra orqanlarından, eyni zamanda, vətəndaşlardan təkliflər almışıq. Neftçalada böyük bir yol layihəsinin icrası həllini gözləyir. Bu da 61 kilometr uzunluğunda, təqribən 20-dən çox kəndi birləşdirən bir yol olacaqdır. Beləliklə, həm o yol, həm də hazırda icra edilmiş yol layihələri, demək olar ki, kənd yolları problemini bütünlüklə həll edəcəkdir.

Digər məsələlər də, digər problemlər də vardır. Siz onları yaxşı bilirsiniz, mən də bilirəm. Biz onları da tədricən həll edirik. Burada əsas problem içməli su məsələsidir. Biz çalışmışıq ki, son illər ərzində bu məsələni tədricən həll edək. 20-dən çox kənddə təmizləyici qurğular quraşdırılmışdır və bu

qurğular əhalinin təxminən 50 faizini təmin edir. Ancaq biz Neftçala sakinlərini təmiz içməli su ilə tam şəkildə təmin etməliyik və bunu edəcəyik. Layihələr hazırlanır, yəqin ki, yaxın vaxtlarda onların icrasına başlanılacaqdır. Modul tipli layihələr də, əlbəttə ki, davam etdiriləcəkdir. Ancaq şəhərin yeni şəbəkəsi qurulmalıdır. Yeni mənbələr aşkar edilməlidir və infrastruktur işləri aparılmalıdır. Bu, gündəlikdə duran məsələdir və bu məsələ öz həllini tapacaq.

Qazlaşdırma ilə bağlı problemlər vardır. O mənada ki, Neftçala rayonu hələ 100 faiz qazlaşdırılmayıb. Təxminən 50 faiz qazlaşdırılıb. Əhalinin 50 faizi qazla təmin edilir. Neftçala rayonunda qazlaşdırma 100 faiz olmalıdır və qarşıya belə vəzifə qoyulub. Hesab edirəm ki, bu məsələlərlə məşğul olan dövlət qurumları bu işləri daha da sürətlə aparmalıdır.

Sosial infrastrukturun yaradılması, əlbəttə, daim diqqət mərkəzindədir. Mərkəzi Xəstəxanada təmir işləri başlanır, vəsait ayrılıbdır. Yeni Olimpiya Kompleksi tikiləcəkdir. Məktəblər təmir edilir, tikilir. Yəni bütün bu sosial və infrastruktur məsələlərinin həlli gündəlikdədir. Biz bu məsələləri bilirik, onları icra edirik və edəcəyik.

Şübhəsiz ki, Neftçala rayonunda yeni iş yerlərinin açılması da çox vacib məsələdir. Burada bir neçə müəssisə fəaliyyət göstərir. Ancaq hesab edirəm ki, onların sayı daha da çox olmalıdır. Xüsusilə nəzərə alaq ki, bu il «Sənaye ili» elan edilmişdir. «Sənaye ili»nin xüsusiyyəti ondan ibarətdir ki, bu sahəyə daha da böyük diqqət göstərilir. Bizim bir neçə böyük sənaye mərkəzimiz vardır və onların inkişafı, əlbəttə ki, prioritet xarakter daşıyır. Mən göstəriş vermişəm ki, hər bir rayonda sənaye zonaları yaradılsın. Hər bir rayonun xüsusiyyətlərinə görə bu zonalarda müxtəlif istehsalat sahələri yaradılsın. O cümlədən Neftçala rayonunda da belə zona olmalıdır. Yəqin ki, ictimaiyyət və rayon rəhbərliyi o yerləri müəyyən edəcəkdir. Orada dövlət hesabına infrastruktur layihələri icra olunacaqdır. Bütün kommunikasiyalar çəkiləcək və sahibkarlara şərait yaradılacaqdır ki, onlar orada öz sənaye müəssisələrini qursunlar.

Dövlət də öz tərəfindən maliyyə dəstəyini göstərəcəkdir. Çünki sahibkarlığın inkişafı üçün hər il dövlət büdcəsindən təxminən 300 milyon manat güzəştli şərtlərlə kreditlər verilir və bu, özəl sahibkarlığı stimullaşdırır.

Son illər bölgələrin qeyri-neft sektorunun inkişafı sahəsində böyük işlər görülüb. Bu bizə bu gün iqtisadiyyatımızın böyük hissəsinin qeyri-neft sektorunda formalaşmasına imkan verib. Bu, böyük nailiyyətdir və çalışmalıyıq ki, qeyri-neft sektoru, sahibkarlıq, kənd təsərrüfatı sahələrində daha da böyük uğurlara nail olaq. Buna nail olmaq üçün bütün imkanlar vardır – dövlət siyasəti, maliyyə resursları, sahibkarlığa dəstək siyasəti. Əlbəttə ki, yerlərdə təşəbbüs də göstərilməlidir. İctimaiyyət, iş adamları, rayon rəhbərliyi burada vahid mövqe göstərməlidirlər. Belə olan halda hər bir rayonda güclü sənaye inkişaf edəcək. Bu bizim siyasətimizdir, arzumuzdur, belə də olacaqdır. Çünki bizim bütün proqramlarımız yerinə yetirilir. Bir dənə də proqram yarımçıq qalmamışdır. O cümlədən regional inkişaf proqramları, dediyim kimi, artıqlaması ilə icra edilib.

Üçüncü proqram qəbul edilərkən yerlərdən təkliflər verilmişdir. Bu təkliflər əsasında proqram tərtib olunub, dərc edilib və yəqin ki, siz də tanışsınız. Çünki hər rayon üzrə görüləcək işlər orada göstərilibdir. Bax, budur bizim gələcəklə, regionların inkişafı ilə bağlı olan yanaşmamız.

Əminəm ki, biz bundan sonra da ölkəmizin sürətli inkişafını təmin edəcəyik. Müstəqilliyimiz möhkəmdir, Azərbaycan inkişaf edir, taleyimiz öz əlimizdədir. Müstəqillik dövrü bir daha onu göstərir ki, xalqımız ancaq müstəqil olan zaman uğurla inkişaf edə bilər.

Bu gün Azərbaycan dünya miqyasında seçilən ölkələrdəndir ki, burada inkişaf var, sabitlik hökm sürür, biz vətəndaş həmrəyliyi şəraitində yaşayırıq. Bizim məqsədimiz də birdir – ölkəmizi daha da inkişaf etdirmək, gücləndirmək, daha da güclü Azərbaycan yaratmaq. Biz bu məqsədə doğru uğurla gedirik. Əgər hər bir bölgədə və hər bir kənddə bütün məsələlər öz həllini taparsa, onda ölkənin bütün məsələləri həll olunacaqdır.

Mən sizi bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edir, sizə yeni uğurlar arzulayıram.

**R u h ə n g i z  N ə c ə f o v a** *(rayon sakini):* Möhtərəm cənab Prezident, icazə verin, Sizi bütün neftçalalılar adından ürəkdən salamlayım. Xoş gəlmisiniz! Bu gün ümummilli lider, tarixi şəxsiyyət Heydər Əliyevin adını daşıyan Mərkəzin açılışındayıq. Hər bir azərbaycanlı yaxşı bilir ki, Heydər Əliyev bütün ömrü boyu xalqına, Vətəninə xidmət etmişdir. Onun qoyduğu möhkəm əsaslar Azərbaycanımızı güclü və qüdrətli bir dövlət kimi dünyaya tanıtmışdır. Ulu öndərimiz tərəfindən atılmış qətiyyətli addımlar, irəli sürülmüş təkliflər isə artıq bu gün öz reallığını tapıb. Daim yaşayacaq bir Azərbaycan dövləti yaradılmışdır.

Bizim bir nömrəli borcumuz, vəzifəmiz ondan ibarətdir ki, yetişməkdə olan gənc nəslə, bütün insanlarımıza bu həqiqətləri dönə-dönə, yorulmadan çatdıraq. Əgər Heydər Əliyev olmasaydı, bugünkü Azərbaycanımız olmazdı. Əgər o, hakimiyyətə gəlməsəydi, bugünkü müstəqilliyimizdən, güclü iqtisadiyyatımızdan danışmağa belə, dəyməzdi. Xoşbəxtik ki, Siz də onun yolu ilə gedirsiniz, ölməz ideyalarını inkişaf və davam etdirirsiniz. Məhz bunun nəticəsidir ki, Azərbaycan öz tarixində heç vaxt bu qədər güclü, qüdrətli və müstəqil olmamışdır.

Sizin Neftçalaya bugünkü gəlişiniz əlamətdar bir günə – 28 May – Respublika Gününə təsadüf edir. Düzdür, o zamanlar müstəqilliyimiz uzunmüddətli olmadı. Ulu öndərimizin sözləri ilə desək, «Müstəqilliyin əldə olunması nə qədər çətin bir işdirsə, onun qorunub saxlanılması, daimi və əbədi olması bir o qədər çətindir».

Amma bugünkü müstəqilliyimiz mütləqdir, əbədidir, daha heç kəsdən asılı deyilik, daha heç kəsə möhtac deyilik və bu müstəqillik bizim üçün böyük sərvətdir, nemətdir. Biz ölkə həyatında hər gün yeniliklərin şahidi oluruq və bu yeniliklərin təməlində Azərbaycan vətəndaşları – hər birimiz dayanırıq. Hər birimiz Sizin bizə diqqət və qayğınızı hər an, hər saat hiss edirik.

Sizin göstərişinizlə bütün ölkə vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi bunun bariz nümunəsidir. Dünyada ikinci belə bir dövlət varmı? Əlbəttə, yoxdur. Artıq on minlərlə neftçalalı pulsuz tibbi müayinədən keçmişdir. Ehtiyacı olanlar isə ambulator və stasionar müalicə almışlar. Bütün bunlara görə Sizə neftçalalıların adından dərin minnətdarlığımızı bildiririk.

Milli-mənəvi dəyərlərə malik sağlam əqidəli vətəndaşların yetişdirilməsi də diqqətinizdən heç zaman yayınmamışdır. İndiki gənclərin maraqları da dəyişib. Onlar azad ölkədə azad düşüncəyə malikdirlər. Biz pedaqoqların birinci vəzifəsi ondan ibarətdir ki, gənclərimizi azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tərbiyə edək. Yaratdığınız Mərkəz bu işdə bizim ən yaxın köməkçimiz olacaqdır. Əlbəttə, bu Mərkəzdə təşkil olunan dərnəklər, birliklər gənclərə öz aralarında sıx ünsiyyətin qurulmasına kömək edəcək, onlara öz şəxsi maraqlarına uyğun məşğuliyyət tapmaqda, asudə vaxtlarını səmərəli təşkil etməkdə yardımçı olacaqdır. Təqdirəlayiq haldır ki, ölkəmizin müasir tarixinin 2 mövzusu məhz Heydər Əliyev mərkəzlərində tədris olunmuşdur. Bu isə gənclərimizdə Vətənə sonsuz sədaqət, sevgi, vətənpərvərlik hisslərinin daha da güclənməsinə və formalaşmasına təkan verəcəkdir.

Xalqımız ulu öndər Heydər Əliyevin xatirəsini həmişə uca tutacaqdır. Təsadüfi deyildir ki, əlamətdar günlərdə insanlarımız ulu öndərimizin abidəsini ziyarət edir, önünə gül dəstəsi qoyurlar. Son dövrlərdə isə Heydər Əliyev mərkəzlərində maraqlı bir ənənənin şahidi olmuşuq. Gənc ailələr məhz bu mərkəzlərdə nikah bağlayırlar. Bunun da rəmzi mənası vardır. Çünki bu, Heydər Əliyevin öz Vətənini, xalqını, ailəsini sevmək nümunəsidir və biz gənclər bundan nümunə götürürük.

Möhtərəm cənab Prezident, müstəqil Azərbaycanımızın bütün bölgələri kimi, Neftçala da gündən-günə böyüyür, gözəlləşir. Yaradılan müəssisələr, iş yerlərinin açılması, yoxsulluğun aradan qaldırılması, abadlıq, quruculuq – bütün bunların hamısı neftçalalılara xoş ovqat və sakit yaşayış tərzi bəxş

etmişdir. Güzəranımız, şəraitimiz yaxşılaşdıqca arzularımız, istəklərimiz də bir qədər böyüyür.

Fürsətdən istifadə edib, biz pedaqoqların adından Sizə kiçik bir xahişimizi çatdırmaq istərdim. Neftçalada fəaliyyət göstərən Uşaq incəsənət məktəbinin binası keçən əsrin 50-ci illərində inşa edilmişdir. Artıq bu bina müasir tələblərə cavab vermir. Sizdən çox xahiş edirik ki, bu binanın yenidən qurularaq gənclərin, uşaqların ixtiyarına verilməsi üçün göstəriş verəsiniz.

Möhtərəm cənab Prezident, Sizi yenə də bütün neftçalalılar adından ürəkdən, səmimi-qəlbdən təbrik edirəm. Bayramınız mübarək olsun! Sizə minnətdarlığımızı, təşəkkürlərimizi çatdırıram. Azərbaycanın çiçəklənməsində Sizinlə bərabər xidmətləri olan Mehriban xanıma, bütün ailə üzvlərinizə uğurlar, cansağlığı diləyirəm. Tanrı Sizi qorusun!

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Əlbəttə, rayonun inkişafı üçün bütün lazım olan tədbirlər görüləcəkdir. Əlbəttə, Uşaq incəsənət məktəbinin binası da təmir ediləcəkdir. Bütövlükdə, Neftçala rayonunun hərtərəfli inkişafı üçün əlavə tədbirlər görüləcəkdir!

Siz də çox vacib məsələlərə toxundunuz – gənclərin tərbiyəsi. Gənclər indi azad ölkədə yaşayırlar. Onların xoşbəxtliyi ondan ibarətdir ki, bugünkü gənclər gözlərini açan kimi, müstəqillik görmüşlər və müstəqillik, azadlıq şəraitində yaşayırlar. Biz keçmiş dövrü də görmüşük, xatırlayırıq. Müqayisə aparmaq üçün, əlbəttə ki, imkanlar kifayət qədər genişdir. Müqayisə apararkən hər dəfə, hər gün bir daha əmin oluruq ki, xalqımız ancaq müstəqillik şəraitində yaxşı yaşaya bilər. Azərbaycan sovet məkanında iki respublikadan biri idi ki, donor kimi fəaliyyət göstərirdi, yəni həm özünü təmin edirdi, həm də ümumi büdcəyə vəsait verirdi. Ancaq müstəqillik əldə olunanda bizdə vəziyyət necə idi?! Dağılmış sənaye, iqtisadiyyatda durğunluq, maliyyə vəziyyətimiz çox ağır idi, xəzinə boş idi, neft hasilatı aşağı düşmüşdü, kütləvi işsizlik, inflyasiya 1000, ya 2000 faizə qalxmışdı və böhran hökm sürürdü. Baxmayaraq ki, Azərbaycan sovet dövründə ümumittifaq xəzinəsinə böyük

töhfələr vermişdi, İkinci dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, müharibənin nəticəsi başqa cür ola bilərdi. Ancaq buna baxmayaraq, biz müstəqilliyi bərpa edəndə çox ağır vəziyyətdə idik. Lakin ulu öndərin səyləri, siyasəti nəticəsində biz 20 il ərzində ayağa qalxdıq, ayaqda möhkəm durmuşuq, güclü ölkə yaratmışıq. Bu siyasət bu gün də davam edir və davam edəcəkdir.

Gənclər vətənpərvərlik ruhunda tərbiyə alırlar, almalıdırlar. Onlar fəxr edirlər ki, Azərbaycan vətəndaşlarıdır. Onlar gələcəkdə ölkəmizi idarə edəcəklər. Ona görə ilk növbədə, onlar öz Vətəninə bağlı olmalıdırlar, Vətəni sevməlidirlər, bilikli, savadlı olmalıdırlar. Çünki əgər bilikli, savadlı olarlarsa, o zaman heç bir kənar təsir onların hərəkətlərinə mənfi təsir edə bilməz.

Biz bilirik ki, bu gün Azərbaycan dünya miqyasında çox önəmli ölkəyə çevrilibdir. Bir çox məsələlər bizim qərarlarımızdan asılıdır. Həm siyasi, həm iqtisadi, enerji və digər sahələrlə bağlı bizim qərarımızdan çox şey asılıdır. Ona görə Azərbaycana, bizim siyasətimizə təzyiq və təsir etmək cəhdləri vardır, gələcəkdə də olacaqdır. Biz heç vaxt imkan verə bilmərik ki, maraqlarımıza zidd olan bir təşəbbüs burada reallaşsın. Ancaq bizdən sonra gələnlər də eyni fikirdə olmalıdırlar. Bizdən sonra gələnlər də Vətəni bizim qədər sevməlidirlər və müstəqilliyi hər şeydən üstün tutmalıdırlar. Məhz buna görə müəllimlərin rolu həddindən artıq böyükdür. Həm gənc nəslə bilik verməlidirlər ki, onlar savadlı olsunlar, həm də öz Vətənini sevsinlər, müstəqilliyi hər şeydən üstün tutsunlar.

Bu gün Azərbaycan elə sürətlə inkişaf edir ki, hər bir vətəndaş haqlı olaraq Azərbaycan vətəndaşı olmağı ilə fəxr edir. Biz ardıcıllığı təmin etməliyik. Artıq 20 ildir ki, Azərbaycanda ardıcıllıq təmin edilir və bu bizim uğurumuzun əsas səbəbidir. Düşünülmüş, uzunmüddətli siyasət. Biz öz siyasətimizi 20–30 il bundan sonra da bu istiqamətdə aparmalıyıq ki, ölkəmiz daim inkişafda olsun, sabitlik, rifah, əmin-amanlıq olsun. Ölkəmizin

inkişafı hər bir rayonun inkişafından asılıdır. Ona görə mənim bölgələrə səfərlərim də, bax, bu məqsədi daşıyır – vəziyyətlə tanış olmaq, əlavə tapşırıq və tövsiyələr vermək.

Sizi bir daha bayram münasibətilə təbrik edir, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## Neftçala Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Neftçala Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Son illərdə Azərbaycanın bütün bölgələri sürətlə inkişaf edir, gözəlləşir, müasirləşir. Prezident İlham Əliyevin sərəncam və tapşırıqları əsasında regionlarda həyata keçirilən quruculuq işləri hər bir bölgənin inkişaf strategiyasına uyğun aparılır. Yeni tikilən binalar bölgələrin simasına müasir çalarlar qatır. İndi bütün regionlarda səngiməyən abadlıq-quruculuq işləri ölkəmizin kompleks inkişafını təmin edir.*

*Bu sırada son illərdə Neftçala rayonunda görülən işlər də diqqəti cəlb edir. Rayon icra hakimiyyəti üçün yeni tikilən binada yaradılan şərait bir faktı da təsdiqləyir ki, ölkədə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi daim diqqət mərkəzindədir. Bundan başqa, müasir memarlıq üslubunda inşa olunan həmin bina rayonun görkəminə də xüsusi gözəllik verir. Bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib.*

*Dövlətimizin başçısı binada yaradılmış şəraitlə tanış oldu.*

*Binada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Neftçala rayonuna səfərlərini əks etdirən fotolardan ibarət stendlər quraşdırılıb.*

*Burada müasir idarəetmə metodlarından istifadə etmək üçün bütün texniki imkanlar yaradılıb. Bu da icra strukturunun işinin daha mükəmməl qurulmasına, rayon icra hakimiyyəti əməkdaşlarının səmərəli fəaliyyətinə geniş imkan yaradır. Operativ idarəetmə otağı vasitəsilə sakinlər inzibati binaya*

*gəlmədən onları narahat edən problemlərlə əlaqədar icra hakimiyyətinin məsul şəxsləri ilə birbaşa videoəlaqə yarada biləcəklər. Akt zalında tədbirləri yüksək səviyyədə keçirmək üçün hər cür şərait yaradılıb. Binada kitabxana, iclas və konfrans zalları, inzibati və digər otaqlar vardır.*

*Rayonun inzibati xəritəsinə baxan prezident İlham Əliyevə Neftçalanın iqtisadiyyatı və həyata keçirilən infrastruktur layihələri barədə məlumat verildi.*

*İcra hakimiyyətinin inzibati binasının yerləşdiyi ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb. Buradakı fəvvarələr ərazini daha da gözəlləşdirir.*

## Bayraq Meydanında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.*

*Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının yenidən müstəqil Azərbaycanın dövlət rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün olmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda qaldırılmışdı. Bu mənada dövlət atributlarına hörmət və ehtiram ümummilli lider Heydər Əliyevin xalqımıza ən böyük əmanətidir. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə qürurla dalğalanır. Bu gün hər bir azərbaycanlı Dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, dünyanın ən hündür bayraq dirəyinin ucaldığı Bakıdan sonra ölkənin əksər bölgələrində üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılır, bununla bağlı xüsusi layihələr həyata keçirilir. Neftçalada salınan Bayraq Meydanı və burada ucaldılan Dövlət bayrağı da öz*

*möhtəşəmliyi ilə diqqəti cəlb edir. Neftçaladakı Bayraq Meydanı ölkəmizdə dövlət atributlarına hörmət və ehtiramın ən yüksək səviyyədə olmasının daha bir əyani nümunəsidir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bayraq dirəyinin hündürlüyü 36 metrdir. Bu da qürur mənbəyimiz olan Dövlət bayrağımızın şəhərin hər yerindən görünməsinə imkan verir. İnşası 2012-ci ildə başlanan Bayraq Meydanı həm də rayonda aparılan abadlıq-quruculuq işlərinin göstəricisidir. Bayraq Meydanının ərazisində geniş abadlıq işləri aparılıb, yaşıllıq zolağı salınıb və müasir işıqlandırma sistemi quraşdırılıb. Meydanda sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.*

## Yeni bulvarla tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Neftçala şəhərində yaradılan yeni bulvarla tanış olmuşdur.*

*Ölkəmizin iqtisadi gücünün ilbəil artması nəticəsində həyata keçirilən məqsədyönlü sosial siyasət bu gün Azərbaycanın hər bir bölgəsinin inkişafında özünü aydın büruzə verir. Azərbaycanda hər bir vətəndaş bu inkişafı öz həyatında hiss edir. Bu məsələdə dövlətimizin başçısının təsdiq etdiyi regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının yerlərdə uğurla icrası mühüm əhəmiyyətə malikdir. İndi Neftçala da geniş abadlıq və quruculuq meydanını xatırladır. Yeni infrastruktur layihələrinin icrası Neftçalanın simasının müasirləşməsi ilə yanaşı, ilk növbədə, əhalinin rahatlığının təmin olunmasına xidmət edir. Bu göstərir ki, yeniləşən və müasirləşən Azərbaycanın sürətli iqtisadi inkişafını şərtləndirən mühüm layihələrin icrası davamlı xarakter alıb.*

*Diqqətə çatdırıldı ki, 60 min kvadratmetr ərazidə salınan bu istirahət məkanında vacib iaşə obyektləri, hovuz-fəvvarə inşa olunub. Bulvar müasir işıqlandırma sistemi ilə təchiz edilib, geniş yaşıllıq və abadlıq işləri görülüb. Burada yaradılan şərait bir daha təsdiq edir ki, son illərdə ölkəmizdə həyata keçirilən*

*sosial-iqtisadi inkişaf strategiyası bölgələrdə genişmiqyaslı quruculuq işləri ilə müşayiət olunur. Bu işlərin müasir tələblər səviyyəsində həyata keçirilməsi ilk növbədə, vətəndaşların sosial şəraitinin yaxşılaşdırılmasına, onların istirahətinin mənalı təşkilinə xidmət edir. Bu işlər həm də ölkəmizdə aparılan abadlıq-quruculuq işlərinin miqyasını nümayiş etdirir.*

*Bulvarda yaradılan şəraitlə tanışlıq zamanı prezident İlham Əliyevə sakinlərin yay istirahətinin təşkili üçün Kür sahilində görüləcək əlavə tədbirlər barədə də məlumat verildi.*

# ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULMUŞ TAĞIYEV–SAHİL AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*28 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Neftçala rayonuna səfərini başa çatdırdıqdan sonra əsaslı şəkildə yenidən qurulmuş Tağıyev–Sahil avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısının göstərişi ilə Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı üzrə layihələr ardıcıl olaraq həyata keçirilir. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda yol infrastrukturunun əsaslı şəkildə yenidən qurulması, qəsəbələrarası və qəsəbədaxili yolların yüksək standartlara uyğun şəkildə təmiri və bərpası, eləcə də müasir tələblərə uyğun yeni yolların salınması davamlı şəkildə icra olunur. Ətraf qəsəbələrdə yolların ən müasir səviyyədə inşası, yolötürücülərinin, körpü, tunel, yeraltı və yerüstü piyada keçidlərinin tikintisi nəqliyyatın gediş-gəlişini asanlaşdırmaqla, əhalinin rahatlığının təmin olunmasına xidmət edir. Tağıyev–Sahil avtomobil yolunun bərpası layihəsi də Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı baxımından olduqca əhəmiyyətlidir.*

*Tağıyev–Sahil avtomobil yolunun bərpası layihəsi əsasında görülən işlər barədə prezident İlham Əliyevə məlumat verildi. Qeyd edildi ki, ümumi uzunluğu 42 kilometrə yaxın olan yolun tikinti-quraşdırma işləri Azərbaycan hökuməti ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında bağlanmış Saziş çərçivəsində maliyyələşdirilib.*

*Prezident İlham Əliyevə yolun texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, eni 15 metr olan yolun uzunluğu qovşaqlar da daxil olmaqla, 48 kilometrdir. Avtomobil yolunun bərpasında yüksək keyfiyyətli tikinti materiallarından istifadə olunub. Layihəyə uyğun olaraq 11 yeni körpünün, 45 su-ötürücünün və 4 keçidin inşası başa çatdırılıb.*

*Dövlətimizin başçısı Tağıyev–Sahil avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Prezidenti yenidən qurulmuş yolda avtomobili idarə etdi. Sonra prezident İlham Əliyev Bakı–Şamaxı–Yevlax avtomobil yolunun Sulutəpə–Biləcəri (9–10 kilometr) hissəsinin yenidən qurulması, Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 6–9-cu kilometrlik hissəsinin genişləndirilməsi, yeni körpülərin inşası və mövcud körpülərin yenidən qurulması, Bakı Stend Atıcılığı İdman Kompleksi avtomobil yolunun və Bakı dairəvi yolla birləşmə layihələri ilə tanış olmaq üçün Biləcəri qəsəbəsinin ərazisinə gəldi.*

*Əvvəlcə Bakı–Şamaxı–Yevlax avtomobil yolunun Sulutəpə–Biləcəri hissəsinin yenidən qurulması layihəsi əsasında görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, 1,5 kilometrlik yolun hərəkət hissəsi 8 zolaqlı olacaqdır. Asfalt-beton işlərinin aparılması üçün hazırlıq tədbirləri görülür.*

*Layihə həyata keçirildikdən sonra respublikanın şimal-qərb bölgəsindən Bakıya, eləcə də Lökbatan–Xocasən istiqamətinə hərəkət edən nəqliyyat vasitələrinin Bakı–Şamaxı–Yevlax və Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi yollarına çıxışı asanlaşacaqdır.*

*Sonra Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 6–9-cu kilometrlik hissəsinin genişləndiril-məsi, yeni körpülərin inşası və mövcud körpülərin yenidən qurulması layihəsi əsasında görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi.*

*Bildirildi ki, layihədə 2 yeni körpünün inşası, 3 mövcud kör-pünün əsaslı şəkildə yenidən qurulması və yolun 2 kilometrlik*

hissəsinin genişləndirilməsi nəzərdə tutulur. Bakı–Quba və əks istiqamətdə hərəkəti təmin edən yeni körpülərin inşası artıq başa çatdırılıb. Körpülər ən müasir standartlar səviyyəsində inşa olunub.

Prezident İlham Əliyevə mövcud körpülərin və yenidən qurulacaq yolun texniki göstəriciləri barədə məlumat verildi. Qeyd edildi ki, yolun tikinti sahəsində yerləşən bütün kommunikasiya xətlərinin, həmçinin yaşayış və qeyri-yaşayış tikililərinin köçürülməsi məsələsi də həll olunur.

Layihənin icrası başa çatdıqdan sonra respublikanın şimal, şimal-qərb bölgələrindən Bakı şəhərinə və əks istiqamətdə nəqliyyat vasitələrinin normal hərəkətinin təmin olunmasına şərait yaranacaqdır.

Daha sonra Bakı Stend Atıcılığı İdman Kompleksi avtomobil yolunun və Bakı dairəvi yolla birləşmə layihəsi barədə məlumat verildi. Bildirildi ki, 1,4 kilometr uzunluğu olan Bakı Stend Atıcılığı İdman Kompleksi avtomobil yolu və 1 kilometrlik Bakı dairəvi yolla birləşmə yolu ən müasir standartlara uyğun şəkildə inşa ediləcək. Bakı dairəvi yolla birləşmə yolunda eni 9, uzunluğu 230 metr olan yeni körpünün inşası da nəzərdə tutulur.

Layihələrlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.

## RESPUBLİKA İDMAN TİBB, DİAQNOSTİKA VƏ REABİLİTASİYA İNSTİTUTUNUN AÇILIŞI MƏRASİMİ

*29 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 29-da Bakıda Respublika İdman Tibb, Diaqnostika və Reabilitasiya İnstitutunun açılışında iştirak etmişlər.*

*Azərbaycanda səhiyyə sahəsində islahatlar ildən-ilə daha geniş vüsət alır. Səhiyyənin kompleks şəkildə inkişafı dövlətin sosial siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Son 10 ildə Azərbaycanın səhiyyə sistemi əsaslı inkişaf yolu keçib. Bu sahədə müxtəlif dövlət proqramları həyata keçirilir. Əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması və onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması istiqamətində ardıcıl tədbirlər reallaşdırılır. Səhiyyə müəssisələrinin təmir və bərpası, ən müasir avadanlıqlarla təchiz edilməsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, əhalinin bütün növ tibbi xidmətlərlə əhatə olunması, tibb işçilərinin ixtisasının artırılması, ən müasir standartlara uyğun yeni kadrların hazırlanması səhiyyə sahəsində islahatların əsasını təşkil edir.*

*Dünyada idman ölkəsi kimi tanınan Azərbaycanda inşası başa çatdırılan Respublika İdman Tibb, Diaqnostika və Reabilitasiya İnstitutu da ölkəmizdə reallaşdırılan islahatlara mühüm töhfədir. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin sifarişi ilə inşa edilən bu səhiyyə ocağı ölkəmizdə idman nailiyyətlərinin yaxşılaşdırılması üçün lazımi şəraitin yaradılması, müasir beynəlxalq təcrübənin tətbiqi, gənc idmançıların potensialının aşkar edilməsi və xəsarət almış id-*

*mançıların reabilitasiyası məqsədi ilə yaradılıb. İnstitutun əsas fəaliyyət istiqamətləri idmançıların və ehtiyat qüvvələrin diaqnostikası, dispanserləşdirilməsi və müalicəsidir.*

*Prezident İlham Əliyev institutun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına yeni səhiyyə müəssisəsi haqqında məlumat verdi. Bildirildi ki, institutun binasının inşasına 2012-ci ilin yanvar ayında başlanılıb. Dördmərtəbəli bina orijinal layihə əsasında tikilib. Ətrafda əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılıb. İnfrastruktur ən son elmi-texniki yeniliklərə cavab verir.*

*Diqqətə çatdırıldı ki, bu tibb ocağında qeydiyyat prosedurlarının rahatlığı üçün hər cür şərait yaradılıb. İnstitutda dünya standartlarına cavab verən avadanlıqlar quraşdırılıb. Buradakı avadanlıqlar idmançıların ilkin müayinəsi üçün olduqca vacibdir. Bir sıra avadanlıqlar biometrik müayinələr üçün nəzərdə tutulub. İnstitutda idmançıların səhhəti ilə bağlı əldə edilən məlumatların təhlili onların cari hazırlıq vəziyyətini qiymətləndirməyə imkan verir. Bu da məşq prosesinin düzgün aparılması üçün vacib əhəmiyyət kəsb edir. Ən müasir avadanlıq məşq və yarışlar zamanı müxtəlif mərhələlərdə idmançıların qidalanmalarının seçimi, tənzimlənməsi və adekvat fiziki yükün müəyyənləşdirilməsinə imkan verir. Yüksək səviyyəli avadanlıq vasitəsilə aparılan funksional yük sınaqları da ümumi işin daha məqsədyönlü şəkildə yerinə yetirilməsində mühüm rol oynayır. Bir sıra spesifik avadanlıq xüsusi iqlim şəraitində idmançıların hazırlıq səviyyəsini yoxlamağa, ekstremal təbii şəraitlərə uyğun qaydada məşğələlər aparmağa əlverişli imkan yaradır. İnstitutda qaçış ustaları, avarçəkmə, xizəksürmə və idmanın digər növləri üzrə idmançıların müayinələri də aparılacaqdır. Burada yaradılan şərait Azərbaycanda səhiyyə islahatlarının səviyyəsi, həmçinin respublikamızda idmanın inkişafına göstərilən yüksək diqqət və qayğı barədə dolğun təəssürat yaradır.*

*Qeyd edildi ki, institutda idmançıların hərəkətlərinin video-kompüter təhlili imkanına malik optik sistem quraşdırılıb. Kompleks diaqnostika gizli zədələri təyin etməyə, reabilitasiya tədbirlərinin səmərəliliyini qiymətləndirməyə, idmançılar üçün optimal geyim seçməyə və paralimpiyaçılarla bağlı aparılan tədbirlərin funksionallığını qiymətləndirməyə geniş imkanlar açır.*

*Məlumat verildi ki, Respublika İdman Tibb, Diaqnostika və Reabilitasiya İnstitutundakı stasionar bölmədə 4 palata vardır. Həmin palatalar gündüzlər idmançıların fərdi reabilitasiya proqramlarının reallaşdırılması üçün nəzərdə tutulub. Stasionar bölmə eyni zamanda, ağır xəstə idmançılar üçün müalicəvi və diaqnostik tədbirlərin icrasına yardım məqsədi də daşıyır. Burada paralimpiyaçılar üçün də xüsusi palata yaradılıb. Müasir laboratoriya idmançıların funksional vəziyyətinin təməl, cari və mərhələli monitorinqini həyata keçirmək üçün lazımi avadanlıqla təchiz edilib. İnstitutda müxtəlif sahələr üzrə həkimlərin səmərəli çalışmaları üçün hər cür şərait yaradılıb. Burada ixtisaslı həkimlər idmançıların yüksək nəticələrə nail olmaları üçün onlara müvafiq tibbi yardım göstərəcəklər.*

*İnstitutda idmançılarla bağlı məşq prosesi və ya reabilitasiya tədbirlərinin optimallaşdırılması məqsədilə hər bir idmançı üzrə məlumatlar təhlil olunacaqdır. Həmin proses zamanı idmançı və məşqçilərlə sıx əməkdaşlıq aparılacaqdır. Bu baxımdan hər cür təchizatı olan toplantı otağı da səmərəli fəaliyyətə geniş imkanlar yaradır. Yüksəkixtisaslı ortopedistlər idmançıların bərpaedici müalicəsi ilə məşğul olacaqlar. Nadir avadanlıq müəyyən zədəsi olan idmançıların cəmi 2-3 gün ərzində müalicə olunaraq yarışlarda iştirak etmələrinə imkan verəcəkdir.*

*İnstitutdakı hovuzlar da idmançıların hərtərəfli müalicəsinin aparılmasına geniş imkanlar açır. Trenajor zalında spesifik xüsusiyyətlərə malik tibbi trenajorlar quraşdırılıb. Həmin zal idmançıların reabilitasiyasına xidmət edəcəkdir. Müxtəlif bölmələrdə zədəli idmançılara da xidmət göstəriləcəkdir. Müasir*

texnologiyalar idmançıların sağlamlığını və onların fiziki hazırlığını lazımi səviyyədə saxlamağa hərtərəfli imkan yaradır.

Dövlətimizin başçısına institutun müasir laboratoriyası olan, həmçinin təcili yardım və tibbi heyətin gediş-gəlişi üçün nəzərdə tutulan avtomobilləri də nümayiş etdirildi. Qeyd olundu ki, avtomobildəki laboratoriya müasir avadanlıqlarla təchiz edilib və bunların köməyi ilə idmançılara səyyar qaydada istənilən xidmət göstəriləcək. Bu laboratoriya-maşında Respublika İdman Tibb, Diaqnostika və Reabilitasiya İnstitutunda həyata keçiriləcək əksər müayinə və operativ müalicənin aparılması mümkündür. Ən müasir avadanlıqla təchiz edilən 2 təcili tibbi yardım avtomobili də istər yarışlar zamanı, istərsə də digər zəruri hallarda istifadə oluna bilər.

Respublika İdman Tibb, Diaqnostika və Reabilitasiya İnstitutu ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.

Sonra prezident İlham Əliyev Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda aparılan yenidənqurma və əsaslı təmir işləri ilə tanış oldu. Qeyd edildi ki, bu stadionda uzun müddət ərzində əsaslı təmir aparılmamışdı. Bakıda Yeniyetmələrin Olimpiya oyunlarının atletika üzrə II Avropa təsnifat yarışlarında iştirak edəcək idmançıların məşqlərinin keçirilməsi üçün bu stadionda yenidənqurma və əsaslı təmir işlərinin aparılması qərara alınıb.

Bildirildi ki, qısa müddətdə stadionun təbii ot örtüyü yenilənib. Burada sintetik örtüklü qaçış zolağı salınıb. Tribunanın üst örtüyü də yenidən qurulub. Əsaslı təmirdən sonra stadionda idmançıların səmərəli məşqləri və idman yarışlarının keçirilməsi üçün hər cür şərait yaradılıb.

Stadionda aparılan yenidənqurma və əsaslı təmir işləri ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.

## BÖYÜK BRİTANİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN SƏDRİ KRİSTOFER PİNÇERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü, Böyük Britaniya–Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Kristofer Pinçerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində yüksək səviyyədə olduğu bildirildi, əməkdaşlığımızın möhkəmləndirilməsində qarşılıqlı səfərlərin önəmi vurğulandı, əlaqələrimizin genişləndirilməsində parlamentlərarası münasibətlərin əhəmiyyəti qeyd olundu, sənaye, infrastruktur, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığımızın daha da inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Azərbaycanın mövqeyini bir daha qonaqların diqqətinə çatdırdı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*31 may 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ), Jak Foru (Fransa), yaxın zamanlarda fəaliyyətə başlayacaq Fransadan olan həmsədr Pyer Andryönü və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## XXI BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI» SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi XXI Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgisi və konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Artıq geniş miqyasda nüfuz qazanan ənənəvi tədbiriniz təşkil olunduğu ilk vaxtlardan etibarən Azərbaycanın neft-qaz sənayesinin başlıca istiqamətlərinin və strateji prinsiplərinin nümayiş etdirilməsi üçün gözəl şərait yaratmışdır. Builki sərgi və konfransın əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən hazırlanıb müvəffəqiyyətlə həyata keçirilən yeni neft strategiyasının təməl daşı «Əsrin müqaviləsi»nin 20-ci ildönümünə təsadüf etməsi əlamətdar hadisə kimi onun əhəmiyyətini daha da artırır.

Dünyanın ən iri şirkətləri ilə 1994-cü ildə imzalanmış sazişlərlə başlayan inkişaf yolu bu gün Azərbaycanı Avrasiyanın enerji təhlükəsizliyi üzrə etibarlı tərəfdaşına çevirmişdir. Ötən müddət ərzində ölkəmiz neft siyasətində davamlı və yüksələn xətt üzrə inkişaf nümayiş etdirərək, qlobal transmilli layihələrin istər təşəbbüskarı, istərsə də icraçısı rolunu layiqincə gerçəkləşdirmişdir. «Şahdəniz» layihəsinin işlənməsinin ikinci mərhələsi, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələri respublikamızın mövqeyini və qlobal tərəfdaşlığını möhkəmləndirən uğurlu addımlardır.

Azərbaycan son illər müxtəlif ölkələrdə neft-qaz sənayesinə irihəcmli investisiyalar yatıraraq dünya enerji bazarındakı nüfuzunu gücləndirməkdədir. Bakıda yeni neft-qaz və

neftayırma kompleksinin yaradılması layihəsi də region üçün böyük məna kəsb edir.

Bu ilin ölkəmizdə «Sənaye ili» elan edilməsi ənənəvi neft sənayesi ilə yanaşı, sənayenin qeyri-neft sahələrinin də inkişafına yeni təkan verəcəkdir. İndi Azərbaycanda neft gəlirləri ilə qeyri-neft sektorunun canlandırılması siyasəti ardıcıl icra olunmaqdadır.

İnanıram ki, sərgi və konfransınız həm qlobal, həm regional səviyyələrdə əməkdaşlığın bundan sonra da dərinləşdirilməsinə zəmin yaradacaq, dünyada neft-qaz sahəsindəki proseslərə töhfəsini verməklə mühüm görüş yeri olduğunu bir daha sübuta yetirəcəkdir. Hamınıza gələcək fəaliyyətinizdə nailiyyətlər, ölkələrinizə sülh və əmin-amanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2014-cü il*

## AZƏRBAYCAN GƏNCLƏRİNİN VII FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum nümayəndələri!

Sizi və sizin simanızda bütün Azərbaycan gəncliyini səmimi-qəlbdən salamlayır, növbəti ali toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

1996-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə keçirilmiş ilk Gənclər Forumu ölkəmizin həyatında dərin iz buraxmışdır. Həmin mötəbər toplantıdan sonra paytaxt və regionlarda gənclərlə aparılan iş nəzərəçarpacaq dərəcədə canlanmış, böyüməkdə olan nəslin problemlərinə diqqət xeyli artmışdır.

Əsası ulu öndər tərəfindən qoyulmuş dövlət gənclər siyasəti bu gün uğurla davam etdirilir. Azərbaycanın ilbəil artan iqtisadi qüdrəti gənclərin fiziki, intellektual və mənəvi inkişafının təmin olunması, sosial problemlərinin həlli, innovativ ideya və təşəbbüslərinin dəstəklənməsi, bilik və bacarıqlarının üzə çıxarılması istiqamətində daha təsirli tədbirlər görməyə, irimiqyaslı proqram və layihələri reallaşdırmağa imkan verir.

Təqdirəlayiq haldır ki, bu gün cəmiyyətin ən fəal hissəsi olan gənclər respublikamızın sosial-iqtisadi və ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Onlar elm, təhsil, mədəniyyət, idman və hərbi hazırlıq sahəsində uğurlar qazanaraq Azərbaycanın dünyada tanıdılmasına, Vətənimizin qorunmasına və dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə layiqli töhfələrini verirlər.

Ölkəmizdə demokratik cəmiyyətin və bazar iqtisadiyyatının bərqərar olduğu şəraitdə yüksək savada və geniş dünyagörüşünə malik olan, müasir texnologiyalardan istifadə etməyi bacaran peşəkar mütəxəssis və menecerlərə tələbat artır. Buna görə də

gənclərimiz mükəmməl təhsil almaq və biliklərə dərindən yiyələnmək üçün daha inadla çalışmalıdırlar.

Qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə xalqımızın zəngin mədəniyyətinin və dilinin, adət-ənənələrinin və milli-mənəvi dəyərlərinin qorunub saxlanması müstəsna əhəmiyyət kəsb edir. Hesab edirəm ki, forumda bu məsələ ətrafında da ciddi fikir mübadiləsi aparılacaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda və azərbaycançılıq məfkurəsi əsasında tərbiyəsinə xüsusi diqqət yetiriləcəkdir.

Müstəqillik illərində Azərbaycanda güclü vətəndaş cəmiyyəti formalaşmışdır. Sevindirici haldır ki, bu sahədə gənclər təşkilatları öz fəallıqları ilə seçilirlər. Onlar dövlətdən hərtərəfli dəstək alaraq, gənclərin intellektual və fiziki inkişafına, ictimai fəallığının və təşəbbüskarlığının artırılmasına yönəlmiş layihələr həyata keçirirlər.

Ümid edirəm ki, forumda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar qarşıdakı dövr üçün gənclər siyasətinin prioritetlərinin müəyyənləşməsinə əhəmiyyətli töhfə verəcəkdir. Ali toplantınızın işinə uğurlar, hər birinizə möhkəm cansağlığı və gələcək fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2014-cü il*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ DİDYE BURKHALTERİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 iyun 2014-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin iyunun 2-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalteri qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İsveçrə Prezidentinə raport verdi.*

*İsveçrənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İsveçrə Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri İsveçrə prezidenti Didye Burkhalterə, İsveçrə nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ DİDYE BURKHALTER İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*2 iyun 2014-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Qarşılıqlı görüşlərin və səfərlərin əhəmiyyəti qeyd edildi. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və qarşılıqlı investisiya qoyuluşunun daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

*İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin Azərbaycana rəsmi səfərinin ikitərəfli münasibətlərin genişlənməsi baxımından əhəmiyyəti vurğulandı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*2 iyun 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra iyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Cənab Prezident, hörmətli qonaqlar! Azərbaycana xoş gəlmisiniz! Sizi görməkdən məmnunam. Bu səfər çox mühüm əhəmiyyət kəsb edir. Bu çox uğurla inkişaf edən və bir çox sahələri əhatə edən ikitərəfli əlaqələrimizi bir daha nəzərdən keçirmək üçün yaxşı imkandır. Əminəm ki, qarşıdakı illərdə ikitərəfli əlaqələrimiz daha da güclənəcəkdir. Çünki əlaqələrimizi inkişaf etdirmək üçün güclü siyasi iradə vardır. Bizim tərəfdaşlığımızın mahiyyəti həqiqətən artır, bir çox sahələri – siyasi, iqtisadi, investisiya və mədəniyyət sahələrini əhatə edir. Buna görə mən əminəm ki, qarşıdakı illərdə biz son bir neçə ildə sürətlə inkişaf edən yaxın tərəfdaşlıq əlaqələrini davam etdirəcəyik.

Bu gün biz əlaqələrimizi genişləndirmək üçün yaxşı perspektivləri, xüsusilə qarşılıqlı investisiya və birgə müəssisələr sahəsində, o cümlədən artıq başlayan və çox səmərəli olacaq enerji sahəsində əməkdaşlığı da müzakirə etdik. Siz həm də ölkəmizə ATƏT-in sədri kimi səfər edirsiniz. Ümid edirik ki, Sizin regiona səfəriniz çox səmərəli olacaq, regionumuzda müsbət meyillərin inkişafına, xüsusilə də münaqişələrin həlli baxımından Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin inkişafına öz töhfəsini verəcəkdir.

Bir daha xoş gəlmisiniz! Ümidvarıq ki, səfəriniz xoş keçəcək.

**Didye Burkhalter**: Cənab Prezident və nümayəndə heyəti, təşəkkür edirəm! İlk növbədə, çox xoş və səmimi qəbula

görə Sizə minnətdarlığımı bildirirəm. Bu qəbul, sözün hər mənasında, səmimidir, həm ölkə, həm də cazibədar landşaft baxımından. Çox təşəkkür edirəm. Bu mənim ölkənizə ilk səfərimdir. Ölkənizlə hərtərəfli tanış olmaq üçün çox vaxtım olmayıb. Bu, ətraflı tanışlıq səfəri olmayacaq. Əminəm ki, biz bir daha səfər edəcəyik və regionunuzu, ölkənizi, dünən axşam gələndə və bu gün səhər də gördüyüm kimi, bizdə dərin təəssürat yaradan Bakı şəhərini daha yaxından öyrənmək üçün daha çox vaxtımız olacaq. Qəbulunuza görə təşəkkür edirəm. Bu bizim iki ölkə üçün xüsusi bir vaxtdır. İlk növbədə, bizim çox yaxşı dostluq əlaqələrimiz vardır və biz onları intensivləşdirə bilərik. Əminəm ki, özəl investisiya sahəsində geniş potensialımız vardır. İsveçrə şirkətləri Sizin ölkənizə investisiya yatırmaqda maraqlıdır.

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ DİDYE BURKHALTER İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*2 iyun 2014-cü il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalter mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Bir daha Azərbaycana xoş gəlmisiniz! Sizi görməkdən şadam. Əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasında uğurla inkişaf edən ikitərəfli münasibətləri gücləndirəcəkdir. Qeyd etmək istəyirəm ki, bu, İsveçrə Prezidentinin Azərbaycana son 6 ildə üçüncü rəsmi səfəridir. Mən də İsveçrəyə rəsmi səfər etmişəm. Bu da bizim əlaqələrimizin yüksək səviyyədə olmasını göstərir.

Ölkələrimiz arasında siyasi münasibətlər uğurla inkişaf edir. Bu da müxtəlif sahələrdə olan əlaqələrimizə müsbət təsir göstərir. Bu yaxınlarda Bern şəhərində birgə iqtisadi komissiyanın iclası, İsveçrə–Azərbaycan biznes-forumu keçirilib. Beləliklə, ölkələrimizin biznes qruplarının işbirliyi qurmaq üçün marağı vardır. Bizim iqtisadi münasibətlərimiz də uğurla inkişaf edir. Əminəm ki, yaxın illərdə biz daha güclü tərəfdaşlıq quracağıq. Biz həmçinin çox şadıq ki, İsveçrədən Azərbaycana və Azərbaycandan İsveçrəyə yatırılan investisiyalar əlaqələrimizi gücləndirir və bunlar bizim yüksək qiymətləndirdiyimiz iqtisadiyyat sahələrinə yatırılan sərmayələrdir. Beləliklə, İsveçrə sənayenin inkişafına,

xüsusilə tikinti sektoruna sərmayə yatırır, Azərbaycan isə enerji sektoruna sərmayə qoyur. Əminəm ki, yaxın illərdə ölkələrimizə, ola bilsin regiona, yəni üçüncü ölkələrə müştərək investisiyaların yatırılmasının əlavə formaları haqqında düşünə bilərik.

Enerji təhlükəsizliyi bizim münasibətlərimizin bir hissəsidir. Deyə bilərəm ki, bu sahədə biz çox yüksək səviyyədə əməkdaşlıq aparırıq. Azərbaycan İsveçrənin enerji bazarında təmsil olunur, orada pay sahibidir. Qaz nəqli sahəsində son zamanlarda baş verən proseslər ikitərəfli münasibətlərimizi gücləndirəcəkdir. Bildiyiniz kimi, ötən ilin sonunda «Şahdəniz-2», o cümlədən Trans–Anadolu və Trans–Adriatik boru kəməri kimi nəhəng layihələrə imza atdıq. Bunlar birlikdə Avropada ən böyük infrastruktur layihələridir. Bu da Azərbaycana öz enerji ehtiyatlarını müxtəlif bazarlarda tam realizə etmək imkanı verəcəkdir.

Mən şadam ki, İsveçrə bizim tərəfdaşımızdır. Əlbəttə ki, gələcəkdə uzunmüddətli enerji tərəfdaşlığı bizim münasibətləri daha da gücləndirəcəkdir. Ona görə də ikitərəfli çərçivəyə gəldikdə, biz əməkdaşlığın hazırkı səviyyəsindən razıyıq və onu davam etdirəcəyik.

Eyni zamanda, biz bu gün regional təhlükəsizlik məsələlərini də müzakirə etdik. Çünki İsveçrə ATƏT-in sədridir. Sözsüz ki, müzakirəmizdə əsas diqqəti regional təhlükəsizlik üçün ən vacib olan məsələyə – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəltdik. Mən danışıqların hazırkı vəziyyəti, perspektivləri və münaqişənin tarixi barədə cənab Prezidentə məlumat verdim. Dağlıq Qarabağ Azərbaycanın tarixi və ayrılmaz ərazisidir. Dağlıq Qarabağ beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınır və Azərbaycanın ayrılmaz tərkib hissəsi olaraq qalacaqdır. Tarixi nöqteyi-nəzərdən Dağlıq Qarabağ həmişə Azərbaycanın ərazisi olub, hüquqi nöqteyi-nəzərdən bu bizim ərazimizdir və BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. 20 ildən artıqdır ki, işğal davam edir. Təkcə Dağlıq Qarabağ yox, Dağlıq Qarabağ ətrafında yerləşən 7 rayonumuz Ermənistanın işğalı

altındadır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal edilib və xalqımız Ermənistanın yürütdüyü etnik təmizləmə siyasətinin qurbanı olub. Bu sıraya 600-dən çox adamın, o cümlədən 100-dən artıq qadın, 60-dan çox uşağın ölümü ilə nəticələnən Xocalı soyqırımı da daxildir. Bu, Ermənistan dövləti tərəfindən törədilmiş hərbi cinayətdir. Münaqişənin həll olunması ilə bağlı ATƏT qərar və qətnamələr qəbul edib. 2 dəfə ATƏT işğal olunmuş ərazilərə faktaraşdırma və qiymətləndirmə missiyaları göndərib. Hesabatda hər şey açıq-aydın göstərilib, hər bir şey məhv edilib, bizim tarixi binalarımız, məscidlərimiz, abidələrimiz, əcdadlarımızın məzarları, hər şey dağıdılıb. Ona görə də münaqişənin həllinə mümkün qədər tez nail olmaq lazımdır. Çünki bu, regional təhlükəsizlik üçün ən böyük təhlükədir. Bunu etmək üçün beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizik Şurasının qətnamələrinə, ATƏT və digər beynəlxalq təşkilatların qərarlarına əməl olunmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur və danışıqlar prosesinin süni yolla uzadılması siyasətini davam etdirir. Çünki onlar münaqişənin həllini, sülhü istəmirlər və vəziyyətin olduğu kimi qalmasını istəyirlər.

ATƏT-in Minsk qrupuna sədrlik edən ölkələrin prezidentlərinin dəfələrlə status-kvonun qəbuledilməz olduğunu bəyan etməsinə baxmayaraq, onlar status-kvonun saxlanılmasını istəyirlər. Status-kvonu dəyişmək üçün Ermənistan öz ordusunun geri çəkilməsi prosesinə başlamalıdır. Ümid edirəm, beynəlxalq ictimaiyyət, ATƏT bu məsələdə daha fəal olacaq ki, beynəlxalq hüquq normaları və tarixi ədalət bərpa olunsun və Azərbaycan işğal altındakı ərazilər azad edildikdən sonra yenidənqurma işlərinə başlaya bilsin.

Cənab Prezident, bizə təşrif buyurduğunuz üçün Sizə bir daha təşəkkürümü bildirirəm. Biz bu gün regional münaqişələrin həlli məsələləri, ikitərəfli münasibətlər üzrə geniş müzakirələr apardıq. Əminəm ki, səfəriniz bizim gələcək münasibətlərə yaxşı töhfə verəcəkdir.

## İsveçrə prezidenti Didye Burkhalterin bəyanatı

Cənab Prezident!

Bakıda – Azərbaycanda səmimi qəbulunuz üçün Sizə təşəkkürümü bildirirəm. Qeyd etməliyəm ki, bu mənim ölkənizə ilk səfərimdir. Siz isə İsveçrədə keçirilən Davos Forumunda dəfələrlə iştirak etmisiniz və mən Sizə çatmaq üçün ölkənizə yenidən səfər etməliyəm, ölkənizi və regionu daha dərindən tanımalıyam.

Sizin də dediyiniz kimi, bir çox çağırışlar mövcuddur. Mən buraya İsveçrə Konfederasiyasının Prezidenti və Xarici İşlər naziri qismində gəlmişəm. Ölkələrimiz arasında ikitərəfli əlaqələr dostluq xarakteri daşıyır, intensivdir və gələcəkdə daha da dinamik ola bilər. Siz əlavə əməkdaşlıq formaları üçün potensial gördüyünüzü qeyd etdiniz. Mən bunun həqiqət olduğunu təsdiqləyə bilərəm. İqtisadi sahədə əməkdaşlığın aparılması üçün böyük potensial vardır. İsveçrə şirkətləri tərəfindən bir çox investisiyalar yatırıla bilər. Biz ölkələrimiz arasında münasibətlərin gücləndirilməsinə və intensivləşdirilməsinə açığıq. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə İsveçrənin yaxşı əməkdaşlığı vardır. Keçən il bizim ciddi əlaqələrimiz oldu və bu göstərdi ki, Azərbaycan ilə İsveçrə arasında əlaqələr möhkəmdir. Eyni zamanda, İsveçrə bu il ATƏT-in fəaliyyətdə olan sədridir. Biz bilirik ki, bir neçə aya hər bir şeyi dəyişmək, bütün problemləri həll etmək mümkün deyildir. Buraya bu gün səhər üzərində çoxlu müzakirələr apardığımız və aparacağımız Dağlıq Qarabağ problemi də daxildir ki, bu münaqişənin həlli vaxt tələb edir. Mən həmçinin müxtəlif fikirləri dinləmək, anlamaq və ola bilsin ki, danışıqlar prosesində irəliləyişə nail olmaq məqsədilə yol tapmaq üçün buraya gəlmişəm. Mənim ATƏT-in fəaliyyətdə olan sədri kimi, yanaşmam çox aydındır. Biz əminik ki, sülhə doğru addım-addım irəliləməliyik. Bu isə o deməkdir ki, biz 2 əsas məsələni təbliğ edirik. Birincisi, biz dialoqun intensivləşdirilməsini təbliğ edirik, dialoq artıq olub. Lakin Azərbaycan və Ermənistan prezidentləri arasında yeni

görüşün keçirilməsinə zərurət yaranıb. Bu görüşün Parisdə keçirilməsi təklif olunub və biz də bu fikri dəstəkləyirik. Yaxın gələcəkdə bu görüşün keçirilməsini təbliğ edirik. Bu görüş danışıqların yeni fazasının başlanğıc nöqtəsi olmalıdır. Digər tərəfdən, bu, sülh sazişinə aparacaq strukturlaşdırılmış danışıqlar prosesi ola bilər. Bu danışıqlar prosesi isə Madrid prinsipləri əsasında aparılmalıdır.

Bizim təbliğ etdiyimiz ikinci əsas məsələ atəşkəs rejiminin gücləndirilməsidir. Başlıca olaraq keçmişdə bütün tərəflərin razılaşdırdığı, lakin heç vaxt icra olunmayan insidentlərin araşdırılması mexanizmidir. İcazə verin, ATƏT-in fəaliyyətdə olan sədri kimi və sədrlikdən sonra bir dövlət kimi, İsveçrənin danışıqlar prosesini görüşlərə ev sahibliyi etməklə, təcrübəsini təklif etməklə, sülh sazişinin icrası üçün maliyyə və siyasi yardımı səfərbər etməklə dəstəkləməyə hazır olduğunu bildirim.

Biz həmçinin sülh naminə mühiti yaxşılaşdırmaq üçün tərəflərə tələb olunan mümkün hər şeyi icra etməyə hazırıq. İcazə verin, qeyd edim ki, İsveçrənin ATƏT-in fəaliyyətdə olan sədri olduğu və Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi bir vaxtda biz əlaqələrimizdən istifadə edərək, beynəlxalq öhdəliklərimizlə münasibətlərimizi beynəlxalq səviyyədə eyni vaxtda intensivləşdirmək istəyirik. Bu isə o deməkdir ki, Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinin sədri və İsveçrə ATƏT-in fəaliyyətdə olan sədri qismində bəzi məsələlərdə əməkdaşlıq edə bilər.

Biz Azərbaycanın gənclərin təhsilinə və insan haqlarına prioritet sahə kimi baxdığının şahidi olmuşuq. Bu məsələlərdə Azərbaycan ilə əməkdaşlıq etməkdə maraqlıyıq. Eyni zamanda, ATƏT-in Azərbaycandakı nümayəndəliyinin statusu layihə koordinatoru ofisi ilə əvəz olunub. Bu layihə çox yaxşı başladı və biz əminik ki, bu ofis hər iki prezidentin tam dəstəyini almağa layiqdir.

Əminik ki, yaxın gələcəkdə biz İsveçrə ilə Azərbaycanın marağına xidmət edən layihələri həyata keçirə bilərik.

Açıq dialoq üçün Sizə bir daha təşəkkürümü bildirirəm. Ümid edirəm ki, bu il beynəlxalq təşkilatlara sədr qismində ölkələrimiz yaxşı irəliləyişə nail ola bilər. Çox sağ olun, cənab Prezident!

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ NAHARDA İŞTİRAK

*2 iyun 2014-cü il*

*Azərbaycan prezidenti İlham Əliyevin adından iyunun 2-də İsveçrə prezidenti Didye Burkhalterin şərəfinə rəsmi nahar verilmişdir.*

*Prezident İlham Əliyev İsveçrə prezidenti Didye Burkhalteri ölkəmizdə bir daha salamladı, səfər zamanı ikitərəfli münasibətlərə dair bir çox vacib məsələlərin müzakirə edildiyini dedi. İsveçrənin ATƏT-ə sədrliyinin uğurlu olacağına, onun Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesində fəal iştirak edəcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı dedi: «Bizim ikitərəfli əlaqələrimizin inkişafı məmnunluq doğurur. Qısa müddətdə aramızda fəal ünsiyyət qurulub».*

*Prezident İlham Əliyev ölkələrimiz arasında investisiya və biznes əlaqələrinin inkişaf etdiyini, bu sahədə birgə iqtisadi komissiyanın mühüm rol oynadığını diqqətə çatdırdı. Dövlətimizin başçısı siyasi əlaqələrimizin, birgə məsləhətləşmələrin əhəmiyyətinə toxunaraq bütün bunların münasibətlərimizin təməlini təşkil etdiyini dedi.*

*İsveçrə prezidenti Didye Burkhalter şəhərimizdə gördüyü inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını vurğuladı. O, İsveçrə üçün dinamik inkişaf edən ölkələrlə münasibətlər qurmağın çox vacib olduğunu dedi. Bildirdi ki, İsveçrə ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirmək mühüm istiqamətlərdən birini təşkil edir. Didye Burkhalter bu imkanı təqdim etdiyinə və etibarlı tərəfdaşlıq mühitinin yaradılmasına verdiyi töhfəyə görə prezident İlham Əliyevə təşəkkür etdi.*

## RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ ALEKSEY ULYUKAYEV İLƏ GÖRÜŞ

*2 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri Aleksey Ulyukayevi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ticarət dövriyyəsinin artırılmasının önəmi qeyd edildi, Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri Aleksey Ulyukayevin Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlığın inkişaf perspektivlərinin müzakirə edilməsi üçün yaxşı imkan yaratdığı bildirildi. İki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

Ölkənizin Milli Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə İsveç arasındakı dostluq əlaqələrinin və əməkdaşlığın inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İsveç xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2014-cü il*

## XXI BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI» SƏRGİSİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Bakı Sərgi Mərkəzi*

*3 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Bakı Sərgi Mərkəzində XXI Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgisi və konfransının açılışı mərasimində iştirak etmişdir.*

*Respublikamızın paytaxtında ənənəvi olaraq keçirilən neft-qaz sərgi və konfransı Xəzəryanı regionda ən böyük mötəbər tədbirdir. Burada neft, qaz hasilatı və emalı, həmçinin nəqletmə, logistika və servis sahəsində qabaqcıl texnologiyalar nümayiş etdirilir. Sərgi beynəlxalq standartlara cavab verən Bakı Sərgi Mərkəzində keçirilməyə başlayandan yeni inkişaf mərhələsinə qədəm qoyub. XXI Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgisində 29 ölkədən 400-dən çox şirkət təmsil olunur. Bunların əksəriyyəti dünyanın ən nüfuzlu şirkətləridir və onların bir qismini «Əsrin müqaviləsi»nin iştirakçıları təşkil edir.*

*Budəfəki sərgidə Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Çin və Rusiyadan 8 milli qrup təmsil olunur. Bu tədbirdə ölkəmizin şirkətləri ildən-ilə daha geniş təmsil olunur və cari sərgidə də iştirakçıların təqribən 30 faizdən çoxunu yerli iqtisadi qurumlar təşkil edir. Əvvəlki sərgi ilə müqayisədə ekspozisiyaların sahəsi 10 faiz çoxdur. Sərginin bir sıra iştirakçıları bu tədbirə ilk dəfə qatılıblar. Təşkilatçılar sərginin beynəlxalq səviyyədə də dolğun işıqlan-*

*dırılması üçün hərtərəfli iş aparıblar. Sərgi və konfransın işgüzar proqramı genişdir və əməkdaşlığın daha da möhkəmləndirilməsinə hərtərəfli imkanlar açır.*

*Böyük Britaniyanın İTE Group Plc şirkətinin baş məsləhətçisi Endryu Vud sərgi və konfransı açıq elan etdi.*

**Endryu Vud:** Zati-aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Mənim adım Endryu Vuddur və mən burada «İTECA»nı təmsil edirəm. Hər birinizi salamlayıram. Çox mühüm bir gündür. Bu, 21-ci sərginin açılışıdır və «Əsrin müqaviləsi»nin imzalanmasının 20-ci ildönümüdür. Bunu qeyd etmək üçün səbəbimiz çoxdur. Mən 1993-cü ildə burada olanda Bakının simasını görmüşdüm. Bu gün isə Bakı qürur duymaq üçün böyük bir şəhərdir. Bu şəhərlə təkcə Azərbaycan xalqı deyil, həm də bu ölkənin firavanlığı naminə çalışanlar da fəxr edirlər. Sizin hər birinizi salamlayıram, gəldiyinizə görə təşəkkür edirəm. Eyni zamanda, qarşılıqlı nailiyyətlərimizlə bağlı hər birinizi təbrik edirəm.

Mən Azərbaycan Respublikası Hökumətinin fəaliyyətini təqdir edirəm. Azərbaycan hökuməti ölkənin sərvətlərinin bütün əhali üçün bərabər şəkildə paylanmasını və insanların firavanlığını təmin etmişdir. Hər birinizə davamlı tərəfdaşlığımızın uzunmüddətli olması üçün uğurlar arzulayıram. Eyni zamanda, Azərbaycan xalqına və hökumətinə davamlı tərəqqi və firavanlıq diləyirəm.

İcazənizlə zati-aliləri cənab prezident İlham Əliyevi tribunaya dəvət edərək, onun gələcək planlarını eşitmək istərdik. Təşəkkür edirəm.

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Bu gün Xəzər neft-qaz sərgisinin açılışı münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm. Çünki bu sərgi ölkəmizin müasir həyatında çox önəmli rol oynayır. Əslində bu sərgi müstəqil Azərbaycana dünyanın diqqətini cəlb edən birinci ən önəmli addım olmuşdur. Bu sərgi 21-ci dəfədir ki, keçirilir. Sərgiyə isə maraq azalmır, artır. Bu gün sərgidə 400-dən artıq şirkət təmsil olunur. Onlardan bəziləri ilk dəfə iştirak edir, bəziləri isə bizim ənənəvi tərəfdaşlarımızdır.

Sərgidə iştirak edən şirkətlərin sayı ildən-ilə artmaqdadır və bu çox gözəl hadisədir, çox önəmli əlamətdir. Çünki Azərbaycanın neft-qaz sektoru imkanlarını və fəaliyyətini ildən-ilə genişləndirir. Çünki bizim qarşımızda duran vəzifələr icra edilir, yeni vəzifələr ortaya çıxır və biz çalışacağıq ki, bütün vəzifələri eyni qətiyyətlə və səmərə ilə icra edək.

Əlbəttə, sərginin önəmini artıran amil ondan ibarətdir ki, ənənəvi olaraq Amerika Birləşmiş Ştatlarının Prezidenti və Böyük Britaniyanın Baş naziri sərgiyə öz təbriklərini göndəriblər. Bu, sərginin önəmini böyük dərəcədə artırır. Çünki dünyanın iki aparıcı ölkəsinin dövlət və hökumət başçıları sərgiyə öz diqqətini əsirgəmirlər. Hesab edirəm ki, bizim sərgimiz dünya miqyasında öz nadir rolunu saxlamaqdadır.

Onu da qeyd etməliyəm ki, biz son illər ərzində qazanılmış uğurları tərəfdaşlarımızla birgə əldə etmişik. Çünki 1994-cü ildə dünyada Azərbaycan haqqında təsəvvür o qədər də geniş deyildi. Azərbaycan gənc müstəqil dövlət idi və müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Vətəndaş müharibəsi, daxili qarşıdurmalar, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti, iqtisadi tənəzzül – bütün bunlar hamımızın yadındadır.

1993-cü il əslində müstəqil və gənc Azərbaycan dövlətinin inkişafında bir dönüş ili kimi yadda qalacaqdır. Çünki o ildən başlayaraq Azərbaycan uğurlu inkişaf yoluna qədəm qoymuşdur. Ulu öndər Heydər Əliyevin apardığı islahatlar bütün sahələri əhatə etmişdir. O cümlədən Azərbaycanın neft

strategiyası məhz o illərdə müəyyən edilmişdir və bu günə qədər uğurla icra edilir.

1994-cü ildə sərginin birinci tədbiri dünyanın neft-qaz şirkətlərinin Azərbaycan iqtisadiyyatına diqqətini artırmışdır və şadam ki, bu diqqət bu günə qədər qüvvədədir. Son 20 il ərzində Azərbaycan neft-qaz sənayesinin inkişafı üçün və dünya enerji təhlükəsizliyinə verdiyi töhfələrə görə, əlbəttə ki, diqqət mərkəzindədir. 1994-cü ildə ilk sərgi keçirilmişdir və ondan bir neçə ay sonra bizim bugünkü uğurlu inkişafımızı böyük dərəcədə müəyyən edən «Əsrin kontraktı» imzalanmışdır. Bu, tarixi hadisə idi. Çünki bu gün təsəvvür etmək çətindir ki, əgər «Əsrin kontraktı» imzalanmasaydı – Azərbaycanın pulu yox idi, iqtisadiyyat dağılmış vəziyyətdə idi, sənaye inkişafından söhbət gedə bilməzdi – bizim müstəqil dövlət kimi, inkişaf yolumuz yalnız xarici sərmayələrin cəlb edilməsindən asılı olaraq qalacaqdı. Mən bu gün o vaxt bizə inanan, bizimlə işləmək arzularını ifadə edən bütün şirkətlərə, investorlara minnətdarlığımı bildirmək istəyirəm ki, onlar bizə inandılar, Azərbaycanın sabit, uğurlu gələcəyinə inandılar, bizim yanımızda oldular və bizimlə bərabər bugünkü reallıqları təmin etdilər. Mən *bp* şirkətinin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. *bp* bizim ən böyük investorumuzdur, ən böyük tərəfdaşımızdır. 20 ildir bu tərəfdaşlıq uğurla davam edir və bu gün birlikdə həyata keçirdiyimiz layihələr deməyə əsas verir ki, bundan sonra ən azı 20 il, bəlkə ondan da çox *bp*–SOCAR əməkdaşlığı, tərəfdaşlığı Azərbaycanın və bölgənin neft-qaz sektorunun inkişafını müəyyən edəcəkdir.

Mən çox şadam ki, bizim *bp* kimi tərəfdaşımız var və biz birlikdə bütün layihələrdə çiyin-çiyinə iştirak edirik, bütün əsas iqtisadi və texniki riskləri də öz üzərimizə götürürük.

1994-cü ildə biz yeni siyasətə qədəm qoyduq və o ildən başlayaraq bu günə qədər Azərbaycan neft-qaz sektorunda böyük uğurlara imza atmışdır. Deyə bilərəm ki, kontrakt imzalanandan sonra dünya tarixində bəlkə də ən qısa müddət ərzində ilk neftin çıxarılmasına qədər cəmi 3 il vaxt keçmişdir. Bu da dünya

miqyasında rekord göstəricidir. 1997-ci ildə «Çıraq» platformasından ilk neft çıxarılmışdır. Mən o günü yaxşı xatırlayıram. O gün doğrudan da bir bayram günü idi. Bəlkə də çoxları o vaxt anlamırdı ki, bu nəyə gətirib çıxaracaqdır. Ancaq bugünkü reallıq, Azərbaycanın bugünkü uğurlu inkişafı məhz o ildən, o gündən başladı. Ondan sonra ardıcıl olaraq Azərbaycan öz neft və sonra qaz potensialını dünya bazarına təqdim etməyə başlamışdır. Bakı–Novorossiysk neft kəməri təmir edildi, Bakı–Supsa neft kəməri tikildi ki, ilk dəfə olaraq Xəzər dənizi Qara dənizlə neft kəməri ilə birləşdi. Ondan sonra Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilmişdir. Bu da tarixi hadisə idi, çünki əgər bu gün o kəmər olmasaydı, Azərbaycan öz neft və ondan sonra qaz potensialını dünya bazarlarına çatdıra bilməzdi. Beləliklə, dəhliz yaradıldı. Xəzər dənizi–Qara dəniz–Aralıq dənizi əməkdaşlıq formatı formalaşdı. Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı–Tbilisi–Ceyhan bu gün uğurla fəaliyyət göstərir və başqa ölkələrə də xidmət edir. Dəhliz formalaşandan sonra, əlbəttə ki, Azərbaycan öz tranzit rolunu oynamağa başladı. Bu gün biz qeyd edə bilərik ki, artıq Azərbaycan öz coğrafi vəziyyətindən və logistika imkanlarından tam şəkildə istifadə edir. Azərbaycan Xəzər sahilinin şərq hissəsində yerləşən istehsalçılara da öz xidmətlərini göstərir. Azərbaycan ərazisindən nəql edilən neft və neft məhsullarının həcmi ildən-ilə artmaqdadır. Azərbaycan etibarlı tranzit ölkəsidir. Hesab edirəm, son 20 il ərzində neft-qaz sənayesində qazandığımız ən böyük uğurlardan biri də ondan ibarətdir ki, biz etibarlı tərəfdaşıq, bizim sözümüz imzamız qədər dəyərlidir və biz həmişə verdiyimiz sözə sadiq qalmışıq.

Beləliklə, Azərbaycanın neft-qaz sənayesinə qoyulan sərmayə, yaradılmış gözəl investisiya iqlimi, xarici investorların sərmayələrinin qorunması, güclü siyasi iradə və qurulan gözəl beynəlxalq əməkdaşlıq bugünkü reallıqları mümkün etmişdir. Bu gün bizim imkanlarımız nəinki ölkə daxilində məsələlərin həlli üçün, eyni zamanda, regionda və geniş mənada bölgədə neft-qaz siyasətinin müəyyən edilməsində də öz rolunu oynayır.

Azərbaycan, əlbəttə ki, getdikcə öz imkanlarını genişləndirəcəkdir.

Hesab edirəm, bizim neft siyasətimizin önəmli əlaməti ondan ibarətdir ki, biz həmişə çalışırıq istehsalçıların, tranzit ölkələrin və istehlakçıların maraqlarını bir-biri ilə bağlayaq ki, burada heç bir ziddiyyət olmasın və tərəflər ancaq fayda götürsün. Hesab edirəm ki, biz buna nail ola bilmişik. Digər əlamət ondan ibarətdir ki, biz heç vaxt öz neft və qaz imkanlarımızdan hansısa başqa məqsədlər üçün istifadə etməmişik. Sadəcə olaraq, öz resurslarımızı dünya bazarlarına və regional bazarlara çıxarmaqla əməkdaşlığı dərinləşdirmişik. Bu gün gözəl bir əməkdaşlıq mühiti vardır və bu əməkdaşlıq mühitinin coğrafiyası getdikcə genişlənir. Çünki biz növbəti illərdə yeni tərəfdaşlarla uzunmüddətli əməkdaşlığa başlayacağıq.

Azərbaycan dünyada neft ölkəsi kimi tanınır. Bildiyiniz kimi, ilk neft dünyada Azərbaycanda hasil edilmişdir və dəniz yataqlarından da ilk neft məhz Azərbaycanda, Neft Daşlarında çıxarılmışdır. Bu gün Azərbaycanın neft ölkəsi kimi şöhrəti tam şəkildə bərpa edilib və bu özünü əvvəlki illərdəkindən daha da çox büruzə verir.

Ancaq bu gün Azərbaycan dünyada və Avropada daha çox qaz hasil edən ölkə kimi tanınır. Bu gün təbii qaz ölkələrin enerji təhlükəsizliyini təmin edən əsas amildir. Hər bir ölkənin enerji təhlükəsizliyi bu gün bilavasitə ölkələrin milli təhlükəsizliyi ilə bağlıdır. Bu iki amili bir-birindən ayırmaq mümkün deyildir. 1996-cı ildə – «Əsrin kontraktı»nın imzalanmasından cəmi 2 il sonra «Şahdəniz» qaz yatağının işlənilməsi ilə bağlı imzalanmış müqavilə bu gün, əlbəttə ki, xüsusi məna daşıyır. O illərdə də biz bilirdik ki, Azərbaycanın zəngin qaz yataqları var idi və məhz «Şahdəniz» qaz yatağının işlənilməsi bunu təsdiq etdi.

«Şahdəniz» qaz yatağı dünyanın ən böyük yataqlarından biridir və bizim qaz potensialımızın ən azı 50 faizini təşkil edir. Özlüyündə böyük yataqdır. Ancaq bizim digər böyük qaz ya-

taqlarımız da vardır. Son illərdə uğurlu kəşfiyyat işləri nəticəsində «Ümid» və «Abşeron» qaz yataqları aşkarlanıb. «Şahdəniz», «Ümid», «Abşeron» və digər yataqlarda olan qaz ehtiyatlarımız ən azı 2,5 trilyon kubmetrə bərabərdir. Bu da həm Azərbaycanın, həm də Avropanın uzun müddət enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz rolunu oynayacaq və şadam ki, artıq bu istiqamətdə də çox vacib addımlar atılıb.

2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verilmişdir. Artıq 7 ildir ki, Azərbaycan öz qazını dünya bazarlarına, daha doğrusu, regional bazarlara çıxarır. Bizim neft, qaz kəmərlərimizin çoxşaxəli vəziyyətdə fəaliyyət göstərməsi bu sahədə şaxələndirməni tam şəkildə təmin edir. Çünki bizim 7 neft-qaz kəmərimiz var ki, bu da enerji resurslarımızı bütün istiqamətlər üzrə nəql edir. Əlbəttə ki, biz yeni bazarlara çıxmalıyıq. Çünki bizdə olan böyük qaz potensialı ancaq regional bazarla məhdudlaşa bilməz. Bizim üçün böyük bazarlar lazımdır və o bazarlarda da Azərbaycan qazına tələbat vardır. Biz son illər ərzində bu məsələlər üzərində çox ciddi işləmişik. Bu gün «Cənub Qaz Dəhlizi»nin reallaşması böyük dərəcədə «Şahdəniz» yatağının işlənilməsindən asılıdır. Sevindirici hal ondan ibarətdir ki, «Şahdəniz» qaz yatağının işlənilməsi ilə bağlı bütün məsələlər öz həllini tapıb. «Şahdəniz-2» layihəsinə start verilib. O vaxta qədər TANAP layihəsi imzalanıb və beləliklə, bizim qarşımızda hazırda heç bir maneə yoxdur.

Ancaq biz yaxşı xatırlayırıq ki, uzun illər ərzində Azərbaycan qazını Avropaya nəql etmək üçün danışıqlar gedirdi, söhbətlər aparılırdı, müxtəlif konfranslar, simpoziumlar təşkil edilirdi. Ancaq əfsuslar olsun ki, onların real nəticələri olmamışdır və sadəcə olaraq, ildən-ilə müşahidə edilən müzakirələr, bəyanatlar var idi, amma ortada bir şey yox idi. Biz isə istəyirdik ki, bu layihə reallaşsın. Çünki bizim həyata keçirdiyimiz bütün layihələr vaxtında, hətta vaxtından əvvəl reallaşır. Biz heç vaxt imkan verə bilməzdik ki, «Cənub Qaz Dəhlizi» layihəsi gözəl bir layihə, ideya kimi qalsın.

Ona görə həlledici anlarda biz bütün məsuliyyəti öz üzərimizə götürdük və yeni layihənin icrası ilə bağlı təkliflərimizi verdik. Bu layihənin adını da biz vermişik – TANAP, Trans–Anadolu qaz kəməri. Bu layihənin reallaşması üçün biz çox böyük səylər göstərmişik və nəticə etibarilə 2012-ci ildə Azərbaycan və Türkiyə arasında müqavilə bağlandı. Bu gün TANAP layihəsi artıq reallıqdır. TANAP layihəsinin həyata keçirilməsi üçün artıq praktiki işlər başlanılmışdır və bu layihəyə diqqət artmaqdadır.

Mən çox şadam ki, bizim tərəfdaşımız *bp* şirkəti də TANAP-ın səhmlərinə sahib olubdur və beləliklə, bu böyük beynəlxalq layihə «Cənub Qaz Dəhlizi»nin reallaşmasına həlledici təsirini göstərəcəkdir. Əlbəttə, biz fikirləşə bilərdik ki, TANAP layihəsinin icrası ilə bağlı bütün məsələləri həll etmişik. Neft hasilatı sabitdir. İxrac imkanları genişdir. Biz qaz bazarına da çıxmışıq. Ancaq biz çalışırıq ki, beynəlxalq əməkdaşlığı maksimum dərəcədə genişləndirək və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz dəstəyimizi verək. Bu məqsədlə keçən il Trans–Adriatik qaz kəmərinin reallaşması üçün bütün məsələlər öz həllini tapdı və beləliklə, Bakıdan Avropaya, İtaliyaya qədər yeni böyük qaz kəməri tikiləcəkdir.

TAP layihəsi də əməkdaşlığın yeni formatına gətirib çıxarır. Burada, əlbəttə ki, bütün ölkələr arasında çox ciddi əlaqələndirmə işləri aparılmalıdır. Çünki bu günə qədər biz bütün layihələri əsasən 3 ölkə arasında həll etmişik – Azərbaycan, Gürcüstan, Türkiyə. Bu gün isə bir neçə Avropa ölkəsi bizim layihələrimizə qoşulur. Əlbəttə ki, bu ölkələr arasındakı qarşılıqlı inam, əlaqələndirmə və birgə fəaliyyət bu layihələrin uğurlu reallaşmasına gətirib çıxaracaqdır. Əminəm ki, belə də olacaqdır, çünki bizim böyük təcrübəmiz vardır. Artıq bir neçə kəmər tikilibdir və ümid edirəm ki, beynəlxalq əməkdaşlıq nəticəsində bu layihə də vaxtında öz həllini tapacaq və beləliklə, Avropa üçün yeni qaz mənbəyi təmin ediləcəkdir.

Onu da qeyd etməliyəm ki, TANAP və TAP layihələri Avropaya qazı yeni mənbədən gətirəcəkdir. Bu sadəcə olaraq, yeni marşrut deyil. Bu, yeni marşrut, yeni mənbədir və bu

layihənin xüsusiyyəti məhz ondan ibarətdir. Əlbəttə, layihənin həcmi də çox böyükdür.

İlkin hesablamalara görə, 45 milyard dollar vəsait nəzərdə tutulubdur. Azərbaycan da öz maliyyə imkanlarını ortaya qoyur. Hər halda, TANAP layihəsində səhmlərin böyük hissəsi Azərbaycana məxsusdur, yəni biz ən böyük investoruq. TAP layihəsində, «Şahdəniz»də də biz iştirak edirik. Yəni ki, Azərbaycan həm siyasi iradəni ortaya qoyur, öz düşünülmüş neft strategiyasını həyata keçirir, eyni zamanda, maliyyə resurslarını da təmin edir.

Maliyyə resurslarının mənbəyi də neft sənayesi olmuşdur. Burada cənab Vudun qeyd etdiyi kimi, bizim ən böyük uğurlarımızdan biri ondan ibarətdir ki, əldə edilmiş gəlirlər xalqın rifah halının yaxşılaşmasına, infrastruktur layihələrinin icrasına və ölkəmizin inkişafına yönəldilmişdir.

Bizim vəsaitimiz ildən-ilə artır. Şəffaflıq bizim üçün ən böyük prioritetdir. Əgər şəffaflıq təmin edilməsəydi, biz bu qədər vəsaiti yığa bilməzdik. Bu gün neft-qaz sektorunda və hasilat sənayesində şəffaflıq layihələrində Azərbaycanın iştirakı imkan verib ki, biz böyük maliyyə resurslarına sahib olmuşuq və onlardan səmərəli şəkildə istifadə edirik. Biz həm ölkə daxilində həllini gözləyən layihələrə, həm də insanların sosial rifahının yaxşılaşmasına və qlobal layihələrə – «Şahdəniz-2», TANAP, TAP kimi layihələrə öz vəsaitimizi sərf edirik.

Bu layihələr Azərbaycanın gücünü daha da artıracaqdır. Çünki bu gün Azərbaycan, əlbəttə ki, sürətlə inkişaf edən ölkədir. Ancaq «Şahdəniz-2» layihəsi bundan sonra uzunmüddətli dayanıqlı inkişafımızı təmin edəcəkdir. Milyardlarla dollar investisiya qoyulacaqdır. Yüzlərlə, bəlkə də minlərlə yeni Azərbaycan şirkəti podratçı kimi çalışacaqdır. Bu öz növbəsində 10 minlərlə yeni iş yerinin açılmasına gətirib çıxaracaq və ölkəmizin qeyri-neft sektoru inkişaf edəcəkdir. Çünki tikinti-quraşdırma, infrastruktur layihələrində qeyri-neft sektorunun inkişafı təmin ediləcəkdir. Bizim də əsas məqsədimiz bundan ibarətdir ki, biz qeyri-neft sektorumuzu

inkişaf etdirək. Son illərin nəticələri bunu göstərir. Azərbaycanın qeyri-neft sektoru hər il ən azı 9-10 faiz artır və beləliklə, ölkə iqtisadiyyatının şaxələndirilməsi təmin edilir.

Əlbəttə ki, bizim bu gün iqtisadi vəziyyətimizin əsas təməli 1994-cü ildə qoyulmuşdur. Biz bunu unutmamalıyıq və yadda saxlamalıyıq. Bizim bütün uğurlarımızın başlanğıcı məhz 1994-cü ildə «Əsrin kontraktı»nın imzalanmasından və bu sərginin təşkil edilməsindən sonra başlamışdır. Biz isə bu vəziyyətdən çox böyük səmərə ilə istifadə etdik. Biz neft kapitalını insan kapitalına çevirdik. Bu gün Azərbaycan tərəfindən qoyulan investisiyalar ölkəmizin ümumi inkişafını təmin edir. Təhsilə, müasir texnologiyalara, kosmik sənayeyə, digər sahələrə qoyulan sərmayələr ölkəmizi gələcəyə aparır.

Bizim maliyyə vəziyyətimiz çox sabitdir. İqtisadi islahatlar baxımından Azərbaycan son illər ərzində uğurlu yol keçmişdir. Bizim xarici borcumuz ümumi daxili məhsulun 8 faizini təşkil edir. İşsizlik 5 faiz səviyyəsindədir. Valyuta ehtiyatlarımız ümumi daxili məhsulun 70 faizini təşkil edir. Ölkəmizin rəqabətqabliyyətliliyi artır. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə dünyada 39-cu yerdədir. Biz bütün bunlara islahatların aparılması ilə nail ola bilmişik. Ancaq əgər neft amili, bizim zəngin yataqlarımız, resurslarımız olmasaydı və onlardan səmərəli şəkildə istifadə etməsəydik, buna nail olmaq üçün çox vaxt lazım olacaqdı.

Ona görə biz keçmişə böyük hörmətlə yanaşırıq. Biz dostlarımızın, tərəfdaşlarımızın – həm xarici neft şirkətlərinin, həm bu sərgini təşkil edənlərin fəaliyyətini yüksək qiymətləndiririk. Bu bizim ümumi uğurumuza gətirib çıxartdı və bunun nəticəsidir ki, bu gün sərgidə 400-dən artıq şirkət iştirak edir.

Mən əminəm ki, növbəti sərgidə biz yeni uğurlardan danışacağıq. Çünki biz keçən il sərgidə görüşəndə hələ «Şahdəniz-2» üzrə son investisiya qərarı qəbul edilməmişdi. Yəni bu, son 7-8 ay ərzində baş verib. Əminəm ki, gələn ilin iyun ayında biz yeni uğurlar haqqında danışacağıq.

Sərgiyə böyük uğurlar arzulayıram. Bütün qonaqlara bir daha «Xoş gəlmisiniz!» – deyirəm. Sağ olun.

* * *

*Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Riçard Morninqstar prezident Barak Obamanın Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.*

*Böyük Britaniya parlamentinin üzvü, Baş nazirin Azərbaycan, Qazaxıstan və Türkmənistan ilə ticarət məsələləri üzrə elçisi Çarlz Hendri Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.*

* * *

*Norveç Krallığının Neft və Energetika nazirinin müavini Kare Fostervold ölkəsinin Baş naziri xanım Erna Solbergin Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.*

*Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Malena Mard qurumun enerji məsələləri üzrə komissarı Günter Ottingerin Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu. Məktubda deyilir:*

«Cənab Prezident, «Cənub Qaz Dəhlizi» Xəzər qazını və Avropa bazarlarını birbaşa birləşdirərək Avropa İttifaqı–Azərbaycan əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirəcək tarixi layihədir. Eyni zamanda, bu layihə yalnız enerji təhlükəsizliyi deyil, həm də yeni iş yerlərinin yaradılması, sosial və iqtisadi inkişaf baxımından mühüm qarşılıqlı fayda verəcəkdir.

Avropa ikitərəfli əməkdaşlığımıza və bu layihənin reallaşdırılmasına çox böyük əhəmiyyət verir. Azərbaycan prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun «Cənub Qaz Dəhlizi» üzrə imzaladıqları Birgə Bəyannamədən sonra əhəmiyyətli irəliləyiş əldə olunmuşdur. Ötən ilin dekabrında «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması bu işlərin təntənəsi olmuşdur. Bununla yanaşı, Azərbaycan qazının 2019-cu ilə qədər Avropaya

çatdırılması istiqamətində qarşımızda mühüm vəzifələr durur. Biz xüsusilə əmin olmalıyıq ki, dəhliz boyu bütün infrastruktur layihələri vaxtında yerinə yetirilsin.

«Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyimiz baxımından bizim üçün siyasi prioritet olaraq qalır və Avropa İttifaqı bundan sonra da onun həyata keçirilməsi və genişləndirilməsini dəstəkləyəcəkdir. Komissiya bu niyyəti bir daha vurğulayaraq ötən ilin oktyabrında «Cənub Qaz Dəhlizi» boyu müxtəlif layihələrin də daxil olduğu qarşılıqlı maraq kəsb edən layihələr siyahısını tərtib etmişdir. Ötən həftə isə Avropa İttifaqı Şurasının xüsusi tapşırığı ilə Avropa Komissiyası enerji asılılığının azaldılması üzrə müfəssəl plan qəbul etmişdir. Bununla «Cənub Qaz Dəhlizi»nin rolu aydın şəkildə vurğulanmış və enerji təchizatımızın şaxələndirilməsi üçün prioritet layihələrin sürətləndirilməsinə xüsusi diqqət göstərilmişdir. 2011-ci ilin yanvar ayında imzalanmış Birgə Bəyannaməmiz Xəzər regionundan daha da geniş məkandan böyük həcmdə qaz ehtiyatlarını daşıyacaq «Cənub Qaz Dəhlizi»nin yaradılmasının əsasını qoydu. Bu mənada Avropa İttifaqının baxışı dəyişməmişdir. Biz inanırıq ki, «Cənub Qaz Dəhlizi» Avropanın illik 550 milyard kubmetrlik tələbatının ən azı 10 faizini, ideal halda isə 20 faizini təmin etməlidir.

Azərbaycan «Cənub Qaz Dəhlizi»nin icraçısı və əhəmiyyətli iştirakçısı olacaqdır. Mən əminəm ki, sizin iştirakınız Türkiyə və Avropaya daha çox qaz həcminin sürətlə ötürülməsi üçün əlavə sərmayə qoyuluşuna səbəb olacaqdır. Bu kontekstdə Avropa Komissiyası «Cənub Qaz Dəhlizi»nin daha da genişləndirilməsi məsələsinə sadiqdir. Bu, Türkmənistan ilə Transxəzər qaz kəməri üzrə üçtərəfli danışıqların aparılmasına da şamil olunur. Bizim enerji əməkdaşlığımız çox güclü zəmin üzərində qurulub. Enerji təhlükəsizliyi sahəsində birgə məqsədlərimiz qarşılıqlı və uzunmüddətli fayda üzərində qurulmuş səmərəli əməkdaşlıq üçün münbit şərait yaradır.

Komissiya adından və Avropa adından qeyd etmək istərdim ki, biz gələcəkdə daha geniş əməkdaşlığa nikbin baxırıq».

*Sonra bp şirkətinin baş icraçı direktoru Robert Dadli təmsil etdiyi şirkətlə ölkəmiz arasındakı fəal və səmərəli əməkdaşlığın bəhrələrindən danışdı.*

**R o b e r t D a d l i:** Zati-aliləri cənab Prezident!

Nazirlər, səfirlər, hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, dəvətinizə görə təşəkkür edirəm. Burada olmağımdan məmnunam. Qeyd etməliyəm ki, bu tədbir çox mötəbər olmuşdur. 20 il ərzində həcminə görə böyümüş və neft sənayesi təqvimində əlamətdar tarixə çevrilmişdir.

20 il bundan öncə bu sərgi yeni yaranırdı. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndən sonra neft və qaz sərgisinin dirçəlişini özündə əks etdirdi. Mərhum prezident Heydər Əliyevin uzaqgörənliyi nəticəsində 3 il sonra *bp* və onun tərəfdaşları ilə Azərbaycan hökuməti arasında «Əsrin müqaviləsi» imzalandı. Bildiyiniz kimi, bununla da ölkə dünyanın aparıcı neft və qaz istehsalçısı kimi, yenidən səhnəyə çıxdı. İstərdim deyəm ki, sonrakılar ancaq tarixdir, lakin bu belə deyildir. Tarix davam edir və bu tarix keçmişlə bağlı olduğu qədər də gələcəklə bağlıdır. Biz «Əsrin müqaviləsi»nin imzalanmasının 20 illiyini qeyd edirik. 1994-cü ildən etibarən nailiyyətlərimiz misilsiz olmuşdur. Bunlar Azərbaycan üçün faydalı olmuşdur. Bu eyni zamanda, *bp* və bizim tərəfdaş şirkətlər üçün də faydalı olmuşdur. Bizim layihələrdə çalışmış on minlərlə yerli vətəndaş da, yüzlərlə Azərbaycan şirkəti də bu işlərdən faydalanmışdır.

Məqsədlərə sadiqlikdən qaynaqlanan bir sıra uğurları qeyd etmək olar. Onların bir neçəsini diqqətinizə çatdırıram: güclü və inkişaf edən iqtisadiyyata töhfə, iqtisadi artımın təməlində duran yeni gəlirlər axınının təmin edilməsi, dünyanın müxtəlif ölkələri ilə yeni ticarət əlaqələrinin yaranması, karbohidrogen resurslarının dənizdə hasilatının bərpa edilməsi, dünyanın ən müasir neft və qaz zavodlarından birinin yaradılması, dünya səviyyəli təlim-tədris və istehsalat sahələrinin və peşəkar milli

kadrların hazırlanması, kənd yerlərində insan kapitalının və infrastrukturun yaradılması.

Olduqca geniş bir siyahıdır. Təbii ki, bunların heç biri prezident İlham Əliyevin rəhbərliyi, hökumətin, ARDNŞ-in, tərəfdaşlarımızın və əlbəttə ki, Azərbaycan xalqının dəstəyi olmadan mümkün olmazdı. Bu bir neft sərgisidir və bu işlə məşğul olanlar 20 il ərzində buradakı nailiyyətlərlə fəxr edə bilərlər.

Biz Azərbaycanda uğurun əsl nümunəsi olmuşuq və bütün dünya bundan xəbərdar olmalıdır. Beynəlxalq səviyyəli infrastruktura gəldikdə, biz Xəzər dənizində ən böyük platformalar qurmuşuq. «Azəri–Çıraq–Günəşli» və «Şahdəniz» yataqlarını 20 il ərzində təhlükəsiz istismar etmişik. Biz Səngəçalda nəhəng karbohidrogen emalı terminalı inşa etmişik və ondan təhlükəsiz şəkildə istifadə edirik. Biz Xəzərdən Türkiyəyə qədər uzanan Bakı–Tbilisi–Ceyhan neft kəməri və Cənubi Qafqaz qaz kəmərini inşa etmişik. Onları 2005-ci ildən uğurla istismar edirik.

Daha bir neçə fakt və rəqəmi diqqətinizə çatdırıram. 1997-ci ildən etibarən «Azəri–Çıraq–Günəşli» yataqlarından 2,5 milyard barrel neft hasil olunubdur. Ötən 9 il ərzində həmin yataqdan hasil edilən neftlə dolu 2500 tanker «Ceyhan» terminalından yola salınmışdır. Biz 20 il ərzində tərəfdaşlarımızla birlikdə ölkə vətəndaşları ilə bağlı layihələrə 60 milyon dollar vəsait xərcləmişik. Keçən 10 il ərzində biz «Azəri–Çıraq–Günəşli» və «Şahdəniz» yataqlarından 43 milyard kubmetr qaz hasil etmişik.

Zənnimcə, bizim sənaye özünü sosial və ətraf mühitin qorunması ilə bağlı öhdəliklərini yerinə yetirməkdədir. Bir nümunəni diqqətinizə çatdırım. Son 20 il «Azəri–Çıraq–Günəşli»də ətraf mühitə ziyanla bağlı 90-dan artıq dəyərləndirmə və quruda, dənizdə və dənizkənarı ərazilərdə 190-dan çox monitorinq keçirilmişdir.

Keçən ilin sonunda biz daha bir mühüm addım atdıq. *bp*, ARDNŞ və tərəfdaşlarımız «Şahdəniz» yatağının ikinci mər-

hələsi ilə bağlı sərmayəmizin artırılmasına və işlərin davam etdirilməsinə dair qərar qəbul etmişlər. Bu, indiyə qədər neft və qaz sənayesində başlanılacaq ən mürəkkəb layihələrdən biridir. Bu, Azərbaycana birbaşa yatırılmış ən böyük xarici sərmayədir. Bu, Xəzər dənizində ilk sualtı istehsalat infrastrukturu olmaqla, texniki baxımdan da bir yenilik olacaqdır.

Kəmərlər şəbəkəsinə gəldikdə, onların uzunluğu 3 min 500 kilometr təşkil edəcəkdir ki, bu da Bakı–Tbilisi–Ceyhan kəmərindən 2 dəfə uzundur. Tikinti mərhələsinin qızğın çağlarında Azərbaycanda 10 mindən artıq yeni iş yeri yaranacaqdır. Bundan 2 dəfə artıq yeni iş yerləri «Cənub Qaz Dəhlizi» boyu yerləşən ölkələrdə yaranacaqdır.

Bu layihə yalnız iştirakçı şirkətlər üçün deyil, həm də Azərbaycanın beynəlxalq rolu baxımından mühüm əhəmiyyət kəsb edir. «Cənub Qaz Dəhlizi» ilə nəql olunacaq qazdan bəhrələnəcək Avropa ölkələri ilə Azərbaycan arasında yeni əlaqələr yaranacaqdır. Təmsil etdiyimiz sənaye belə strateji və nüfuzlu layihələrdə iştirak etdiyinə görə, biz iqtisadiyyatın tərkib hissəsi oluruq. Bu isə cəmiyyətdə daha geniş rol oynamağı tələb edir. Bu baxımdan şadam ki, *bp* Azərbaycan Milli Olimpiya Komitəsi ilə tərəfdaşlıq Sazişi imzalamışdır, ölkənin istedadlı oğlan və qızlarını dəstəkləyir. Biz Avropa gənclərinin qarşıdan gələn Bakı Olimpiya Sınaq oyunlarını dəstəkləyirik. Gələn il Bakının ev sahibliyi edəcəyi I Avropa oyunlarının rəsmi tərəfdaşı olmağı planlaşdırırıq. Bu bizim üçün böyük şərəfdir. Bu, gənclər üçün yeni imkanların yaradılması və Azərbaycanın gələcəyi üçün xüsusən əhəmiyyətlidir. Həqiqətən də gördüyünüz bütün işlər gələcəyə hesablanmış sərmayədir. Biz Azərbaycanda və dünyada olan bütün dost və tərəfdaşlarımız ilə bu işləri davam etdirəcəyik. Təşəkkür edirəm.

* * *

*Daha sonra prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ekspozisiyasında «Əsrin müqaviləsi»nin imzalanmasından ötən 20 ildə qazanılan nailiyyətlər geniş əksini tapmışdır. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq ötən illərdə aparılan məqsədyönlü və ardıcıl iş sayəsində SOCAR artıq beynəlxalq səviyyəli şirkətə çevrilib. Hazırda SOCAR-ın müxtəlif ölkələrdə 13 nümayəndəliyi fəaliyyət göstərir. Bundan başqa, Dövlət Neft Şirkəti xaricdə alqı-satqı ilə məşğul olan qurumlarını açır, həmçinin ölkəmizin Gürcüstanda və bir sıra Avropa dövlətlərində 340-dan çox yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir.*

*Diqqətə çatdırıldı ki, ötən illərdə Dövlət Neft Şirkətinin sifarişi və maliyyə dəstəyi ilə respublikamızda 43 sosial obyekt istismara verilib.*

*Prezident İlham Əliyevə şirkətin perspektiv planları barədə də ətraflı məlumat verildi.*

*«Əsrin müqaviləsi» imzalanandan bəri Böyük Britaniyanın bp şirkəti də ölkəmizlə sıx əməkdaşlıq edir. Dünyada xüsusi nüfuz sahibi olan bu iqtisadi qurum respublikamızın neft-qaz sektorunun əsaslı şəkildə inkişafında və ən müasir standartlar səviyyəsində yenidən qurulmasında səyini əsirgəmir.*

*Dövlətimizin başçısına bp şirkətinin yaxın illərdə həyata keçirəcəyi layihələr barədə də məlumat verildi.*

*SOCAR-ın təsis etdiyi «Bos Shelf» şirkəti də respublikamızın neft-qaz sektorunda həyata keçirilən ən mühüm layihələrdə yaxından təmsil olunub. Həmin iqtisadi qurum «Şahdəniz-2» mərhələsi çərçivəsində Bakı Dərin özüllər zavodunun daha da müasirləşdirilməsində və bir sıra digər layihələrdə müvafiq işlər görəcəkdir.*

«SOCAR Türkiyə» şirkəti də qardaş ölkədə ildən-ilə daha geniş təmsil olunur. SOCAR xaricdə ən böyük məbləğdə investisiyasını da məhz Türkiyənin iqtisadiyyatına qoyur.

Fransanın GDF Suez şirkəti artıq 5 ildən çoxdur ki, Azərbaycan ilə neft-qaz sektorunda fəal əməkdaşlıq edir. Bu iqtisadi qurum da ölkəmizdə hər il keçirilən neft-qaz sərgi və konfransının daimi iştirakçılarından biridir və ən son yeniliklərini respublikamızda tətbiq edir.

İtaliyanın SAİPEM şirkəti 2001-ci ildən Azərbaycanda çalışır. Həmin iqtisadi qurum «Şahdəniz-2» mərhələsində də bir sıra layihələrdə iştirak edir və əsasən inşaat işləri ilə məşğul olur.

RussNeft də Azərbaycanın neft-qaz bazarında geniş təmsil olunur və Rusiyanın 10 ən iri neft-qaz şirkətindən biridir. Bu iqtisadi qurum geoloji kəşfiyyat və digər işlərin yerinə yetirilməsində öz yeniliklərini və qabaqcıl təcrübəsini ölkəmizlə bölüşür.

Türkiyə Petrolları şirkəti də «Əsrin müqaviləsi» imzalanandan bəri Azərbaycan bazarında ən fəal iqtisadi qurumlardan və etibarlı tərəfdaşlardan biri sayılır. Bu yaxınlarda Fransanın «Total» şirkətinin 10 faizlik payını alan Türkiyə Petrolları «Şahdəniz-2» çərçivəsində payını 19 faizə çatdırıb.

Norveçin «Statoyl» şirkəti də neft-qaz sektorunda Azərbaycanın ən əsas tərəfdaşlarından biridir. Ötən illərdə «Statoyl» SOCAR və digər iqtisadi qurumlarla birgə silsilə nailiyyətlərə imza atıb, xüsusilə respublikamızda qaz hasilatının artırılmasına mühüm töhfələr verib.

Prezident İlham Əliyev IV Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin ekspozisiyaları ilə də tanış oldu.

Azərbaycanın ev sahibliyi etdiyi bu sərgi qısa müddətdə dünyanın ən nüfuzlu tədbirlərindən birinə çevrilib. Dünyanın energetika və alternativ enerji sahəsində ixtisaslaşan tanınmış şirkətləri ildən-ilə bu sərgiyə daha çox maraq göstərir. Burada energetika, elektrotexnika, alternativ enerji mənbələri, enerjiyə qənaət, enerjidən səmərəli istifadə, müasir işıqlandırma və bir sıra digər sahələrlə bağlı ən son elmi-texniki yeniliklər və qabaqcıl təcrübə nümayiş etdirilir. Qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, sərginin bazarı

*maksimum əhatə etməsi üçün ardıcıl tədbirlər reallaşdırılır. Burada elektroenergetika sənayesinin nümayəndələri ətraflı fikir mübadiləsi aparmaq imkanı qazanırlar. Zəngin ekspozisiyası ilə seçilən bu sərgi işgüzar əlaqələrin qurulması və yeni satış bazarlarının əldə olunması baxımından böyük potensial imkanlara malikdir.*

*XXI Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası», eləcə də, IV Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgiləri ilə tanış olan prezident İlham Əliyev sərgi və konfrans iştirakçılarına bir daha uğurlar arzuladı, Fəxri qonaqlar kitabını imzaladı.*

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ, BAŞ NAZİRİN AZƏRBAYCAN, QAZAXISTAN VƏ TÜRKMƏNİSTAN İLƏ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ ELÇİSİ ÇARLZ HENDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Böyük Britaniya parlamentinin üzvü, Baş nazirin Azərbaycan, Qazaxıstan və Türkmənistan ilə ticarət məsələləri üzrə elçisi Çarlz Hendrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Böyük Britaniyanın Baş naziri Devid Kemeronun XXI Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgi və konfransına ünvanladığı məktuba görə təşəkkürünü bildirən prezident İlham Əliyev məktubda ölkələrimiz arasında əməkdaşlığın bir çox sahələrini, xüsusilə enerji sektorunu əhatə etməsinin əhəmiyyətini qeyd etdi.*

*Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi sahədə güclü tərəfdaşlıq əlaqələrinin olduğunu vurğulayan dövlətimizin başçısı enerji sektorunda əməkdaşlığımızın uzun illər uğurla inkişaf etdiyini bildirdi.*

*Prezident İlham Əliyev qeyri-energetika sahəsində əməkdaşlığımızın inkişafına toxunaraq, informasiya-kommunikasiya texnologiyaları, təhsil və digər sahələrdə əlaqələrin möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı bu yaxınlarda Böyük Britaniyadan olan parlament nümayəndə heyəti ilə görüşü zamanı ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığa dair müzakirələrin aparıldığını vurğuladı.*

*Böyük Britaniya parlamentinin üzvü, Baş nazirin Azərbaycan, Qazaxıstan və Türkmənistan ilə ticarət məsələləri üzrə*

*elçisi Çarlz Hendri Azərbaycan Prezidentinə XXI Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgi və konfransında Böyük Britaniya, xüsusilə bp haqqında fikirlərinə görə minnətdarlığını bildirdi, ölkəsinin Azərbaycan ilə əməkdaşlığı bir çox sahələrdə genişləndirməkdə maraqlı olduğunu dedi.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*3 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də bp şirkətinin baş icraçı direktoru Robert Dadlini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında uzun illərdir uğurlu əməkdaşlıq həyata keçirildiyi məmnunluqla qeyd olundu.*

*Bakıda keçirilən XXI Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgi və konfransında dünyanın xeyli sayda ölkə və şirkətlərinin iştirakının önəmi vurğulandı, bu tədbirin Azərbaycanın enerji sahəsində beynəlxalq əməkdaşlığının daha da genişləndirməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı Azərbaycan ilə bp şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# ÇEX RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ LUBOMİR ZAORALEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Çex Respublikasının Xarici İşlər naziri Lubomir Zaoralekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən qarşılıqlı sərmayə qoyuluşu, təhsil, mədəniyyət, turizm və digər sahələrdə inkişaf etdirilməsi üçün böyük potensialın olduğu bildirildi, əlaqələrin daha intensiv xarakter almasından məmnunluq ifadə edildi, Çex Respublikası Xarici İşlər nazirinin Bakıya səfərinin bu əlaqələrin daha da genişləndirilməsi ilə bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığı vurğulandı.*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*4 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısında iştirak etmək üçün iyunun 4-də Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Bodrumun Milas Beynəlxalq Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsini salamladı.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*Bodrum*

*4 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Bodrumda Türkiyə Respublikasının Prezidenti Abdullah Gül ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə uğurlu inkişafından məmnunluq ifadə edildi, strateji əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik bildirildi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısının türkdilli xalqlar və ölkələr arasında əməkdaşlığın, regional əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verəcəyi vurğulandı.*

*Söhbət zamanı ikitərəfli və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*Bodrum*

*4 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Bodrumda Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Əlaqələrimizin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu qeyd edildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevə Avrasiya Ali İqtisadi Şurasının iclasında Ermənistanın Gömrük İttifaqına üzvlüyü ilə bağlı Azərbaycanın mövqeyini dəstəklədiyinə görə öz adından və xalqımızın adından təşəkkürünü bildirdi.*

# TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*Bodrum*

*4 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Bodrumda Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədov ilə görüşmüşdür.*

**Q u r b a n q u l u B e r d ı m ə h ə m m ə d o v:** Möhtərəm prezident İlham Heydər oğlu!

Sizi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısında görməyimə şadam. Bizim ikitərəfli münasibətlərimiz durmadan genişlənməkdədir. Bu münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Minnətdaram ki, Siz bizim təşəbbüslərimizi beynəlxalq təşkilatlarda həmişə dəstəkləyirsiniz. Enerji təhlükəsizliyi və nəqliyyat şəbəkələrinin daha da möhkəmləndirilməsi məsələlərində də bu dəstək hiss olunmaqdadır. Xüsusilə mötəbər beynəlxalq təşkilatlarda, həmçinin BMT-də Azərbaycan ilə Türkmənistan arasında mehriban qonşuluq və qardaşlıq münasibəti aşkar duyulmaqdadır.

Bizim xarici siyasət idarələrinin əməkdaşlığı da kifayət qədər qənaətbəxş inkişaf etməkdədir. Hər görüş zamanı məsləhətləşmələr ikitərəfli münasibətlərimizin tərəqqisinə yeni yollar açır. Düşünürəm ki, bu istiqamətdə fəaliyyətimizi davam etdirməliyik.

Ticari-iqtisadi sahədə də münasibətlərimiz çox yaxşı inkişaf etməkdədir. Fərəhlidir ki, bu ilin birinci yarısında əmtəə dövriyyəsi yüksək səviyyədə olub. Bizim hökumətlərarası komissiya iqtisadi məsələlər üzrə məsləhətləşmələr aparır.

Düşünürəm ki, əmtəə dövriyyəsini daha da artırmaq üçün yaxşı potensialımız vardır. Xatırlayıram, Bakı Sammitində Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi ilə bağlı yaxşı sənədlər qəbul etdik. Əlbəttə ki, Xəzər dənizi həmişə dostluq, mehriban qonşuluq münasibətləri üçün ümumi vasitəmiz olub. Buna görə də mütəxəssislərimizin apardığı işlər Xəzər dənizi ətrafında ekologiyanın, biomühitin, floranın qorunmasında əminəm ki, müsbət nəticələr verəcəkdir.

Təbii ki, humanitar sahədə münasibətlərimiz də yaxşı inkişaf etməkdədir. Mən bilirəm ki, 2015-ci ildə Bakıda ilk Avropa oyunları keçirəcəksiniz. Biz isə 2017-ci ildə Asiya oyunları keçirəcəyik. Bu da bizə təkcə idmançılar deyil, eyni zamanda, hakimlər, məşqçilər arasında təcrübə mübadiləsi üçün yaxşı imkan yaradır ki, sonda uğurlu nəticə alınsın. Biz bilirik ki, Siz bu il xalçaçılıq üzrə sərgi keçirmək niyyətindəsiniz. Əgər imkan olarsa, biz də bu sərgidə iştirak edəcəyik. Düşünürəm ki, xalçaçılıq nəinki bizim xalqların şedevr sənətidir, həm də rəmzidir. Biz bu tədbirdə böyük məmnuniyyətlə iştirak edəcəyik. Mən Sizə minnətdaram ki, sabah biz Zirvə görüşündə mədəniyyət məsələlərini müzakirə edəcəyik. TÜRKSOY bu ili böyük mütəfəkkir, filosof-şair «Məhtumqulu Fəraqi ili» elan edib. Biz Sizə minnətdarıq ki, bizim şairimizin xatirəsini layiqincə yad etmisiniz.

İkitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi sahəsində Sizin böyük əməyiniz vardır. Buna görə də mən Sizə, bütün qardaş Azərbaycan xalqına işlərinizdə böyük uğurlar, ölkənizə tərəqqi arzulayıram.

**İlham Əliyev:** Möhtərəm Qurbanqulu Məlikqulu oğlu, bizim dövlətlər arasındakı münasibətlər barədə dediyiniz xoş sözlərə görə çox sağ olun! İstərdim ki, ilk növbədə, Türkmənistanın Sizin rəhbərliyiniz altında qazandığı böyük nailiyyətlər münasibətilə Sizi təbrik edim. Biz Sizin uğurlarınıza sevinirik və ümid edirik ki, bizim dostluq, mehriban qonşuluq münasibətlərimiz daha da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizin toxunduğunuz məsələlərlə bağlı bizdə tam qarşılıqlı anlaşma vardır. Biz siyasi münasibətlərimizi daha da möhkəmləndirmək əzmindəyik. Bizim Sizinlə görüşlərimiz, eləcə də xarici işlər nazirlərinin digər səviyyələrdə müntəzəm görüşləri münasibətlərimizin xarakterini bariz şəkildə göstərir. Bu, yaxın dostluq, qardaşlıq münasibətləridir. Biz bir-birimizə xeyirxahlıq, sülh arzulayırıq, bütün istiqamətlərdə əməkdaşlığı daha da gücləndirmək niyyətindəyik.

İqtisadi istiqamətdə də, əlbəttə ki, potensialımız böyükdür, əmtəə dövriyyəsi artır. Düşünürəm ki, gələcəkdə indiyədək istifadə olunmayan imkanları da işə salacağıq. Əlbəttə ki, enerji, nəqliyyat təhlükəsizliyi məsələləri ölkələrimiz arasında paralel həllini tapır. Bu ondan irəli gəlir ki, biz vəziyyəti düzgün qiymətləndiririk, ölkələrimizin inkişafını iqtisadiyyatın möhkəmləndirilməsində və regional əməkdaşlığı inkişaf etdirməkdə görürük.

Mən bilirəm ki, Azərbaycanda olduğu kimi, Türkmənistanda da böyük müasir liman tikilir. Bu yeni limanlar bizim ölkələrimiz və xalqlarımıza xidmət edəcəkdir. Biz Xəzər vasitəsilə yük daşınmasını daha da artıracağıq və bununla da iqtisadi potensialımızı möhkəmləndirəcəyik.

Həmçinin ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq paralel templərlə inkişaf edir. Bu sahə də xalqlarımızın rifahına, tərəqqisinə xidmət edir. Düşünürəm ki, bu layihələr, eləcə də Xəzərdə təhlükəsizliyin və ekoloji tarazlığın birgə qorunması səyləri vəziyyətin müsbət həllinə öz təsirini göstərəcəkdir. Xəzər dostluq, qardaşlıq dənizidir, bizim ümumi su hövzəmizdir. Biz də, əlbəttə ki, qardaşcasına əməkdaşlıq edirik. Ümid edirik ki, Xəzəryanı dövlətlərin Bakı Sammitindən sonrakı ilk sammiti də bu əməkdaşlığın möhkəmlənməsinə təkan verəcəkdir.

Siz mədəniyyət sahəsinə toxundunuz. Əlbəttə ki, bu istiqamətdə də fəal əməkdaşlıq edir və işləyirik. Bizim geniş tərkibdə nümayəndə heyətimiz Türkmənistanın böyük oğlu Məhtumqulu Fəraqinin Aşqabadda keçirilən yubileyində iştirak

etdi. Bakıda da müvafiq tədbirlər keçirildi. Bizim xalqlarımızın görkəmli oğullarının irsi, əlbəttə ki, böyük sərvətimizdir, biz onlarla fəxr edirik. Əlbəttə ki, biz onları təbliğ etməli və öz vətəndaşlarımıza ölkələrimizin malik olduğu yüksək mədəniyyət nümunələrini təqdim etməliyik. Tezliklə Bakıda Müasir Xalça Muzeyi binasının açılışı gözlənilir. Açılışdan sonra hesab edirik ki, Türkmənistan da xalçaçılıq sahəsində öz yüksək sənət nümunələrini təqdim edəcəkdir. Bu da bizim xalqlarımızı yaxınlaşdıran bir sahədir. Bizim xalqlarımızın xalçaya xüsusi münasibəti vardır. Bu, təkcə dekorasiya, rahatlıq elementi deyil, xalça bizim xalqlarımızın istedadını və mədəniyyətini əks etdirir. Xalça hər bir türkmən və azərbaycanlı üçün doğmadır. Mən çox şadam ki, Türkdilli Dövlətlərin Sammiti müntəzəm keçirilir, biz qarşılıqlı fəaliyyətin mühüm məsələlərini müzakirə edirik. Eləcə də bu yaxınlarda Bakıda Azərbaycan, Türkiyə və Türkmənistanın xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirildi. Bu da əməkdaşlığın yeni formatıdır, həm də müsbət və səmərəli hadisədir. İkitərəfli və beynəlxalq təşkilatlarda görülən işləri təhlil edərkən yaxşı nəticələr əldə edildiyinin şahidi oluruq. Bu da bizi yeni addımlara ruhlandırır. Bir daha Sizi əldə olunan uğurlar münasibətilə təbrik etmək, qardaş Türkmənistan xalqına rifah və xoşbəxtlik diləmək istəyirəm.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN ADINDAN DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLƏN ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*Bodrum*

*4 iyun 2014-cü il*

*Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün adından iyunun 4-də dövlət başçılarının şərəfinə şam yeməyi verilmişdir.*

*Türkiyə prezidenti Abdullah Gül Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısında iştirak etmək üçün Bodrumda olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.*

*** * ***

*Daha sonra tarixi Bodrum qalasında «Türk düyünü» adlı konsert təqdim olundu.*

## XALQ ŞAİRİ VAQİF SƏMƏDOĞLUNA

Hörmətli Vaqif Səmədoğlu!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə cansağlığı və uğurlar arzulayıram.

Sizin yaradıcılığınız tədqiqatçılar tərəfindən fikir poeziyası kimi həmişə yüksək qiymətləndirilmişdir. Vətən və azadlıq, xeyir və şər, həyat və ölüm haqqında fəlsəfi düşüncələriniz əsərlərinizdə bənzərsiz bir mənzərə formalaşdıraraq özünəməxsus poetik dünya yaratmışdır.

Müraciət etdiyiniz mövzular nə qədər rəngarəng olsa da, Siz Bakının, İçərişəhərin, Xəzərin və bütövlükdə Vətənin parlaq obrazlarını daim diqqət mərkəzində saxlamısınız. Poeziyanızda əksini tapan hər bir ifadə Azərbaycan xalqının ədəbi xəzinəsi, milli-mənəvi dəyərləri və folklorun tükənməz imkanları ilə sıx bağlıdır. Müasir insanın daxili aləminin təsvirində sərbəst şeirin potensialından məharətlə istifadə olunmasında xüsusi xidmətləriniz vardır.

Mahnı janrının inkişafında, teatr və kino sahəsində əldə etdiyiniz uğurlar da Sizə şöhrət gətirmişdir. İstər yaradıcılığınızda, istər ədəbi-mədəni və ictimai-siyasi həyatda Siz səmimi və müdrik insan kimi tanınmış, böyük nüfuz və hörmət qazanmısınız.

Şeirlərinizdə tez-tez atanızı xatırlayırsınız. Üslubunuzun Vurğun yaradıcılığından kəskin surətdə fərqlənməsinə baxmayaraq, məhz onun əsl varisi olub ədəbiyyatımızın bütün qaynaqlarından ilham almış, təkrarolunmaz şair kimi formalaşmısınız. Bəşər mədəniyyətinin nailiyyətlərini dərindən mənimsəməklə Siz bütövlükdə Azərbaycan ədəbiyyatının inkişafına layiqli töhfələr vermisiniz. Ümidvaram ki, əsərlərinizlə bundan sonra da xalqımıza layiqincə xidmət göstərəcəksiniz.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyun 2014-cü il*

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ IV ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*Bodrum*

*5 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Türkiyənin Bodrum şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) IV Zirvə toplantısında iştirak etmişdir.*

*Türkiyə prezidenti Abdullah Gül Zirvə toplantısında iştirak edən Azərbaycan prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.*

*Zirvə toplantısında iştirak edən dövlət başçılarını bir daha salamlayan Türkiyə prezidenti Abdullah Gül türkdilli dövlətlərlə əlaqələrin genişlənməsində bu təşkilatın böyük rolu olduğunu bildirdi. Qeyd etdi ki, təşkilat çərçivəsində dövlət başçıları arasında əlaqələr də səmərəlidir və bu da öz növbəsində ikitərəfli münasibətlərin inkişafına xidmət edir. 2009-cu ildə Naxçıvan Zirvə toplantısında təsis olunan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının ötən dövrdə böyük inkişaf yolu keçdiyini deyən Abdullah Gül builki Zirvə toplantısının mövzusunun turizmə həsr olunduğunu diqqətə çatdırdı. Bu istiqamətin ölkələrimiz arasında işbirliyinin genişlənməsində mühüm rol oynayacağını vurğuladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz qardaşım, hörmətli prezident Abdullah Gül!

Hörmətli dövlət başçıları!

Əziz dostlar!

Cənab Prezident, ilk növbədə, bizə göstərdiyiniz qonaqpərvərliyə və bu Zirvə toplantısını yüksək səviyyədə təşkil etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Deyə bilərəm ki, bu gün biz sədrliyi Türkiyəyə təhvil veririk. 1 il bundan əvvəl Qəbələ şəhərində Qırğızıstandan Şuraya sədrliyi təhvil almışıq və il ərzində çalışmışıq ki, Şuranın işi uğurlu olsun. Hesab edirəm ki, il ərzində görülən işlər bizim birliyimizi daha da möhkəmləndirəcəkdir. Əlbəttə ki, növbəti dövr üçün Türkiyəyə sədrlik işində uğurlar arzulayıram.

Keçən il ərzində müxtəlif istiqamətlər üzrə əməkdaşlığımız davam etmişdir. Bu gün sadəcə olaraq, bir neçə məqamı qeyd etmək istərdim. İl ərzində BMT Məclisi çərçivəsində xarici işlər nazirlərinin görüşü keçirilmişdir. Bu, Şuranın siyasi məsələlərinin həlli üçün önəmli bir addım idi. Eyni zamanda, iqtisadi sahədə görülən işlər də təqdirəlayiqdir. Biznes-forum keçirilmişdir. Diaspor təşkilatlarının fəaliyyətini təkmilləşdirmək üçün önəmli addımlar atılmışdır. Təhsil, nəqliyyat nazirlərinin görüşləri keçirilmişdir. Çox şadam ki, Azərbaycanın təşəbbüsü ilə Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması da artıq reallaşır. Əminəm ki, bu fond yaranandan sonra müxtəlif layihələri, mədəniyyətlə, incəsənətlə, ortaq tariximizlə bağlı tədbirləri keçirmək üçün yaxşı imkanlar olacaqdır.

Qeyd etməliyəm ki, keçən il Qəbələdə Azərbaycan tərəfi bir təşəbbüslə çıxış etmişdir ki, biz beynəlxalq turizm sərgilərində birgə stendlərlə çıxış edək. Şadam ki, artıq birinci addım atılmışdır. Bakıda keçirilmiş Beynəlxalq turizm sərgisində Əməkdaşlıq Şurasına üzv ölkələrin birgə fotostendi də nümayiş etdirilmişdir. Yəni bu, birinci addımdır. Hesab edirəm ki,

növbəti illərdə biz başqa ölkələrdə birgə turizm potensialımızı təqdim etməliyik. Bunun həm də birliyimiz üçün önəmi var. Çünki bu, birliyimizin bir təzahürü və praktiki nöqteyi-nəzərdən önəmli addım olacaqdır. Biz dünən söhbət əsnasında bu barədə fikir mübadiləsi aparmışıq.

Mən bu gün xüsusilə TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Çünki TÜRKSOY bizi mənəvi cəhətdən, mədəniyyət sahəsində birləşdirən təşkilatdır. Bizim birliyimizin təməlində, əlbəttə ki, ortaq köklər, ortaq mədəniyyət, tarix dayanır və bu gün biz bu möhkəm təməl üzərində gözəl əməkdaşlıq yaradırıq. Buna görə TÜRKSOY-un gələcəkdə də fəaliyyətini gücləndirmək üçün əlimizdən gələni edəcəyik.

Əlbəttə, siyasi məsələlərin həllinə gəldikdə, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyə böyük ehtiyac var. Mən çox şadam ki, biz üzv olduğumuz təşkilatlarda bir-birimizi dəstəkləyirik, xüsusilə BMT-də, İslam Əməkdaşlıq Təşkilatı, ECO təşkilatı çərçivəsində bir-birimizin dəstəyini hiss edirik, görürük.

Eyni zamanda, ölkələrimizin üzv olmadığı bəzi təşkilatlarda Əməkdaşlıq Şurasına üzv ölkələrin fəaliyyəti də böyük önəm daşıyır. Mən bu gün xüsusilə hörmətli Nursultan Nazarbayevin addımını qeyd etmək istəyirəm. O bu yaxınlarda Astanada Avrasiya İqtisadi İttifaqının təsis toplantısında Ermənistanın bu təşkilata üzvlüyü ilə bağlı Azərbaycan tərəfinin narahatlığını ifadə etmişdir. Biz buna görə hörmətli Nursultan Abişeviçə minnətdarlığımızı bildirmək istəyirik. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir. Bu, əsl dostluq, qardaşlıq addımı idi. Eyni zamanda, bu addım ədalətə və beynəlxalq hüquqa söykənir. Çünki ölkələrin beynəlxalq birlik, BMT tərəfindən tanınan sərhədləri toxunulmazdır. Ölkələrin ərazi bütövlüyü toxunulmazdır. Ərazi bütövlüyü hər bir ölkənin suverenliyini əks etdirən əsas məsələdir.

Bildiyiniz kimi, Azərbaycanın ərazi bütövlüyü uzun illərdir ki, pozulubdur. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti aparır. Bu siyasət nəticəsində 20 faiz torpağımız işğal altındadır, 1 milyondan artıq qaçqın-köçkün vardır. Bizə qarşı etnik

təmizləmə siyasəti aparılmışdır, Xocalı soyqırımı törədilmişdir. Bu gün dünyanın 10 ölkəsi Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyır.

Beynəlxalq təşkilatların bu məsələ ilə bağlı mövqeyi bəllidir. BMT Təhlükəsizlik Şurası Ermənistan işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, bu qətnamələr bu günə qədər icra edilməyib. «Qoşulmama Hərəkatı», Avropa Parlamenti, Avropa Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı – bütün bu mötəbər təşkilatlar öz qərar və qətnamələrində ədaləti, beynəlxalq hüququ və əslində Azərbaycanın mövqeyini dəstəkləmişlər. Ancaq əfsuslar olsun ki, işğalçı ölkə buna məhəl qoymur və işğal davam edir. Bu məsələnin həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri üzərində mümkündür. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qeyd-şərtsiz icra edilməlidir. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir və soydaşlarımız öz dədə-baba torpaqlarına qayıtmalıdırlar. Baxmayaraq ki, orada artıq hər şey dağıdılıb. ATƏT-in faktaraşdırıcı missiyaları işğal edilmiş torpaqlara 2 dəfə səfər etmişlər və onların məruzələrində bütün dağıntılar öz əksini tapıbdır. O cümlədən bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən vəhşicəsinə dağıdılıbdır.

Bu münaqişə böyük regional təhlükədir, eyni zamanda, bizim üçün iqtisadi cəhətdən də böyük problemlər yaradır. Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı son illərdə uğurlu inkişaf dövrünü yaşayır. Hesab edirəm ki, biz Şura çərçivəsində iqtisadi əməkdaşlığı daha da dərinləşdirməliyik. Bu sahədə investisiya layihələrinin icrası xüsusi önəm daşıyır. Deyə bilərəm ki, Azərbaycan hazırda Türkiyəyə böyük həcmdə investisiya qoymağa başlamışdır. Növbəti 5-6 il ərzində bu investisiyaların həcmi ən azı 20 milyard dollar olacaqdır. Hesab edirəm ki, qarşılıqlı investisiyaların qoyuluşu həm bizim maraqlarımızı təmin edəcək, eyni zamanda, birliyimizi daha da möhkəmləndirəcəkdir.

Biznes-forumların keçirilməsi, investisiya imkanlarının araşdırılması, üçüncü ölkələrə birgə investisiya layihələri ilə çıxmağımız hesab edirəm ki, növbəti dövr üçün diqqətəlayiq məsələlərdən biridir.

Eyni zamanda, bizim birliyimizi nəqliyyat infrastrukturu ilə möhkəmləndirmək üçün Azərbaycan öz səylərini qoyur. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi tarixi hadisədir. Əminəm ki, tezliklə bu yol açılacaqdır. Beləliklə, yeni «Dəmir İpək yolu» bərpa ediləcəkdir. Bu layihənin həyata keçirilməsi Şuranın bütün üzvlərinə əlavə fayda gətirəcəkdir. Çox şadam ki, həm Azərbaycanda, həm Qazaxıstanda, həm Türkmənistanda mövcud olan limanlar genişləndirilir. Eyni zamanda, Xəzərdə yeni ticarət limanları tikilir ki, gələcəkdə biz yükdaşımalarının artırılmasına tam şəkildə hazır olaq. Limanların, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi, ticarət dövriyyəsinin artırılması, əlavə yüklərin və mövcud olan yüklərin bu yolla nəqli iqtisadi maraqlarımızı artıracaqdır, eyni zamanda, işimizi konkret tədbirlərlə zənginləşdirəcəkdir.

Enerji sahəsində əməkdaşlıq uğurludur. Bu gün Azərbaycan Xəzərin şərq sahilindən qərb istiqamətinə neft məhsullarının, neftin nəqlini təmin edir, yəni tranzit rolunu oynayır. Bakı–Tbilisi–Qars dəmir yolu işə düşəndən sonra bu rol daha da artacaqdır. Biz enerji sahəsində əməkdaşlığı daha da dərinləşdirmək əzmindəyik. Buna nail olmaq üçün bütün imkanlar vardır. Bizi birləşdirən coğrafiya geniş coğrafiyadır. Bizim ölkələrimizin bir neçəsi təbii resurslarla zəngindir. Bu resurslar artıq müxtəlif yollarla dünya bazarlarına çıxarılır. Yəni həm Türkmənistanın, həm Qazaxıstanın, həm Azərbaycanın müstəqil və çoxşaxəli ixrac yolları vardır. Yəni heç bir ölkə ixracla bağlı heç bir problem yaşamır. Ancaq maraqlarımızı daha da dolğun şəkildə təmin etmək, birliyimizi möhkəmləndirmək üçün biz bu sahədə birgə tədbirləri görməliyik və əminəm ki, görəcəyik.

Beləliklə, əməkdaşlığımız növbəti illərdə daha da möhkəm olacaqdır. Yeni təşəbbüslər irəli sürüləcəkdir. Hesab edirəm ki, müəyyən mərhələdə biz birgə İnvestisiya Fondunun yaradılması

haqqında da düşünməliyik. Çünki ölkələrimizin maliyyə vəziyyəti çox sabitdir, yaxşıdır. Biz heç bir problem yaşamırıq. Hətta özümüz də başqa ölkələrə kredit verməyə başlamışıq.

Bir daha qeyd etməliyəm ki, Azərbaycan Şuradakı fəaliyyətinə çox böyük əhəmiyyət verir. Biz çox şadıq ki, Şura artıq güclü bir beynəlxalq təşkilata çevrilib. Əminəm ki, qardaş Türkiyənin sədrliyi ilə biz yeni uğurlara imza atacağıq. Təşəkkür edirəm.

* * *

*Zirvə toplantısında iştirak edən digər dövlət başçıları da çıxış etdilər.*

*Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısına yekun vuran Türkiyə prezidenti Abdullah Gül tədbirdə müzakirə olunan məsələlərin türkdilli dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni təkan verəcəyini vurğuladı.*

*Prezident Abdullah Gül V Zirvə toplantısının Qazaxıstanda keçiriləcəyini bildirdi.*

*Sonra dövlət başçıları Zirvə toplantısının Birgə Bəyannaməsini, Türk Şurası baş katibinin və müavinlərinin təyin olunması, eləcə də Türk Akademiyasının prezidentinin seçilməsi ilə bağlı qərarı imzaladılar.*

*Qərara əsasən, Ramil Həsənov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yeni baş katibi seçildi. Türk Akademiyasının prezidenti vəzifəsinə isə Darxan Kıdırəli təyin olundu.*

*Bununla da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısı işini başa çatdırdı.*

## AZƏRBAYCAN, TÜRKİYƏ VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*Bodrum*

*5 iyun 2014-cü il*

*İyunun 5-də Bodrumda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısı başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun birgə görüşü olmuşdur.*

*Görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısının xalqlarımız və ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyi bildirildi. Azərbaycan, Türkiyə və Türkmənistan arasında müxtəlif səviyyəli görüşlərin əhəmiyyəti vurğulandı, ölkələrimiz arasında əlaqələrin regional əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu.*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Portuqaliya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan və Portuqaliya arasında əlaqələr, dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2014-cü il*

## MİSİR ƏRƏB RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, dost Misir xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikasını, xalqlarımızı dərin tarixi kökləri olan ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Ümidvaram ki, bu münasibətlər ölkələrimizin maraqlarına uyğun olaraq bundan sonra daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, Misir Ərəb Respublikasına isə daim firavanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2014-cü il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramınız – Rusiya Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Bu gün Rusiya Federasiyası sosial-iqtisadi və ictimai-siyasi sahələrdə sanballı uğurlar qazanmış müasir dövlətdir. Sizin rəhbərliyinizlə həyata keçirilən genişmiqyaslı dəyişikliklər ölkənizin daha da inkişaf etməsinə şərait yaradır.

Xalqlarımız arasında çoxəsrlik dostluq və mehriban qonşuluq münasibətləri müxtəlif sahələrdə ümumi maraqları ehtiva edən uğurlu əlaqələrin möhkəm təməlini təşkil edir.

Əminəm ki, bu xeyirxah ənənələrə əsaslanan dövlətlərarası münasibətlərimiz, çoxplanlı Azərbaycan–Rusiya qarşılıqlı əlaqələri və strateji tərəfdaşlıq ölkələrimizin və xalqlarımızın firavanlığı, regionda sülh və sabitlik naminə bundan sonra da uğurla inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uğurlar, dost Rusiya xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2014-cü il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB III BENİQNO AKİNOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Filippin münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2014-cü il*

# QIRĞIZ RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ ASİLBEK JEENBEKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Qırğız Respublikası Joqorku Keneşinin (parlamentinin) Sədri Asilbek Jeenbekovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qırğız parlamentinin Sədri Asilbek Jeenbekov prezident Almazbek Atambayevin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Türkdilli Ölkələrin Parlament Assambleyası Şurasının Bakıda keçirilən növbəti iclasının əhəmiyyətini vurğuladı. Sonra Asilbek Jeenbekov Qırğızıstanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə parkın salınması ilə bağlı işlərin getdiyini məmnunluqla qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Qırğızıstan arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu vurğulandı, ölkələrimizin BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digər beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq etdiyi qeyd olundu, ikitərəfli münasibətlərimizin iqtisadi, humanitar və digər sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

*Söhbət zamanı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bodrumda keçirilən Zirvə toplantısının əhəmiyyəti vurğulanaraq Türkdilli Ölkələrin Parlament Assambleyası Şurasının Bakıda keçirilən növbəti iclasının da əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı prezident Almazbek Atambayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qırğız dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## QAZAXISTAN RESPUBLİKASI MƏCLİSİNİN SƏDRİ KABİBULLA DJAKUPOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Qazaxıstan Respublikası Məclisinin Sədri Kabibulla Djakupovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qazaxıstan Respublikası Məclisinin Sədri Kabibulla Djakupov prezident Nursultan Nazarbayevin salamlarını dövlətimizin başçısına çatdırdı. Kabibulla Djakupov ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində parlamentlərarası əlaqələrin önəmini qeyd etdi. Sonra o, Qazaxıstanın Avrasiya Universitetində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan Mərkəzin yaradılmasının əhəmiyyətini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi diqqətə çatdırıldı, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə verdikləri qarşılıqlı dəstəyin önəmi vurğulandı, iqtisadi, nəqliyyat, Xəzərdə əməkdaşlıq, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əlaqələrimizin səviyyəsinin razılıq doğurduğu bildirildi, münasibətlərimizin möhkəmləndirilməsində dövlət başçıları arasında keçirilən yüksək səviyyəli görüşlərin rolu xüsusi qeyd olundu.*

*Söhbət zamanı Türkdilli Ölkələrin Parlament Assambleyası Şurasının Bakı iclasının əməkdaşlığımızın daha da möhkəmləndirilməsi baxımından faydalı olacağı bildirildi.*

*Dövlətimizin başçısı prezident Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ CƏMİL ÇİÇƏYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Türkiyə Böyük Millət Məclisinin Sədri Cəmil Çiçəyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Böyük Millət Məclisinin Sədri Cəmil Çiçək Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycanın təşəbbüsü ilə Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması haqqında qəbul olunan qərarın önəmini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, enerji, nəqliyyat, birgə layihələr və digər istiqamətlərdə əməkdaşlığımızın yüksək səviyyədə olduğu bildirildi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə toplantısı zamanı dövlət başçıları arasında keçirilən yüksək səviyyəli görüşlərin əhəmiyyəti vurğulandı, ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birinə daim dəstək vermələrinin önəmi qeyd olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində parlamentlərarası əlaqələrin əhəmiyyəti vurğulanaraq bu baxımdan Türkdilli Ölkələrin Parlament Assambleyası Şurasının Bakıda keçirilən növbəti iclasının səmərəli olacağına əminlik ifadə edildi.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZUNUN AZƏRBAYCANA SƏFƏRİ

*14 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 14-də ölkəmizdə səfərdə olan Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə təkbətək görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Avropa Komissiyasının sədrini qarşıladı.*

*Prezident İlham Əliyev və Joze Manuel Barrozu rəsmi foto çəkdirdilər.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun təkbətək görüşü oldu.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Energetika sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi. Joze Manuel Barrozunun respublikamıza səfərinin Azərbaycan–Avropa İttifaqı münasibətləri baxımından önəmi qeyd edildi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 iyun 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Cənab Sədr, bir daha xoş gəlmisiniz! Sizi Azərbaycanda yenidən görməyimə şadam. Biz planlarımız və görülmüş işlər barədə çox yaxşı müzakirələr apardıq. Avropa İttifaqı ilə əlaqələr bizim üçün prioritetdir. Çox şadam ki, bu əlaqələr uğurla inkişaf edir. Sizin köməyinizlə biz çox sürətlə irəli getməyə müvəffəq olduq. Bizim əlaqələrimiz bir çox sahələri – siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrini əhatə edir. Biz yaxşı tərəfdaşlar kimi, çox fəal işləyirik. Biz əvvəllər də görüşlər keçirmişik – Bakıda, Brüsseldə, başqa yerlərdə. Mən əməkdaşlığımızın səviyyəsindən çox razıyam. Ümidvaram ki, Sizin səfərinizdən sonra bu əməkdaşlıq daha da genişlənəcək, daha çox sahələri əhatə edəcək və inkişaf edəcəkdir. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**Joze Manuel Barrozu:** Cənab Prezident, xoş sözlərinizə və qəbulunuza görə təşəkkür edirəm. 2011-ci ildəki səfərimdən sonra mən yenidən burada olmağımdan çox şadam. Mən «Cənub Qaz Dəhlizi» ilə bağlı Birgə Bəyannamənin imzalandığı əvvəlki səfərimi çox yaxşı xatırlayıram. Bu layihə hazırda uğurla həyata keçirilir. Mən eyni zamanda, ötən ilin iyulunda Sizi Brüsseldə salamlamaq şərəfinə nail oldum. Biz həmçinin Vilnüsdə «Şərq Tərəfdaşlığı» Sammitində görüşdük. Mən görüşlərimizin intensivliyini görməkdən çox şadam.

Dünən gecə buraya gələn kimi, Bakının əhəmiyyətli dərəcədə müasirləşdiyini gördüm, 2011-ci illə müqayisədə yaxşılığa

doğru çoxlu fərqlər vardır. Mən bununla bağlı Sizi təbrik edirəm. Mən, cənab Prezident, Sizin, hakimiyyətin və Azərbaycan xalqının daha müasir, sabit, inkişaf edən ölkə uğrunda səylərinizi görürəm. Mən həmçinin Sizi təkcə diplomatik deyil, mühüm beynəlxalq uğurlarınız – «Eurovision» mahnı müsabiqəsi, Azərbaycanın dəstəklədiyi komandanın İspaniya çempionatında qələbəsi münasibətilə təbrik edirəm.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 iyun 2014-cü il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra iyunun 14-də Azərbaycan prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun iştirakı ilə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında Azərbaycan Respublikasının İttifaqın proqramlarında iştirakının ümumi prinsipləri haqqında çərçivə Sazişi üzrə bir tərəfdən, Azərbaycan, digər tərəfdən, Avropa Birliyi və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişinin Protokolu imzalanmışdır.*

*Sənədi Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Malena Mard, Avropa İttifaqı Şurasına hazırda sədrlik edən Yunanıstan adından bu ölkənin Azərbaycandakı səfiri Dimitrios Tsounqas və Azərbaycanın Avropa İttifaqı yanında daimi nümayəndəliyinin rəhbəri Fuad İsgəndərov imzaladılar.*

# AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*14 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu iyunun 14-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Sədr!

Hörmətli dostlar!

Azərbaycana xoş gəlmisiniz! Bu gün biz Azərbaycan və Avropa Komissiyası arasında inkişaf etməkdə olan münasibətləri müzakirə etdik. Yadımdadır, 3 il bundan əvvəl elə bu salonda biz sənədlərin imzalanması mərasimi və mətbuat konfransı keçirdik və bununla da Azərbaycan ilə Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində fəal əməkdaşlığa başladığımız tarixi qeyd etdik.

Bu gün də əməkdaşlığımızın gələcək inkişafını təmin edən növbəti sənəd imzalandı. Əminəm ki, növbəti illərdə fəal əməkdaşlığımız davam edəcəkdir.

Əməkdaşlığımız çox müsbətdir və müxtəlif sahələri əhatə edir. Bu, Avropa Komissiyası sədrinin Azərbaycana ikinci səfəridir. Mən Avropa Komissiyasında 5 dəfə səfərdə olmuşam. Bizim fəal dialoqumuz mövcuddur. Biz əməkdaşlığımızın bütün məsələlərini açıq və dostcasına müzakirə edirik.

Siyasi təmaslarımız çox güclü və müsbətdir, onların gözəl gələcəyi vardır. «Şərq Tərəfdaşlığı» Sazişi isə onları daha da yüksək səviyyəyə qaldırmışdır.

Ümid edirəm ki, növbəti aylarda biz əməkdaşlığımızın yeni formatı üzərində fəal çalışacağıq. Bu gün biz bu potensial əməkdaşlıq formatını ətraflı müzakirə etdik. Ötən il Brüsseldə mətbuat konfransında qeyd etdiyim kimi, Azərbaycan Avropa İttifaqına mümkün qədər yaxın olmaq arzusundadır və bu gün bunu bir daha təkrar etmək istəyirəm. Çünki bu bizim üçün strateji mahiyyəti olan məsələdir və bu əlaqələrin gələcəkdə böyük potensialı vardır.

Bu günə qədər görülən işlər müsbət əməkdaşlığın nümunəsidir. Çünki bizim əlaqələr müxtəlif sahələri əhatə edir. Bu gün biz Azərbaycanda siyasi islahatlarla və demokratikləşmə prosesi ilə bağlı vəziyyəti müzakirə etdik. Fundamental azadlıqların təmin edilməsi hökumətimizin başlıca prioritetlərindəndir. Çünki biz ölkəmizin müasirləşməsini həyatımızın bütün sahələrinin müasirləşməsi ilə bağlayırıq. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilir. Azad media, azad internet mövcuddur. Cənab sədrə dediyim kimi, Azərbaycan əhalisinin 70 faizi fəal internet istifadəçisidir. Ölkəmizdə toplaşmaq azadlığı, təşkilatlanma azadlığı tam şəkildə təmin olunur. Din azadlığı da ölkəmizdə təmin olunur. Azərbaycan çoxmədəniyyətli ölkə və cəmiyyətdir. Bizim ən böyük sərvətlərimizdən biri ölkəmizdə müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh və həmrəylik şəraitində yaşamasıdır.

Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. İxrac haqqında danışsaq, bizim ixracın 80 faizi Avropa İttifaqının payına düşür. İqtisadi əməkdaşlığımızın böyük potensialı vardır. Xüsusilə bu yaxınlarda Avropa istehsalçıları ilə enerji və qeyri-enerji sektorunu əhatə edən bir neçə milyard dollar həcmində müxtəlif mühüm sazişlər imzalanmışdır. Elə həmin səbəbdən yaxın zamanlarda iqtisadiyyat sahəsində daha böyük fəallıq olacağını düşünürəm.

Azərbaycan və Ermənistan arasında danışıqlar prosesini də müzakirə etdik. Təəssüflər olsun ki, danışıqların 20 il davam etməsinə baxmayaraq, heç bir irəliləyiş əldə olunmamışdır. Bunun başlıca səbəbi Ermənistanın Azərbaycanla sülh əldə etmək istəməməsidir. Yəni onlar status-kvonun dəyişməsini istəmirlər.

Baxmayaraq ki, ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin başçıları status-kvonun qəbuledilməz olması ilə bağlı bir necə dəfə bəyanatlar vermişlər, Ermənistan hələ də buna məhəl qoymur, vəziyyəti dondurmaq və status-kvonu saxlamaq üçün hər şey edir. Torpaqlarımız işğal altındadır. Beynəlxalq səviyyədə tanınmış ərazimizin 20 faizi Ermənistanın nəzarətindədir. BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz geri çəkilməsini tələb edən 4 qətnaməsi hələ də icra olunmamışdır. Avropa Parlamenti, Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatlar bənzər qətnamə və qərarlar qəbul etmişlər, lakin onların da heç biri icra olunmamışdır.

Beləliklə, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həll olunması regionumuz üçün mühüm əhəmiyyətli məsələdir. Bu münaqişənin nizamlanması Cənubi Qafqaz regionunda yeni mühit, sülh və əməkdaşlıq ab-havası yaradacaqdır.

Təbii ki, bu gün biz Azərbaycan və Avropa İttifaqı arasında enerji əməkdaşlığını da müzakirə etdik. 3 il bundan öncə sədr Barrozu ilə biz burada enerji əməkdaşlığına dair tarixi Bəyannamə imzaladıq. Bunu artıq tarixi sənəd adlandırmaq olar, çünki həmin sənədin uğurlu icrasına başlanılmışdır.

2012-ci ildə biz Türkiyə ilə Trans–Anadolu kəməri üzrə saziş imzaladıq. 2013-cü ildə Trans–Adriatik kəməri ilə bağlı saziş imzalandı və nəhayət, həmin ilin sonunda «Şahdəniz-2» ilə bağlı Yekun İnvestisiya Qərarı imzalandı. Bunlar Azərbaycan qazının Avropa bazarlarına çıxışını təmin edəcəkdir.

Proses artıq başlanmışdır və biz bu nəhəng layihələri vaxtında icra etmək əzmindəyik. «Şahdəniz-2», TANAP və TAP bu gün Avropanın ən iri infrastruktur layihələridir və dəyəri ən azı 45 milyard dollardır. Onların həyata keçirilməsi üçün bütün

maliyyə və texniki imkanlarımız vardır. Biz bütün tərəfdaşlarımızla əməkdaşlıq edirik, eyni zamanda, tranzit və istehlakçı ölkələrlə çalışırıq. Əlbəttə ki, gələcəkdə bütün tərəflər və iştirakçılar arasında fəaliyyətin əlaqələndirilməsi istiqamətində Avropa Komissiyasının iştirakı bizim üçün çox vacib məsələdir və biz bunu yüksək qiymətləndiririk.

Bizim üçün enerji təhlükəsizliyi təchizat marşrutlarının şaxələndirilməsidirsə, Avropa üçün enerji təhlükəsizliyi mənbələrin şaxələndirilməsi deməkdir. Azərbaycan Avropa üçün təkcə yeni marşrut deyil, eyni zamanda, təbii qazın yeni mənbəyidir. Bizim nəhəng ehtiyatlarımız var və mövcud infrastruktura yeni infrastruktur əlavə ediləcəkdir. Biz bu tarixi layihəni vaxtında həyata keçirmək əzmindəyik.

Əlaqələrimiz müxtəlif sahələri əhatə edir. Cənab sədrlə biz bu gün çox səmimi və acıq müzakirələr apardıq. Mən buna görə təşəkkür etmək istərdim. Bu məhz belə də olmalıdır. Çünki biz gələcək fəaliyyətimizin istiqamətlərini müəyyən etməliyik, bizi yaxınlaşdıracaq növbəti addımları atmalıyıq. Onu da əlavə etmək istərdim ki, bizim Avropa İttifaqına üzv dövlətlərin əksəriyyəti ilə gözəl münasibətlərimiz vardır. Bu da ümumi müsbət əməkdaşlıq mühitinə töhfə verir.

Cənab Sədr, bir daha Sizi Azərbaycanda salamlayıram.

## Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun bəyanatı

Cənab Prezident, çox səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Bizim dialoqumuzun səviyyəsi və keyfiyyətinə, bir qədər əvvəl keçirdiyimiz çox acıq, səmimi və dost xarakterli müzakirəyə görə Sizə təşəkkür edirəm. Prezident İlham Əliyevin dəvəti ilə yenidən Azərbaycanda olmağımdan çox məmnunam. Bu mənim Azərbaycana ikinci səfərimdir. Bu, Avropa İttifaqının Azərbaycana və vacib ikitərəfli əlaqələrimizə verdiyi əhəmiyyətin bariz nümunəsidir. Bundan əlavə, bu mənim

ölkənizlə bağlı şəxsi mövqeyimlə əlaqəlidir, çünki ölkənizin müasirləşməsi istiqamətində atılan addımlar məni valeh edir.

Mən sonuncu dəfə Azərbaycanda 2011-ci ildə olmuşam və 3 ildən sonra burada böyük yeniliklərin şahidiyəm. Ölkəniz gündən-günə müasirləşir, eyni zamanda, ölkəniz özünün ənənələri və tarixi irsi ilə fəxr edir. Zənnimcə, bu çox vacib məsələdir.

Biz prezident Əliyevlə bir neçə dəfə görüşmüşük – ötən il Brüsseldə və daha sonra «Şərq Tərəfdaşlığı» Sammiti çərçivəsində Vilnüsdə. Artmaqda olan bu görüşlər və fikir mübadiləsi bizim möhkəmlənməkdə olan münasibətlərimizin göstəricisidir. Bu münasibətlər həm Azərbaycan xalqı, həm də Avropa İttifaqı vətəndaşlarının firavanlığı naminə inkişaf edəcəkdir. Biz bu gün ikitərəfli münasibətlərimizə dair və bir sıra regional məsələlər ətrafında geniş fikir mübadiləsi apardıq. Biz əlaqələrimizin gələcək inkişaf istiqamətlərinə toxunduq və qeyd etmək istərdim ki, Azərbaycan bizim üçün çox mühüm tərəfdaşdır. Məsələn, biz enerji sahəsində strateji etibarlı tərəfdaş əldə etmişik. Biz bundan sonra da bu istiqamətdə demokratiya və birgə dəyərlər, xüsusilə də fundamental azadlıqlar üzərində qurulmuş uzunmüddətli əməkdaşlığı davam etdirmək niyyətindəyik. Mən prezident Əliyevə açıq şəkildə bildirdim ki, çoxpartiyalı demokratiya, açıq cəmiyyət, açıq iqtisadiyyat davamlı sülh və sabitliyin əldə olunması üçün ən yaxşı vasitədir. Biz hesab edirik ki, çiçəklənən vətəndaş cəmiyyəti demokratiya üçün çox vacib məsələdir və uzunmüddətli sabitliyi təmin edir, müasir dövrdə dövlətlərin və cəmiyyətlərin müasirləşməsinin mühüm elementidir.

Burada olmağımın daha bir səbəbi yaratdığımız çox güclü enerji tərəfdaşlığıdır. Fəxr edirəm ki, bu tərəfdaşlığın təməli mən və prezident Əliyev tərəfindən bir neçə il öncə məhz bu salonda qoyulmuşdur.

Azərbaycan bu gün Avropa İttifaqının ən böyük və etibarlı enerji tərəfdaşlarından biridir və təkcə iqtisadiyyata deyil, enerji təhlükəsizliyinə də öz töhfəsini verməkdədir. Məmnunam ki,

biz «Cənub Qaz Dəhlizi» ilə bağlı irəliləyişi də müzakirə etdik. Mən və prezident Əliyev bu sahədə bir neçə il ərzində çox fəal çalışmışıq və şadıq ki, biz artıq real addımların atılmasının şahidiyik.

Bu gün biz «Şahdəniz» qazının – Avropa istehlakçılarına nəql olunacaq qazın başlanğıc nöqtəsi olan Səngəçal terminalına birlikdə səfər edəcəyik. Bu, ilk mərhələdə 2019-cu ildən etibarən əlavə 10 milyard kubmetr qazın Avropaya nəql edilməsi deməkdir və gələcəkdə qazın həcmi artacaqdır. Biz «Cənub Qaz Dəhlizi» layihəsinin sürətləndirilməsi və genişləndirilməsi məsələsinə də toxunduq və razılığa gəldik ki, qarşıdan gələn illər ərzində bu məsələ bizim qarşılıqlı prioritetimiz olacaqdır. Mən bu layihənin inkişafı ilə bağlı əlavə imkanların müzakirəsini nəzərdə tuturam.

Avropa İttifaqı «Cənub Qaz Dəhlizi»nin uğurlu inkişafı ilə bağlı öz üzərinə düşənləri edəcəkdir. Bu, istehlakçılar və mənbələrin şaxələndirilməsi işində mühüm məsələdir. Eyni zamanda, bu, Avropa Komissiyası tərəfindən Şuraya təqdim edilmiş Avropa İttifaqının enerji təhlükəsizliyi strategiyasının tərkib hissəsidir. Həmin strategiya bu ayın 27-də Avropa İttifaqı Şurasında müzakirəyə çıxarılacaqdır.

Enerji əməkdaşlığına diqqət yönəltməyimin səbəbi odur ki, ötən illərdə bu sahədə böyük nailiyyətlər əldə edilmişdir. Lakin Azərbaycan ilə Avropa İttifaqı arasında çox mühüm əməkdaşlığı nəzərə alsaq, biz yalnız enerji sahəsi ilə məhdudlaşmamalıyıq və münasibətlərimizin digər sahələrdə də genişləndirilməsi arzusundayıq. Yeri gəlmişkən, biz ticarət sahəsində də çox vacib tərəfdaşıq. Siyasi sahədə də dialoqumuz genişlənir və dərinləşir.

Dediklərimin konkret nümunəsi Azərbaycanın Avropa İttifaqının müxtəlif proqramlarında iştirakını təmin edəcək az öncə burada imzalanan sazişdir. Bu, elm, təhsil, ətraf mühit və istehlak siyasəti, səhiyyə kimi sahələrdə əməkdaşlığımızı inkişaf etdirəcəkdir.

Görüşümüzdə prezident Əliyev təhsilin Azərbaycanın inkişafı və müasirləşməsi üçün nə dərəcədə əhəmiyyətli məsələ olduğunu diqqətə çatdırdı. Mən şadam ki, Azərbaycandan olan çoxsaylı alim və tələbələr Avropa İttifaqının təhsil ocaqlarında, elm mərkəzlərində çalışır və təhsil alırlar. Bu da çox ümidverici sahədir. Biz Azərbaycan ilə əlaqələri genişləndirmək arzusundayıq və bu mənada assosiativ üzvlüklə bağlı dəvətimiz qüvvədədir.

Biz anlayırıq və bunu açıq şəkildə müzakirə etdik ki, «Şərq Tərəfdaşlığı» çərçivəsində vahid modelin bütün dövlətlərə şamil edilməsinə çalışmamalıyıq. Əminəm ki, əməkdaşlığımızın «Şərq Tərəfdaşlığı» dəyərləri üzərində qurulması vacibdir və vaxt yetişib ki, əməkdaşlığımız konkret nəticələrlə ölçülsün. Prezident Əliyevlə belə bir razılığa gəldik ki, «Strateji Müasirləşmə Tərəfdaşlığı» sənədinin müzakirəsinə təkan verək və onu sürətləndirək. Ümid edirəm ki, bu danışıqlar yaxın aylarda başa çatacaqdır. Çox şad olardım ki, yaxın gələcəkdə prezident Əliyev Brüsselə səfər etsin və həmin sənədi imzalasın. Bununla da bu Sizin Brüsselə altıncı səfəriniz olacaq və futbol termini ilə desək, hesab 6:2 Sizin xeyrinizə olacaqdır.

Yeri gəlmişkən, çox məşhur bir Avropa komandasının dəstəklənməsi sahəsində Azərbaycanın gördüyü işlərə görə təbriklərimi çatdırıram. Bu, insanlar arasında təmasların qurulması üçün əlavə bir vasitədir, çünki futbol sərhəd tanımır və dünyanın hər yerindən olan insanları bir araya gətirir. Zənnimcə bu, istər idman, istərsə də xalqlar arasında təmaslar üçün vacib məsələdir. Şadam ki, biz eyni zamanda, mühüm ticarət tərəfdaşlarıyıq.

Sevindirici haldır ki, 2013-cü ildə Avropa İttifaqı ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 17,9 milyard avroya çatıb. Bu isə Azərbaycanın xarici ticarətinin 42 faizi deməkdir. Bu, ölkənizdə Avropa şirkətləri üçün geniş imkanların olduğunu göstərir. Prezident Əliyev burada çox düzgün qeyd etdi ki, Avropa İttifaqı və Avropa Komissiyası ilə əməkdaşlıqla yanaşı, ikitərəfli formatda üzv dövlətlərlə də

uğurlu əməkdaşlıq mövcuddur. Biz üzv ölkələrin dövlət və hökumət başçılarının Azərbaycana tez-tez səfərə gəlməsini və yaxınlarda prezident Əliyevin Avropa İttifaqına üzv dövlətlərə nəzərdə tutulmuş səfərini alqışlayırıq.

Qeyd etmək lazımdır ki, bizim əməkdaşlığımız hökumətlər və dövlət qurumları arasında əməkdaşlıqla məhdudlaşmır. Biz xalqlarımızı və cəmiyyətlərimizi bir araya gətirmək üçün çalışırıq və prezident Əliyev Avropa Komissiyasına səfər edərkən Azərbaycan və Avropa İttifaqının mümkün qədər yaxın olması arzusunu ifadə etmişdi.

Biz bu yaxınlarda viza sadələşdirilməsi və readmissiya Sazişini imzaladıq. Ümid edirəm ki, bu saziş Azərbaycan və Avropa İttifaqı arasında gediş-gəlişi sadələşdirəcəkdir. Açıq səma Sazişi də bu sahədə öz töhfəsini verə bilər.

Biz həmçinin Dağlıq Qarabağ münaqişəsi məsələsini müzakirə etdik. Avropa İttifaqının qənaətinə görə bu münaqişənin ədalətli həlli olmadan Cənubi Qafqazda sülh və sabitlik bərqərar olmayacaqdır. Status-kvo davamlı deyildir. Biz ATƏT-in Minsk qrupunun vasitəçilik missiyasını və irəliləyişin əldə edilməsi çağırışlarını dəstəkləyirik. Mən bu münaqişənin həllində Avropa İttifaqının münaqişə tərəflərinin mövqelərinin yaxınlaşdırılmasında konstruktiv rol oynamağa hazır olduğunu prezident Əliyevin diqqətinə çatdırdım. Bundan əlavə, biz Ukrayna kimi qlobal və regional əhəmiyyətli məsələləri müzakirə etdik.

Cənab Prezident, Azərbaycan bizim üçün çox yaxın tərəfdaşdır və biz artıq enerji sahəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişik. Ümid edirəm ki, Sizin rəhbərliyiniz və dəstəyiniz sayəsində biz yaxın zamanlarda Strateji Modernləşmə Tərəfdaşlığı Sazişini imzalayacağıq ki, bu da qeyd etdiyimiz kimi, Azərbaycanı Avropa İttifaqına mümkün qədər yaxınlaşdıracaqdır. Qeyd edə bilərəm ki, aramızda yüksək səviyyəli strateji etibar da mövcuddur.

Biz Azərbaycanın beynəlxalq müstəvidə qlobal sülh və təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdə

tutduğu mövqeyə görə də minnətdarlığımızı bildiririk. Burada biz görürük ki, Azərbaycan və Avropa İttifaqının mövqeləri bir-birinə çox yaxındır. Bu səbəbdən biz əməkdaşlığı inkişaf etdirmək arzusundayıq. Təbii ki, bu əməkdaşlıq demokratiya və qanunun aliliyi kimi, birgə dəyərlər üzərində qurulmalıdır.

Əminəm ki, bugünkü görüşümüz ikitərəfli münasibətlərimizi möhkəmləndirdi. Avropa İttifaqı olaraq, biz Azərbaycan ilə açıq, səmərəli əməkdaşlığı dərinləşdirmək niyyətindəyik, siyasi, iqtisadi və sosial müasirləşmə kimi strateji əhəmiyyətli məsələlərdə Azərbaycana dəstək verməyə hazırıq. Hesab edirik ki, bu eyni zamanda, Avropa İttifaqının marağındadır və həmin səbəbdən bu əməkdaşlığı inkişaf etdiririk. Diqqətinizə görə təşəkkür edirəm.

## SƏNGƏÇAL TERMİNALI İLƏ TANIŞLIQ

*14 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu iyunun 14-də Səngəçal terminalında olmuşlar.*

*Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun rəhbərlik etdiyi nümayəndə heyəti Xəzər regionunda bənzərsizliyi ilə seçilən Xəzər Enerji Mərkəzi ilə tanış oldu.*

*Məlumat verildi ki, Azərbaycanın neft-qaz sənayesinin tarixini dolğun əks etdirən bu Mərkəz ölkəmizin dünya neft və qaz sənayesindəki rolunu geniş təbliğ edir. Mərkəz 2005-ci ildə Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Gürcüstan və Qazaxıstandan olan yüksək səviyyəli rəsmi qonaqların iştirakı ilə prezident İlham Əliyev tərəfindən açılmışdır. Mərkəzin istifadəyə verilməsi Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılışı ilə eyni vaxta təsadüf edib. Burada qonaqlar rəmzi nişan kimi, öz əl izlərini qoyublar və bu nişan Xəzər Enerji Mərkəzinin rəmzinə çevrilib.*

*Qonaqlara respublikamızın neft tarixinin xronologiyası barədə ətraflı məlumat verildi. Bildirildi ki, Mərkəzin əsas məqsədlərindən biri Azərbaycanın neft və qaz sənayesinin 150 illik tarixini nümayiş etdirməkdir. Neft və qaz sənayesi Azərbaycan üçün yalnız iqtisadi dəyər daşımır, o eyni zamanda, milli qürur mənbəyidir. Dünyada ilk dəfə mexaniki üsulla neft quyusu 1847-ci ildə Bibiheybət ərazisində qazılmışdır. XIX əsrə qədər dünyada hasil edilən neftin yarısı ölkəmizin payına düşürdü. XIX əsrin ikinci yarısında xarici ölkələrin iş adamları Azərbaycanda biznes fəaliyyətinə başlamışlar. Bunlara bütün dünyada tanınan Rotşildləri və Nobel qardaşlarını misal göstərmək olar. Dünyada məşhur olan Nobel mükafatı həm də Alfred Nobelin Bakıdakı neft yataqları üzrə səhmlərinin*

satışından əldə olunmuş vəsaitlərin toplanması hesabına yaradılmışdır. İkinci dünya müharibəsi illərində Sovet İttifaqında neftin 75 faizini hasil edən Azərbaycan ordunu yanacaqla təchiz edərək, qələbənin əldə olunmasında əhəmiyyətli rol oynamışdır.

Ötən əsrin 70–80-ci illəri isə Xəzər dənizinin dərin sulu sektorlarındakı yataqların işlənməsi və neft-kimya sənayesinin inkişafı ilə səciyyəvidir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə nəhəng «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsi məqsədilə «Əsrin müqaviləsi» kimi tanınan hasilatın pay bölgüsü haqqında müqavilə imzalandı. Bu müqavilə ölkənin sürətli inkişafına təkan verərək, onu regional enerji mərkəzinə çevirdi.

Qonaqlar müxtəlif yataqlardan hasil edilən neft nümunələrinə də baxdılar.

Sonra «Şahdəniz» və «Cənub Qaz Dəhlizi» layihələrindən bəhs edən videoçarx nümayiş etdirildi.

Prezident İlham Əliyevə və Avropa Komissiyasının sədri Joze Manuel Barrozuya xatirə hədiyyələri təqdim olundu.

Terminalın ərazisində gəzinti zamanı bildirildi ki, Səngəçal terminalı haqlı olaraq Azərbaycanın neft və qaz sənayesinin döyünən ürəyi hesab edilir. O, Azərbaycanın Xəzər dənizindəki yataqlarından hasil edilən xam neftin və qazın qəbul edildiyi, emal olunduğu, saxlandığı və ixrac edildiyi neft və qaz terminalıdır. «Azəri–Çıraq–Günəşli» yatağından ötürülən neft və «Şahdəniz»dən nəql edilən qaz terminala daxil olur, əsasən Bakı–Tbilisi–Ceyhan və Cənubi Qafqaz boru kəməri vasitəsilə ixrac edilir. Dünyanın ən böyük və səmərəli neft və qaz terminallarından sayılan Səngəçal terminalının sahəsi 550 hektardan çoxdur. Terminalda gündə 1,2 milyon barreldən çox xam neft və 40 milyon kubmetrdən artıq qaz emal edilə bilir. Onun xam neft saxlama həcmi 3,2 milyon barrel təşkil edir. Terminalın sahəsi mürəkkəb boru kəmərləri və avadanlıq şəbəkəsi ilə əhatə olunub. Dənizdəki qurğulardan terminala daxil olan boru kəmərləri müxtəlif marşrutlara istiqamətlənməklə Azərbaycanın

*yüksək keyfiyyətli xam neftini və qazını dünya bazarlarına nəql edir.*

*Bundan əlavə, terminal Qazaxıstan və Türkmənistan neftini də qəbul edir. «İlkin Neft Layihəsi» və «Səngəçal Terminalının Genişləndirilməsi Proqramı» nəticəsində terminalda hər birinin həcmi 25 500 kubmetr olan və ildə 6 milyon tondan çox xam nefti emal etmək, saxlamaq və ixrac etmək iqtidarında olan 4 xam neft saxlama çəni yerləşir. Terminaldakı idarəetmə mərkəzi Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçən ixrac boru kəmərlərinin fəaliyyətini hərtərəfli nəzarətdə saxlaya, problemləri aşkara çıxara bilir. Bundan başqa, Səngəçal terminalı «Şahdəniz» qaz qurğusundan gündə 40 milyon kubmetrdən artıq «mavi yanacaq» qəbul edə bilir. Mövcud «Şahdəniz» qurğusunun arxasında isə gələcəkdə genişləndirilmə sahəsinin ərazisi yerləşir. «Şahdəniz»in ikinci mərhələsi çərçivəsində Səngəçal terminalında əsas genişləndirmə işləri aparılacaqdır. Bu, terminalın ümumi qaz emalı həcminin 3 misli qədər, yəni ildə əlavə 16 milyard kubmetr qaz emal etməsinə imkan verəcək və nəhəng kompleksin Azərbaycanın neft-qaz sənayesi üçün əhəmiyyətini daha da artıracaqdır.*

*Terminalın işçi heyətində milli kadrların daha geniş təmsil olunmaları ilə bağlı da ardıcıl iş aparılır. Artıq «İlkin Neft Layihəsi»ndə çalışanların hamısı azərbaycanlı kadrlardır.*

*Səngəçal terminalı öz neft və qaz ixrac sistemləri ilə birlikdə Azərbaycanı Avropa ilə Asiyanın kəsişməsində mühüm bir qovşağa çevirir.*

*Qonaqlar terminalla tanışlıqdan xoş təəssüratla ayrıldılar.*

## AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ DAĞÜSTÜ PARKI ZİYARƏT

*14 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu iyunun 14-də Dağüstü Parkda olmuşlar.*

*Aparılan yenidənqurma işləri nəticəsində Dağüstü Park paytaxt sakinləri və şəhərimizin qonaqları üçün ən sevimli istirahət məkanlarından birinə çevrilib. Buradan paytaxtımıza və Bakı buxtasına gözəl mənzərə açılır.*

*Prezident İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu şəhərin mənzərəsini seyr etdilər.*

*Sonra prezident İlham Əliyev Avropa Komissiyasının sədri Joze Manuel Barrozunu çay süfrəsinə dəvət etdi.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNİ ZİYARƏT

*14 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu iyunun 14-də Heydər Əliyev Mərkəzində olmuşlar.*

*Prezident İlham Əliyev Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə birlikdə Heydər Əliyev Mərkəzini gəzdilər.*

*Mərkəzin fəaliyyəti ilə tanış olan qonaq əvvəlcə 1969-cu ildən 2003-cü ilədək ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərə baxdı. Ulu öndərin xatirəsinin əbədiləşdirildiyi muzey təşkil olunarkən burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunmasına xüsusi diqqət yetirilib.*

*Mərkəzdə «Azərbaycan inciləri» sərgisi də fəaliyyət göstərir. Bölmədə Azərbaycan tarixini və mədəniyyətini əks etdirən, ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsinə dair nadir eksponatlar nümayiş olunur.*

*Prezident İlham Əliyev və Joze Manuel Barrozu Mərkəzdə məşhur britaniyalı heykəltəraş Toni Kreqqin fərdi sərgisinə də baxdılar. Sərgidə heykəltəraşın bir-birindən maraqlı əsərləri nümayiş olunur.*

*Sonra qonaq Mərkəzin «Auditorium» və konfrans zallarına baxdı. Daha sonra prezident İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Heydər Əliyev Mərkəzinin parkında tanınmış fransız rəssamı və heykəltəraşı Lorens Cenkellin fərdi sərgisi ilə tanış oldular. Burada nadirliyi ilə fərqlənən və müxtəlif ölkələrin bayraqlarını özündə təcəssüm etdirən kompozisiyalar nümayiş olunur.*

## YUNANISTAN RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*15 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Yunanıstana dövlət səfərinə gəlmişdir.*

*Azərbaycanın və Yunanıstanın dövlət bayraqlarının dalğalandığı Afina Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Yunanıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## AFİNA AKROPOLUNU ZİYARƏT

*Afina*

*15 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 15-də Afina Akropolunda olmuşlar.*

*6 min illik tarixi olan Afina dünyanın ən qədim şəhərlərindən biridir. Şəhər müdriklik ilahəsi Afinanın adını daşıyır. Bütün dünyada azadlıq, demokratiya və incəsənətin rəmzi hesab olunan Afinaya xüsusi yaraşıq verən, şəhərin özəlliyini artıran tarixi məkanlar arasında Akropol xüsusi yer tutur. «Yuxarı şəhər» mənasını verən və Afinanın rəmzi hesab olunan bu müqəddəs qaya qədim sivilizasiya ilə müasirliyi bir araya gətirir.*

*Afinanın mərkəzində hündürlüyü 156 metrə çatan qayalıq meydançada yerləşən, dünya tarixinin və mədəniyyətinin şah əsərləri sırasında olan Akropol 3 000 illik tarixə malik memarlıq abidələri ilə zəngindir və sanki muzeyi xatırladır. Qədim Afinanın həm dövlət, həm də dini mərkəzi sayılan Akropolun qorunmasına afinalılar bütün dövrlərdə ciddi fikir vermişlər. Hətta Perikl zamanında Akropolun bərpası üçün xeyli vəsait ayrılmış, tikintiyə minlərlə insan cəlb edilmişdi. İndiyə qədər gəlib çatan bir çox tarixi abidələr də məhz elə o dövrdə inşa olunmuşdu. Akropolun əhəmiyyətini artıran mühüm amillər sırasında təbii ki, dünya memarlığının nadir inciləri olan Panteon, Afina və Erektion məbədləri də vardır ki, bu tarixi abidələrin böyük hissəsi günümüzə qədər gəlib çatıb. Məsələn, yunan memarlığının ən böyük əsəri hesab edilən Panteon*

*məbədinin xarici görünüşündə istifadə olunan heykəltəraşlıq nümunələri yunan sənətinin ən yüksək zirvəsi kimi qəbul edilir.*

*Tarixən Afinanın həm hərbi, həm də dini mərkəzi rolunu oynayan Akropolun görkəmli yerində şəhərin hamisi ilahə Afinanın şərəfinə ucaldılmış Parfenon məbədi yerləşir.*

*Akropolun aşağı hissəsində isə bir zamanlar Afinanın ticarət və mülki mərkəzi hesab olunan qədim Aqora yerləşir. Keçmişdə Sokrat və Platon kimi görkəmli filosoflar gəzinti və söhbət üçün məhz bu məkanı seçmişdilər. Aqora ərazisində yerləşən memarlıq abidələri müxtəlif tarixi dövrlərə aiddir. Burada hətta eramızdan əvvəl XI əsrə aid abidələrə də rast gəlmək mümkündür.*

*Sənayenin ətraf mühitə vurduğu ziyanın aradan qaldırılması ilə bağlı hazırlanan böyük bərpa proqramı çərçivəsində 1980-ci ildən etibarən Akropolda mütəmadi bərpa işləri həyata keçirilir.*

*Akropol öz möhtəşəmliyi ilə onu görməyə gələn hər bir turistin qəlbində unudulmaz hisslər yaradır.*

## NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

*Afina*

*16 iyun 2014-cü il*

*Yunanıstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Naməlum Əsgərin məzarını ziyarət etmişdir.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev Naməlum Əsgərin məzarı önünə əklil qoydu.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Yunanıstanın dövlət himnləri səsləndirildi.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Afina*

*16 iyun 2014-cü il*

*İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Afinada rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Yunanıstanın dövlət bayraqlarının dalğalandığı Prezident sarayının qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Yunanıstan prezidenti Karolos Papulyas Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Yunanıstanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları hərbi marşın sədaları altında Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Yunanıstanın rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Karolos Papulyasa təqdim edildi.*

## YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYAS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Afina*

*16 iyun 2014-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra iyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Yunanıstan arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi. Əlaqələrimizin bundan sonra daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edildi. Azərbaycan–Yunanıstan əməkdaşlığının Avropa İttifaqı çərçivəsində də önəmi vurğulandı. Prezident İlham Əliyevin Yunanıstana dövlət səfərinin ikitərəfli münasibətlərin daha da inkişafı baxımından əhəmiyyəti bildirildi.*

*Söhbət zamanı ikitərəfli əlaqələr, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Afina*

*16 iyun 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra iyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Yunanıstan prezidenti Karolos Papulyas Azərbaycan prezidenti İlham Əliyevi bir daha ölkəsində salamladı və bu səfərin ikitərəfli əməkdaşlığın inkişafında xüsusi əhəmiyyət daşıdığını bildirdi.*

**Karolos Papulyas:** Aramızda mövcud olan siyasi münasibətlərin səviyyəsi çox yüksəkdir. Hesab edirəm ki, gələcək üçün hər bir sahədə çox yaxşı perspektivlər vardır. Mən bu sahələr arasında enerji sahəsini xüsusi qeyd etmək istəyirəm.

**İlham Əliyev:** Çox sağ olun, cənab Prezident! Dəvətə və bizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən Sizin ölkənizdə olmağımdan çox məmnunam.

Biz Sizinlə indi təkbətək görüşdə ikitərəfli əlaqələrimizin müxtəlif aspektlərini geniş müzakirə etdik. Bir daha əmin olduq ki, Yunanıstan–Azərbaycan əlaqələri müxtəlif istiqamətlər üzrə uğurla inkişaf edir. Siyasi, iqtisadi, mədəniyyət, enerji sahələrində çox gözəl nəticələr və uğurlar vardır. Əminəm ki, mənim səfərim bu əlaqələrin inkişafına yeni təkan verəcəkdir. Qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Afina*

*16 iyun 2014-cü il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra iyunun 16-da Azərbaycan–Yunanıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas mərasimdə iştirak etmişlər.*

*«Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Yunanıstanın Xarici İşlər naziri Evangelos Venizelos imzaladılar.*

*«Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yunanıstan Respublikası Xarici İşlər Nazirliyi arasında Avropa İttifaqı məsələləri üzrə əməkdaşlıq haqqında Memorandum»u Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Yunanıstanın Xarici İşlər naziri Evangelos Venizelos imzaladılar.*

*«Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Yunanıstan Respublikası Təhsil və Dini İşlər Nazirliyi arasında gənclər sahəsində əməkdaşlıq haqqında Memorandum»u Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov və Yunanıstanın Xarici İşlər naziri Evangelos Venizelos imzaladılar.*

## YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYAS İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Afina*

*16 iyun 2014-cü il*

*Sənədlərin imzalanması mərasimindən sonra iyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Yunanıstan prezidenti Karolos Papulyasın bəyanatı

Mən Azərbaycan prezidenti cənab İlham Əliyevi Afina şəhərində səmimiyyətlə salamlamaqdan məmnunam. Bugünkü səfər Yunanıstan ilə Azərbaycan arasında gözəl münasibətlərin yeni bir işarəsidir, əməkdaşlığımız üçün yeni yollar, yeni üfüqlər açır.

Prezident Əliyevin və mənim ikitərəfli münasibətlərimizin hər bir aspektini nəzərdən keçirmək imkanımız oldu. Burada həm siyasi, həm enerji, həm iqtisadi, həm ticari, həm də mədəni sahələrdə əlaqələr nəzərdə tutulur. Bizim, həmçinin mühüm beynəlxalq və regional məsələlər üzrə fikir mübadiləsi aparmaq imkanımız oldu.

Ölkələrimiz arasında siyasi münasibətlər inkişaf edir. Bu, ölkələr arasında həm dövlət səviyyəsində, həm də siyasi səviyyədə çox mühüm səfərlərin həyata keçirilməsindən görünür. Mədəni münasibətlərimiz sahəsində də gözəçarpan artım mövcuddur. Mən burada xüsusən, universitetdə müasir yunan dili və sivilizasiyası mərkəzinin açılmasını nəzərdə tuturam.

Həmçinin Bakı Slavyan Universitetində də yunan dili tədris olunur.

*Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın dərinləşdiyini bildirən prezident Karolos Papulyas Azərbaycanın təbii qazının Yunanıstan vasitəsilə Avropaya çatdırılmasını mümkün edəcək TAP təbii qaz boru kəmərinin əhəmiyyətindən danışdı.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Yunanıstanın DESFA şirkətinin səhmlərinin əsas hissəsini almasını müsbət hal kimi dəyərləndirən Yunanıstan dövlətinin başçısı dedi:*

– Bu gün biz ölkələrimiz arasında ikitərəfli münasibətlərin genişləndirilməsinə yeni imkanlar açan 3 sənədi imzaladıq: Yunanıstan ilə Azərbaycan arasında Avropa İttifaqı məsələləri haqqında Memorandum, kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş və gənclər sahəsində əməkdaşlıq Memorandumu.

Biz eyni zamanda, Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətləri nəzərdən keçirdik. Bu münasibətlər Avropa İttifaqının qonşuluq siyasətinin bir hissəsidir. Biz bu kimi məsələlərə Avropa İttifaqı Şurasında sədrliyimiz zamanı xüsusi diqqət yetirdik. Son 6 ay ərzində bu qəbildən olan məsələləri fəal şəkildə təşviq etdik.

*Prezident Karolos Papulyas Kipr məsələsi ilə bağlı aparılan danışıqların mühüm mərhələyə daxil olduğunu vurğuladı. Yunanıstan dövlətinin başçısı bəyanatını bu sözlərlə bitirdi:*

– Yekun olaraq Azərbaycan Prezidentinə olduqca məhsuldar və əhatəli danışıqların aparıldığına görə təşəkkürümü bildirirəm və Sizə Yunanıstanda xoş günlər arzulayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox təşəkkür edirəm, hörmətli cənab Prezident!

İlk növbədə, dəvətə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz minnətdarlığımı bildirirəm.

Bu mənim Yunanıstana ikinci rəsmi səfərimdir. Prezident Papulyas da 3 il bundan əvvəl Azərbaycana rəsmi səfər etmişdir. Bu səfərlər onu göstərir ki, Yunanıstan–Azərbaycan əlaqələri yüksək səviyyədədir və əminəm, mənim səfərim bu əlaqələrə yeni təkan verəcəkdir.

Prezident Papulyas qeyd etdiyi kimi, bizim siyasi əlaqələrimiz gündən-günə güclənir və əminəm ki, gələcəkdə daha da güclənəcəkdir. Biz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik. Xüsusilə Avropa Şurasında bizim nümayəndə heyətlərimiz çox fəal əməkdaşlıq münasibətləri qurmuşlar. Keçən ay Azərbaycan Avropa Şurasında sədrliyi öz üzərinə götürmüşdür və ilin sonuna qədər bu sədrliyi davam etdirəcəkdir. Yunanıstan Avropa İttifaqına sədrliyi dövründə Azərbaycan–Avropa İttifaqı münasibətlərinin inkişafına çox böyük töhfə vermişdir. Avropa İttifaqı–Azərbaycan əlaqələri çox yüksək səviyyədədir, strateji xarakter alıbdır. 2 gün bundan əvvəl Avropa Komissiyasının sədri cənab Barrozunun Azərbaycana uğurlu səfəri bu əlaqələrin strateji mahiyyətini bir daha təsdiq etmişdir.

Biz prezident Papulyas ilə regional təhlükəsizlik məsələlərini də geniş şəkildə müzakirə etdik. Regional təhlükəsizlik üçün ən böyük təhdid Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. 20 ildən çoxdur ki, Ermənistan Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin 20 faizini işğal altında saxlayır. Münaqişənin tezliklə həlli bölgəyə sülh, əməkdaşlıq gətirəcəkdir. BMT Təhlükəsizlik Şurası bu münaqişə ilə bağlı 4 qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur. Ümid edirəm ki, bu münaqişənin həlli yaxın zamanlarda mümkün olacaq və beləliklə, dediyim kimi, bölgədə əməkdaşlıq üçün yeni imkanlar yaranacaqdır.

Əlaqələrimizin mühüm hissəsi enerji təhlükəsizliyi ilə bağlıdır. Burada Yunanıstan–Azərbaycan əlaqələri strateji əhəmiyyət daşıyır. TAP layihəsi nəinki enerji təhlükəsizliyi layihəsidir, eyni zamanda, iki ölkə arasındakı dostluq

əlaqələrini daha da yüksək pilləyə qaldıracaqdır. Azərbaycanın təşəbbüsü ilə icra edilən «Şahdəniz», TANAP və TAP hazırda Avropanın ən böyük infrastruktur layihələridir. Bu layihələrin icrası nəticəsində bundan sonra onilliklər ərzində Azərbaycan Avropa bazarına öz təbii qazını ixrac edəcəkdir.

Bu gün eyni zamanda, qarşılıqlı investisiya qoyuluşu məsələləri də müzakirə edildi, mədəniyyət sahəsində əmək-daşlıq haqqında fikir mübadiləsi aparıldı. Bir sözlə, bizim əlaqələrimiz çox geniş xarakter daşıyır və əminəm ki, gələcəkdə daha da sürətlə inkişaf edəcəkdir.

Cənab Prezident, qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, səfərin nəticələri iki ölkəni bir-birinə daha da yaxın edəcəkdir. Sağ olun.

## YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ANTONİS SAMARAS İLƏ GÖRÜŞ

*Afina*

*16 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Afinada Yunanıstan Respublikasının Baş naziri Antonis Samaras ilə görüşmüşdür.*

*Baş nazir Antonis Samaras prezident İlham Əliyevi qarşıladı.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu. İqtisadi sahədə, o cümlədən energetika, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı. İqtisadi əlaqələrin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı çərçivəsində önəmi qeyd edildi.*

* * *

*Görüşdən sonra Yunanıstanın Baş naziri Antonis Samaras tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verildi.*

## YUNANISTAN PARLAMENTİNİN SƏDRİ VANGELİS MEİMARAKİS İLƏ GÖRÜŞ

*Afina*

*16 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Afinada Yunanıstan Respublikası parlamentinin Sədri Vangelis Meimarakis ilə görüşmüşdür.*

*Yunanıstan parlamentinin Sədri dövlətimizin başçısını qarşıladı.*

*Vangelis Meimarakis dost Azərbaycanın prezidenti İlham Əliyev ilə Yunanıstan parlamentində görüşündən məmnunluğunu bildirdi. O, Azərbaycan və Yunanıstan parlamentləri arasında əlaqələrin inkişaf etdiyini söylədi.*

*Ötən ilin noyabrında Yunanıstan–Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərinin Azərbaycanda olduğunu xatırladan sədr yaxın vaxtlarda özünün də ölkəmizə səfər edəcəyini diqqətə çatdırdı. Vangelis Meimarakis bu səfərin parlamentlərarası əlaqələrin dərinləşməsinə töhfə verəcəyini vurğuladı.*

*Parlamentin Sədri, həmçinin Azərbaycan Prezidentinin Yunanıstana dövlət səfərinin ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin inkişafı baxımından əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev parlamentlərarası əlaqələrin ölkələrimiz üçün çox önəmli olduğunu dedi, bu əlaqələrin ümumi əməkdaşlığımızın inkişafında mühüm yer tutduğunu bildirdi.*

*Azərbaycan–Yunanıstan parlamentlərarası əlaqələrin inkişafını qeyd edən dövlətimizin başçısı qanunverici orqanlarımızda dostluq qruplarının fəaliyyətini bunun göstəricisi olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı ikitərəfli əməkdaşlığımızın çox uğurlu olduğunu söylədi. Son 5 ildə Yunanıstana ikinci dəfə səfər etdiyini deyən prezident İlham Əliyev bunun ölkələrimiz arasında əlaqələrin inkişafını təsdiq edən mühüm fakt olduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev səfər çərçivəsində Yunanıstan Prezidenti və Baş naziri ilə səmərəli görüşlər keçirdiyini dedi, Azərbaycan ilə Yunanıstan arasında qurulmuş dostluq əlaqələrinin çox uğurla inkişaf etdiyini və əməkdaşlığımızın gələcəkdə daha da genişlənməsi üçün böyük imkanların olduğunu bildirdi.*

*Sonda Vangelis Meimarakis Yunanıstan parlamentinin qızıl medalını prezident İlham Əliyevə təqdim etdi.*

## YUNANISTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ EVANGELOS VENİZELOS İLƏ GÖRÜŞ

*Afina*

*16 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Afinada Yunanıstan Respublikası Baş nazirinin müavini, Xarici İşlər naziri Evangelos Venizelos ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri, enerji, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.*

*Söhbət zamanı, həmçinin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı ilə bağlı fikir mübadiləsi aparıldı.*

# YUNANISTAN PARLAMENTİNDƏ ƏSAS MÜXALİFƏT OLAN DEMOKRATİK SOLÇULAR BİRLİYİNİN LİDERİ ALEKSİS TSİPRAS İLƏ GÖRÜŞ

*Afina*

*16 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Yunanıstana dövlət səfəri çərçivəsində bu ölkənin parlamentində əsas müxalifət olan Demokratik Solçular Birliyinin lideri Aleksis Tsipras ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Yunanıstan münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ANTONİS SAMARAS VƏ YÜKSƏK SƏVİYYƏLİ İŞ ADAMLARI İLƏ GÖRÜŞ

*Afina*

*16 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Afinada Yunanıstan Respublikasının Baş naziri Antonis Samaras və yüksək səviyyəli iş adamları ilə görüşmüşdür.*

**Antonis Samaras:** Bu gün burada Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevi salamlamaq mənim üçün şərəfdir. Həmçinin Azərbaycanda ən böyük şirkətlərin rəhbərlərindən ibarət nümayəndə heyətlərini də salamlayıram. Yunanıstanın əsas şirkətlərinin və aparıcı biznes assosiasiyalarının rəhbərlərini burada görməkdən məmnunluq hissi keçirirəm.

Son illər ərzində Yunanıstan və Azərbaycan bir-birinə yaxın ölkələr olmuşdur. Enerji vasitəsilə biz ümumi marağı kəşf etdik və hələ də başlanğıcda olan və uzun inkişaf yolu qət edəcək münasibətləri qurmağa başladıq. Lakin ikitərəfli əlaqələrimizin perspektivlərini təkcə enerji müəyyən etmir. Kommersiya, turizm, daşınmaz əmlak, özəlləşdirmə layihələri aramızda, yəni Cənubi Qafqazda aparıcı ölkə ilə Avropa və Asiya arasında körpü olan, Avropa İttifaqına üzv ölkə arasında çoxşaxəli əməkdaşlıq yarada bilər. Bir çox vacib kommersiya marşrutları sizin ölkədən keçərək Yunanıstana gəlir və bir çoxları da gələcəkdə Yunanıstandan keçə bilər.

Mən əminəm ki, bu reallıq ölkələrimizin perspektivlərini müəyyən edir. Qarşılıqlı iqtisadi maraqlarımızdan savayı,

Yunanıstanı və Azərbaycanı birləşdirən mədəni aspektlər də vardır. Beləliklə, enerji sahəsində yaxşı təşkil olunmuş əməkdaşlıqdan başqa, bütün sahələrdə – siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələrimizi dərinləşdirmək üçün böyük potensial mövcuddur.

Keçən yaz Bakıya səfər etdikdə əməkdaşlığın hazırkı səviyyəsini necə qoruyub saxlamağın mümkünlüyü və əlaqələrimizə daha çox dinamika verilməsi barədə fikir mübadiləsi aparmaq fürsəti oldu. Zati-aliləri İlham Əliyevin Yunanıstana səfəri istəklərimizin bir olmasının göstəricisidir.

*«SOCAR-ın qismində biz yeni bir biznes tərəfdaşı tapdıq» – deyən Antonis Samaras DESFA-nın səhmlərini alan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə yaranan əməkdaşlıqdan danışdı. Antonis Samaras TAP layihəsinin əhəmiyyətinə toxunaraq Azərbaycanın təbii qazını Avropa bazarına nəql edəcək bu kəmərin Yunanıstan, İtaliya və Albaniyanın mavi yanacağa olan ehtiyacının ödənilməsində mühüm rol oynayacağını diqqətə çatdıraraq dedi:*

– Bu şaquli dəhliz Balkan ölkələrini, habelə Mərkəzi və Şərqi Avropanı cənubdan şimala axan təbii qazla təmin edəcəkdir. Yunanıstan bu marşrutun başlanğıc nöqtəsi olacaq və bu marşruta TAP, eləcə də Yunanıstanda mövcud və yeni layihələr vasitəsilə qaz nəql olunacaqdır. Mən əminəm ki, planlara və əvvəlki müzakirələrimizə uyğun olaraq biz gələcəkdə TAP ilə nəql olunacaq yanacağın həcminin artırılması məsələsini müzakirə edəcəyik. Biz əsasən SOCAR vasitəsilə Azərbaycanın enerji landşaftında ən fəal və maraqlı tərəf olacağını gözləyirik.

Mən əminəm ki, enerji müştərək investisiyaların yatırılması üçün yeganə sahə deyildir. Yunanıstanda ciddi özəlləşdirmə proqramları həyata keçirilir. Bu proqramlarda əcnəbi və yerli investorlar üçün geniş imkanlar vardır. Həyata keçirdiyimiz islahatlar və ölkəmizdə olan müasir iqtisadiyyatda ən böyük fiskal gücləndirmə sayəsində biz biznes üçün münbit şərait yaratmışıq. Mən Yunanıstan və Azərbaycan iş adamlarını bir araya gəlməyə və ümumi zəmin tapmağa dəvət edirəm. İndi

irəliləmək vaxtıdır. Yunanıstan hökuməti və şəxsən mən özüm biznes fürsətlərini konkret layihələrə çevirmək üçün sizə bütün lazımi dəstəyi göstərəcəyik.

Xanımlar və cənablar, hörmətli dostlar, mən həqiqətən inanıram ki, Yunanıstan–Azərbaycan iqtisadi əlaqələrinin inkişafı beynəlxalq iqtisadi diplomatiya üçün artıq bir örnəkdir. Biz birlikdə müştərək iqtisadi marağı xalqlarımızı bir araya gətirmək üçün möhkəm bazaya çevirdik. Artıq qeyd etdiyim kimi, Azərbaycan Cənubi Qafqaz bölgəsində çox sürətlə inkişaf edən bir ölkədir və qlobal enerji landşaftında mühüm rol oynayır. Yunanıstan çox sürətlə Asiyadan gələn enerji, turizm və kommersiya marşrutları üçün Avropanın qapısına çevrilir. Düşünürəm ki, ölkələrimizin dəyərli müqayisəli üstünlüyünü xalqlarımız və iqtisadiyyatlarımız üçün konkret faydalara çevirmək bizim tarixi vəzifəmizdir. Hər birinizə işinizdə uğurlar arzulayıram. Sağ olun.

*Sonra Azərbaycan prezidenti İlham Əliyev görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Baş nazir!

Hörmətli dostlar!

Əvvəlcə, cənab Baş nazirə mənə və nümayəndə heyətimizə göstərdiyi qonaqpərvərliyə görə təşəkkür edirəm. Bu gözəl ölkəyə yenidən gəlməkdən çox məmnunam. Bu, Yunanıstana ikinci rəsmi səfərimdir. Bu da ölkələrimiz arasında əməkdaşlığın səviyyəsini göstərir. Bu əməkdaşlıq da çox yüksək səviyyədədir. Biz qısa müddət ərzində dostluq, qarşılıqlı etibar, dəstək, anlaşma və qarşılıqlı fayda əsasında həqiqi tərəfdaşlıq münasibətlərini qura bilmişik. Ölkələrimiz arasında əməkdaşlıq səviyyəsini yüksək qiymətləndiririk və biz bu münasibətləri genişləndirmək və dərinləşdirmək istəyirik.

Bu gün Baş nazirlə görüşdə geniş iqtisadi əməkdaşlıq, enerji və qeyri-enerji məsələləri üzrə perspektivləri ətraflı müzakirə

etdik. Çünki düşünürəm ki, əməkdaşlıq potensialı böyükdür. Nümayəndə heyətimizə iqtisadiyyatımızın enerji və qeyri-enerji sektorlarını təmsil edən şəxslər daxildir.

Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Ötən 10 ildə 3 dəfədən çox iqtisadi artım müşahidə olunub. Bu da bizə ölkəmizi müasirləşdirmək üçün bir sıra infrastruktur layihələrini icra etmək imkanı verib. Əlbəttə ki, biz növbəti illərdə şaxələndirmə, infrastruktur və iqtisadiyyatımızın qeyri-enerji sektoruna yatırılan sərmayələr siyasətini davam etdirəcəyik. Çünki bu, dayanıqlı inkişafın təmin olunması üçün yeganə yoldur.

Azərbaycanda böyük enerji ehtiyatları var. Bunlar bizə 100 ildən çox kifayət edər. Lakin biz sonrakı müddəti düşünməliyik. Biz gələcək illər üçün dayanıqlı iqtisadi inkişafı yaratmalıyıq və iqtisadiyyatımızın enerji sektorundan asılılığını azaltmalıyıq. Qeyri-enerji sektorunun ümumi daxili məhsulun əsas hissəsini təşkil etməsi bizdə qürur hissi oyadır və vaxt keçdikcə qeyri-neft sektoru Azərbaycanın iqtisadi fəaliyyətində daha da dominant rol oynayacaqdır.

Ölkələrimiz arasında ticarətin həcmini və qarşılıqlı investisiyaları artırmaq üçün yaxşı imkanlar vardır. Azərbaycan xaricə sərmayə yatırmağa başlayıb və cənab Baş nazir də qeyd etdiyi kimi, bizim Avropada əsas sərmayələrimizdən biri DESFA-da pay sahibi olmaqdır. Biz həmçinin digər region ölkələrinə də sərmayə yatırırıq. Eləcə də qarşılıqlı investisiyalar sahəsində Yunanıstan ilə daha çox əməkdaşlıq etməyi planlaşdırırıq. Mənə məlumat verildi ki, tezliklə Yunanıstan–Azərbaycan birgə iqtisadi komissiyasının iclası keçiriləcəkdir. Çox güman ki, investisiya imkanları burada daha çox qiymətləndiriləcək və biz də yeni əməkdaşlıq sahələri müəyyən edəcəyik. Əlbəttə ki, bu işlər hökumət və biznes dairələri ilə sıx əməkdaşlıq şəraitində aparılacaqdır.

Düşünürəm ki, Azərbaycan xarici sərmayələr üçün cəlbedici ölkədir. Son ildə ölkəmizə 28 milyard dollar investisiya yatırılıb ki, bunun da 30 faizi xarici sərmayələrin payına düşür. Xarici

sərmayələr lazımi şəkildə müdafiə olunur. Bizdə çox yaxşı investisiya mühiti var. Ona görə də biz yunan şirkətlərini investor və podratçı qismində görmək istərdik. Bu gün biz bu məsələni, yəni yunan şirkətlərinin Azərbaycanda həyata keçiriləcək tikinti, müasir infrastrukturun yaradılması, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları və digər sahələr üzrə infrastruktur layihələrində iştirak etmək üçün dəvət olunması məsələsini müzakirə etdik.

Əlbəttə, turizm, əczaçılıq, bankçılıq, bütün bu sektorlar gələcək illərdə ölkəmizdə inkişaf etdirilməlidir. Müasirləşdirmə ilə bağlı böyük planlarımız var və biz «Azərbaycan–2020» proqramını qəbul etmişik. Bu proqram da bizə 2020-ci ilə qədər ölkəmizdə bütün əsas infrastruktur layihələrini həll etmək imkanını verəcəkdir. Ona görə də bu fürsətdən istifadə edərək, mən şəxsən yunan şirkətlərini Azərbaycanda fəal olmağa, işləməyə və birgə biznes həyata keçirməyə dəvət edirəm.

Əlbəttə ki, iqtisadi əlaqələrimizdə enerji sektoru üstünlük təşkil edəcəkdir. Bu da təbii haldır, çünki bu sektor həm Azərbaycan, həm Yunanıstan, həm də Avropa üçün qarşılıqlı önəm təşkil edən sahədir. Bu, bütün tərəflərin fayda götürəcəyi bir layihədir. Azərbaycanın öz böyük qaz ehtiyatları üçün iri bazarlara ehtiyacı vardır. Avropanın da yeni qaz mənbələrinə və marşrutlarına ehtiyacı vardır. Bizim icra etməyə başladığımız «Şahdəniz», TANAP və TAP layihələri həqiqətən də şaxələndirmə layihələridir. Çünki bu sadəcə, Avropaya qazın təchizi üzrə yeni marşrut deyil, ən önəmlisi bu, yeni qaz mənbəyidir. Bu, çoxhəcmli mənbədir.

Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,5 trilyon kubmetrdən çoxdur. Bu da ən azından 100 il ərzində qazı müxtəlif bazarlara ixrac etməyə imkan verir və əlbəttə ki, enerji strategiyamızın icrasında Trans–Adriatik boru kəmərinin seçilməsi vacib bir mərhələ idi. Mən çox şadam ki, TAP layihəsi seçildi. Bu layihə Azərbaycan, Yunanıstan, İtaliya və Albaniya arasında münasibətləri daha da gücləndirəcəkdir. Biz Xəzər dənizi, Qafqaz

və Avropanın yeni geniş regional əməkdaşlıq formatını yaradacağıq. Bu bizim hamımıza fayda verəcəkdir.

TAP layihəsinin reallaşması nəticəsində çoxlu işlər olacaq, minlərlə yeni iş yeri yaradılacaqdır. Bu da Azərbaycana Avropa bazarına enerjini təchiz etmək üçün yeni marşrutun yaradılmasından ibarət strateji məqsədləri tam yerinə yetirmək imkanı verəcəkdir. Bu gün qaz yatağı olan və ikinci mərhələdə istismar edilən «Şahdəniz», TANAP və TAP Avropanın ən böyük infrastruktur layihələridir. Əlbəttə ki, bu layihələri vaxtında icra etmək üçün yunan tərəfdaşlarımızla əlaqəli şəkildə əlimizdən gələni edəcəyik. Layihələri vaxtında və yüksək səmərə ilə icra etmək üçün bizdən müntəzəm, ola bilsin ki, gündəlik və həftəlik əlaqələndirmə işləri aparmaq tələb olunacaqdır. Mən əminəm ki, biz bu məqsədə nail olacağıq, çünki bu günədək işlər qrafik üzrə gedir.

Həmçinin Azərbaycanda nəqliyyat sahəsində olan imkanları da diqqətinizə çatdırmaq istəyirəm. Biz hazırda Azərbaycanı Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa ilə birləşdirəcək çox önəmli dəmir yolu layihəsini həyata keçiririk. Bu, yeni İpək yolu olacaqdır. Bu marşrut mövcud nəqliyyat marşrutlarından çox qısa olacaqdır.

Biz Bakıda yeni dəniz limanı, dəmir yolu xətti və nəqliyyatla bağlı digər infrastruktur layihələri inşa edirik. Bu da Azərbaycan və Avropa arasında ticarət əlaqələrinin artmasında önəmli rol oynayacaqdır.

Fürsətdən istifadə edərək, cənab Baş nazirə və Yunanıstan hökumətinə Azərbaycan–Avropa İttifaqı münasibətlərinə göstərdiyi dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu əlaqələr çox uğurla inkişaf edir. Biz Yunanıstanı Avropa İttifaqında əsas tərəfdaşımız və dostumuz kimi görürük. Başqa sözlə, bir çox sahələrdə iqtisadi əməkdaşlığı artırmaq üçün böyük imkanlar vardır. Bunun əsasını ölkələrimiz arasında güclü siyasi əlaqələr təşkil edir. Bu da təməldir. Bu münasibətlər səmimidir, qarşılıqlı hörmət və qarşılıqlı marağa əsaslanır. Bu möhkəm təməl üzərində

biznes üçün yeni imkanların yaradılması vəzifəsi Yunanıstan hökumətinin dəstəyi ilə biznes icmasının öhdəsinə buraxılır.

Dediyim kimi, bizim nümayəndə heyəti iqtisadiyyatın müxtəlif sahələrini təmsil edir. Eyni fikri yunan nümayəndə heyəti barədə də demək olar. Əminəm ki, bu görüşdən sonra nümayəndə heyətləri bir-biri ilə daha sıx şəkildə işləyəcək və ola bilsin ki, bu görüşdən dərhal nəticələr əldə olunsun. Bir daha bu fürsətə görə sizə təşəkkürümü bildirirəm. Sağ olun.

* * *

*Sonra mövzu ətrafında müzakirələr oldu. Yunanıstanın tanınmış şirkətlərinin rəhbərləri və nümayəndələri təmsil etdikləri müəssisələr haqqında məlumat verdilər. Bildirildi ki, bu şirkətlər əsasən energetika, nəqliyyat, turizm, alternativ enerji mənbələri, informasiya texnologiyaları və digər sahələrdə ixtisaslaşıblar. İş adamları Azərbaycan ilə yeni əməkdaşlıq münasibətləri qurmaqda və mövcud qarşılıqlı fəaliyyətin genişlənməsində maraqlı olduqlarını deyərək Azərbaycan şirkətləri ilə təcrübə mübadiləsinə hazır olduqlarını bildirdilər.*

*İştirakçılar Azərbaycanın sürətli inkişafı ilə bağlı prezident İlham Əliyevə təbriklərini çatdırdılar və respublikamızın biznes nöqteyi-nəzərindən də çox maraqlı ölkə olduğunu vurğuladılar.*

*Alternativ enerji mənbələri sahəsində ölkəmizdə həyata keçirilən işlərlə və bu sahədə əməkdaşlıqla bağlı suala cavabında prezident İlham Əliyev dedi:*

– Günəş enerji batareyaları üzrə artıq bizdə pilot layihə vardır. Bu batareyaları istehsal edən zavodumuz da vardır. Azərbaycan günəşli və küləkli ölkədir. Düşünürəm ki, biz bu təbii iqlim imkanlarından maksimum şəkildə istifadə etməliyik. Həmçinin biz bu gün müxtəlif gücdə – 20–25 meqavatdan 1–5 meqavatadək su-elektrik stansiyalarına böyük sərmayə yatırırıq. Bu sahədə də iş aparmaq üçün geniş imkanlar vardır. Siz tamamilə düz buyurursunuz. Bərpa olunan enerjini biz nə qədər çox istehsal etsək, ixrac üçün bizim daha çox qazımız olar və atmosfer də daha təmiz olar.

Bizim Naxçıvan Muxtar Respublikasında böyük bir layihəmiz var. Bu gün orada 100 faiz yerli enerji istehlakı su enerjisi hesabına təmin edilir. Bu plan yerinə yetiriləcəkdir və Energetika Nazirliyi bu məsələni öz nəzarətinə götürür. Ümid edirəm ki, sizin üzərində işlədiyiniz layihənin yaxşı gələcəyi olacaq. Onu da deyim ki, bizim bərpa olunan enerji mənbələri üzrə Dövlət Proqramımız var. Bu məsələ ilə əlaqədar biz sizinlə böyük məmnuniyyətlə işləməyə hazırıq.

*Növbəti sual son illərdə iqtisadi böhranla üzləşən və hazırda tədricən bu vəziyyətdən çıxan Yunanıstanda biznes mühitinin səviyyəsi və bunun Azərbaycan iş adamları ilə əlaqələrə təsiri ilə bağlı oldu.*

*Prezident İlham Əliyev bu suala cavabında dedi:*

– Biz indi əməkdaşlığın yeni mərhələsinə qədəm qoyuruq. Planlaşdırılmış birgə fəaliyyətin həcmini nəzərə alaraq ümidvaram ki, Azərbaycanda yaşayan və işləyən yunanıstanlıların sayı daha da çoxalacaqdır. Həmçinin ölkənizdə yeni vəziyyətlə bağlı şərhinizə istinad etmək, ölkəni inkişaf etdirmək üçün mükəmməl işlər görən mənim dostum Baş naziri təbrik etmək istəyirəm. Xoşbəxtlikdən ən çətin anlar artıq keçmişdə qalıbdır. Ölkə düzgün yolla irəliləyir, sürətlə inkişaf edir, çoxlu təşəbbüslər görürəm. Bu da biznes icması üçün yaxşı işarədir. Əminəm ki, Baş nazirin planlaşdırdığı bütün məsələlər yaxın gələcəkdə reallaşacaqdır.

*Dövlətimizin başçısı TAP layihəsinin icrası zamanı görüləcək işlər və bu çərçivədə həyata keçiriləcək sosial layihələrə dair səslənən fikirlərə də münasibət bildirdi:*

– Mən münasibətlərimizdə yeni inkişaf mərhələsinin olması ilə bağlı fikrinizlə tam razıyam. Çünki TAP miqyasında olan layihə qlobal bir layihədir və DESFA bu layihəyə qarşılıqlı fəaliyyət əlavə edir. SOCAR artıq dünyada çox etibarlı və yaxşı sərmayədar tərəfdaş kimi tanınır. İnvestisiya maraqları çox genişdir. Mən çox şadam ki, SOCAR Yunanıstanda fəaliyyətə başlayıb. TAP icra olunmağa başlayanda Avropanın enerji xəritəsini tamamilə dəyişəcək, Avropa enerji bazarında ədalətli

rəqabət üçün yeni imkanlar yaranacaqdır. Bu rəqabət yeni təchizatçıların və istehlakçıların xeyrinə olacaqdır. Düşünürəm ki, gələcək illərdə, əlbəttə, həll edəcəyimiz və onun faydasını görəcəyimiz ən vacib məsələlərdən biri enerji istehsalçısı, tranzit ölkələr və istehlakçıların maraqlarının maksimum dərəcədə necə uzlaşdırılması ilə bağlıdır. TAP-ın timsalında bizim bir istehsalçımız, çoxlu istehlakçılarımız və tranzit tərəflər vardır. Buna görə də maraq balansı elə olmalıdır ki, hər bir tərəf xeyir götürsün.

Bizim TAP kimi layihələrin icrasında təcrübəmiz yox idi. Lakin üçtərəfli formatda istehsalçı, tranzit tərəfi və istehlakçı qismində işləmək təcrübəmiz var idi. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum uğurlu layihələrdir. Onlar TAP-ın bu xəttinin uzadılması üçün istifadə edilən dəhlizi yaradıb. Buna görə də TAP üzrə işçi münasibətlərimizi ətraflı şəkildə quracağımız növbəti ayda bu maraqlar balansı böyük əhəmiyyət kəsb edəcəkdir. Bu layihə istehsalçı qismində bizə, tranzit və istehlakçı qismində digər tərəflərə, bir sözlə, hamımıza fayda verəcəkdir. Bu həqiqətən, şaxələndirmə layihəsidir.

DESFA-nın səhmlərinin uğurla alınmasından sonra mən əminəm ki, SOCAR enerjinin paylanması şəbəkəsində özünü etibarlı tərəfdaş kimi göstərəcək. Çünki paylama xüsusi terminal vasitəsilə aparılacaq və buraya əlavə investisiya tələb olunacaqdır. Biz investisiya yatırdığımız istənilən yerdə həmişə hökumətlə məsləhətləşmələr aparırıq, çoxsaylı sosialyönümlü layihələr icra edirik ki, yerli icmalar da onların faydalarını dərhal görə bilsinlər. Əlbəttə, bu, strateji layihədir. Bu layihə çoxumuza fayda verəcəkdir. Lakin həmin ərazidə yaşayan insanlar layihənin faydasını indi görmək istəyirlər. Ona görə düşünürəm ki, biz sosialyönümlü, strateji, qlobal biznes layihəsini bir meqalayihə çərçivəsində yaradacağıq və bunun yaxşı nəticələrini görəcəyik.

*Yunanıstanın Baş naziri Antonis Samaras bildirdi ki, əvvəllər Avropa məkanında enerji təhlükəsizliyinə o qədər də ciddi yanaşılmırdı. Bu gün isə artıq vəziyyət dəyişib və bu məsələ*

*böyük aktuallıq kəsb edir. İndi yeni layihələr enerji təhlükəsizliyində ciddi rol oynayır və bu məsələdə TAP xüsusi əhəmiyyətə malikdir.*

*Görüşdə iştirak edən iş adamları Azərbaycan qazının nəqli ilə bağlı məsələlərlə də maraqlandılar.*

*Dövlətimizin başçısı bununla bağlı səslənən suala cavabında ölkəmizin malik olduğu nəqliyyat marşrutlarından bəhs etdi:*

– Əminəm ki, TAP kimi böyükmiqyaslı layihənin icrası zamanı və ondan sonra çoxlu ideyalar və imkanlar yaranacaqdır. Çünki bu həqiqətən də qlobal bir layihədir. Layihə nəticəsində minlərlə yeni iş yeri açılacaq, imkanlar yaranacaqdır. Bütün marşrut boyunca – Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya, Balkan ölkələrində biznes fəaliyyətinə stimul yaranacaqdır. Çünki biz Balkan ölkələrinə də qaz ixrac etməyi planlaşdırırıq. Məsələn, Bolqarıstan bizim tərəfdaşlarımızdan biridir. Baxmayaraq ki, o, TAP layihəsinin üzvü deyildir. Bu məsələdə Bolqarıstan bağlayıcısı öz əhəmiyyətli rolunu oynayacaqdır. Ona görə biz bu layihəni strateji əhəmiyyət daşıyan, enerji təhlükəsizliyi, şaxələndirmə və böyük imkanlar layihəsi kimi dəyərləndiririk. Çünki qeyd etdiyim kimi, bu layihə Azərbaycanda və layihəyə cəlb olunmuş ölkələrdə minlərlə yeni iş yeri yaradacaqdır. Buna görə də düşünürəm ki, bu layihənin reallaşması nəticəsində meydana çıxan imkanları dəyərləndirməliyik.

Sizin qeyd etdiyiniz təklifləri də qiymətləndirmək olar. TAP ən yaxşı kommersiya layihəsi seçildiyinə görə bu layihənin istənilən modifikasiyası lazımi şəkildə dəyərləndirilməlidir. Baş nazirin qeydlərinə qayıtmaq istəyirəm. O dedi ki, ilkin mərhələdə TAP layihəsi geridə qalırdı. Mən bunu çox yaxşı xatırlayıram. Çünki mən lap əvvəldən – 1994-cü ildən bəri Azərbaycanın enerji siyasətinin formalaşmasında iştirak etmişəm. Son 10 il ərzində mən prezident kimi, «Cənub Qaz Dəhlizi», xüsusilə Nabukko layihəsi ilə bağlı bir neçə beynəlxalq konfrans və iclaslarda iştirak etmişəm. Bizim çox təşəbbüskar yanaşmamız var idi. Bu, Azərbaycanın ciddi

dəstəklədiyi bir layihə idi. Çünki bu layihə bizim ehtiyatların bazara çıxarılması layihəsi idi. Həmin bazar olmasaydı, bu ehtiyatların dəyəri də olmazdı. Lakin əfsuslar olsun, bir neçə konfransda iştirak etdikdən sonra biz gördük ki, bu layihə haqqında sadəcə, söhbətlər aparılır, yalnız xoş niyyətlər və məsləhətlər bildirilir. Kimin tərəfindən maliyyələşmənin, əlaqələndirmə işinin aparılacağına, layihəyə kimin rəhbərlik edəcəyi məsələsinə gəldikdə, hər kəs boyun qaçırırdı. Sonra biz başa düşdük ki, güclü öhdəlik və rəhbərlik olmadan biz bu layihəni inkişaf etdirə bilmərik. Beləcə, yeni variant olan TANAP-ı təqdim etdik. TANAP layihəsinin təşəbbüskarı Azərbaycan olub və bu layihənin təşəbbüs kimi irəli sürülməsindən imzalanmasına qədər çox qısa müddət keçib. Sonra yaxşı kommersiya təklifinə, o cümlədən Yunanıstan, Albaniya və İtaliya hökumətlərinin layihə ilə bağlı üzərlərinə öhdəlik götürmələrinə görə TAP layihəsi arzuolunan layihəyə çevrildi. Biz bu layihəni ciddi dəstəkləyirdik, lakin bu bizi təəccübləndirdi. Çünki geridə olan bir layihə birdən-birə lider və uğura layiq layihəyə çevrildi. Mən TAP-ın seçilməsinə şəxsən çox şadam.

Hazırda layihə işlənilmə prosesindədir. Çünki bu layihə hələ çox şeyləri dəyişəcəkdir. Məsələn, bizim birinci layihə – Bakı–Tbilisi–Ceyhan layihəsi regionda neftpaylama şəbəkəsini tamamilə dəyişdi. İlk dəfə Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdi. İndi isə Xəzər dənizini Avropa, İtaliya, Balkan ölkələri ilə birləşdiririk və biz bu prosesdə iştirak etdiyimizə görə qürur hissi keçiririk.

Baş nazirin qeyd etdiyi kimi, güclü tərəfdaşlıq münasibətləri, Yunanıstan və Azərbaycan arasında güclü siyasi əlaqələr, Avropa və Azərbaycan arasında əlaqələr bu uğurun qazanılması üçün ilkin şərtdir. Əminəm ki, biz uğur qazanacağıq və gələcəkdə bu hadisələri qeyd edəcəyik. Sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*Afina*

*16 iyun 2014-cü il*

*Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın adından iyunun 16-da Afinada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə dövlət naharı verilmişdir.*

*Mərasim Azərbaycanın və Yunanıstanın dövlət himnlərinin səslənməsi ilə başlandı.*

*Naharda çıxış edən Yunanıstan prezidenti Karolos Papulyas Azərbaycan dövlətinin başçısını bir daha Afinada salamladı və bu səfərin ikitərəfli münasibətlərin bütün istiqamətlərini daha da dərinləşdirməyə xidmət edəcəyini bildirdi. «Bizim danışıqlar bir daha qarşılıqlı inam və hörmətlə xarakterizə olunan yüksək siyasi əlaqələrimizi təsdiq etdi» – deyən Yunanıstan dövlətinin başçısı iqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu diqqətə çatdırdı.*

**K a r o l o s  P a p u l y a s:** Azərbaycan dünyanın ən əhəmiyyətli neft-qaz istehsalçılarından biridir və buna görə o, beynəlxalq aləmdə böyük nüfuza malikdir. Bu fakt, həmçinin Azərbaycanın Avropaya təbii qaz nəqli üçün TAP boru kəmərini seçməsindən sonra bizim enerji münasibətlərimizin xüsusi dinamikasında əksini tapıb. TAP bir başlanğıcdır. Enerji sahəsində əməkdaşlığımız Azərbaycan və Yunanıstan arasında münasibətlərin dərinləşməsi və ölkənizin Avropa ilə Asiya arasında geostrateji və geoiqtisadi mövqeyini gücləndirəcək bir şəkildə inkişaf etməlidir. Qafqaz ərazisi Avropa İttifaqı üçün xüsusi əhəmiyyət kəsb edir. Buna görə də Yunanıstanın Avropa

İttifaqı Şurasına sədrliyi İttifaqla Azərbaycan arasında münasibətlərin daha sürətli inkişafına yardım edir.

Bilirsiniz ki, Yunanıstanın Qafqaz regionu ilə çoxəsrlik tarixi əlaqələri vardır. Biz bölgədə təhlükəsizliyi və sabitliyi həmişə dəstəkləyir və inanırıq ki, bu, regional əməkdaşlığa və rifaha səbəb olacaqdır. Yunanıstan xarici siyasətində Dağlıq Qarabağ da daxil olmaqla, münaqişələrin sülh yolu ilə həllinə həmişə tərəfdar olub. Biz münaqişənin tezliklə milli suverenlik və ərazi bütövlüyü prinsiplərinə əsaslanan beynəlxalq hüquq çərçivəsində qaneedici həllinin tapılmasını arzu edirik.

*Yunanıstan Prezidenti çıxışının sonunda ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşməsinə və möhkəmlənməsinə əminliyini ifadə etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev qonaqpərvərliyə görə minnətdarlığını bildirdi və qeyd etdi ki, bu onun Yunanıstana ikinci səfəridir. Dövlətimizin başçısı budəfəki səfərinin yekunlarını yüksək qiymətləndirdi və aparılan danışıqların, imzalanan sənədlərin iki ölkə arasında münasibətlərin daha da genişlənməsində mühüm əhəmiyyət kəsb edəcəyinə əminliyini bildirdi.*

*Dövlətimizin başçısı Yunanıstan ilə Azərbaycan arasında əlaqələrin qədim tarixə malik olduğunu və ölkələrimizin münasibətlərinin müasir dövrdə daha da inkişaf etdiyini vurğuladı.*

**İlham Əliyev:** Hələ XII əsrdə yaşamış dahi Azərbaycan şairi Nizami Gəncəvi Böyük İsgəndərə ithaf etdiyi «İsgəndərnamə» poemasında Aristotel, Arximed, Sokrat, Platon və digər görkəmli yunan mütəfəkkirlərindən bəhs edib.

Bu gün Yunanıstan–Azərbaycan əlaqələri uğurla inkişaf edir. Ölkələrimiz arasında siyasi əlaqələr və faydalı dialoq iqtisadiyyat, mədəniyyət və humanitar sahələrdə münasibətlərimizin inkişafına təkan verir. Biz həmçinin müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edirik. Avropa İttifaqı ilə münasibətlərimizin inkişafında Yunanıstan çox müsbət rol oynayır. Biz də bunu yüksək qiymətləndiririk. Əminəm ki, Yunanıstan Avropa İttifaqı Şurasında sədrliyi

dövründə olduğu kimi, gələcəkdə də Azərbaycan–Avropa İttifaqı münasibətlərinin inkişafına öz töhfəsini verəcəkdir.

Son dövrlər enerji sahəsində əldə etdiyimiz nailiyyətləri əməkdaşlığımızın uğurlu göstəricisi hesab edirəm. Biz enerji sahəsi ilə yanaşı, digər sahələrdə də əlaqələrimizin genişlənməsinə mühüm əhəmiyyət veririk. Azərbaycan Yunanıstan iqtisadiyyatına sərmayə qoymaqda maraqlıdır. Biz imkanların araşdırılması və yeni layihələrin həyata keçirilməsi istiqamətində bundan sonra da çalışacağıq.

*Dövlətimizin başçısı Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə neft-qaz kəmərlərinin şaxələndirilməsi ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlərdən də danışdı. Avropanın ən nəhəng layihələri olan TAP və TANAP-ın icrası nəticəsində Azərbaycanın təbii ehtiyatlarının Avropanın enerji təhlükəsizliyindəki rolu daha da artacaqdır. Prezident İlham Əliyev ölkəmizin regionda təhlükəsizliyin və sabitliyin tərəfdarı olduğunu vurğuladı və bu sabitliyə əngəl olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti barədə danışaraq dedi:*

– Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpağımız Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsi vardır ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. «Qoşulmama Hərəkatı», ATƏT, NATO, Avropa Parlamenti, AŞPA, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişdir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həll olunmalıdır.

*Çıxışının sonunda prezident İlham Əliyev Yunanıstan dövlətinin başçısını ölkəmizə rəsmi səfərə dəvət etdi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 17-də Yunanıstana dövlət səfəri başa çatmışdır.*

*Azərbaycanın və Yunanıstanın dövlət bayraqlarının dalğalandığı Afina Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Yunanıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNƏ

Sizi – bütün Azərbaycan yazıçı, şair və ədəbiyyatşünaslarını Azərbaycan Yazıçılar Birliyinin 80 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və yaradıcılığınızda uğurlar arzulayıram. Tarix boyu Azərbaycan xalqı əcdadlarımızdan qalmış ənənəyə sadiq olaraq, qələm əhlinə böyük ehtiram bəsləmiş, şeiri, sənəti yüksək qiymətləndirmişdir. Yazıçı və şairlərimiz ictimai fikrin formalaşdırılmasında daim həlledici rol oynayan söz sahibi kimi, cəmiyyətimizdə böyük nüfuza malikdirlər.

Müstəqilliyimizin əldə olunmasında və möhkəmləndirilməsində onların xidmətləri danılmazdır. Xalqın şüurunda azadlıq hisslərinin yaşadılmasında, daha da dirçəldilməsində yazıçı və şairlərimizin yaradıcılığının gücü ölçüyəgəlməzdir. Onlar heç kəsin dilinə belə gətirməyə cürət etmədiyi bir vaxtda müstəqillik və azadlıq ideyalarının carçısı olmaqla, dərin məhəbbət və rəğbət qazanmışlar. Tariximizin bütün dövrlərində, hətta repressiyaların tüğyan etdiyi zamanda yazıçılarımız öz əsərləri, mətbu orqanları, ictimai fəaliyyətləri və şəxsiyyətləri ilə azərbaycançılıq məfkurəsinin bərqərar olmasında, milli ruhun qorunmasında heç nədən çəkinmədən, əsl vətəndaşlıq mövqeyi tutaraq ən yüksək ideallara sadiq qalmışlar. Azərbaycan dilinin saflığının saxlanılması və inkişafında da yazıçıların rolu təqdirəlayiqdir.

Qloballaşma şəraitində Azərbaycan ədəbiyyatı qarşısında duran problemlər olduqca mürəkkəb və genişmiqyaslıdır. Əminəm ki, onların öhdəsindən siz layiqincə gələcəksiniz. İlk növbədə ona görə ki, sizin başlıca amalınız ölkəmizin çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevrilməsidir. Ümidvaram ki, müstəqilliyimizi göz bəbəyi kimi qoruyan, özünü vətənin azadlığı və ərazi bütövlüyü naminə fəda

etməyə hər an hazır olan, müasir təfəkkür tərzinə malik sağlam əqidəli nəslin yetişdirilməsi daim sizin əsərlərinizin əsas qayəsi olacaqdır.

İnanıram ki, Siz yeni-yeni əsərlərlə oxucularınızı sevindirəcək, Azərbaycan ədəbiyyatının inkişafı naminə səylərinizi əsirgəməyəcəksiniz.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyun 2014-cü il*

## AVROPA ŞURASI YERLİ VƏ REGİONAL HAKİMİYYƏTLƏR KONQRESİNİN PREZİDENTİ HERVİQ VAN STAA İLƏ GÖRÜŞ

*18 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin prezidenti Herviq Van Staanı qəbul etmişdir.*

*Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin prezidenti Herviq Van Staa paytaxtımızda gedən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı təkcə paytaxtda deyil, respublikanın ayrı-ayrı regionlarında sürətli inkişafın getdiyini bildirdi. Prezident İlham Əliyev ölkəmizdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı 3 Dövlət Proqramının qəbul olunduğunu və uğurla icra edildiyini dedi.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin inkişafı, ölkəmizin Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi ilə əməkdaşlığının perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*18 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.*

*Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin uğurla və dinamik şəkildə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev Xarici İşlər naziri Sergey Lavrovun ölkəmizə bu səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığını vurğuladı, Azərbaycan ilə Rusiyanın bütün sahələrdə uğurla əməkdaşlıq etdiyini söylədi. Prezident İlham Əliyev Rusiya prezidenti Vladimir Putinin ölkəmizə keçənilki səfərinin münasibətlərimizin inkişafına təkan verdiyini qeyd etdi, həmin səfər zamanı aparılan danışıqların və fikir mübadiləsinin əməkdaşlığımızın sonrakı inkişafı baxımından çox səmərəli olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, ölkələrimiz parlamentlər və nazirliklər səviyyəsində də səmərəli əməkdaşlıq edir. Humanitar və digər sahələrdə əməkdaşlıq da uğurludur. Prezident İlham Əliyev xalqlarımızın və ölkələrimizin rifahı naminə münasibətlərimizin bundan sonra da inkişafı üçün hər iki ölkənin səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etdi.*

*Xarici İşlər naziri Sergey Lavrov Rusiya prezidenti Vladimir Putinin səmimi salamlarını prezident İlham Əliyevə çatdırdı. O, Rusiya dövlət başçısının ölkəmizə keçənilki səfərini və səfər zamanı keçirilən görüşləri məmnunluqla xatırladığını dedi. Sergey Lavrov Azərbaycan prezidenti İlham Əliyevin ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıması,*

iqtisadi, investisiya, humanitar və digər sahələrdə əməkdaşlığın uğurla davam etməsi barədə fikirləri ilə şərik olduqlarını bildirdi. Xarici İşlər naziri Sergey Lavrov Rusiya prezidenti Vladimir Putinin ölkəmizə rəsmi səfəri çərçivəsində humanitar əməkdaşlıqla bağlı proqramın imzalandığını da xatırlatdı. O bildirdi ki, Azərbaycan ilə Rusiya regional və beynəlxalq səviyyədə uğurla əməkdaşlıq edir və xarici işlər nazirlərinin bugünkü görüşündə də bu barədə müzakirələr aparılıb. Sergey Lavrov bildirdi ki, müzakirələr zamanı Xəzəryanı ölkələrin qarşıdakı sammiti, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan və Ermənistan prezidentlərinin keçənilki görüşü, ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə dair fikir mübadiləsi aparıldı. O, BMT, ATƏT və hazırda Azərbaycanın sədrlik etdiyi Avropa Şurasının Nazirlər Komitəsində ölkələrimizin qarşısında duran ümumi məsələləri də müzakirə etdiklərini dedi.

Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasına üzv seçkilərində Azərbaycanın namizədliyini dəstəklədiyinə görə bir daha Rusiya tərəfinə təşəkkürünü bildirdi və Azərbaycanın bu quruma sədrlik etdiyi dövrlərdə ölkələrimiz arasında fəal əməkdaşlığın həyata keçirildiyini məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyinin ölkəmizin mövqeyi və prioritetlərini Avropa ictimaiyyətinə çatdırmaq baxımından əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın bu quruma sədrliyi dövründə də ölkələrimiz arasında sıx əməkdaşlığın olacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı prezident Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

## RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev hərbi-texniki sahədə də konstruktiv əməkdaşlığımızın daha da genişləndiyini, bu əməkdaşlığın müsbət nəticələr verdiyini və yaxşı perspektivlərə malik olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı Dmitri Roqozinin eyni zamanda, Rusiya–Azərbaycan birgə komissiyasının həmsədri kimi, ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi işinə verdiyi töhfəni qeyd etdi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişafına Azərbaycanın da önəm verdiyini vurğulayaraq Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin artmasını strateji əməkdaşlığımızın inkişaf etdirilməsi istiqamətində ölkələrimizin birgə səylərinin yaxşı nəticəsi kimi dəyərləndirdi.*

*Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozin Azərbaycan ilə Rusiya arasında iqtisadi, ticarət və digər sahələrdə münasibətlərimizin inkişafına dair prezident İlham Əliyevin söylədiyi fikirləri yüksək qiymətləndirdiyini bildirdi. Dmitri Roqozin Rusiya tərəfinin Azərbaycan xalqı və dövləti ilə münasibətlərə hörmətlə yanaşdığını bildirərək, ölkəmizlə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə*

etdi və Rusiya–Azərbaycan birgə komissiyasının həmsədri kimi, bu istiqamətdə səylərini əsirgəməyəcəyini dedi.

Dövlətimizin başçısı iki ölkənin birgə səyləri ilə əməkdaşlığımızın bundan sonra daha da genişlənəcəyinə və Rusiya–Azərbaycan birgə komissiyasının qarşıdakı dövrlərdə fəaliyyətinin əməli nəticələr verəcəyinə əminliyini ifadə etdi.

## FRANSA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*23 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Fransa Respublikasına işgüzar səfərə gəlmişdir.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ ANN BRASÖR İLƏ GÖRÜŞ

*Strasburq*

*24 iyun 2014-cü il*

*Fransa Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının sədri xanım Ann Brasör ilə görüşmüşdür.*

*Avropa Şurası Parlament Assambleyasının sədri Ann Brasör Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olundu. Azərbaycanda insan haqları və demokratikləşmə sahəsində görülən işlər, o cümlədən Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Avropa Şurasının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## AVROPA ŞURASININ BAŞ KATİBİ TORBÖRN YAQLAND İLƏ GÖRÜŞ

*Strasburq*

*24 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Strasburqda Avropa Şurasının baş katibi Torbörn Yaqland ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə prioritet təşkil edən məsələlər müzakirə olundu.*

*Prezident İlham Əliyev son illərdə Azərbaycanda gedən demokratik inkişaf prosesləri və bu sahədə aparılan islahatlar barədə məlumat verdi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN SƏDRİ DİN ŞPİLMAN İLƏ GÖRÜŞ

*Strasburq*

*24 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Strasburqda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilman ilə görüşmüşdür.*

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilman Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Görüşdə Azərbaycanın hüquq-mühafizə orqanları ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi arasında əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SESSİYASINDA İŞTİRAK

*Strasburq*

*25 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sessiyasında iştirak etmişdir.*

*AŞPA-nın sədri xanım Ann Brasör Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi salamladı.*

**A n n  B r a s ö r:** Hörmətli Prezident!

Assambleyanın iclas zalına xoş gəlmisiniz! Bu zal Sizə çox tanış gəlir. Keçmişdə parlamentdə fəaliyyət göstərmisiniz, Assambleyanın üzvü və sədr müavinlərindən biri kimi, burada olmusunuz. Həmçinin Strasburqa səfərlərinizi, məsələn, 2004-cü ildəki səfərinizi xatırlayırıq. Biz Azərbaycanın bu təşkilatın Nazirlər Komitəsində sədrlik etdiyi dövrdə Avropa sarayında Sizi salamlamaqdan olduqca məmnunuq.

Mən həmçinin bütün nümayəndə heyətinizi, Xarici İşlər nazirinizi və heyətinizin digər üzvlərini də salamlamaq istərdim. Xarici İşlər naziri burada bazar ertəsi artıq çıxış edib. İcazənizlə, bir qeydi nəzərinizə çatdırım. Nümayəndə heyətinizdə yalnız kişiləri görürəm. Bu da həmçinin gələn səfəriniz zamanı həll olunar.

Cənab Prezident, Assambleyamızın oynadığı rol bütün üzv dövlətlərə, xüsusən də öz ərazilərində münaqişə vəziyyəti ilə üzləşən üzv dövlətlərə dəstək verməkdən ibarətdir.

Cənab Prezident, dünən açılış nitqimdə bir daha vurğuladığım suverenlik və ərazi bütövlüyü ilə bağlı prinsipial

mövqemiz Sizə çox yaxşı məlumdur. Müstəqilliyin əldə edilməsi, dövlətin ərazi tərkibindən regional vahidlərin çıxması silahlı münaqişə hesabına deyil, yalnız qanuni və dinc proses vasitəsilə baş tuta bilər.

Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, diplomatik səylər artırılmalıdır. Sizi əmin etmək istərdim ki, Assambleya bu prosesi ATƏT-in Minsk qrupu çərçivəsində dəstəkləməyə hazırdır. Eyni zamanda, biz dialoqun gücləndirilməsi və irəliləyişin əldə edilməsində çox vacib olan etimad mühitinin yaradılması üçün Ermənistan və Azərbaycan parlamentariləri, nümayəndə heyətlərinin üzvləri ilə də işi davam etdirməyə hazırıq.

Cənab Prezident, 2004-cü ilin aprel ayında Assambleyadakı çıxışınızda Siz qeyd etdiniz ki, iqtisadi artım və cəmiyyətinizin demokratikləşdirilməsi ölkənizdə siyasətin əsas elementləridir. Sizinlə tam razıyam ki, bunlar bir-birindən ayrı mövcud ola bilməz və Siz bunu haqlı olaraq qeyd etdiniz. Mən 2004-cü ildəki çıxışınıza istinad edirəm. Siz iqtisadi baxımdan güclü ola bilərsiniz, lakin əgər sizdə demokratiya və şəffaflıq olmasa, insan hüquqları qorunmasa, ölkə heç vaxt uğur qazana bilməz. Ölkəniz güclü iqtisadi inkişafa və yoxsulluğun azaldılmasına nail olub. Bu günə qədər Azərbaycan Avropa Şurasının 59 konvensiyasına qoşulub və ratifikasiya edib. Eyni zamanda, demokratiya və insan hüquqlarına aid bir çox məsələlər öz həllini gözləyir. Siz onları öz çıxışınızda və verəcəyimiz suallara cavablarınızda əhatə edəcəksiniz. Şadam ki, bu məsələləri – ifadə azadlığı, yerdəyişmə azadlığı, təşkilatlanma azadlığı və mətbuat azadlığını Bakıya səfərim zamanı və bu gün səhər iş otağımda Sizinlə açıq və konstruktiv qaydada müzakirə etmək imkanımız oldu. Həmçinin mənim xahişimlə hazırda ölkənizdə həbs olunmuş hüquq müdafiəçiləri və jurnalistlər ilə bağlı bizim söhbətlərimiz oldu.

Cənab Prezident, ümidvaram ki, ölkənizin sədrliyi Azərbaycanın maraqlarına, digər avropalılar kimi, ləyaqət, demokratik hüquq və azadlıqlara malik olmalı, irəliləyiş və

inkişafın faydasından yararlanmalı, ölkənizin bütün əhalisinin maraqlarına uyğun islahatlar prosesini sürətləndirmək imkanını yaradacaqdır. Bilirəm ki, cənab Prezident, mən və biz dəstəyinizə arxalana bilərik. İndi isə sözü Sizə vermək istəyirəm. Buyurun, söz Sizindir.

*Dövlətimizin başçısı sessiyada nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanım Sədr!

Xanımlar və cənablar!

Əvvəlcə, xanım Sədr, dəvətinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Strasburqda yenidən olmaqdan böyük şərəf və iftixar hissi duyuram. Həmçinin burada 10 il öncə söylədiyim nitqimə istinad etdiyinizə görə minnətdaram. Mən sadəcə, 10 il öncə söylədiyim sözləri bir daha təsdiqləyə bilərəm ki, bu, islahatlara aid mövqemizdir. Müstəqillik illərində Azərbaycanın uğurlu inkişafı göstərdi ki, iqtisadi və siyasi islahatlar paralel şəkildə həyata keçirildiyi təqdirdə uğurla nəticələnir.

Əlbəttə ki, biz islahatlarımızı davam etdirəcəyik.

**A n n B r a s ö r**: İcazə verin, cənab Prezident! Əvvəlcə, mən mətbuatdan xahiş edirəm ki, onlar zalı tərk etsinlər, çünki üzvlərimiz Prezidenti görə bilmirlər. Həmçinin Sizi dinləməyə gələn insanlara xatırlatmaq istərdim ki, onlara hər hansı razılıq və ya narazılıq aktını burada nümayiş etdirmək icazəsi verilmir. Mətbuatdan xahiş edirəm ki, mətbuat parlamentarilərimiz üçün görünüşü kəsməsin. Burada fikrimcə, bir kamera ilə yenə də problem qalır ki, biz bu məsələni həll etməliyik. Sağ olun.

Cənab Prezident, sözünüzü kəsdiyimə görə üzr istəyirəm, çünki mən hər şeyin qaydasında olmasına nəzarət etməliyəm. Söz yenidən Sizə verilir.

**İ l h a m Ə l i y e v:** Siz mənə 2 dəfə istinad etdiniz və beləliklə, məni, həmçinin ən azı 2 dəfə dayandıra bilərsiniz. Bir sözlə, buna hazıram.

Beləliklə, Azərbaycanda həyata keçirilmiş islahatlar göstərir ki, onlar paralel şəkildə aparıldıqda gözəçarpan tərəqqi ilə nəticələnə bilər. Əlbəttə, Azərbaycanın Avropa Şurasında üzvlük illəri çox sürətli iqtisadi və siyasi dəyişikliklər illəri oldu. Əslində, Azərbaycandakı islahatlar müstəqilliyimizin bərpasından bir neçə il sonra, yəni keçən əsrin 90-cı illərinin ortalarında başlandı. Müstəqilliyin ilk illərinin xalqımız üçün həddən artıq böyük çətinliklərlə və fəlakətlərlə yadda qaldı. Əvvəlcə sosial narazılıq, iqtisadi çətinliklər, siyasi, iqtisadi və hərbi böhran, Azərbaycanın əvvəlki rəhbərliyinin yarıtmaz idarəçiliyi – bütün bunlar elə bir çətin vəziyyətə gətirib çıxardı ki, hətta dövlətçiliyimiz belə, sual altına alınmışdı. Bu vəziyyət nəticəsində 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Bu, müasir tariximizin ən ağrılı hissəsinə çevrilmişdi.

Beləliklə, islahatlar keçən əsrin 90-cı illərinin ortalarında başlandı. Azərbaycanın yeni demokratik Konstitusiyası qəbul edildi. İqtisadi və siyasi islahatlar isə qeyd etdiyim kimi, paralel şəkildə aparıldı və ölkəmizin müstəqillik illərində nail olduğu böyük tərəqqi ilə nəticələndi.

Avropa Şurasına qoşulmaq bizim düşünülmüş seçimimiz oldu. Çünki biz islahatların genişləndirilməsi üçün bu təsisatın üzvü olmaq istəyirdik. Əlbəttə, bilirdik ki, Avropa Şurasına qoşulmağımız, həmçinin öhdəlikləri nəzərdə tutacaqdır. Biz isə bunlara hazır idik. Bu günə qədər biz öhdəlikləri yerinə yetiririk. Xanım sədrin qeyd etdiyi kimi, biz, demək olar ki, 60-a yaxın konvensiyaya qoşulmuşuq. Qanunvericiliyimizi təkmilləşdirmişik. Bu gün həyata keçirdiyimiz islahatlar cəmiyyətimizdə çox müsbət mühit yaradır.

Fundamental azadlıqlara gəldikdə, Azərbaycanda bütün azadlıqlar təmin edilir. Siyasi fəaliyyət azadlığı vardır. Yüzlərlə siyasi təşkilat, partiya mövcuddur. İfadə azadlığı, mətbuat azadlığı vardır. 40-dan artıq gündəlik və təxminən 200 həftəlik və aylıq qəzet çıxır. Respublika səviyyəsində 9 televiziya kanalı vardır. 14 bölgə və 14 kabel televiziya kanalı fəaliyyət

göstərir. Bizdə azad internet vardır. Azərbaycanda internet istifadəçilərinin sayı 70 faizdən artıqdır. Hazırda hökumətimiz böyük sərmayələri tələb edən layihəni həyata keçirməkdədir: genişzolaqlı internet hər bir şəhər və kənd üçün təmin edilməlidir. Digər sözlə, azad internetin mövcudluğu, senzuranın olmaması şəraitində biz mətbuat azadlığını məhdudlaşdıra bilmərik. Əksinə, biz mətbuat azadlığının tərəfdarıyıq, çünki media azadlığı demokratiya deməkdir. O, hökumətə çatışmazlıqlara diqqət yönəltməyə yardım edir. O, hökumət ilə cəmiyyət arasında zəruri əlaqələrin qurulmasına zəmin yaradır. Bu, Azərbaycanın, müasir Azərbaycanın ən böyük zənginliklərindən biridir. Biz bundan qürur hissi duyuruq. Bu səbəbdən, biz bir daha söyləyə bilərik ki, mətbuat azadlığı tam şəkildə təmin edilir.

Təşkilatlanma və toplaşma azadlığı, həmçinin tam şəkildə təmin edilir. Siyasi təşkilatlar bundan yararlanır, vaxtaşırı nümayişlər keçirirlər. Bu, dinc şəkildə baş tutur. Bu həmçinin islahatlara sadiqliyimizi nümayiş etdirir. Bildirmək istəyirəm, islahatların həyata keçirilməsi bizim üçün onunla bağlı deyil ki, biz öhdəliklərimizi icra edək və ya beynəlxalq təsisatlardan müəyyən müsbət qiymətlər alaq. Bu onunla bağlıdır ki, biz ölkəmizi müasirləşdiririk. 10 il öncə qeyd etdiyim kimi, güclü demokratik təsisatlar olmadan, iqtisadi uğurumuz davamlı ola bilməz. Bu səbəbdən iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılmalıdır. Cəmiyyətin demokratikləşdirilməsi cəmiyyətimizdə müsbət əhval-ruhiyyə yaradır.

Bizdə dini azadlıq vardır. Bu da ölkəmizin ən böyük varlığıdır. Biz çoxmillətli və çox dinlərin olduğu cəmiyyətik. Əsrlərboyu müxtəlif millətlərin və dinlərin nümayəndələri Azərbaycanda sülh şəraitində layiqli həyat sürüblər. Multikulturalizm dəyərləri sədrliyimiz zamanı diqqət yetirəcəyimiz prioritetlərdən biri olacaqdır.

Azərbaycan 2008-ci ildə Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısında başlamış Bakı Prosesinin təşəbbüskarı olub. Biz həmin tədbirə İslam Əməkdaşlıq Təşkilatının

mədəniyyət nazirlərini dəvət etdik. Bu, tarixdə ilk dəfə idi ki, 2 mühüm beynəlxalq təşkilatın nümayəndələri Bakıya toplaşmışdılar. Növbəti il, 2009-cu ildə əksinə etdik – biz Avropa Şurasının mədəniyyət nazirlərini İslam Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən tədbirinə dəvət etdik. Bir sözlə, multikulturalizm üstünlüklərdən, böyük varlıqlardan biridir. Sədrliyimiz zamanı biz bu məsələyə birmənalı olaraq diqqət yetirəcəyik. Çünki buna böyük ehtiyac vardır. Əfsuslar ki, dünyanın müxtəlif yerlərində, qonşu bölgələrdə, Orta Şərqdə və Avropada müəyyən narahatlıq yaradan meyillərin şahidi oluruq. Təcridolunma, ayırma və bəzən ədavət meyillərini görürük. Biz bu məsələləri həll etməliyik. Çünki dünyaya töhfə vermək, daha yaxşı dünyanı, hamı üçün müvafiq olan dünyanı qurmaq üçün yaşayırıq. İstəyirik ki, bütün xalqların, dinlərin nümayəndələri yaşayış tərzindən asılı olmayaraq, layiqli şəraitdə dinc həyat sürsünlər. Dini hisslərə əsaslanan gərginlik halları bütün ölkələr, o cümlədən çoxmillətli cəmiyyəti olan ölkələr üçün çox təhlükəlidir.

Digər prioritetlərə gəldikdə, biz diqqətimizi beynəlxalq təşkilatların qətnamə və qərarlarının icrasına yönəldəcəyik. Çünki bizə gəldikdə, Ermənistan ilə Azərbaycan arasında münaqişəyə dair BMT Təhlükəsizlik Şurasının, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, ATƏT-in qəbul etdiyi bir sıra mühüm qərar və qətnamələrdən heç biri icra olunmayıb. Beləliklə, nüfuzlu beynəlxalq təsisatlar tərəfindən qəbul edilmiş qətnamələrin həyata keçirilməsi mexanizmi olmalıdır. Bu mexanizm hamımız tərəfindən yaradılmalıdır. Digər halda, bu qətnamələr öz mahiyyətini itirir.

Biz beynəlxalq hüququn norma və prinsiplərini qəti şəkildə təşviq edəcəyik. Xanım sədrə çox minnətdaram ki, giriş nitqində Azərbaycanın ərazi bütövlüyünə dair şərhlərini verdi. Bu, beynəlxalq hüququn fundamental prinsipidir. Bu, dondurulmuş münaqişələrin həllində riayət edilməli əsas prinsip olmalıdır.

Dünən nazirimiz Parlament Assambleyasında çıxış etdiyi zaman digər prioritetləri də qeyd edib və mən təfərrüatlara varmayacağam. Mən sadəcə, onları xatırlatmaq istəyirəm: korrupsiyaya qarşı mübarizə. Bu prioritetimizdir. Hesab edirəm ki, Azərbaycanın bu sahədə nadir təcrübəsi vardır. Əfsuslar ki, bütün keçmiş sovet respublikalarında eyni problem yaşanır. Korrupsiya mirası ölkəmizin uğurlu inkişafına ciddi zərbə vurur. Biz Azərbaycanda bir çox tədbirlər görürük, o cümlədən inzibati və təsisat islahatlarını həyata keçiririk ki, korrupsiyaya qarşı uğurla mübarizə aparaq. Onlardan biri bu yaxınlarda dövlət xidmətləri proqramının qəbul edilməsi oldu. O, il yarımdır ki, icra edilir və artıq 2 milyona yaxın insan bu dövlət xidmətləri mərkəzlərinə müraciət edib və lazımi sənədləri alıb. Bu, Azərbaycanda korrupsiyanın azaldılmasına böyük təsir göstərdi. Hesab edirəm ki, bu təcrübə üzv dövlətlər üçün də maraqlı ola bilər. Cənab baş katibin Azərbaycana səfəri zamanı o həmin mərkəzlərdən birində olmuşdu.

Gənclər və təhsillə bağlı daxili siyasətimizə gəldikdə, bu, prioritetlərimizdən biridir. Cəmiyyətimiz gəncdir, çox dinamikdir və yaxşı təhsilə malikdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Aydın şəkildə anlayırıq ki, yalnız yaxşı təhsil səviyyəsinə malik olan cəmiyyət uğurlu inkişafın qarantıdır. Bu, radikalizm və fundamentalizmə qarşı qarantiya ola bilər. Bu səbəbdən, təhsil hökumətimiz üçün ən yüksək prioritetlərdən biridir. Son 10 ildə Azərbaycanda 300-dən artıq yeni məktəb binası tikilib. Təhsilin keyfiyyəti də yaxşılaşır. Eyni zamanda, biz dünyanın aparıcı universitetləri ilə əməkdaşlıq proqramlarını həyata keçiririk. Gənc tələbələrimizi iqtisadi potensialımıza uyğun intellektual potensiala da malik olmaları üçün təhsil məqsədilə xaricə göndəririk. Bu, sədrliyimiz zamanı diqqət yetirəcəyimiz əsas prioritetlər olacaqdır.

Sədrliyimiz Avropa Şurasında üzvlük tariximizdə mühüm mərhələdir. Əlbəttə ki, bu sədrlik rotasiya prinsipinə əsaslanan sədrlikdir. Bu səbəbdən, növbəmiz artıq çatıb. Lakin eyni

zamanda, bu bizim üçün ölkəmizi təqdim etməkdə gözəl fürsət olacaq və həmçinin müxtəlif Avropa ölkələrində narahatlıq doğuran mühüm məsələləri həll etmək imkanını yaradacaqdır. Bunlar demokratiya, qanunun aliliyi və müxtəlif ölkələrdəki vəziyyətə bəzən selektiv yanaşma kimi məsələlər olacaqdır.

Hesab edirəm ki, sədrliyimiz dövründə birmənalı şəkildə qaldıracağımız məsələlərdən biri də eyni regionda olan ölkələrə tətbiq edilən yanaşmada fərqlərin aradan qaldırılması olacaqdır. Buna görə ikili standartlar yanaşmasından imtina fikrimcə, sədrliyimiz dövründə Assambleyada bacardığımız təqdirdə, böyük töhfə ola bilərdi.

Azərbaycanın ümumi inkişafına gəldikdə, öncə qeyd etdiyim kimi, ölkəmiz gəncdir, lakin zəngin tarixə, ənənələrə və inkişafa malik olan ölkədir. Bizim olduqca fəal xarici siyasətimiz vardır. Ölkə regionda sabitləşdirici rol oynayır, çünki Azərbaycanın potensialı artır. Regional əməkdaşlığa aid təşəbbüslərimiz qonşularımız tərəfindən dəstəklənir. Bu gün qonşuluq əlaqələri genişlənir. İrəli sürdüyümüz təşəbbüslər bir çox ölkələri əhatə edir.

Beynəlxalq ictimaiyyət bizi güclü şəkildə dəstəkləyir. Nüfuzumuz beynəlxalq təsisatlar qarşısında çox müsbətdir. Ən böyük diplomatik uğurumuz Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi oldu. Özünü dünyaya təqdim etməyi arzulayan gənc dövlət üçün bu, böyük nailiyyət idi və biz bundan fərəhlənirik. Eyni zamanda, 155 üzv ölkənin namizədliyimizin lehinə səs verməsi faktından da qürur hissi duyuruq. Beləliklə, beynəlxalq ictimaiyyətin əksər hissəsi Azərbaycana etimad göstərir, onu dəstəkləyir və etibarlı tərəfdaş hesab edir. Təhlükəsizlik Şurasında ikiillik üzvlüyümüz zamanı biz bu qurumda 2 dəfə sədrlik etdik. Ümumi qiymətləndirməyə görə, üzvlüyümüz və sədrliyimiz çox uğurlu olmuşdur. Biz dünyada sülhə, təhlükəsizliyə, sabitliyə və proqnozlaşdırmaya böyük töhfə verdik. Təhlükəsizlik Şurasına üzvlük ölkəmiz üçün nadir təcrübə oldu və biz bu təcrübədən gələcək təşəbbüslərdə istifadə edəcəyik.

Biz beynəlxalq ictimaiyyətin tam əksəriyyəti ilə çox konstruktiv münasibətlər qurmuşuq. Avropa ölkələri ilə ikitərəfli əlaqələrimiz çox uğurla inkişaf edir. Avropa əsas ticari tərəfdaşımızdır. Azərbaycan ilə Avropa arasında tarixi əlaqələr müstəqillik illərində daha da möhkəmlənib. Eyni zamanda, Azərbaycan müsəlman ölkəsi kimi, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Fikrimcə, nəinki coğrafi baxımdan, o cümlədən mədəni və siyasi baxımdan regionumuzda mühüm körpü rolunu oynayırıq. Nə qədər uğurlu olarıqsa, sivilizasiyalar arasında bir o qədər mühüm rol oynaya bilərik. Sivilizasiyalararası Dialoq Forumunun Bakıda keçirilməsi göstərir ki, Azərbaycan multikulturalizm baxımından dünya mərkəzlərindən biridir. Bu yaxınlarda isə ölkəmizdə Dünya Multikulturalizm Mərkəzi yaradılacaqdır.

Üzləşdiyimiz problemlərdən biri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün pozulmasıdır. Ermənistan–Azərbaycan münaqişəsi bütün regionu təhlükə altına salır. Bu, dondurulmuş münaqişədir. Lakin bu münaqişə əslində donmuş hesab edilə bilməz. O, dondurula bilməz, çünki münaqişə öz həllini tapmalıdır. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. Azərbaycanlılar Dağlıq Qarabağda əsrlərboyu yaşayıblar. Ermənilər bu yerlərdə 200 ildən az müddət öncə yaşamağa başlayıblar. Tarixi abidələr, Dağlıq Qarabağdakı irsimiz əfsuslar ki, hazırda erməni işğalçı ordusu tərəfindən dağıdılıb. Münaqişə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalı ilə nəticələnib. Biz erməni silahlıları, erməni ordusu tərəfindən etnik təmizlənməyə məruz qalmışıq. 1 milyondan çox azərbaycanlı öz ölkəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon 20 ildən artıqdır ki, işğal altındadır. Bu çox böyük ədalətsizlikdir.

Artıq qeyd etdiyim kimi, Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. Qarabağ sözünün özü Azərbaycan mənşəli addır. Bu sahədə bütün coğrafi toponimlər xalqımıza məxsusdur. Beynəlxalq hüquq normaları baxımından Dağlıq Qarabağ

Azərbaycanın tərkib hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın hissəsi kimi tanıyır. Heç bir ölkə, o cümlədən Ermənistan qeyri-qanuni Dağlıq Qarabağ rejimini müstəqil qurum kimi tanımayıb. Dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Təəssüf ki, öncə qeyd etdiyim kimi, bu qətnamələr icra edilməyib. Bu bir daha ikili standart siyasətini göstərir. Çünki bəzən görürük ki, BMT-nin qətnamələri bir neçə saat ərzində icra edilir. Bizə gəldikdə isə bu, 20 ildən çox çəkir. Mexanizm isə yoxdur. Ermənistan əraziləri tərk etmək istəmir. Onlar işğal etdikləri ərazilərdən çıxmaq istəmirlər. Onlar hər bir şeyi olduğu kimi saxlamaq istəyirlər. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Bu, beynəlxalq vasitəçilərin göstərdiyi səylərə tam ziddir. ATƏT-in Minsk qrupu və həmsədrləri, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri – Birləşmiş Ştatlar, Rusiya və Fransa – onların prezidentləri dəfələrlə aydın bəyan ediblər ki, status-kvo qəbuledilməzdir. Bu o deməkdir ki, Ermənistan işğal edilmiş ərazilərdən öz işğalçı qüvvələrini çıxarmağa başlamalıdır. Lakin onlar beynəlxalq hüquqa sadəcə, məhəl qoymurlar. Onlar dünyanın aparıcı dövlətlərinin bəyanatına məhəl qoymurlar. Onlar Avropa Şurası Parlament Assambleyasının 2005-ci ildə qəbul etdiyi qətnaməsinə məhəl qoymurlar. Müvafiq qətnamələr Avropa Parlamenti tərəfindən də qəbul edilib. ATƏT-in qərarları vardır. Bütün bu qərarlarda işğala son qoyulması, erməni işğalçı qüvvələrinin zəbt edilmiş ərazilərdən çıxması tələb olunur. Əfsuslar olsun, münaqişə həll olunmayıb. Azərbaycan çox konstruktiv şəkildə çıxış edir. 20 ildən artıqdır ki, biz danışıqlar prosesinə sadiq qalmışıq. Lakin hər kəs, o cümlədən ermənilər anlamalıdır ki, bu proses daim davam edə bilməz. Gec ya tez nə isə baş verə bilər. Buna görə Ermənistan rəhbərliyi digər ölkənin ərazisinin XXI əsrdə zəbt edilməsinin qəbuledilməz olduğunu nə qədər tez anlasa, bir o qədər onlar üçün yaxşı olar. Əfsuslar olsun ki, Ermənistan rəhbərliyindən adekvat yanaşmanı görmürük.

Ermənistanın əvvəlki prezidenti burada, demokratiya sarayında çıxış edərkən bildirmişdir ki, ermənilər ilə azərbaycanlılar arasında milli uyğunsuzluq vardır. Onun davamçısı, Ermənistanın indiki rəhbəri münaqişəyə dini don geyindirir. Bu tamamilə qəbuledilməz yanaşmadır. Ondan başlayaq ki, azərbaycanlıların heç bir digər millətlə uyğunsuzluğu yoxdur. Bəlkə ermənilərdə bu meyar vardır. Özü də tək bizimlə deyildir. Bu gün həmin ölkə monoetnikdir. Ermənistan əhalisinin 99,9 faizi ermənilərdən ibarətdir. Bütün azlıqlar, o cümlədən azərbaycanlılar qovulublar. Bu səbəbdən, belə irqçi yanaşma danışıqlarda üstünlük təşkil edə bilməz. Biz bu məsələni həll etməliyik, ədaləti və Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik.

Əfsuslar olsun ki, bu işğal nəticəsində tarixi abidələrimiz məhv edilib, məscidlərimiz yerlə yeksan edilib, qəbiristanlıqlarımız dağıdılıb. İşğal edilmiş ərazilər bu gün tam məhvə məruz qalmış torpaqlardır. ATƏT 2 dəfə faktaraşdırıcı və vəziyyəti qiymətləndirən missiyasını işğal edilmiş ərazilərə göndərib. Onların hesabatında aydın şəkildə göstərilir ki, hər şey dağıdılıb. Bu, işğal edilmiş ərazilərdə erməni vandallığının nəticəsidir. Ərazi bütövlüyü beynəlxalq hüququn əsas prinsipidir. Erməni tərəfinin daim istinad etdiyi öz müqəddəratını təyinetmə prinsipi ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Qoy Ermənistan rəhbərliyi Helsinki Yekun Aktını diqqətlə oxusun və aydın tərifləri görsün. Bundan başqa, ermənilər artıq öz müqəddəratını təyin ediblər. Onlar əslində Azərbaycanın tarixi torpaqları hesabına yaradılmış Ermənistan dövlətinə malikdirlər. Bəlkə də Assambleyanın bir çox üzvü bilmir. Amma erməni nümayəndə heyəti bunu, əlbəttə, bilir ki, Rusiya imperiyasının dağılması nəticəsində 1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikasının ən birinci fərmanlarından biri İrəvanın paytaxt kimi Ermənistan dövlətinə verilməsi idi. Bir sözlə, onların artıq öz dövləti vardır. Onlar bununla neçə erməni dövlətinə nail olmaq istəyirlər?! Onlar yaşadıqları hər bir yerdə öz dövlətini yaratmaq istəyirlər?! Nəyə görə Azərbaycanda bu gün belə dövlət olmalıdır?! Buna görə öz müqəddəratını təyinetmə ərazi bütövlüyünü pozmalı deyildir.

Münaqişə hamımızın, o cümlədən Ermənistanın tam məhvinə və fəlakətə aparan bugünkü hökumətindən əziyyət çəkən erməni xalqının xeyiri üçün mümkün qədər tez həll olunmalıdır.

Münaqişəyə baxmayaraq, Azərbaycan iqtisadiyyatı artmaqdadır. Son 10 il ərzində Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə artan iqtisadiyyat olub. Heç bir digər ölkə Azərbaycanın artırdığı kimi, öz iqtisadi potensialını artırmayıb. Ümumi daxili məhsul 3,5 dəfə artıb, biz iqtisadiyyatı şaxələndirmişik. Bunun nəticəsində hazırda iqtisadiyyatımızın qeyri-enerji sektoru ümumi daxili məhsulumuzun 55 faizini təşkil edir. Bütün beynəlxalq maliyyə təsisatları islahatlarımızı yüksək dəyərləndirir. Maliyyə böhranı illərində əsas reytinq agentlikləri – S&P, Moody`s və Fitch Azərbaycanın kredit reytinqini artırmışdır. Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatına Qlobal Rəqabət Cədvəlində 39-cu yeri vermişdir. Bu o deməkdir ki, biz planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına maksimal dərəcədə keçə və eyni zamanda, rəqabətədavamlı iqtisadiyyat yarada bildik. Azərbaycanda 1 milyon 200 min iş yeri yaradılıb. Həmçinin milli sərvətin ədalətli şəkildə paylanılması ölkəmizin əsas nailiyyətlərindən biridir. Bunun nəticəsində yoxsulluq səviyyəsi son 10 il ərzində 49 faizdən 5,3 faizə düşmüşdür. İşsizlik 5 faizdir. Büdcə kəsiri Avropa İttifaqı ölkələri üçün qəbul edilən limitlər çərçivəsindədir. Xarici borc ümumi daxili məhsulun 8 faizini təşkil edir. Maliyyə vəziyyəti sabitdir. Sosial proqramlar həyata keçirilir. Siyasi vəziyyət sabitdir. Öncə qeyd etdiyim kimi, Azərbaycan beynəlxalq birliyin fəal üzvüdür. Ölkə müasirləşir və biz gələcəyə böyük nikbinliklə baxırıq.

Mən müzakirələr üçün vaxtın çox hissəsini almaq istəmirəm. İstəyirəm suallar üçün də vaxt qalsın. Lakin gördüyünüz kimi, ölkəmiz haqqında saatlarla danışa bilərəm. Bütün vaxtı çıxışıma sərf etmək istəmirəm. Sadəcə, qeyd edim ki, Nazirlər Komitəsində sədrlik böyük məsələdir, məsuliyyətdir. Biz buna hazırıq və əlimizdən gələni edəcəyik ki, demokratiyanın ümumi dəyərlərinə, qanunun aliliyinə və azadlıqlara töhfə verək.

Çox sağ olun.

**A n n  B r a s ö r:** Çıxışınıza görə çox sağ olun, cənab Prezident. İndi isə bir neçə şəxs Sizə sual vermək istəyir.

Bu şəxslərə xatırlatmaq istəyirəm ki, bəyanat səsləndirmək yox, sual vermək üçün 30 saniyəniz vardır. Əvvəlcə siyasi qruplar adından çıxış edən natiqlərə sual vermək imkanını təqdim etmək istəyirəm. Birinci natiq sosialist qrupu adından çıxış edən cənab Maknamaradır.

**M a y k l  M a k n a m a r a: Xanım Sədr, cənab Prezident, çox sağ olun. «Amnesty International»ın məlumatına görə, ölkənizdə 19 siyasi məhbus vardır. Digər təşkilatlar isə onların daha çox olduqlarını qeyd edir. Buradakı məhkəmə İlqar Məmmədovun həbs olunmasını qeyri-qanuni bəyan edib və bu həbsin arxasında duran motiv seçkilərlə bağlı idi. Digəri isə Anar Məmmədlidir ki, Sizin sonuncu dəfə qalib gəldiyiniz prezident seçkilərində səhvləri aşkara çıxarıb. «Nida» fəalları öz fikirlərini bildirdiklərinə və dinc xarakterli nümayişlər keçirdiklərinə görə həbs olunublar. Bu qurum siyasi məhbusların tərifini qəbul edib. Lakin məruzəçiyə Azərbaycana gəlmək imkanı verilməmişdir. Bütün bu hadisələr Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik legitimliyinizi azaltmırmı və Siz bu məhbusları buraxacaqsınızmı?**

**A n n  B r a s ö r**: Çox sağ olun. Cənab Prezident, mən bu gün keçirdiyimiz görüşdə iştirak edən şəxslərdən xahiş etmək istəyirəm ki, onlar burada iştirak etmək üçün gəliblər. Xahiş olunur, əl çalmayın. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Əvvəlcə qeyd etmək istəyirəm ki, Azərbaycanda siyasi məhbus yoxdur və sizin qeyd etdiklərinizin hamısı yanlış informasiya əsasındadır, ya da sizin Azərbaycana qarşı qərəzli mövqenizdən irəli gəlir. Birinci dəfə deyil ki, siz Azərbaycanı təhqir etməyə çalışırsınız. Lakin burada hər hansı bir nəzərəçarpan uğur əldə etməmisiniz və əminəm ki, sizin dünənki təşəbbüsünüzün nəticəsi bir neçə il bundan öncə olan təşəbbüsün nəticəsi ilə eynilik təşkil edəcəkdir. Bunun da nəticəsi 2013-cü ilin yanvar ayında cənab Ştrasserin burada fiaskoya uğraması idi.

Əfsuslar olsun ki, Azərbaycan məqsədyönlü təxribatlara məruz qalıb. Biz bunların mənbəyini və səbəbini bilirik. Bunun insan haqları və demokratiya ilə heç bir əlaqəsi yoxdur. Bu, geosiyasi məsələdir. Çox güman ki, sizin kağız üzərindən oxuduğunuz sualı sizə Azərbaycana hücum etmək marağı olan tərəflər veriblər.

**M a y k l  M a k n a m a r a:** Mən bunu çıxışlardan götürürəm.

**İ l h a m  Ə l i y e v:** Anlayıram, əgər siz müzakirə açmaq istəyirsinizsə, biz bunun üçün başqa yer tapa bilərik.

Buna görə də Azərbaycanda heç bir siyasi məhbus yoxdur və cənab Ştrasserin hesabatı da bu zalda uğursuzluqla nəticələndi. Çünki o hesabat yanlış informasiyaya, şər və uydurmalara əsaslanırdı. Siz də indi eyni şeyi etməyə çalışırsınız. Siz bu səhv informasiyanı təkrarlamaqla Assambleyanı yanlış fikrə yönəltmək istəyirsiniz. Azərbaycanda siyasi məhbuslar yoxdur və ölkəmiz İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin üzvüdür. Məhbuslarla əlaqəli bütün məsələlər öz həllini orada tapa bilər və biz İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarına hörmət edirik. Buna görə bir daha qeyd etmək istəyirəm ki, ölkəmizə hücum cəhdləri tamamilə əsassızdır və bunların heç bir nəticəsi olmayacaqdır.

**A n n  B r a s ö r:** İndi isə EPP qrupu adından sözü xanım Bakoyannisə vermək istəyirəm.

**D o r a  B a k o y a n n i s: Cənab Prezident, icazə verin, EPP qrupu adından Sizi salamlayım. Mən Dağlıq Qarabağ məsələsinə qayıtmaq istəyirəm. Son illər ərzində bir çox təşəbbüslər irəli sürülüb. ATƏT-in Minsk qrupu regionda fəaldır və Sizin fikrinizcə, Avropa Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hər hansı təşəbbüslə çıxış etmək imkanı varmı? Son aylar ərzində vəziyyəti necə dəyərləndirirsiniz? Sizin fikrinizcə, belə bir təşəbbüsdən faydalanmaq məqamı olacaqmı?**

**İ l h a m  Ə l i y e v:** Biz həmişə bu məsələyə burada – Avropa Şurasında baxılmasının güclü tərəfdarı olmuşuq. Təşkilata üzv olmağımızdan bəri bu belə olub və şərhlərimdə qeyd etdiyim kimi, 2005-ci ildə Avropa Şurası vəziyyət, işğal və işğala son qoymaq

zərurəti ilə bağlı qətnamə qəbul edib. Sonra xüsusi komitə yaradılmışdır. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyinə və bu komitəni boykot etməsinə görə hazırda bu komitə artıq toplaşmır. Buna görə də düşünürəm ki, beynəlxalq təşkilatlar bu münaqişəyə nə qədər çox diqqət ayırsalar, biz bu məsələnin həllinə daha tez nail ola bilərik. Çünki qeyd etdiyim kimi, Ermənistan hər şeyi olduğu kimi saxlamaq istəyir. Ermənistan istəyir ki, beynəlxalq ictimaiyyət bu münaqişəni unutsun. Ona görə də onlar düşünürlər ki, Minsk qrupunun formatı onlar üçün çox əlverişlidir.

Biz başa düşürük ki, bu gün vasitəçilik missiyası ilə bağlı Minsk qrupuna alternativ yoxdur, baxmayaraq ki, onların fəaliyyəti heç bir nəticə verməyib. Lakin düşünürəm ki, Avropa Şurası bu məsələyə daha fəal baxmalıdır və fikrimizcə, xüsusi komitənin fəaliyyətinin bərpa edilməsi çox vacib addım olardı.

Danışıqların perspektivlərinə gəlincə, əfsuslar olsun ki, biz bu məsələ ilə bağlı çox da nikbin deyilik. Ermənilər status-kvonun dəyişməz olaraq qalması üçün əllərindən gələni edirlər. Vaxtaşırı bizim Ermənistan prezidenti ilə ikitərəfli görüşlərimiz olur, sonuncu görüşümüz keçən ilin noyabr ayında Vyanada baş tutdu. Bu görüşün nəticəsində bizdə müəyyən nikbinlik yaranmışdı və biz də ictimaiyyət qarşısında bu məsələyə mövqemizi bildirdik. İrəliyə kiçik addımların atılması, lakin prosesin ləngidilməsi ilə bağlı köhnə taktika davam etdirilir. Buna görə də, beynəlxalq ictimaiyyətin fəal iştirakı olmadan düşünürəm ki, Ermənistan öz mövqeyini davam etdirməyə çalışacaqdır.

**A n n B r a s ö r:** Növbəti sual EDD qrupundan Qraf Dandidəndir.

**Q r a f D a n d i: Cənab Prezident, sualım insan hüquqları sahəsinin təkmilləşdirilməsi və bu sahədə aparılan islahatlarla bağlıdır. Avropa Şurası ilə hazırda razılaşdırılmış ictimai fəaliyyətlə bağlı tədbirlər planından əlavə, xüsusi hədəflərə nail olmaq üçün Sizin ölkəniz hansı tədbirlərə əl atacaqdır?**

**İ l h a m Ə l i y e v:** Bu, cənab baş katibin ölkəmizə səfəri zamanı razılaşdırıldı. Azərbaycan üçün bu, hərtərəfli bir sənəddir və Azərbaycan ilə Avropa Şurası arasında gələcək əməkdaşlıq üzrə

yol xəritəsidir. Əlbəttə ki, insan haqları, qanunun aliliyi və demokratik islahatlarla bağlı vəziyyət bizim üçün prioritetdir. Əvvəldə qeyd etdiyim kimi, bir çox işlər artıq görülüb, lakin bir çoxunun da görülməsi nəzərdə tutulur. Əgər tənqid real faktlara əsaslanırsa, biz bu tənqidlərə çox açığıq. Əlbəttə ki, ola bilsin Parlament Assambleyasının digər üzvləri kimi, biz də mükəmməl deyilik. Lakin bəzi hallarda tənqid qərəzli yanaşmaya əsaslanır. Bu sadəcə olaraq, Azərbaycanın nüfuzuna xələl gətirmək üçün bir cəhddir. Azərbaycanın Avropa Şurasına üzv olduğu illər sürətli siyasi islahatlar illəri idi və Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması bizim hökumət, eyni zamanda, Avropa Şurası üçün düzgün seçim idi. Buna görə də düşünürəm ki, gələcək əməkdaşlıq, o cümlədən bir neçə ay ərzində sədrliyimiz dövründə demokratik islahatlarla bağlı ölkəmizdə yeni, yaxşı nəticələr hasil olunacaqdır.

**A n n  B r a s ö r:** Siyahıda olan növbəti şəxs LD qrupunun rəhbəri cənab Şukladır.

**Ş u k l a: Çox sağ olun, xanım Sədr. İcazə verin, öz ana dilimdə sual verim. 2006-cı ildə Azərbaycan Respublikası Avropa Şurasının korrupsiya ilə mübarizəyə dair Konvensiyasına qoşulub. Bu bizim standartlar nöqteyi-nəzərindən çox vacib məsələdir və aydın təlimatlarımız vardır. Bilmək istəyirəm ki, həmin vaxtdan bəri bu konvensiyanın və informasiyaya çıxışla bağlı qanunun tələblərinin yerinə yetirilməsi, həmçinin maliyyə vəsaitləri və əmlakla bağlı şəffaflığa dair hökumətiniz tərəfindən hansı tədbirlər görülüb?**

**İ l h a m  Ə l i y e v:** Qeydlərimdə bildirdiyim kimi, korrupsiya bizim Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyimiz dövründə diqqət yetirəcəyimiz əsas məsələlərdəndir. Çünki bu, müalicə olunmalı xəstəlikdir. Bayaq da qeyd etdiyim kimi, bizim ölkəmiz Sovet İttifaqına daxil olan bütün respublikalar kimi, cəmiyyətimizdə dərin kök salmış korrupsiyaya görə çətin vəziyyətdə idi. Buna görə də bu bəlanın aradan götürülməsi bizim hökumətin hədəflərindən biridir. Bu

olmadan bizim uğurumuz dayanıqlı ola bilməz. Ona görə də konvensiyaya qoşularaq və xüsusilə Avropa İttifaqına daxil olan ölkələrin müsbət təcrübəsindən istifadə edərək, bu, Avropa İttifaqı ilə əməkdaşlığımızın bir hissəsidir, ölkəmiz üçün müstəsna əhəmiyyət kəsb edir. Qeyd etdiyim kimi, bizim icra etdiyimiz institusional tədbirlər inzibati və cəza tədbirləri ilə müqayisədə daha yaxşı nəticə verir. Çünki əfsuslar olsun ki, məsələ insanların dəyişilməsi ilə öz həllini tapmır. Buna görə də biz elə bir mexanizm tapdıq ki – qeydlərimdə ictimai xidmətlər sisteminin mövcud olduğunu bildirmişdim – bu, korrupsiyanı mümkünsüz edir və əlbəttə, şəffaflıq artır. Mən sizin dediyinizlə tamamilə razıyam. Bizim yaxşı təcrübəmiz var, Azərbaycan Birləşmiş Krallığın sabiq Baş naziri Toni Bleyer tərəfindən irəli sürülən Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünə qoşulan ilk ölkələrdən biri və bu təşəbbüsün ilk tamhüquqlu üzvü olub. Buna görə də Azərbaycanda mədən sənayesində 100 faiz şəffaflıq təmin olunub. İndi isə eyni şəffaflıq göstəricisini maliyyə və ictimai xidmətlər sektorunda əldə etməliyik və biz bu məsələ üzərində işləyirik.

**A n n B r a s ö r:** Siyasi qruplar adından sual verən sonuncu şəxs Birləşmiş Solçular qrupunun rəhbəri cənab Koksdur.

**T i r i K o k s: Cənab Prezident, maraqlı çıxışınız üçün çox sağ olun. Çıxışınızda ölkənizdə insan hüquqları sahəsində əldə edilən nailiyyətləri yaxşı təhlil etdiniz. Lakin heç də hər kəs Sizin də bildiyiniz kimi, bu müsbət təhlillə razılaşmır. Bakıda olarkən bəzi insanlarla görüşdüm, bu gün də müəyyən insanlarla görüşəcəyəm və gələn ilin yanvar ayında Assambleyada bu məsələyə baxılacaq. Cənab Prezident, bu baxımdan Azərbaycanda insan hüquqları üzrə «dəyirmi masa»nın təşkil olunmasını nəzərdən keçirməyə və bu «dəyirmi masa»da Siz Azərbaycanın insan hüquqları sahəsinin təkmilləşdirilməsini zəruri sayan tərəflərlə şəffaf dialoq aparmağa hazırsınızmı? Əminəm ki, Assambleya bu tədbirin təşkil edilməsində Sizə yardımçı olmaq istəyər. Sizin cavabınızı səbirsizliklə gözləyirəm. Çox sağ olun.**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, biz nəinki hazırıq, biz belə bir sessiyanı keçirmək istəyirik və tərəfdaşlarımızla birgə iş apardığımız zaman bu məsələni nəzərdən keçirmişdik. Bu ilin may ayında xanım sədr və baş katibin səfəri zamanı bu məsələ ilə bağlı əsaslı müzakirələr aparmışdıq. Baxmayaraq ki, biz bəzi məsələlərlə bağlı razılığa gəlməsək də, konstruktiv dialoqumuz oldu. Bayaq da qeyd etdiyim kimi, biz Azərbaycanda insan hüquqları və demokratiya ilə bağlı vəziyyətin mükəmməl olduğunu düşünmürük. Lakin böyük bir irəliləyiş də var və biz konstruktiv tənqidə reaksiya göstərməyə hazırıq, buna reaksiya veririk. Mən öz qeydlərimdə ölkəmizdə aparılan islahatların müsbət nümunəsinə diqqət yetirdim. Çünki, adətən, bu zalda əsasən diqqət mənfi məqamlara yetirilir. Buna görə də bu sessiya ərzində azacıq tarazlıq yaratmaq üçün mən vaxtımdan istifadə etdim, lakin suallar üçün də müəyyən vaxt saxladım. Ona görə də düşünürəm ki, mahiyyət üzrə açıq və səmimi müzakirələrin aparılması yaxşı fikirdir. Çünki bəzən biz bu məsələləri müzakirə etdikdə həmkarlarım və tərəfdaşlarımdan eşidirəm ki, belə bir fikir formalaşıb. Lakin bu fikirləri kim yaradır? Bəzən Azərbaycanın nüfuzuna xələl gətirmək üçün bu fikirlər süni olaraq yaradılır. Ona görə də biz mahiyyətə nəzər yetirək. Azadlıqlarla bağlı mən öz qeydlərimdə bildirmişdim. Bizdə mətbuat azadlığı, azad internet vardır. Bizdə azad internet varsa, senzura yoxdursa və internet istifadəçilərinin sayı 70 faizə çatıbsa, biz mətbuatın azadlığını necə məhdudlaşdıra bilərik? Sonuncu dəfə keçirilən prezident seçkilərindən əvvəl və sonra müxalifətin mitinqləri oldu, onlara qarşı heç bir məhdudiyyət tətbiq olunmadı və bu gün kimsə mitinq keçirmək fikrinə düşərsə, müvafiq qaydada bildiriş verməklə 3 gün ərzində Azərbaycanın mərkəzində onlara mitinq keçirmək üçün yer ayrılacaq. Digər məsələ isə ondan ibarətdir ki, seçkilərdən sonra müxalifətin təşkil etdiyi sonuncu mitinqdə yalnız 840 nəfər iştirak etdi. Prezident seçkilərindən razı qalmayan 840 adam olub. Lakin Azərbaycanda müxalifətin zəif olması faktı bizim hansısa zərərli fəaliyyətlə məşğul olmağımız anlamına gəlmir. İqtisadiyyat və sosial inkişafla bağlı

bildirdiklərimə məhəl qoyulmaya bilməz. Azərbaycana gələn və inkişafı görən hər bir kəs başa düşə bilər ki, belə böyük iqtisadi artım cəmiyyətimiz tərəfindən qəbul edilməyə bilməz. Ona görə də insanlar bizim etdiklərimizi, bizim hökumətimizi dəstəkləyir. Bizim hökumətimiz güclüdür, lakin insanları yatırmağımıza görə yox, işlərimizi lazımi qaydada gördüyümüzə görə.

Digər bir məsələ ondan ibarətdir ki, indi müxalifətdə olan insanlar 1992–1993-cü illərdə hakimiyyətdə idilər. Onlar xaos yaratdılar, ərazilərimizin itirilməsinə və işğala görə məsuliyyət daşıyırlar. Onlar vətəndaş müharibəsi təhlükəsi yaratdılar və sonra da qaçdılar. Bu qrupun gənc nəsil nümayəndələri burada eyvanda əyləşiblər. Bu insanlar başa düşmürlər, onlar 1992–1993-cü illərdə nələr baş verdiyini bilmirlər və bu onların günahı deyil. Onlar yanlış yoldadırlar. Ona görə də biz sizin iştirakınızla «dəyirmi masa» müzakirələrində iştirak etməyə hazırıq.

**A n n B r a s ö r:** Çox sağ olun. İndi isə, cənab Prezident, təklif edərdim ki, 3 sual verilsin və Siz onların hamısına birlikdə cavab verəsiniz. Birinci sual Norveçdən xanım Kristofersonundur.

**K r i s t o f e r s o n: Çox sağ olun, xanım Sədr. Cənab Prezident, bu Assambleya üçün bütün Avropa miqyasında cinsi azlıqların hüquqlarının çoxsaylı pozuntuları məsələsi xüsusi olaraq nəzərdən keçirilir. Siz cinsi azlıqların hüquqlarını əsas insan hüquqlarının bir hissəsi kimi tanıyırsınızmı? Əgər bu belədirsə, Azərbaycan Respublikası cinsi azlıqların hüquqlarını təmin etmək və ölkənizdə onların təşkilatlanmaq azadlığını təmin etmək üçün hansı tədbirləri görəcəkdir?**

**A n n B r a s ö r:** Çox sağ olun. Növbəti sual Fransa nümayəndəsi cənab Roj Bluandadandır.

**R o j B l u a n d a**: **Çox sağ olun, xanım Sədr. Cənab Prezident, Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində tanınmış şəxs olan Leyla Yunusla pis davranış Avropa Şurasının Parlament Assambleyasını Azərbaycanın beynəlxalq səviyyədə tanınan Avropa İnsan Hüquqları Konvensi-**

**yasında göstərilən azadlıqlara hörmət etməsinə inandıra bilərmi? Çox sağ olun.**

**A n n B r a s ö r:** İndi isə sual vermək növbəsi xanım Fialanındır.

**F i a l a: Cənab Prezident, bu yaxınlarda beynəlxalq sərhədlərdə zorakı insidentlərin sayı əhəmiyyətli dərəcədə artıb. Demək olar ki, hər gün biz itkilər barədə məlumatlar alırıq və onların arasında mülki şəxslər də var. Cənab Prezident, əgər biz tərəfləri atəşkəsə ciddi əməl etməyə və Minsk qrupu həmsədrləri tərəfindən təklif olunan təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsinə, yəni snayperlərin çıxarılması və müstəqil araşdırmaların aparılmasına çağırsaq, Siz bununla razılaşarsınızmı?**

**İ l h a m Ə l i y e v:** Azərbaycanda bütün qrup insanların hüquqları təmin olunub və heç bir məhdudiyyət yoxdur. Azadlıqlarla bağlı Azərbaycandakı mövcud vəziyyət artıq bildirdim ki, sizin ölkənizdəki vəziyyətdən fərqlənmir.

Leyla Yunusa qarşı pis davranışla bağlı suala gəldikdə, mən bu bəyanatla razı deyiləm, çünki onunla pis davranılmayıb. Əksinə, polis nəfəri onun fiziki və şifahi hücumuna məruz qalıb. Bəzi cinayət araşdırması ilə bağlı aparılan iş üzrə şahid ifadəsi vermək üçün çağırıldıqda o, qaçmağa cəhd edib və saxlanılaraq şahid qismində ifadə verməyə dəvət olunub. Lakin əfsuslar olsun ki, o bu dəvətə bir neçə həftə ərzində məhəl qoymayıb və informasiya təqdim etmək üçün bu legitim müraciətdən imtina edib.

Sərhəddə insidentlərlə bağlı suala gəldikdə, sizin verdiyiniz sualı – təhlükəsizlik və etimadın artırılması tədbirləri ilə bağlı sualı mən həmişə Minsk qrupunun həmsədrlərindən eşidirəm. Deyə bilərəm ki, bəzən Azərbaycan və erməni əsgərləri arasında məsafə 50 metr təşkil edir. Burada hər hansı bir məkrli niyyətləri həyata keçirmək üçün heç snayper də lazım deyildir. Etimadın artırılması tədbirlərinin yaradılmasının ən yaxşı yolu işğalçı erməni ordusunun Azərbaycan ərazilərindən çıxarılmasına başlamaqdır. Sizin istinad etdiyiniz itkilər

Azərbaycan ərazilərində baş verir. Onlar Azərbaycanın ərazisi olan Dağlıq Qarabağda yox, işğal edilmiş ərazilərdə baş verir. Erməni əsgərlərinin orada nə işi var? O əsgərlərin çoxu Ermənistandan cəlb olunub. Onların işğal olunmuş ərazilərdə nə işi var? Ona görə qüvvələrin öz mövqelərindən geriyə çəkilməsi mümkün deyildir. Belə olan halda, biz torpaqlarımızı əlavə hücumlardan necə müdafiə edə bilərik? Buna görə də Ermənistan rəhbərliyi Dağlıq Qarabağla bağlı siyasətinin uğursuzluğunu, onların Azərbaycanla mübarizədə faktiki məğlub olduğunu nə qədər tez başa düşsə, o qədər də yaxşı olar. Onların statistik göstəricilərinə əsasən, bu gün Ermənistanda yoxsulluğun səviyyəsi 40 faizdən artıqdır. Onların statistik göstəricilərinə görə, bu ilin yalnız birinci rübündə 40 min erməni vətəndaşı Ermənistanı birdəfəlik tərk edib və onlar heç vaxt geri dönməyəcəklər. Bu da işğal siyasətinin nəticəsidir. İndi də onlar hər yerdə şikayət edirlər ki, Azərbaycan təhlükə mənbəyidir. Bizim ölkəmizin torpaqları işğal olunub, onlar bizim üçün və bütövlükdə bütün region üçün təhlükə mənbəyidir. Onlar bu siyasətin gələcəyinin olmadığını nə qədər tez başa düşsələr – Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyinə razı olmayacaq – münaqişə həllini bir o qədər tez tapacaq və erməni xalqı da o qədər tez firavan həyat yaşamağa başlayacaqdır.

**A n n B r a s ö r:** Növbəti 3 suala keçmək istəyirəm. Birinci sualı Birləşmiş Krallıqdan cənab Flin verəcəkdir.

**F l i n: Jurnalistlər Azərbaycanda yalandan ittiham olunaraq həbs ediliblər. Seçkilər saxta olub. Mən bu proseslərə cəlb olunan insanlarla danışmışam. Ona görə də Azərbaycanın bu il standartları Avropa Şurasının səviyyəsinə yüksəldəcəyini, yoxsa digər ölkələr üçün insan hüquqları üzrə standartları daha da pisləşdirmək baxımından örnək ölkə olacağını gözləyə bilərikmi?**

**A n n B r a s ö r:** Sual növbəsi cənab Dias Teridanındır.

**D i a s T e r i d a**: **Çox sağ olun, xanım Sədr. Çox sağ olun, cənab Prezident. Ölkənizin yerləşdiyi regionda bir çox**

**qonşularınız var. Mən Sizə enerji riskləri və sabitliklə bağlı risklər barədə sual vermək istəyirəm. Düşünürəm ki, İsrail Yaxın Şərqdə olduğu kimi, Siz də öz regionunuzda mühüm rol oynayırsınız. Birbaşa gələcək üçün enerji və sabitlik riskləri ilə bağlı fikrinizi öyrənmək istərdim. Gördüyünüz işlər üçün çox sağ olun.**

**A n n B r a s ö r:** Çox sağ olun. İndi isə Danimarkadan xanım Lokliyə sual vermək imkanı yaratmaq istəyirəm.

**L o k l i: Cənab Prezident, Siz qeyd etdiniz ki, Azərbaycanda bütün azadlıqlar təmin olunur. Lakin biz beynəlxalq mediadan bilirik ki, Azərbaycanda neçə minlərlə məcburi köçkün var. Bu çağırışın öhdəsindən necə gəlirsiniz?**

**İ l h a m Ə l i y e v:** Birinci sualla bağlı. Verdiyiniz qısa sualda 2 dəfə yalan danışdınız. Siz 2 dəfə yalan dediniz və mən bunu sübut edəcəyəm. İndi isə mənə qulaq asın. Azərbaycanda jurnalistlər ittiham olunmur və 2009-cu ildən bəri heç kəs böhtana görə həbs olunmayıb. Heç bir kəs. Bu sizin birinci yalanınızdır. İkinci yalanınız isə seçkilərin saxta olması ilə bağlıdır. Avropa Şurasının Parlament Assambleyası seçkini müşahidə etmək üçün nümayəndə heyəti göndərmişdi və çox güman ki, siz bu nümayəndə heyətinin tərtib etdiyi hesabatla tanış deyilsiniz. Əgər siz hesabatla tanış deyilsinizsə, həmkarlarınızla əlaqə saxlayın. Onlar Azərbaycanda keçirilən seçkiləri müsbət dəyərləndiriblər. Mindən çox beynəlxalq müşahidəçi seçkilərdə iştirak etmişdir, beynəlxalq təşkilatlar tərəfindən bir neçə «exit-poll» keçirilib. Bütün bu təşkilatlar seçkilərin rəsmi nəticələrini dəstəkləyib. Beləliklə, onların da verdiyi qiymət fərqli olmayıb. Avropa Şurası Parlament Assambleyası nümayəndə heyəti göndərmişdi və onların tərtib etdiyi hesabat müsbətdir. O hesabat burada tərtib olunub. Avropa Parlamenti nümayəndə heyəti göndərmişdi – hesabat müsbətdir. ATƏT-in Parlament Assambleyası da nümayəndə heyəti göndərmişdi, bu da müsbət nəticə vermişdir. Nəyə görə siz burada yalan danışırsınız? Seçkilər azad və ədalətli idi və

seçkilərin nəticələri burada bu təşkilat tərəfindən təsdiq olunub. Ola bilsin ki, bu vəziyyət sizin ölkənizdə baş verir.

Enerji təhlükəsizliyi ilə bağlı məsələyə gəldikdə, Azərbaycan enerji təhlükəsizliyinə töhfə verən ölkə kimi, öz rolunu oynayır. Bu gün mən bu məsələni qaldırmadım, çünki diskussiyalara daha çox vaxt ayrılmasını istəyirdim. Lakin enerji təhlükəsizliyi tərəfimizdən ciddi nəzərdən keçirilən bir məsələdir. Faktiki olaraq, biz Azərbaycan üçün tam enerji təhlükəsizliyi səviyyəsinə nail olmuşuq. Çünki neft və qaz ehtiyatlarımız üçün şaxələndirilmiş təchizat marşrutumuz vardır. Biz indi bəzi Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasına kömək etməyə çalışırıq. Bu gün Parlament Assambleyasının üzvü olan bəzi ölkələr neftin 40 faizini Azərbaycandan əldə edirlər. İndi isə biz böyük qazpaylama və nəqliyyat layihəsini işə salırıq. Bu layihə Azərbaycanın Avropaya qaz ixrac etməsinə imkan yaradacaqdır. Fikrimcə, sualınızda da düzgün qeyd etdiyiniz kimi, enerji təhlükəsizliyi, siyasi təhlükəsizlik və sabitlik birgə həll olunmalı məsələlərdir. Ona görə də Avropada hazırda icra edilən və ümumi sərmayə dəyəri ən azı 45 milyard avro olan ən böyük infrastruktur layihəsi hesab edilən yeni qaz infrastruktur layihəsi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi ən böyük töhfə olacaqdır.

Danimarka nümayəndəsinin verdiyi növbəti suala gəldikdə, siz məcburi köçkünlər məsələsinə toxundunuz. Əgər düz başa düşdümsə, siz Ermənistanın işğalından əziyyət çəkən insanları nəzərdə tutursunuz? Bu belədir?

**L o k l i: Bir çox məcburi köçkünlər vardır.**

**İ l h a m  Ə l i y e v:** Bizdə olan qaçqın və məcburi köçkünlərin ümumi sayı 1 milyondan artıqdır. Bunların 250 mini Ermənistandan qovulan azərbaycanlılardır, 700 min azərbaycanlı isə Dağlıq Qarabağ və ətraf rayonlardan qovulub. Bizdə, həmçinin digər ölkələrdə gedən müharibələrin qurbanı olan və ölkəmizə gələn qaçqınlarımız var. Bu insanların yaşayış şəraitini yaxşılaşdırmaq üçün əlimizdən gələni etməyə çalışırıq.

Lakin sizin də bildiyiniz kimi, bu çoxlu vaxt və maliyyə vəsaiti tələb edir. Hər il biz 20 mindən çox məcburi köçkünü yerləşdiririk. Biz 82 qəsəbə tikmişik və artıq 40 min ailə mənzil və evlərlə təmin olunub. Amma bütün bu insanların ehtiyaclarını təmin etmək üçün bizə, əlbəttə ki, əlavə vaxt və vəsait lazım olacaqdır.

**A n n B r a s ö r:** Cənab Prezident, adətən, iclasımızın saat 1-də başa çatmasına baxmayaraq, icazənizlə, əlavə 3 suala da cavab verərsinizmi? Birinci sual Gürcüstan nümayəndəsi cənab Caparidzedəndir.

**C a p a r i d z e: Çox sağ olun, xanım Sədr. Cənab Prezident, Azərbaycana uğurlu və məhsuldar sədrlik arzu edirəm. Siz münaqişələr barədə danışdınız və bildiyiniz kimi, Gürcüstan da eyni problemləri yaşayır. Siz iqtisadi inkişaf barədə də danışdınız. Buna görə də mən Sizə regional əməkdaşlıqla bağlı sual ünvanlamaq istəyirəm. Çünki Azərbaycan Gürcüstan və Türkiyə ilə birlikdə bu layihələr üzrə aparıcı qüvvədir. Çox sağ olun.**

**A n n B r a s ö r:** Növbəti sualı Polşa nümayəndəsi cənab Bedro verəcəkdir.

**B e d r o: Çox sağ olun, xanım Sədr. Cənab Prezident, yalnız kişilərdən ibarət nümayəndə heyətinizi gördükdə çox təəccübləndim, kişi və qadın bərabərliyi xatirinə bu sualı vermək məcburiyyətində qaldım. Azərbaycan qlobal gender ayrı-seçkiliyi indeksinə görə 136 ölkə arasında 99-cu yeri tutur. Gender bərabərliyi ilə bağlı bu çox dəhşətli mövqedir. Buna görə bilmək istərdim ki, hökumətiniz kişi və qadın bərabərliyini həyata keçirmək üçün hansı addımları atır, İstanbul Konvensiyasını nə vaxt imzalayacaq və ratifikasiya edəcəkdir?**

**A n n B r a s ö r:** Çox sağ olun və sonuncu sual Ukrayna nümayəndəsi cənab Ariyevdən gəlir.

**A r i y e v: Cənab Prezident, əvvəlcə GUAM-ın yenidən gücləndirilməsi ilə bağlı fikrinizi öyrənmək istərdim. Çünki bu quruma daxil olan bütün ölkələr Rusiyanın işğalının qurbanı**

**olublar. İkincisi, Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edən ölkənin prezidenti kimi, Rusiyanın qadağası ucbatından Krıma qayıda bilməyən Krım tatarlarının lideri Mustafa Cəmiloğluna bu məsələdə kömək edə bilərsinizmi? Çox sağ olun.**

**İ l h a m Ə l i y e v:** Cənab Caparidze tərəfindən verilən sualla bağlı onu qeyd edə bilərəm ki, enerji və nəqliyyat üzrə Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı üçtərəfli əməkdaşlıq artıq regionumuzda çox ciddi geosiyasi dəyişikliklə nəticələnib. Çünki keçən ay ilk dəfə 3 ölkənin dövlət başçıları səviyyəsində Tbilisidə sammit keçirilib. Bu 3 ölkə arasında siyasi, iqtisadi və enerji sahəsində əməkdaşlıq təkcə bizim üçün vacib deyil, həm də region üçün önəmlidir. Çünki biz birlikdə, xüsusilə enerji təhlükəsizliyinə aid məsələlərlə bağlı sabitləşdirici rol oynayırıq.

Birinci geosiyasi dəyişiklik ilk dəfə Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tikintisi idi. İndi isə biz TANAP–Trans–Anadolu, Cənubi Qafqaz və TAP–Trans–Adriatik qaz kəməri layihələrini həyata keçiririk. TAP Bakıdan başlayaraq Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya, Bolqarıstan və bir çox ölkələri əhatə edəcəkdir. Biz həmçinin çox önəmli Bakı–Tbilisi–Qars dəmir yolu layihəsini də həyata keçiririk. Bu bizim ölkələrimizin ərazisindən Asiyanı Avropa ilə birləşdirən dəmir yolu xətti olacaqdır. Əlbəttə ki, regionda vəziyyətin uğurlu inkişafı üçün ölkələrimizdə sabitlik əsas ilkin şərtdir. Ona görə də biz Gürcüstan və Türkiyə ilə ikitərəfli əlaqələrimizi yüksək qiymətləndiririk və bu əməkdaşlığı fəal inkişaf etdirməkdə davam edəcəyik.

Azərbaycanda gender sahəsində bərabərliyin olmaması ilə bağlı ittiham eşitmək çox qəribədir. Azərbaycan böyük ənənələrə malik olan ölkədir. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaradılanda ilk fərmanlardan biri qadınlara seçkilərdə iştirak etmək hüququnun verilməsi ilə bağlı idi və ola bilsin ki, bu sizin ölkənizdən daha tez Azərbaycanda olub. Bu gün Azərbaycan qadınları eyni hüquq və imtiyazlardan faydalanırlar. Onlar ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Mən

istəməzdim ki, siz məni müşayiət edən nümayəndə heyətini yalnız kişilərdən ibarət hesab edəsiniz. Burada Azərbaycanın nümayəndələri, məşhur qadın parlamentariləri əyləşiblər. Onlar özlərini göstərə bilərlər, siz bunu görə bilərsiniz və bizdə heç bir məhdudiyyət yoxdur. Biz heç vaxt mənim nümayəndə heyətimdə neçə nəfər kişinin və neçə nəfər qadının təmsil olunması məsələsini nəzərdən də keçirməmişik. Çünki onlar bərabərdirlər və bərabər hüquqlardan faydalanırlar.

Gender bərabərliyinə gəldikdə, siz yəqin bilirsiniz ki, Azərbaycan gender bərabərliyi ilə bağlı Qanun və Ailə Məcəlləsini qəbul edib. Biz hazırda İstanbul Konvensiyasını nəzərdən keçiririk. Buna qarşı bizim heç bir etirazımız yoxdur. Bakıya gələndə siz qadınların eyni hüquqlara malik olmasını özünüz görəcəksiniz. Bu çox sevindirici haldır.

GUAM-la bağlı deyə bilərəm ki, GUAM-ın fəallığı və ya passivliyi əsasən Ukraynanın mövqeyindən asılı idi. Çünki bu əməkdaşlıq formatındakı təcrübəmə əsasən deyə bilərəm ki, artıq bir neçə dəfə Ukrayna hökuməti ya GUAM-ın lehinə, ya da əleyhinə idi. Buna görə də bizim və əminəm ki, gürcüstanlı və moldovalı həmkarlarımız üçün bu qurumun inkişafı üzrə uzunmüddətli strategiyanı planlaşdırmaq çox çətindir. Çünki qurumun fəaliyyəti və ya fəaliyyətsizliyi əsasən əvvəllər hökumətinizin siyasi quruluşundan asılı idi. Buna görə də GUAM-ın əvvəllərdəki kimi fəal olması üçün Ukraynadan müsbət siqnallar gözləyəcəyik.

**A n n  B r a s ö r:** Cənab Prezident, nitqiniz və həmkarlarımın suallarına cavab verdiyiniz üçün Sizə təşəkkürümü bildirirəm.

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB XUAN MANUEL SANTOSA**

Hörmətli cənab Prezident!

Kolumbiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Kolumbiya münasibətlərinin inkişafı istiqamətində atılan ardıcıl addımlar böyük məmnunluq doğurur. Ümidvaram ki, əməkdaşlığımızın bütün sahələrdə genişləndirilməsi üçün birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Kolumbiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2014-cü il*

## İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

Əlahəzrət!

İspaniyanın Kralı kimi taxta çıxmağınız münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Bu gün Azərbaycan ilə İspaniya arasındakı münasibətlərin xoş ənənələri mövcuddur. Ümidvaram ki, ölkələrimizi birləşdirən dostluq əlaqələri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İspaniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2014-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARADILMASININ 96-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ MÜDAFİƏ NAZİRLİYİNİN, DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ VƏ DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN BİRLƏŞMƏ VƏ HİSSƏLƏRİNİN İRİMİQYASLI BİRGƏ ƏMƏLİYYAT-TAKTİKİ TƏLİMLƏRİNİN ƏSAS MƏRHƏLƏSİNİN İZLƏNMƏSİ MƏRASİMİ

*26 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimlərini izləmişdir.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*General-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə birgə əməliyyat-taktiki təlimdə nümayiş etdiriləcək təlim yerlərinin ümumi sxemi barədə məlumat verdi.*

*Sonra dövlətimizin başçısına Azərbaycan Ordusunun yeni, ən müasir standartlara cavab verən hərbi texnika, silah və sursatları təqdim olundu.*

*Hazırda respublikamızda ordu quruculuğu ən prioritet məsələlərdən biridir. Təbii ki, müharibə şəraitində yaşayan ölkə üçün bu, xüsusi əhəmiyyət kəsb edir. Son illərdə Azərbaycan Silahlı Qüvvələri əsaslı inkişaf yolu keçib, ordumuzun maddi-texniki bazası hərtərəfli müasirləşdirilib, döyüş qabiliyyəti artıbdır. Respublikamızda dünyanın ən nizami ordularından biri for-*

malaşdırılıbdır. Maddi-texniki bazası durmadan təkmilləşdirilən ordumuzun peşəkarlığı da artır. Ordumuzun təchizatında böyük uğurlara nail olunub. Azərbaycan hərbi məqsədlər üçün böyük məbləğdə vəsait xərcləyir. Ölkəmizin dövlət büdcəsində ən böyük xərclər orduya sərf edilir. Son illər Azərbaycanın Silahlı Qüvvələri ən müasir silahlarla təchiz olunub. Bu zirehli maşınlar, ən müasir tanklar, artilleriya qurğuları və digər texnikalar düşmənin istənilən hədəfini məhv etməyə qadirdir. Dövlətimizin başçısının da dəfələrlə vurğuladığı kimi, hərbi xərclər ümumi büdcəmizdə bundan sonra da üstünlük təşkil edəcəkdir.

Azərbaycanda son illər müdafiə sənayesi də əsaslı inkişaf yolu keçib. Gələcəkdə yerli istehsalın daha da genişləndirilməsi ilə bağlı böyük işlər görülür. Artıq ölkəmiz güclü hərbi sənayeyə malikdir. Azərbaycanın müdafiə sənayesinin məhsulları dünya sərgilərində nümayiş etdirilir və ildən-ilə respublikamızın ixrac imkanları artır. Ölkəmiz həm xaricdən ən müasir hərbi texnikalar alır, həm də yerli hərbi sənayesini daha da inkişaf etdirir və genişləndirir.

Azərbaycan Silahlı Qüvvələrinin texnika, silah və sursatlarına baxışdan sonra yeni silah sistemlərinin nümunəvi atışlarına başlanıldı.

Dövlətimizin başçısı əvvəlcə Hərbi Hava Qüvvələrimizin yeni silahlarından olan «Buk-MB» zenit-raket kompleksinin atış prosesini izlədi.

Bu kompleks ortamənzilli zenit-raket sistemlərinə aiddir, hərəkətli qoşun qruplaşmalarını, mühüm hərbi və mülki obyektləri, yaxud belə obyektlər qrupunu hava zərbələrindən müdafiə etmək üçün təyin edilib. Həmin qurğu düşmənin intensiv radioelektron və atəş təsiri şəraitində, geniş diapazonlarında pilotlu və pilotsuz hava hücumu vasitələrini, o cümlədən ballistik raketləri məhv etmək imkanına malikdir.

Sonra Ali Baş Komandan İlham Əliyev artilleriya sistemlərinin nümunəvi atışlarına baxdı.

Atışlara 82 millimetrlik «2B-24» minaatan, 120 millimetrlik daşınan «SANİ» minaatan və 152 millimetrlik «Msta-S» özüyeriyən haubitsa batareyaları cəlb edilib.

Ali Baş Komandan İlham Əliyev sonra 306 millimetrlik «Extra» yüksək dəqiqlikli raket kompleksinin atışını da izlədi.

Dövlətimizin başçısına məlumat verildi ki, kompleksin start mövqeyi onun üçün təyin edilmiş hədəfdən 42 kilometr uzaqlıqda yerləşir. Qurğunun maksimal atış məsafəsi 150 kilometrdir.

Ali Baş Komandana «Spike» tank əleyhinə idarəolunan raket kompleksinin imkanları da nümayiş etdirildi.

«BMP-3» piyadaların döyüş maşını və «T-90» tanklarından təşkil edilmiş 2 zirehli qrupun nümunəvi atışı da son illərdə Azərbaycanda ordu quruculuğu ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsinin daha bir əyani nümunəsi oldu.

Sonra Ali Baş Komandan İlham Əliyev növbəti təlim nöqtəsində mina sahəsindən partlayış üsulu ilə keçidin açılması prosesini izlədi. Qeyd edək ki, hücum əməliyyatlarında həmlə edən canlı qüvvə və döyüş texnikasının minalanmış sahədən tez və itkisiz keçidinin təmin olunması üçün partlayış üsulu ilə keçidaçma ən səmərəli üsuldur. Təlim zamanı nümayiş etdirilən «POMİNS-2» keçidaçma qurğusu piyada əleyhinə minalanmış sahələrdən keçidlərin açılması üçün nəzərdə tutulmuş müasir mühəndis-silahlanma vasitəsidir.

Yeni silah sistemlərinin nümunəvi atışları başa çatdıqdan sonra birgə əməliyyat-taktiki təlimin fəal mərhələsi başlandı.

Ali Baş Komandan birgə əməliyyat-taktiki təlimin fəal mərhələsi çərçivəsində əvvəlcə sərhəd zastavasının silahlı basqını dəf etməsi, çevik hərəkət bölüyünün sərhədi gücləndirməsi, Silahlı Qüvvələrin birləşmə və hissələrinin sərhədi ötmə məqsədilə müdafiəyə keçməsini əks etdirən birinci epizodu izlədi.

Birgə əməliyyat-taktiki təlimin ikinci epizodunda Daxili Qoşunların desant əleyhinə ehtiyata təyin edilmiş bölməsinin düşmənin taktiki hava desantını təcrid edərək, onun məhv etməsi prosesi təqdim olundu.

*Birgə təlimin üçüncü epizodunda genişmiqyaslı əks-hücum əməliyyatının keçirilməsi və düşmən qüvvələrinin darmadağın edilməsi əksini tapdı. Əks-hücum əməliyyatında əvvəlcə artilleriya birləşməsi və hissələri hücum əməliyyatının artilleriya hazırlığı dövründə atəş basqını həyata keçirdi. Artilleriya hazırlığı başa çatdıqdan sonra növbə aviasiya zərbələrinə çatdı. Aviasiya zərbələrini «MiQ-29» qırıcı-bombardmançı, «SU-25» hücum təyyarələri və «Mi-24» döyüş helikopterləri yerinə yetirdi. Düşmənə endirilən aviasiya zərbələri nəticəsində onun dərinlikdəki canlı qüvvəsi və döyüş texnikası məhv edilir, artilleriyası susdurulur və idarəetmə məntəqələri sıradan çıxarılır.*

*Ümumilikdə, təlimlərə 4 min nəfərədək şəxsi heyət, 80 tank, 100-dək zirehli döyüş maşını, 80-ə qədər artilleriya sistemi, 10 döyüş təyyarəsi, 20-dək döyüş və nəqliyyat-döyüş helikopteri cəlb edilib.*

*Təlimlərdə Azərbaycan Respublikası ərazisinin müdafiəsi və təcavüzkarın məğlubiyyətə uğradılması məqsədilə Silahlı Qüvvələrimizin və başqa silahlı birləşmələrimizin birgə fəaliyyətinin planlaşdırılması və təşkili, həmçinin dövlət sərhədinin mühafizəsi və müdafiəsi, əks-hücuma keçməklə təcavüzkarın əsas qüvvələrinin darmadağın edilməsi ilə bağlı məsələlər diqqət mərkəzində oldu. Təlimlərdə qarşıya bir sıra məqsədlər qoyuldu və tam yerinə yetirildi.*

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə, hissə və bölmələrinin ərazi müdafiəsi çərçivəsində birgə döyüş tətbiqinin planlaşdırılması və qarşılıqlı əlaqənin təşkili üzrə müxtəlif səviyyələrdə qərargahlar arasında əlaqələndirmənin təmin edilməsi təlimin başlıca hədəflərindən biri idi. Dövlət sərhədinin mühafizəsi, ərazi müdafiəsinin aparılması və əks-hücum əməliyyatının gedişində Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin uzlaşma fəaliyyətinə nail olunması, birləşmə, hissə və bölmələrin döyüş fəaliyyətinin sinxronlaşdırılması da təlimlərdə diqqət mərkəzində idi. Silahlı*

*Qüvvələrin və başqa silahlı birləşmələrin birgə döyüş fəaliyyətinin gedişində qoşunların əlaqələndirilmiş şəkildə idarə edilməsi və informasiya mübadiləsinin saxlanması üzrə qərargah fəaliyyətinin məşqinə də xüsusi diqqət yetirildi.*

*İrimiqyaslı birgə əməliyyat-taktiki təlimlərində qarşıya qoyulan bütün məqsədlərə nail olundu, təlimə cəlb edilən bütün şəxsi heyət yüksək döyüş hazırlığı nümayiş etdirdi.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbçilər qarşısında çıxış etdi.*

## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı

Əziz hərbçilər!

Mən sizi və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edir, Silahlı Qüvvələrin bütün şəxsi heyətinə yeni uğurlar arzulayıram.

Bu bayram günündə Müdafiə Nazirliyinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin bölmələri birgə əməliyyat-taktiki təlimlər keçirmişlər. Təlimlər yüksək səviyyədə keçirilmiş, qarşıda duran bütün vəzifələr icra edilmiş, bütün hədəflər vurulmuşdur. Təlimlərdə iştirak etmiş bütün şəxsi heyətə göstərdikləri peşəkarlığa görə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycanda güclü ordu vardır. Ordunun potensialı gündən-günə möhkəmlənir, güclənir. Ordu quruculuğu bizim dövlət siyasətimizdir, prioritetdir və son illərdə bu istiqamətdə çox böyük işlər görülmüşdür. Ordumuz yeni texnika ilə təchiz edilir. Bu gün bu texnikanın bir hissəsi burada nümayiş etdirilmiş və sonra təlimlərdə iştirak etmişdir.

Bu gün Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Bu göstəriciyə görə bizim ordumuz dünyada ən güclü ordular sırasındadır. Hərbi xərclərin artırılması və büdcə xərclərində birinci yeri tutması bizim dövlət siyasətimizin təzahürüdür. Bu bizim prioritetimizdir və bundan

sonra da hərbi xərcləri artıracağıq. Son 10 il ərzində hərbi xərclərimiz 20 dəfədən çox artmışdır və bizdə orduya, Silahlı Qüvvələrə ayrılmış xərclər Ermənistanın bütün dövlət büdcəsindən təxminən 2 dəfə çoxdur. Ən müasir silah-sursat alınır və bu gün bu silahların, texnikanın bir hissəsi burada nümayiş etdirildi.

Ordumuzda nizam-intizam artır, islahatlar aparılır. Bu çox sevindirici haldır. Ordumuzun döyüş qabiliyyəti artır, güclənir. Bu gün bizim ordumuz istənilən vəzifəni icra edə bilər və bugünkü təlimlər bunu bir daha nümayiş etdirdi. Ordumuzun uğurlu inkişafı üçün həm maddi-texniki təchizat davam etdiriləcək, eyni zamanda, Silahlı Qüvvələrdə aparılan islahatlar dərinləşəcəkdir. Müasir döyüş taktikası tətbiq edilir, dünyada ən qabaqcıl təcrübə öyrənilir və Azərbaycanda istifadə olunur.

Bugünkü dünyada daha çox yüksək dəqiqliyə və böyük dağıdıcı qüvvəyə malik olan silahlar üstünlük təşkil edir. Bu silahları biz alırıq və alacağıq. Eyni zamanda, Azərbaycanda son illərdə yerli istehsal da təşkil edilibdir. 2005-ci ildən bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunubdur və bu gün bu proses davam etdirilir. Gələcəkdə biz sursatlarla, texnika ilə özümüzü tam şəkildə təmin etməliyik. Ən müasir müxtəlif texnika alınır, alınacaqdır. Müasirləşmə prosesi daim aparılmalıdır.

Hərbçilərin sosial müdafiəsi yüksək səviyyədə təmin edilir. Hərbçilərin maaşları, pensiyaları vaxtaşırı qaldırılır və 2 il bundan əvvəl imzaladığım sərəncama əsasən orduda 20 il qüsursuz xidmət göstərmiş şəxslərə dövlət tərəfindən mənzillər verilir. Hazırda 200-ə qədər mənzil verilmişdir. Bu ilin sonuna qədər veriləcək mənzillərin sayı 500-ə çatacaqdır. Bu, dövlətin öz hərbçilərinə olan diqqətinin təzahürüdür və hərbçilərin sosial müdafiəsi bizim üçün böyük əhəmiyyət kəsb edən məsələdir.

Azərbaycan müharibə şəraitində yaşayır. Belə olan halda ordu quruculuğu nəinki dövlət qurumları, hər bir vətəndaş üçün ən vacib, ən ümdə məsələ olmalıdır.

Torpaqlarımız işğal altındadır. Azərbaycan xalqı bu işğaldan əziyyət çəkir. Uzun illərdir münaqişə həllini tapmır. Beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilmir. Bizə qarşı ikili standartlar siyasəti aparılır. Dəfələrlə bu barədə fikirlərimi müxtəlif kürsülərdən ifadə etmişəm. Bu gün də demək istəyirəm ki, bizə qarşı göstərilən ədalətsizlik qəbuledilməzdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır ki, erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Üstündən 20 il keçib. Onların heç biri icra edilmir. Beynəlxalq ictimaiyyət buna biganə yanaşır.

Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər, ATƏT-in Minsk qrupu münaqişənin sülh yolu ilə həllindən daha çox qarşılıqlı etimad tədbirlərinin gücləndirilməsi ilə məşğuldurlar. Qarşılıqlı etimad tədbirlərinin içərisində birinci tədbir erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxarılmasıdır və danışıqlar mahiyyət üzrə aparılmalıdır. Əfsuslar olsun ki, vasitəçilər danışıqlarda ədalətin bərpa edilməsinə deyil, daha çox müharibənin olmaması ilə bağlı səy göstərirlər. Belə olan halda Azərbaycan ordu quruculuğuna daha böyük diqqət göstərir, göstərəcəkdir və danışıqlar nəticə verməsə, bizim başqa yolumuz qalmayacaq.

Biz müharibə istəmirik. Biz çalışırıq ki, məsələ sülh yolu ilə həll edilsin. Ancaq görürük ki, 20 il ərzində bu məsələ öz həllini tapmır. Bu məsələni dondurulmuş vəziyyətdə saxlamaq istəyən qüvvələr, əfsuslar olsun ki, öz niyyətlərinə, öz məqsədlərinə nail olurlar. Biz isə bu vəziyyətlə barışmaq istəmirik və barışmayacağıq. Biz sülh istəyirik. Amma eyni zamanda, biz torpaqlarımızı, haqq-ədalətin bərpasını istəyirik. Bizim tələbimiz əsaslıdır. Bizim tələbimiz tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır.

Azərbaycan xalqı Dağlıq Qarabağda və bu gün işğal altında olan digər yerlərdə memarlıq əsərləri yaratmışdır. Binalar, şəhərlər salmışdır, infrastruktur yaratmışdır. Dağlıq Qarabağda bütün yer adları, kəndlərin adları Azərbaycan mənşəli adlardır.

Bu bizim əzəli torpağımızdır. Bu həmişə belə olub, bu gün belədir və sabah da belə olacaq. Beynəlxalq aləm Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Heç kim heç vaxt qondarma «Dağlıq Qarabağ respublikası»nı tanımayacaq və Azərbaycan heç vaxt öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Bu bizim prinsipial mövqemizdir. Biz bu mövqedən bir addım da kənara çəkilməyəcəyik.

Ordu quruculuğu məsələnin həllində mühüm rol oynamalıdır. Hazırda güclənən Azərbaycan Ordusu Ermənistan üçün böyük təhlükə mənbəyidir. Onu özləri də etiraf edirlər. Özləri də öz məğlubiyyətlərini etiraf edirlər. Çünki onların yüksək vəzifəli rəsmi şəxsləri dəfələrlə bəyan etmişlər ki, Ermənistan təhlükəsizliyini özü təmin edə bilmir. O ölkə ki, öz təhlükəsizliyini təmin edə bilmir, o ölkə müstəqil ölkə sayıla bilməz. Bu etiraf əslində məğlubiyyətin etirafıdır. Bu etiraf acizliyin etirafıdır. Onlar bizim qarşımızda duruş gətirə bilmir, özləri bunu etiraf edir. Bu gün güclənən Azərbaycan Ordusu məsələnin həlli üçün ən birinci amildir. Hətta atəşkəs rejimi şəraitində bizim güclənən ordumuz erməniləri təşvişə salır. Biz hamımız yaxşı bilirik və operativ məlumat da alırıq ki, Ermənistan ordusu təşviş içindədir. Biz təmas xəttində üstünlüyü tam şəkildə əldə etmişik. Təmas xəttində vəziyyətə tam şəkildə biz nəzarət edirik. Ancaq Azərbaycan dövlətinin sülhsevər siyasəti bu gün sabitliyin qarantıdır. Heç bir kənar qüvvə bu bölgədə sabitliyin qarantı ola bilməz. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz.

Biz dəfələrlə mötəbər beynəlxalq kürsülərdən eşidirik ki, məsələ sülh yolu ilə həll olunsun. Amma məsələnin sülh yolu ilə həll olunması bizim iradəmizdən asılıdır. Biz istəyirik ki, bu, sülh yolu ilə həll edilsin. Bizim iradəmizə, siyasətimizə heç kim təsir edə bilməz. Bunu hamı bilsin. İlk növbədə, Ermənistan və bu məsələ ilə məşğul olan vasitəçilər də bilsinlər ki, ancaq Azərbaycanın sülhsevər mövqeyi bu gün vəziyyəti sülh

şəraitində, atəşkəs rejimində saxlaya bilər. Ancaq bizim səbrimiz tükənməz deyildir.

Bu gün təmas xəttində əldə etdiyimiz üstünlük artıq reallıqdır. Azərbaycan cəmiyyətində, Azərbaycan Ordusunda ruh yüksəkliyi müşahidə olunur. Ermənistanda, Ermənistan ordusunda ruh düşkünlüyü müşahidə olunur. Əgər belə olmasaydı, təkcə birinci rübdə 40 min erməni öz ölkəsini həmişəlik tərk etməzdi. Ermənistanda ciddi demoqrafik böhran yaşanır. Bu böhranın əsas səbəbi onların işğalçı siyasətidir. Onlar hesab edirlər ki, müharibədə üstünlük əldə ediblər. Hanı bu üstünlük? Erməni xalqı səfalət içində yaşayır. Ermənistan sadəcə olaraq, müstəqil ölkə kimi sayıla bilər. Amma real müstəqilliyi əldən verib. Nəyə görə? İşğalçı siyasətinə görə.

Azərbaycan isə müstəqil siyasət aparır. Azərbaycan güclənir, regionda güc mərkəzidir. Bizim iqtisadi gücümüz hərbi gücə çevrilibdir. Biz bundan sonra da öz hərbi imkanlarımızı artıracağıq, bundan sonra da danışıqlar masasında prinsipial mövqemizi gücləndirəcəyik. Bizim prinsipial mövqemizin əsas mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir, Azərbaycan Ordusudur, Azərbaycan əsgəridir. Mən əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu biz bu gün də edə bilərik.

Bugünkü təlimlərdə göstərilən peşəkarlıq, bizim texniki imkanlarımız, cəmiyyətdə yaşanan və güclənən vətənpərvərlik ruhu istənilən anda məsələnin tezliklə, hərbi yolla həll edilməsinə şərait yaradır. Düşmən bunu bilir və ona görə qorxu içindədir.

Biz hələ ki, danışıqlara sadiq qalacağıq. Ancaq bir daha demək istəyirəm ki, səbrimiz tükənir və Azərbaycan Ordusu hər an Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırdır, buna qadirdir. Bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzün bərpasıdır. İşğal edilmiş torpaqlar ilk növbədə, azad olunmalıdır, ondan sonra Dağlıq Qarabağ – o da işğal edilmiş torpağımızdır – Azərbaycanın nəzarətində olmalıdır. Azərbaycan bayrağı işğal edilmiş bütün şəhərlərdə, o cümlədən Şuşada,

Xankəndidə qaldırılmalıdır və qaldırılacaqdır. Bu bizim əsas vəzifəmizdir. Biz bu vəzifəyə çatacağıq. Biz hər gün, hər an bu hədəfə yaxınlaşırıq. Bugünkü təlimlər bir daha onu göstərir ki, biz bu hədəfə bir addım da yaxınlaşmışıq.

Azərbaycan öz ordusuna, öz dövlətinə inanır, ordusuna və dövlətinə güvənir. Azərbaycan dövləti və Azərbaycan Ordusu da öz vətəndaşlarını müdafiə edir.

Təlimlərdə iştirak etmiş bütün şəxsi heyətə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə bir daha təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

Eşq olsun Azərbaycan Ordusuna!

* * *

*Daha sonra dövlət başçısının 2014-cü il 24 iyun tarixli müvafiq Sərəncamına uyğun olaraq bir qrup hərbçiyə 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni, «Vətən uğrunda» və «Hərbi xidmətlərə görə» medalları, eləcə də qiymətli hədiyyələr təqdim olundu.*

**BURUNDİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PYER NKURUNZİZAYA**

Hörmətli cənab Prezident!

Burundi Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Burundi xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2014-cü il*

## TÜRKİYƏ RESPUBLİKASININ AVROPA BİRLİYİ İŞLƏRİ ÜZRƏ NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*27 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Türkiyə Respublikasının Avropa Birliyi İşləri üzrə naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir.*

*Nazir Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, prezident İlham Əliyevi Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyə başlaması münasibətilə təbrik etdi. Mövlud Çavuşoğlu Azərbaycan prezidenti İlham Əliyevin Strasburqdakı nitqinin ölkəsində böyük maraqla izlənildiyini dedi.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə olundu, ATƏT Parlament Assambleyasının Bakıda keçirilən 23-cü illik sessiyasının önəmi vurğulandı, ölkələrimizin beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığının bundan sonra da genişləndiriləcəyi əminliklə qeyd olundu.*

*Dövlətimizin başçısı İlham Əliyev Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.*

## RUSİYA DÖVLƏT DUMASININ SƏDRİ SERGEY NARIŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Rusiya Dövlət Dumasının Sədri Sergey Narışkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Rusiya Dövlət Dumasının Sədri Sergey Narışkinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin dinamik şəkildə inkişaf etdiyini bildirən dövlətimizin başçısı son vaxtlar yüksək səviyyəli səfərlərin həyata keçirildiyini vurğulayaraq bu baxımdan Sergey Narışkinin başçılıq etdiyi nümayəndə heyətinin səfərinin mühüm əhəmiyyət daşıdığını söylədi. Müxtəlif səviyyəli qarşılıqlı səfərlərə toxunan dövlətimizin başçısı bunun ikitərəfli münasibətlərimizin bütün istiqamətlərində, o cümlədən siyasi, iqtisadi, humanitar və digər sahələrdə yaxşı nəticələrin əldə olunması baxımından önəmini qeyd etdi. Bu günlərdə Qəbələdə V Azərbaycan–Rusiya Regionlararası Forumun keçirildiyini vurğulayan prezident İlham Əliyev tədbirdə Rusiya Federasiyasının müxtəlif bölgələrini təmsil edən 300-dən artıq nümayəndənin iştirakının əhəmiyyətini vurğuladı. Ölkələrimizin bütün sahələrdə səmərəli fəaliyyət həyata keçirdiyini deyən dövlətimizin başçısı bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Parlamentlərarası əlaqələrə toxunan prezident İlham Əliyev ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq etməsinin önəmini diqqətə çatdırdı. Dövlətimizin başçısı ATƏT Parlament Assambleyasının Bakıda keçiriləcək 23-cü illik sessiyasının yaxşı nəticələr verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Rusiya Dövlət Dumasının Sədri Sergey Narışkin qəbula və xoş sözlərə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Sergey Narışkin ATƏT Parlament Assambleyasının 23-cü illik sessiyasının Bakıda keçirilməsindən məmnunluğunu qeyd etdi və sessiyada əhəmiyyətli müzakirələrin aparılacağına ümidvar olduğunu dedi. Rusiya Dövlət Dumasının Sədri azərbaycanlı həmkarları ilə müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən ATƏT Parlament Assambleyasında əlaqəli fəaliyyət göstərdiklərini vurğuladı.*

## «KORRUPSİYAYA QARŞI MÜBARİZƏ: BEYNƏLXALQ STANDARTLAR VƏ MİLLİ TƏCRÜBƏLƏR» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli Konfrans iştirakçıları!

Sizi Bakı şəhərində korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş konfransın açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Azərbaycan dinamik və dayanıqlı iqtisadi inkişafa nail olan müasir ölkədir. Həyata keçirilən siyasi, hüquqi və sosial siyasət nəticəsində Azərbaycanda demokratik və ədalətli cəmiyyət qurulmuş, şəffaf ictimai münasibətlər sistemi formalaşdırılmışdır. Dövlət idarəçiliyində səmərəliliyin təmin edilməsi, açıq hökumət prinsiplərinin tətbiqi, elektron xidmətlərin inkişafı, korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin başlıca istiqamətləridir. Azərbaycanda korrupsiyaya qarşı mübarizəni uğurla aparmaq üçün möhkəm siyasi iradə mövcuddur.

Ölkəmiz korrupsiyaya qarşı mübarizə sahəsində bütün beynəlxalq təşəbbüslərə qoşulmaqla qanunvericilik bazasını tam müasirləşdirmiş və institusional islahatlar həyata keçirmişdir.

Təəssüflər olsun ki, korrupsiya bütün dünya, o cümlədən Avropa ölkələrində də aktual problemlərdən biri olaraq qalır. Ona görə də bu sahədə daim yeni təşəbbüslərin irəli sürülməsi zəruridir. Bununla bağlı Azərbaycanda tətbiq edilən dövlət xidmətlərinin göstərilməsində korrupsiyanı tam istisna edən və şəffaflığı təmin edən təcrübə digər ölkələr üçün də müsbət nümunə ola bilər.

Avropa Şurasına üzv ölkələrlə Azərbaycan arasında əlaqələr daim inkişaf edir, müxtəlif sahələrdə genişlənir. Mayın 14-dən Azərbaycan Respublikası Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edir. Ölkəmiz sədr olduğu dövrdə korrup-

siyaya qarşı mübarizəni prioritet elan etmiş və üzv ölkələrin qarşılaşdığı problemlərlə ciddi şəkildə məşğul olmaq niyyətindədir.

Əminəm ki, korrupsiyaya qarşı mübarizədə milli və beynəlxalq səylərin gücləndirilməsinə xidmət edən bu konfrans fəaliyyətimizin daha səmərəli təşkilinə və əməkdaşlığımızın möhkəmlənməsinə töhfə verəcəkdir.

Sizi bir daha təbrik edir, konfransın işinə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyun 2014-cü il*

## ATƏT PARLAMENT ASSAMBLEYASININ BAKIDA KEÇİRİLƏN 23-cü İLLİK SESSİYASININ PLENAR İCLASININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Bakıda ATƏT Parlament Assambleyasının «Helsinki+40: hər kəs üçün təhlükəsizliyə doğru» devizi altında 23-cü illik sessiyasının plenar iclasının açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ATƏT-in 2011–2014-cü illərdəki fəaliyyətini əks etdirən fotostendə baxdı.*

*Stenddə Azərbaycanın qurumdakı fəaliyyətindən bəhs edən fotolar xüsusi yer almışdır.*

*Sonra ATƏT Parlament Assambleyasının 23-cü sessiyasının plenar iclasının açılışı oldu.*

*ATƏT Parlament Assambleyasının prezidenti Ranko Krivokapiç qurumun Bakıda keçirilən 23-cü sessiyasının plenar iclasını açıq elan etdi. O bu mötəbər tədbirə ev sahibliyi edən Azərbaycana və şəxsən prezident İlham Əliyevə tədbirin yüksək səviyyədə təşkilinə görə dərin minnətdarlığını bildirdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab Parlament Assambleyasının prezidenti!
Cənab İsveçrə Prezidenti!
Hörmətli qonaqlar, əziz dostlar!

Əvvəlcə sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm. Ümidvaram ki, ölkəmizə səfərinizdən razı qalacaqsınız. Bu cür mühüm tədbiri qəbul etməkdən şərəf hissi duyuruq.

Parlament Assambleyasının sessiyası Azərbaycanda ilk dəfədir ki, keçirilir. Hazırkı tədbiri təşkil etmək fürsətini bizə yaratmış bütün insanlara təşəkkürümü bildirirəm. Bununla bizə ölkəmizi, nailiyyətlərimizi təqdim etmək, o cümlədən üzləşdiyimiz çağırışlar və qarşımızda qoyduğumuz planlar haqqında danışmaq imkanı yaradıldı.

Bilirəm ki, qonaqlarımızın əksər hissəsi Azərbaycana ilk dəfədir ki, səfər edirlər. Bu tədbir onlar üçün ölkəmizi daha yaxşı tanımaq, bəzi tarixi yerlərlə tanış olmaq, tarixi abidələri görmək imkanı yaradacaqdır.

Abidələrimizdən bəziləri YUNESKO-nun dünya mədəni irs siyahısına daxil edilərək qorunur. Azərbaycan qədim diyardır. Bu ölkənin böyük mədəniyyəti və tarixi vardır, lakin müstəqillik baxımından gənc ölkədir. Təxminən 23 ildir ki, biz müstəqil ölkə kimi yaşayırıq. Bu illər dövlətçiliyimiz, inkişafımız, gələcəyimiz üçün mühüm illər olub. Biz müstəqil dövlət qurmalı, müstəqil dövlətin əsaslarını yaratmalı və yeni siyasi sistem yaratmalı idik. Ona görə də demokratik təsisatların yaradılması, siyasi islahatların aparılması uğurlu inkişafımızın əsasını təşkil edib.

Siyasi və iqtisadi islahatların eyni zamanda həyata keçirilməsi bizi böyük çətinliklərdən sığortaladı, sabit ölkə qurmağa imkan yaratdı və davamlı inkişafı mümkün etdi. Siyasi sahəyə gəldikdə, bildirmək istəyirəm ki, bu gün Azərbaycan funksional demokratik təsisatlara malik olan ölkədir. Biz demokratiyanın və qanunun aliliyinin inkişaf etdirilməsi, eləcə də fundamental azadlıqların təmin edilməsi üçün bir çox səylər

göstəririk. Hesab edirəm ki, bu istiqamətdə böyük müvəffəqiyyətlər qazanmışıq. Azərbaycanda bütün fundamental azadlıqlar – toplaşmaq, təşkilatlanmaq, ifadə, media azadlıqları təmin edilir. Azərbaycanda yüzlərlə çap mediası vardır, internet azaddır, əhalimizin 70 faizdən çoxu internet istifadəçisidir.

Bütün bunlar uğurlu inkişaf üçün ilkin şərtlərdir, çünki biz yalnız iqtisadi islahatları aparmaqla öz məqsədimizə nail ola bilməzdik. Məqsədimiz isə müasirləşmədir. Biz olduqca qısa vaxtda müasir, özünə arxalanan ölkə qurmuşuq. Gələcəyimiz üçün isə planlarımız çoxdur. Gələn illər ərzində siyasi islahatlar gündəliyimizdəki əsas məsələlərdən biri olacaqdır. Biz daha çox işləməliyik, daha çox islahatlar həyata keçirməliyik. Əminəm ki, ATƏT və digər beynəlxalq təsisatlar qarşısında götürdüyümüz öhdəliklər və apardığımız əməkdaşlıq planlaşdırdığımız bütün işləri icra etməyə imkan yaradacaqdır.

Əlbəttə, siyasi islahatlar cəmiyyətimizdə olduqca müsbət mühit yaradır. Siyasi vəziyyət sabitdir, proqnozlaşdırılandır. Bunun sayəsində biz gələcəyimizi elə planlaşdırırıq ki, müasirləşməyə nail olaq və Azərbaycanı dünyanın inkişaf etmiş ölkəsinə çevirək.

Təbii ki, beynəlxalq təmaslarımız ümumi əməkdaşlıq baxımından mühüm rol oynayır. Bu münasibətlər milli maraqlarımızı daha yaxşı şəkildə müdafiə etməyə imkan yaradır. Bir sözlə, Azərbaycan çox fəal xarici siyasəti ilə seçilən ölkədir. Ölkəmizin çox aydın xarici siyasət prioritetləri vardır. Verdiyimiz vədlər həmişə gördüyümüz işlərlə üst-üstə düşür. Bu səbəbdən Azərbaycan hazırda etibarlı tərəfdaş sayılır, dost ölkələr, tərəfdaşlarımız buna görə bizə etimad göstərirlər. Bu çox vacibdir. Çünki etimad elə bir şeydir ki, siz onu hər gün qurmalısınız. Yalnız bir səhv və ya yanlış addım bu etimadı məhv edə bilər. Buna görə də beynəlxalq ictimaiyyətin bir çox üzvləri, xüsusən Avropa ölkələri ilə fəal ikitərəfli münasibətlər bizim prioritetlərimizdən biridir. Bu sözləri həm də digər qitələrdə olan ölkələrə də şamil etmək olar.

Azərbaycan çoxsaylı mühüm beynəlxalq təsisatların üzvüdür. Biz bu üzvlüyü dünya ilə daha yaxşı əlaqələr qurmaq fürsəti kimi qəbul edirik. Biz «Qoşulmama Hərəkatının», Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının və bir çox digər beynəlxalq təşkilatların üzvüyük.

Xarici siyasət sahəsində əldə etdiyimiz ən böyük nailiyyətlərdən biri iki il yarım əvvəl baş verdi. Azərbaycan 155 üzv dövlətin böyük dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu, beynəlxalq səhnədə mümkün olan ən böyük siyasi və diplomatik nailiyyət idi. Baxmayaraq ki, ölkəmiz gəncdir və dünyada o qədər də çox tanınmır, biz öz namizədliyimizi irəli sürdük və dostlarımız atdığımız addımlara böyük etimad göstərdilər. BMT Təhlükəsizlik Şurasının fəal üzvü kimi, Azərbaycan 2 il ərzində sülh, təhlükəsizlik, sabitlik, ədalət amallarının və beynəlxalq hüquq normalarının həyata keçirilməsini təşviq etdi. Əslində, bu bizim hazırkı prioritetlərimizdən biridir.

Bu yaxınlarda Avropa Şurasının Nazirlər Komitəsində sədrliyə başlamışıq. Bu yaxınlarda mən Avropa Şurasının Parlament Assambleyasında oldum və nitq söyləyərək prioritetlərimizi açıqladım. Burada onların hamısına yenidən toxunmaq istəməzdim. Lakin onlardan biri beynəlxalq hüquq normalarının qlobal səviyyədə bərqərar olunması üçün mexanizmlərin işlənib hazırlanmasından ibarətdir. Bu halda beynəlxalq təşkilatların qərar və qətnamələrinin icra mexanizmləri nəzərdə tutulur. Əfsuslar olsun ki, biz ayrı-seçkiliyə əsaslanan yanaşmanın şahidi oluruq. Bu məsələ Azərbaycan xalqını çox narahat edir. Görürük ki, BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə saat ərzində icra olunur. Digər qətnamələr isə sadəcə, kağız üzərində qalır. Azərbaycana gəldikdə, bu, artıq 20 ildir ki, davam edir. Buna görə də ümumi meyarların, beynəlxalq təşkilatların qərarlarının həyata keçirilməsi mexanizmlərinin işlənib hazırlanması Avropa Şuras Nazirlər Komitəsinin sədri kimi, bizim üçün, o cümlədən beynəlxalq ictimaiyyət üçün prioritetlərdən biridir. Belə olmasa,

mühüm təşkilatların qərarları kağız üzərində qalacaqdır. Həmin təşkilatlara olan etimad da azalacaqdır.

Azərbaycan bu vəziyyətdən əziyyət çəkir, çünki biz 20 ildən çoxdur ki, erməni təcavüzü və işğalı ilə üzləşmişik. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir, Azərbaycanın 20 ildən çoxdur ki, Ermənistan tərəfindən işğal edilən əzəli torpağıdır. Beynəlxalq səviyyədə tanınan ərazimizin 20 faizi işğal altındadır, 1 milyondan çox azərbaycanlı öz doğma ölkəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Biz etnik təmizləməyə məruz qalmışıq. Ermənilər Xocalı şəhərində azərbaycanlılara qarşı soyqırımı törədiblər. Bu soyqırımı artıq dünyanın 10 ölkəsi tərəfindən tanınıb. Beynəlxalq hüquq normaları pozulub. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilən ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr icra olunmamış qalır, kağız üzərində qalır. Münaqişənin həlli üçün atılacaq addımları aydın şəkildə müəyyən edən ATƏT-in qərarları, xüsusən də Lissabon Zirvə görüşünün qərarları da kağız üzərində qalır. Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» və digər təşkilatlar qərar və qətnamələr qəbul ediblər. Ermənistan sadəcə, onlara məhəl qoymur. Onlar özlərinə məxsus olmayan ərazilərdən çıxmaq istəmirlər, mövcud vəziyyəti qoruyub saxlamaq fikrindədirlər. Onlar hətta ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının verdiyi bəyanatlara belə, məhəl qoymurlar. ABŞ, Rusiya və Fransa prezidentləri aydın şəkildə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir. Bu o deməkdir ki, status-kvo dəyişilməlidir. Status-kvonu dəyişmək üçün Ermənistan öz qoşunlarını torpaqlarımızdan çıxarmağa başlamalıdır. Lakin Ermənistan bu bəyanatlara məhəl qoymur. Buna görə də beynəlxalq təşkilatların qərarlarının icrası, Azərbaycanın ərazi bütövlüyünün bərpası və münaqişələrin ölkələrin ərazi bütövlüyü əsasında həlli hər hansı qarşıdurmanın uğurla aradan qaldırılması üçün əsas şərtlərdən biridir.

Öz müqəddəratını təyinetmə prinsipinə gəldikdə isə, biz Helsinki Yekun Aktına diqqətlə baxsaq görərik ki, öz müqəddəratını təyinetmə prinsipi ölkələrin ərazi bütövlüyünü şübhə altına salmamalıdır. Bundan əlavə, ermənilərin artıq müstəqil dövləti vardır, onlar artıq öz müqəddəratını təyin ediblər. Buna görə də tarixi Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaradılması üçün heç bir əsas yoxdur. Nəzərə almalıyıq ki, hazırkı Ermənistan dövləti Azərbaycan torpaqları hesabına yaradılıb.

ATƏT işğal edilən ərazilərə 2 missiya ezam edib. Hər ikisi – faktaraşdırıcı və qiymətləndirmə missiyaları işğal edilən ərazilərdə hər şeyin tam dağıdıldığını qeyd edibdir. Bu, ölü zonadır. Şəhərlərimiz yerlə yeksan olunub, tarixi abidələrimiz dağıdılıb, məscid və qəbiristanlıqlarımız ermənilər tərəfindən məhv edilib. Bu, faktaraşdırıcı və qiymətləndirmə missiyaları tərəfindən etiraf olunur. Biz bu təşəbbüslərə görə ATƏT-ə minnətdarıq. Lakin yenə də bu hesabatlar münaqişənin həllində heç bir rol oynamır. Biz münaqişənin nizamlanmasına nail olmalıyıq. Bu bizim ölkəmizə, xalqımıza, qaçqınlarımıza lazımdır. Region buna ehtiyac duyur. Çünki Ermənistan–Azərbaycan münaqişəsi region üçün əsas təhlükə mənbəyidir. Gərginliyin azaldılması, etimad doğuran mexanizmlərin yaradılması və etimad doğuran tədbirlərin gücləndirilməsi üçün ən münasib yol erməni qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasının başlanması ola bilər.

Münaqişəyə baxmayaraq, Azərbaycan sürətli iqtisadi inkişafını nümayiş etdirir. Son 10 il ərzində biz dünyada ən sürətlə inkişaf edən iqtisadiyyata malik olmuşuq. Sosial və iqtisadi islahatlar firavanlığı təmin edib, işsizliyi və yoxsulluğu azaldıb. Hesab edirəm ki, hökumətimizin ən böyük nailiyyətlərindən biri sürətli iqtisadi inkişafın güclü sosial siyasətlə müşayiət olunmasından irəli gəlir.

Son 10 ildə iqtisadiyyatımız 3 dəfədən çox artıb. Bu, dünyada ən sürətli inkişaf göstəricisidir. Eyni zamanda, yoxsulluq, demək olar ki, 10 dəfə azalıb. Hazırda yoxsulluq 5 faiz

səviyyəsindədir. Biz ümumən işsizlik məsələsini həll etmişik. İşsizlik də təxminən 5 faiz səviyyəsindədir. Çox sabit maliyyə sistemimiz mövcuddur. Xarici borcumuz ümumi daxili məhsulun yalnız 8 faizini təşkil edir. Bu, dünyada ən yaxşı göstəricilərdən biridir. Valyuta ehtiyatlarımız ümumi daxili məhsulun 70 faizdən çoxunu təşkil edir. Bunun sayəsində bizim sərmayə qoymaq və beynəlxalq bazarlarda kredit götürmək imkanımız vardır. Kredit reytinqimiz S&P, Moody`s və Fitch kimi əsas reytinq agentlikləri tərəfindən yaxşılaşdırılıb. Azərbaycan xarici sərmayələri lazımi qaydada qoruyan ölkə kimi, yaxşı nüfuza malikdir. Ötən 10 ildə Azərbaycana 170 milyard dollar məbləğində sərmayə yatırılıb. Keçən il bu göstərici 28 milyard dollar olub. Bu rəqəmin 70 faizi yerli, 30 faizi isə xarici sərmayədir. Gələcək üçün iqtisadi perspektivlər çox müsbətdir. Hazırda biz iqtisadiyyatımızın şaxələndirilməsi üzrə fəal çalışırıq.

Bu gün Azərbaycan kosmos sənayesinə malik olan ölkədir. Peykimiz fəzaya buraxılıb, inkişaf etmiş informasiya texnologiyaları sistemimiz vardır.

Avropa Şurasının Nazirlər Komitəsinin sədri kimi, qarşımıza qoyduğumuz digər prioritetlərdən biri təhsildir. Biz təhsil sahəsinə böyük investisiyalar qoyuruq, çünki bizə SAvadlı insanlar, yaxşı mütəxəssislər lazımdır. Eyni zamanda, savadlı insanlar heç zaman aldatmaya, xarici təsirə, müdaxiləyə məruz qala bilməz. Təhsil ekstremizmə, radikalizmə, millətçiliyə və ksenofobiyaya qarşı zəmanətdir. Bu məsələlər də Assambleyanın toplantısında müzakirə olunacaqdır.

Deyə bilərəm ki, Azərbaycanın təcrübəsi öyrənilə bilər. Çünki cəmiyyətimizdə multikulturalizm uğurumuzun əsas elementlərindən biridir. Biz çoxmillətli, çoxdinli ölkəyik. Bu, Azərbaycanın əsas sərvətlərindən biridir ki, ölkəmizin bütün vətəndaşları dini və etnik mənşəyindən asılı olmayaraq, bərabər hüquqlara və imtiyazlara malikdirlər. Biz vahid ailə kimi yaşayırıq, müxtəlif dinlərin nümayəndələri bayramları birgə

qeyd edirlər. Bu, sözün əsl mənasında, nadir təcrübədir və qlobal səviyyədə yüksək qiymətləndirilir.

Bu gün biz dünyada – istər Avropada, istər Asiyada, istərsə də Orta Şərqdə və ya qonşu bölgələrdə təcridolunma və ayrı-seçkilik kimi çox təhlükəli meyillərin şahidi oluruq. Biz bu məsələlərin həllinə nail olmalıyıq. Onları aradan qaldırmalıyıq, onlar haqqında danışmalıyıq və uğurun müsbət tərəflərini görməliyik. Əgər biz özümüzü elə aparsaq ki, bu cür məsələlər guya mövcud deyil və ya onları beynəlxalq forumlarda qaldırmasaq, fikrimcə, vəziyyət yalnız çətinləşəcəkdir. Çünki təəssüflər olsun ki, meyillər düzgün istiqamətdə cərəyan etmir.

Bu gün ölkələrin milli təhlükəsizliyinə enerji təhlükəsizliyindən ayrı baxıla bilməz. ATƏT Avropada təhlükəsizlik və əməkdaşlıq təşkilatıdır. Azərbaycan təhlükəsizlik və əməkdaşlığa töhfə verir. Enerji diplomatiyası vasitəsilə biz artıq regional əməkdaşlığı qurmuşuq və genişləndiririk. Bu gün planlarımız region hüdudlarından kənara çıxır. Enerji siyasətində ənənəvi tərəfdaş və müttəfiqlərlə yanaşı, biz təşəbbüslərimizə qoşulmaq üçün avropalı tərəfdaşlarımızı da dəvət edirik.

Azərbaycan dünyada ilk ölkədir ki, Xəzər, Qara və Aralıq dənizlərini şaxələndirilmiş boru kəmərləri ilə birləşdirir. Bunun sayəsində biz təchizat marşrutlarını müxtəlifləşdirmişik ki, bir marşrutdan asılı olmayaq. Bu, hasilatçı kimi, bizim üçün çox vacibdir. Eyni zamanda, həmin şaxələndirilmə tərəfdaşlarımız üçün də vacibdir. Onlar enerji resurslarının əlavə mənbələrini qazanır, neft və qaz yataqlarımızda aparılan hasilat və infrastrukturumuz Avropanın enerji təhlükəsizliyinə töhfə verir.

Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlər müəyyən dərəcədə enerji əməkdaşlığına söykənir. Mənimlə Avropa Komissiyasının sədri arasında 3 il əvvəl imzalanmış Memorandumda Azərbaycan «Cənub Qaz Dəhlizi»nin əsas tərəfdarı və təşəbbüskarlarından biri kimi qeyd olunur. «Cənub Qaz Dəhlizi» Azərbaycanın irəli sürdüyü tarixi layihədir. Biz maliyyə yükünün əsas hissəsini öz üzərimizə götürmüşük. Bu

çox böyük məsuliyyətdir və biz bu layihəni həyata keçiririk. Bu gün «Cənub Qaz Dəhlizi» 3 əsas elementdən ibarətdir: dünyada ən böyük qaz yataqlarından biri sayılan «Şahdəniz» yatağından qazın hasilatı, həmin qazın nəqli və şaxələndirmədir. Qazın nəqli 3 boru kəməri ilə həyata keçiriləcəkdir. Tikinti işləri başa çatdıqda, bizim Bakıdan Avropaya, xüsusən də İtaliyaya gedən böyük boru kəmərimiz olacaqdır. Söhbət Trans–Anadolu, Cənubi Qafqaz və Trans–Adriatik boru kəmərlərindən gedir. Bu, Avropa üçün hazırda həyata keçirilən ən böyük infrastruktur layihəsidir.

Azərbaycan isə belə bir tarixi layihənin həyata keçirilməsində lider rolunu oynayır. Bu layihə bölgəmizin və Avropanın enerji xəritəsini dəyişəcək və bizim, yəni hasilatçıların, tranzit ölkələrin və istehlakçıların maraqlarına xidmət edəcəkdir.

Enerji siyasəti, enerji təhlükəsizliyi və enerji diplomatiyası sahəsində həmin 3 komponent arasında maraqların tarazlığı uğur üçün əsas şərtdir. Əminəm ki, biz buna nail olacağıq. Gələn illərdə tərəfdaşlarımızla bir yerdə biz bu tarixi layihəni başa çatdıracağıq.

Gördüyünüz kimi, mən ölkəmiz haqqında çox danışa və həyatımızın bir çox mühüm aspektlərini əhatə edə bilərəm. Lakin hesab edirəm ki, bu gün bizim üçün ən böyük üstünlüklərdən biri Bakıda bu qədər çox qonağımızın olmasıdır. Bir neçə gün ərzində sizin Azərbaycanı daha yaxşı tanımaq, ölkəmizi görmək, insanlarımızla tanış olmaq, vəziyyəti qiymətləndirmək, öz təəssüratlarınızı qazanmaq imkanınız olacaqdır. Əminəm ki, sizlərdən bir çoxu tərəfdaşlıq və dialoqun davam etdirilməsi məqsədilə ölkəmizə yenidən gələcəksiniz.

Bu gün bizimlə olduğunuza görə sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Mən Assambleyanın prezidentinə minnətdaram. Ümidvaram ki, bu günlərdə iclasınız uğurlu keçəcəkdir. Çox sağ olun.

* * *

ATƏT Parlament Assambleyasının prezidenti Ranko Krivokapiç rəhbərlik etdiyi qurumun tarixin dərslərindən lazımınca ibrət götürdüyünü, müharibə və insanlıq üçün digər böyük təhlükələrin qarşısının alınmasında səylərini əsirgəməmədiyini bildirdi.

Müsəlman Şərqində ilk dünyəvi dövlət quran Azərbaycan xalqını Ramazan ayı münasibətilə təbrik edən Ranko Krivokapiç ATƏT Parlament Assambleyasının Bakıda keçirilən 23-cü illik sessiyasının plenar iclasının da parlament demokratiyasının ən yaxşı nümunələrindən biri olacağına əminliyini ifadə etdi. O, Azərbaycan xalqının ATƏT-in məqsədlərinə və ölkəmizin bu qurum qarşısında üzərinə götürdüyü öhdəliklərə sadiqliyini vurğuladı və bu istiqamətdə tədbirlərin davam etdirildiyini dedi. Demokratiya, çiçəklənmə, ATƏT-in üzv dövlətlərinin əməkdaşlığını və digər xoşməramlı təşəbbüsləri özündə ehtiva edən 1999-cu il İstanbul Bəyannaməsini xatırladan Ranko Krivokapiç bu baxımdan növbəti dövr üçün Bakı Bəyannaməsinin də mühüm əhəmiyyət kəsb edəcəyinə inamını diqqətə çatdırdı.

Milli Məclisin Sədri Oqtay Əsədov bu sessiyanın əlamətdar hadisə olduğunu deyərək, ölkəmizin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsinin artıq bir ənənə halı aldığını vurğuladı. Şərqdə ilk parlamentin məhz Azərbaycanda yarandığını deyən Oqtay Əsədov bu qurumun bugünkü fəaliyyətindən danışdı. ATƏT-in potensialına diqqəti cəlb edən Milli Məclisin Sədri vurğuladı ki, münaqişələrin qarşısının alınmasına yönələn fəaliyyəti ilə ATƏT yalnız dialoq vasitəsi deyil, əməli fəaliyyət təşkilatı da olmalıdır, qurumun səmərəliliyi artırılmalı, münaqişələrin tənzimlənməsi təşkilatın proqramında mühüm yer tutmalıdır. Oqtay Əsədov ATƏT Parlament Assambleyasının Helsinki prinsiplərinin Ermənistan tərəfindən kobudcasına pozulduğunu təəssüflə qeyd edərək, bu məsələyə qurumun layiqli qiymət vermədiyini diqqətə çatdırdı. Bildirdi ki, dövlətlərin ərazi bütövlüyü məsələsi Helsinki prinsiplərinin təməlində dayanır, amma Ermənistan uzun illərdir bu

*prinsipləri pozur, ATƏT tərəfindən isə heç bir addım atılmır. «Biz bunu ikili standartlar kimi qəbul edirik» – deyən Milli Məclisin Sədri ATƏT-ə güclü və ədalətli olmağı arzuladı.*

*ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalter Bakıya dəvətə görə təşəkkürünü bildirdi, bu sessiyanın Bakıda təşkilinin Azərbaycanın ATƏT-in demokratikləşmə prosesinə sadiqliyini təcəssüm etdirdiyini vurğuladı. Diqqətə çatdırdı ki, burada ATƏT-in gələcək fəaliyyəti ilə bağlı nəticələr çıxarmaq üçün qurumun fəaliyyəti müzakirə ediləcəkdir. Bir müddət əvvəl regiona səfərini xatırladan ATƏT-in fəaliyyətdə olan sədri mövcud münaqişələrin həllinin vacibliyini vurğuladı.*

## MONTENEQRO PARLAMENTİNİN SƏDRİ, ATƏT PARLAMENT ASSAMBLEYASININ PREZİDENTİ RANKO KRİVOKAPİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Monteneqro parlamentinin Sədri, ATƏT Parlament Assambleyasının prezidenti Ranko Krivokapiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ATƏT Parlament Assambleyasının 23-cü illik sessiyasının Bakıda keçirilməsinin əhəmiyyəti qeyd edildi. Prezident İlham Əliyev və Ranko Krivokapiç sessiyada məhsuldar müzakirələrin aparılacağına ümidvar olduqlarını bildirdilər.*

*Söhbət zamanı Azərbaycan ilə Monteneqro arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əlaqələrin əməkdaşlığımızın möhkəmləndirilməsi baxımından önəmi qeyd edildi.*

## ABŞ SENATORU ROCER UİKERİN VƏ KONQRESMEN KRİSTOFER SMİTİN BAŞÇILIQ ETDİKLƏRİ NÜMAYƏNDƏ HEYƏTLƏRİ İLƏ GÖRÜŞ

*28 iyun 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Birləşmiş Ştatların Missisipi ştatından olan respublikaçı senator Rocer Uikerin və Nyu-Cersi ştatından olan respublikaçı konqresmen Kristofer Smitin başçılıq etdikləri ABŞ nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, ATƏT Parlament Assambleyasının Bakıda keçirilən 23-cü illik sessiyasının əhəmiyyətinə toxunularaq tədbirdə səmərəli müzakirələrin aparılacağı əminliklə qeyd olundu.*

*Söhbət zamanı ikitərəfli münasibətlərimizin müxtəlif sahələri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ATƏT Parlament Assambleyası çərçivəsində əməkdaşlığımız ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ATƏT PARLAMENT ASSAMBLEYASININ 23-cü İLLİK SESSİYASININ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*28 iyun 2014-cü il*

*İyunun 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ATƏT Parlament Assambleyasının «Helsinki+40: hər kəs üçün təhlükəsizliyə doğru» devizi altında keçirilən 23-cü illik sessiyasının iştirakçılarının şərəfinə şam yeməyi verilmişdir.*

*Dövlətimizin başçısı ziyafətdə iştirak edən qonaqlarla görüşdü, onlarla söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Hörmətli qonaqlar!

Mən sizi salamlayıram və ölkəmizə bir daha «Xoş gəlmisiniz!» – deyirəm. Sizi Azərbaycanda qəbul etməkdən həqiqətən, böyük şərəf və iftixar hissi duyuruq. Əminəm ki, ölkəmizə səfərinizi uzun illər xatırlayacaqsınız. Bu gün və sabah, eləcə də gələn bir neçə gün ərzində biz beynəlxalq münasibətlərə aid mühüm məsələləri, münaqişələri və ümumiyyətlə, beynəlxalq siyasətə aid məqamları müzakirə edəcəyik.

İndi isə mən digər mövzu, mədəniyyətimiz, irsimiz və adət-ənənələrimiz haqqında bir neçə söz söyləmək istəyirəm. Ümidvaram ki, Azərbaycanın mədəniyyəti, ənənələri, xalqımızın yaşayış tərzi ilə tanış olmaq, tarixi abidələrimizi ziyarət etmək üçün vaxtınız olacaqdır. Fərəh hissi ilə qeyd edirik ki, Qız qalası, Şirvanşahlar sarayı və İçərişəhər kimi Bakının rəmzləri YUNESKO tərəfindən qorunur və Dünya Mədəni İrsinin hissəsi hesab edilir. Bununla belə, müasir Azərbaycanın da abidələri vardır. Azərbaycanın müasir rəmzləri də mövcuddur. Məsələn, dövlətçiliyimizi təcəssüm etdirən Dövlət

Bayrağı Meydanı vardır. O, bir neçə il əvvəl yaradılıb. Ondan öncə orada hərbi donanmanın bazası yerləşirdi.

Müasirliyin rəmzi olan «Alov qüllələri» paytaxtımızın mərkəzində yerləşir. Alov həyat mənbəyidir, Azərbaycan isə Odlar Yurdu hesab edilir. Bakının rəmzi 3 alovdan ibarətdir. Bunu siz orta əsr nümunələrində də görə bilərsiniz.

Müasir memarlıq nümunəsi olan Heydər Əliyev Mərkəzinin yerində 100 ildən artıq fəaliyyət göstərmiş köhnə zavod yerləşirdi. Buradakı ətraf mühit də çirklənmişdi və tam məhv olmaq üzrə idi. Bəzi insanlar hesab edirlər ki, bu binanın memarlıq üslubu Bakının küləyini əks etdirir, çünki Bakı çox küləkli şəhərdir. Bəziləri bu binanı Xəzərin dalğalarına bənzədir. Digərlərinin başqa rəyi var. Lakin mən hesab edirəm ki, Mərkəz ölkəmizin müasirləşdirilməsini təcəssüm etdirir. Bu isə inkişafımızın əsas məqsədləridir: müasirləşmək, yaratmaq, inkişaf etmiş ölkə olmaq və müstəqilliyimizi gücləndirmək.

Müstəqillik xalqımız üçün ən böyük dəyərdir. Azərbaycanın tarixində, həyatımızın bütün mərhələlərində ölkəmiz heç vaxt bu qədər inkişaf etməmişdir.

Mən sizə uğurlar arzulayıram. Ümidvaram ki, səfərinizdən məmnun qalacaqsınız, yenidən ölkəmizə səfər edəcəksiniz. Fürsətdən istifadə edərək, mən sizin hamınızı gələn ilin yayında ilk Avropa oyunlarını keçirdiyimiz zaman ölkəmizə dəvət etmək və qonaqlarımız arasında görmək istəyirəm. Sizə xoş axşam arzu edirəm. Sağ olun.

**Ranko Krivokapiç** *(ATƏT Parlament Assambleyasının sədri):* Cənab prezident Əliyev!

Hörmətli Narışkin, hörmətli Əsədov!

Mənim üçün ziyafət başa çatdıqdan sonra danışmaq daha asandır. Çünki Siz çıxışınızı ziyafətdən öncə etdiniz, hamı isə naharı gözləyirdi.

Mən cənab prezident Əliyevə təşəkkürümü bildirirəm. Tariximizdə ilk dəfə idi ki, cənab Prezident bütün günü bizimlə oldu. Bu məni heç də təəccübləndirmir. O özü parlament üzvü olub, 3 il Avropa Şurası Parlament Assambleyasında fəaliyyət

göstərib. Parlamentarilər bir-birilərini çox asan başa düşür və zəruri məsələləri müzakirə edirlər. Bu bizim ilk günümüz oldu. Adətən, birinci gün ikinci və üçüncü günlərlə müqayisədə daha ağır olur. Biz öz aramızda söhbət apardıq, daha yaxşı anlaşma qurduq.

Biz vahid bir ailəyə – ATƏT Parlament Assambleyası ailəsinə çevrilmişik. Mənim üçün ildə 3 dəfə bu çərçivədə toplaşmaq şərəfdir. Öz bəyanatlarımızı, vacib hesab etdiyimiz məsələləri, məlumatlarımızı nəzərdən keçiririk. Digərləri ilə fikir mübadiləsi aparırıq və bu yolla bir-birimizi daha da zənginləşdiririk. Tam əminəm ki, biz bununla dostluğumuzu daha da gücləndirəcəyik. Bütün məsələlərə diqqət və qayğı ilə yanaşmağımız çox vacibdir. Biz sırf praqmatik qərarları qəbul edən şəxslər deyilik, canlı insanlarıq. Çalışırıq öz ölkələrimizə mümkün qədər xidmət edək. Ölkələrimiz üçün müsbət məqamlara inanırıq. Bu xoş məram gec-tez hamımız üçün yaxşı nəticələr verir.

Böyük fərəh hissi ilə qeyd edirəm ki, ATƏT Parlament Assambleyası daha da güclənir, daha çevik olur, daha böyük imkanları yaranır, birliyimiz də güclənir. Birgə çalışmağımız xüsusi əhəmiyyət kəsb edir. Biz ümumi dəyərlərə malikik.

Mən Azərbaycan Respublikasına xüsusi minnətdarlığımı bildirmək istəyirəm ki, bizə qeyri-adi qonaqpərvərliyinizi nümayiş etdirdiniz. Mən bu sözləri xoşa gəlmək üçün söyləmirəm. Bu həqiqətdir. Azərbaycan Prezidenti ilə bütün günü bir yerdə olmaq bizim hamımız üçün xüsusi gün oldu. Gərgin əməyinizə, ümumi məqsədlərimizə sadiq olduğunuza görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Çox sağ olun.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Biz Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Bu münasibətlər müstəqillik qazandığımız vaxtdan bu günədək böyük inkişaf yolu keçmiş, bir sıra sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Azərbaycanın gerçəkləşdirdiyi irimiqyaslı enerji layihələrində, beynəlxalq təhlükəsizliyin təmin edilməsində, terrorizmə qarşı mübarizədə, NATO-nun Əfqanıstandakı sülhyaratma missiyasında birgə iştirakımız tərəfdaşlığımızın mühüm istiqamətlərindəndir.

Biz eyni zamanda, xalqımızın uzun müddətdən bəri həllini gözləyən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox soydaşımızın doğma yurd-yuvasına qaytarılması üçün ATƏT-in Minsk qrupunun həmsədri olan ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük hörmət bəsləyirik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *1 iyul 2014-cü il*

## AVROPANIN «NEUROPE.EU» İNFORMASİYA PORTALINA MÜSAHİBƏ

*1 iyul 2014-cü il*

*Avropanın «Neurope.eu» informasiya portalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə müsahibə dərc olunmuşdur.*

**S u a l: Siz ötən ilin oktyabrında keçirilən prezident seçkilərində növbəti dəfə qalib gəldiniz. Bunun başlıca səbəbini necə izah edərdiniz?**

**C a v a b:** 2013-cü ildə keçirilən prezident seçkiləri Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olmuşdur. Bu seçkilər vətəndaşların son 10 ildə ölkəmizdə həyata keçirilən siyasi kursa münasibətini göstərdi. Son 10 ildə biz Heydər Əliyevin əsasını qoyduğu yolla irəliləmişik və ölkəmiz, cəmiyyətimiz qarşısında qoyduğumuz məqsədlərin reallaşmasına nail olmuşuq.

**S u a l: Yəni 10 il öncə qarşıya qoyduğunuz vəzifələr artıq reallığa çevrilib?**

**C a v a b:** Tamamilə doğrudur. İqtisadi inkişaf templəri baxımından Azərbaycan dünya liderinə çevrilmişdir. Bu isə ölkəmizi daha da gücləndirmişdir. Düşünülmüş proqramlara əsaslanan məqsədyönlü fəaliyyət nəticəsində son 10 ildə ümumi daxili məhsul 3,4 dəfə, iqtisadiyyatın qeyri-neft sektoru 2,6 dəfə, büdcə gəlirləri 16 dəfə artmış, həmçinin strateji valyuta ehtiyatlarının həcmi 50 milyard ABŞ dollarını keçmişdir. Milli iqtisadiyyata 170 milyard ABŞ dollarından artıq sərmayə yatırılmışdır.

**S u a l: Bütün bunlar əhalinin yaşayış səviyyəsinə təsir edibmi?**

**C a v a b:** Əlbəttə, bu cür sürətli inkişaf vətəndaşlarımızın rifahının yüksəlməsinə səbəb olmuşdur. Son 10 ildə əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı isə 5,5 dəfə artmışdır.

**M ü x b i r: Bu həqiqətən, yaxşı göstəricidir.**

**İ l h a m Ə l i y e v:** Həmçinin yoxsulluğun 49 faizdən 5,3 faizə, işsizliyin isə 5 faizə düşməsi də mühüm nailiyyətlər sırasına daxildir. Son 10 ildə ölkəmizin şəhərləri, qəsəbələri və kəndlərində tikinti-quruculuq işləri görülmüş, bütün şəhərlərdə müasir standartların və qabaqcıl texnologiyaların tətbiqinə başlanılmışdır.

**S u a l: Bu nailiyyətlər yalnız Azərbaycanda hiss olunur, yoxsa beynəlxalq aləmdə də tanınır?**

**C a v a b:** Azərbaycanın uğurları beynəlxalq təşkilatlar və nüfuzlu reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Dünya İqtisadi Forumunun 2013–2014-cü il üzrə Qlobal Rəqabətlilik Hesabatına əsasən Azərbaycan dünya ölkələri arasında 39-cu sıradadır.

**S u a l: Bəs ölkənizin regionda və dünyada statusu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bu illər ərzində ölkəmizin dünyadakı mövqeyi güclənmişdir. Azərbaycan beynəlxalq münasibətlər sistemində yaxşı imic və hörmət qazanmışdır. Bir çox beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin artıq regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildiyinin sübutudur. Bakı şəhərinin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halı almışdır. 2013-cü ildə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə yardım məqsədilə beynəlxalq konfransın, III Beynəlxalq Humanitar Forumun, II Mədəniyyətlərarası Dialoq Forumunun, Davos Dünya İqtisadi Forumunun və digər yüksək səviyyəli qlobal tədbirlərin keçirilməsi bunu bir daha təsdiq edir.

**S u a l: Deməli, dünyada gedən arzuolunmaz proseslər Azərbaycana toxunmamışdır.**

**C a v a b:** Bəli. Bütün dünyada gərginliyin, işsizliyin və yoxsulluğun artdığı bir dövrdə Azərbaycanda tamamilə fərqli

proseslər – sürətli inkişaf, tərəqqi, əhalinin rifahının, ictimai və siyasi sabitliyin, milli birliyin və s. yüksəlməsi müşahidə edilmişdir. Düşünürəm ki, bütün bunlar 2013-cü ildə keçirilən seçkilərdə qazanılan qələbənin də əsas səbəbləri olmuşdur.

**S u a l: Bu seçkilər beynəlxalq birlik tərəfindən necə qəbul edildi?**

**C a v a b:** AŞPA, ATƏT Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər nüfuzlu təşkilatlar birmənalı olaraq seçkilər barədə yüksək fikirlər bildirmiş və seçkilərin azad, ədalətli və şəffaf keçirildiyini vurğulamışlar. Bütün bunlar seçkilərlə bağlı xalqımızın və beynəlxalq ictimaiyyətin fikirlərinin üst-üstə düşdüyünü göstərir. Azərbaycan xalqı verdiyi səslə bu günədək həyatda müşahidə etdiyi siyasətə öz dəstəyini nümayiş etdirmiş və bu siyasətin davamlı olması üçün bizə mandat vermişdir.

**M ü x b i r: Gələcək barədə fikirlərinizi bilmək maraqlı olardı.**

**İ l h a m Ə l i y e v:** Bizim gələcəklə bağlı planlarımız böyükdür. Gündəliyimizdə bir sıra vacib məsələlər vardır. Azərbaycanın potensialının inkişaf etdirilməsi, iqtisadiyyatımızın rəqabətliliyinin artırılması, müasir cəmiyyət quruculuğu, əhalinin rifahının yaxşılaşdırılması, xarici siyasətin prioritetlərinə uyğun olaraq beynəlxalq mövqemizin möhkəmləndirilməsi, korrupsiyaya, rüşvətxorluğa və digər mənfi hallara qarşı sistemli mübarizənin daha da gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı ardıcıl şəkildə davam etdiriləcəkdir.

**S u a l: 2013-cü ildə Azərbaycanda həm də İKT-nin inkişafı sahəsində böyük addımlar atılmışdır.**

**C a v a b:** Azərbaycanın həyata keçirdiyi iqtisadi siyasətin üstünlüyü ondadır ki, bütün işlər ölkənin real imkanları, ən yaxşı beynəlxalq təcrübələr və xüsusi proqramlar üzərində qurulur. Təcrübə göstərir ki, müasir texnologiyaların tətbiqi rəqabətədavamlı iqtisadiyyat üçün ilkin şərtdir. Bu səbəbdən də innovasiyadan təkcə iqtisadiyyatda deyil, eyni zamanda, digər sahələrdə də geniş istifadə edilir. İnformasiya-kommunikasiya

texnologiyaları sürətlə inkişaf edir və böyük gələcəyə malikdir. 2003-cü ildə Milli İKT Strategiyasının, sonrakı illərdə isə «Elektron Azərbaycan» Dövlət Proqramının qəbul olunması bu sahənin inkişafına böyük təkan vermişdir. Müstəqillik illərində Azərbaycanda İKT-nin inkişafına 3 milyard ABŞ dollarından artıq vəsait yatırılmışdır. Nəticədə, son 10 ildə informasiya və rabitə sahəsinin inkişafı 8,2 dəfə artmışdır. 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə buraxılması və ölkədə kosmik sənayenin əsasının qoyulması tarixi hadisədir. Növbəti illərdə daha 2 peykin orbitə buraxılması ilə bağlı işlər aparılır.

**S u a l: Bütün bunların fonunda internetin inkişafını necə qiymətləndirmək olar?**

**C a v a b:** Son illər ərzində internet də sürətlə inkişaf etmişdir. Beynəlxalq Telekommunikasiya Təşkilatının hesabatına əsasən, Azərbaycan əhalisinin 70 faizi internetdən istifadə edir. Biz Azərbaycanın bütün şəhərlərinə genişzolaqlı internet xətlərinin çəkilməsinə başlamışıq.

**S u a l: Azərbaycanın müəllifi olduğu innovasiyalar haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** Biz dünyada mövcud olan texnoloji yenilikləri tətbiq etməklə yanaşı, özümüz də bəzi innovasiyaların yaradılması ilə bağlı təşəbbüslər göstəririk. Nümunə kimi, Azərbaycan brendi olan Vətəndaşlara Xidmətlər və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini və onun «ASAN xidmət» mərkəzlərini qeyd edə bilərik. «ASAN xidmət» vətəndaşların məmnunluğu prinsipinə əsaslanan və bir çox xidmətin bir mərkəzdə cəmləşdirildiyi təsisatdır. «ASAN xidmət» mərkəzlərinin fəaliyyət sferasına dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin səmərəli təşkili və bu sahədə idarəçilik sisteminin müasirləşdirilməsi daxildir. Bu mərkəzlər mütərəqqi hökumət–vətəndaş münasibətlərinin nümunəsidir. Mərkəzlər hazırda 25 sayda ictimai xidmət təklif

edir. Təsadüfi deyil ki, 1 il ərzində 1 milyondan çox vətəndaş bu mərkəzlərə müraciət etmişdir. Buna görə də «ASAN xidmət» mərkəzlərinin təklif etdiyi xidmətlərin miqyasını genişləndirmək niyyətindəyik.

**S u a l: Gələcəyə nəzər salsaq, innovativ texnologiyalar Azərbaycanın inkişafında necə rol oynayacaqdır?**

**C a v a b:** Qabaqcıl texnologiyaların Azərbaycanın gələcək inkişafında oynayacağı rol barədə qeyd edə bilərəm ki, iqtisadiyyatın dinamik inkişafını asanlaşdırmaq və rəqabətliliyi artırmaq üçün qabaqcıl elmi və texnoloji nailiyyətlərə əsaslanan İKT sahələrini inkişaf etdirmək, bu sferaya yerli və xarici sərmayələri cəlb etmək, ixtisaslı mütəxəssis bazası yaratmaq və s. üçün xüsusi addımlar atılır. Bu məqsədlərə nail olmaq üçün Yüksək Texnologiyalar Parkı və İnformasiya Texnologiyalarının İnkişafı Fondu təsis edilmişdir. İnnovasiyaya əsaslanan güclü iqtisadiyyatın yaradılması əsas məqsədlərimizdən biridir və biz dayanmadan bu istiqamətdə irəliləyirik.

**S u a l: Siz 2014-cü ili «Sənaye ili» elan etmisiniz. Bundan məqsəd nədir və hansı işlərin görülməsi nəzərdə tutulmuşdur?**

**C a v a b:** Azərbaycan əvvəllər aqrar ölkə hesab olunurdu. Keçən əsrin 70–80-ci illərində sənayenin inkişafı üçün ciddi addımlar atıldı, yüzlərlə yeni sənaye müəssisəsi yaradıldı. Amma SSRİ-nin süqutu keçmiş sovet respublikaları arasında əlaqələrin itirilməsinə səbəb oldu. Ümumilikdə, planlı iqtisadiyyat uğursuzluqla nəticələndi. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzü, həmin dövrdə ölkədə baş alıb gedən anarxiya, istehsal müəssisələrinin köhnəlməsi, texnoloji cəhətdən gerilik iqtisadi tənəzzülə və istehsal prosesinin dayanmasına gətirib çıxardı. Yalnız ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində 2000-ci illərin əvvəllərində istehsalı 1990-cı ilin səviyyəsinə qaldırmaq mümkün oldu.

Son 10 ildə neft və qaz sahəsində əldə edilən gəlirlərin müəyyən qismi xüsusi proqramlar çərçivəsində milli iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, yüksək

texnologiyalı sənayenin formalaşdırılmasına yönəldilmişdir. Nəticədə, qeyri-neft sektorunda hər il 10 faiz artım qeydə alınır. Bundan əlavə, sahibkarlığın inkişafına göstərilən hərtərəfli dəstək, iri sərmayə proqramlarının həyata keçirilməsi, sosial-iqtisadi infrastrukturun yenidən qurulması və qabaqcıl texnologiyalara əsaslanan rəqabətədavamlı müəssisələrin yaradılması sənaye istehsalı həcminin 2,7 dəfə artmasına səbəb olmuşdur.

Hazırda əsas məqsədlərimizdən biri Azərbaycanı güclü sənaye ölkəsinə çevirmək üçün mümkün imkanlardan istifadə etməkdir. Artıq sənayenin şaxələndirilməsi və modernləşdirilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Biz mövcud təbii və iqtisadi resursları istehsal dövriyyəsinə cəlb edirik, yeni istehsal sahələri və sənaye parkları yaradırıq, innovasiyaların tətbiqini sürətləndiririk. Buna görə də 2014-cü il «Sənaye ili» elan olunmuş, cari ildə həyata keçiriləcək tədbirlərin ümumi planı hazırlanmış və təsdiq edilmişdir. Eyni zamanda, «Sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı»nın hazırlanması nəzərdə tutulur. İnanırıq ki, topladığımız təcrübə və Azərbaycanın iqtisadi potensialı bizə məqsədlərimizə çatmaq imkanı verəcəkdir.

**S u a l: Regionların sosial-iqtisadi inkişafı ilə bağlı üçüncü Dövlət Proqramı qəbul edilmişdir. Bu proqram 2014–2018-ci illəri əhatə edir. İlk iki proqramın həyata keçirilməsini necə qiymətləndirirsiniz və üçüncü proqramdan nə gözlənilir?**

**C a v a b:** 2004-cü ildə ilk regional inkişaf proqramını qəbul edərkən məqsədimiz bölgələrin hərtərəfli inkişafını təmin etmək və paytaxtla ölkənin qalan hissəsi arasındakı uyğunsuzluğu aradan qaldırmaq olmuşdur. Hətta 2003-cü ildə keçirilən seçkilərdən öncə demişdim ki, əgər xalq mənə etimad göstərsə, ilk növbədə, regionların inkişafı məsələsi ilə məşğul olacağıq və bu məqsədlə xüsusi Dövlət Proqramı qəbul ediləcək. Bu, baş verdi. 2004–2008-ci və 2009–2013-cü illəri əhatə edən 2 Dövlət Proqramı, bu proqramlara əlavə olaraq 250 sənədin imzalanması və həyata keçirilməsi regionların inkişafında dönüş

nöqtəsi olmuş və bölgələrimizin sosial-iqtisadi mənzərəsini dəyişmişdir. Nəticədə regionlardakı ictimai xidmətlərin keyfiyyəti və sosial infrastruktur əsaslı dərəcədə təkmilləşmiş, biznes mühiti daha əlverişli olmuş, sərmayələr artmış, minlərlə yeni müəssisə istifadəyə verilmiş və 900 mini daimi olmaqla, 1,2 milyondan artıq yeni iş yeri yaradılmışdır. Son 10 ildə regionlarda məhsul buraxılışı 3,2 dəfə, sənaye istehsalı isə 3,1 dəfə artmışdır. Azərbaycanın bütün regionları və qəsəbələri abadlaşmış və müasirləşmişdir. İnamla qeyd edə bilərəm ki, həyata keçirilmiş proqramlar ölkəmizin regionlarının, ümumilikdə Azərbaycanın iqtisadi potensialının inkişafına böyük töhfə vermişdir.

**S u a l: Qarşınıza qoyduğunuz strateji məqsəd nədir?**

**C a v a b:** Gündəliyimizdəki strateji məqsəd Azərbaycanın müstəqilliyini bundan sonra da gücləndirmək və ölkəmizi dünyanın ən inkişaf etmiş və rəqabətədavamlı ölkələri səviyyəsinə yüksəltməkdir. Buna görə də müasir dünyanın çağırışları da nəzərə alınmaqla, regionlardakı sürətli inkişaf davam etdiriləcəkdir. İnanıram ki, «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın və digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına şərait yaradacaq, ictimai xidmətlər və sosial infrastruktur daha da təkmilləşəcək və Azərbaycan dünyanın aparıcı ölkələri sırasına çıxacaqdır.

**S u a l: Yeni enerji layihələrinin region və dünya üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Hazırda Azərbaycan bir sıra yeni transmilli və regional layihələr irəli sürmüşdür. Ölkəmizin həyata keçirdiyi enerji siyasəti təkcə bizim üçün deyil, həm də region və dünya üçün böyük əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, 2013-cü il dekabrın 17-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin qaz ehtiyatlarının hasilatı və dünya bazarlarına çıxarılması üzrə «Şahdəniz-2» beynəlxalq yekun investisiya qərarı imzalanmışdır. Hesab edirəm ki, TAP və TANAP layihələri ilə yanaşı, «Şahdəniz-2» dünyanın enerji

xəritəsində yeni vəziyyətin yaranmasına səbəb olacaq və tarixə «XXl əsrin kontraktı» kimi düşəcəkdir.

**S u a l: Ölkənin həm iqtisadi, həm sosial inkişafı eyni zamanda, həm də güclü beynəlxalq status deməkdir. Xarici siyasətinizin uğurları barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Azərbaycanın hərtərəfli inkişafı, iqtisadi potensialının güclənməsi, həyata keçirilən fəal xarici siyasət ölkəmizin nüfuzunun yüksəlməsini, beynəlxalq aləmə daha sıx inteqrasiyasını, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini təmin etmişdir. Bu gün Azərbaycan müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərlə və beynəlxalq əlaqələr sistemi ilə bağlı öz mövqeyi olan və böyük beynəlxalq nüfuza malik bir ölkə hesab edilir. 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi tarixi nailiyyət və xarici siyasətimizin böyük uğuru, həmçinin dünyadakı nüfuzumuzun göstəricisi olmuşdur. Aydın görünür ki, beynəlxalq aləm dövlətimizin mövqeyini dəstəkləyir, addımlarımızı təqdir edir. Azərbaycan bütün beynəlxalq təşkilatlarda ləyaqətlə çıxış edir və öz maraqlarını hər şeydən üstün tutur. BMT Təhlükəsizlik Şurasına ikiillik üzvlüyümüz, həmçinin təşkilata sədrlik dövründə Azərbaycan qlobal təhlükəsizliyə, dünyada sülhün bərpasına, ölkələr və sivilizasiyalararası dialoqun inkişafına öz töhfəsini vermişdir.

**S u a l: Beynəlxalq təşkilatlarla, xüsusilə Avropa İttifaqı ilə münasibətlər hansı vəziyyətdədir?**

**C a v a b:** Bizim dünyanın aparıcı beynəlxalq təşkilatları və ayrı-ayrı ölkələrlə münasibətlərimiz də inkişaf etmişdir. Azərbaycan ATƏT, Avropa Şurası, İƏT və digər nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli münasibətlərini davam etdirir. Ötən il biz viza qaydalarının sadələşdirilməsi ilə bağlı Avropa İttifaqı ilə mühüm bir müqavilə imzaladıq. Bu, Avropa İttifaqı ilə əlaqələrin göstəricisidir. Əminəm ki, əməkdaşlığımızı inkişaf etdirmək üçün Avropa İttifaqı ilə strateji tərəfdaşlıq formatının yaradılmasına nail olacağıq.

**S u a l: Yeni tərəfdaşlıq münasibətləri kontekstində Azərbaycanın nailiyyətləri barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Region ölkələri və dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı etimada əsaslanan münasibətlərin inkişafına əlavə olaraq biz qeyri-ənənəvi tərəfdaşlarla da əlaqələr qururuq. Avropa və Asiyanın ənənəvi ölkələri ilə əməkdaşlıq münasibətlərini genişləndirməklə yanaşı, biz həm də «Qoşulmama Hərəkatı»nın üzvləri olan Latın Amerikası və Afrika ölkələri ilə siyasi, iqtisadi və humanitar əlaqələri inkişaf etdiririk. Bu bizim xarici siyasətimizin prioritetlərindən biridir.

Artıq bəzi Latın Amerikası ölkələri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəkləmişdir. Ümumilikdə, dünyanın 10 ölkəsi Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində törətdiyi qırğını soyqırımı aktı kimi tanımışdır. Bu ölkələrin parlamentləri müvafiq qərarlar qəbul etmişdir. Növbəti illərdə biz ölkəmizin siyasi və iqtisadi potensialını daha da gücləndirməyə, beynəlxalq nüfuzumuzu artırmağa, beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrlə əməkdaşlığımızı genişləndirməyə davam edəcəyik. Bizim xarici siyasətimiz milli maraqların qorunması üzərində qurulmuşdur və bu istiqamətdə lazımi addımlar atılacaqdır.

**S u a l: Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində hər hansı irəliləyişdən danışmaq olarmı?**

**C a v a b:** Təəssüflə qeyd edim ki, xarici siyasətimizin mərkəzində dayanan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş əldə edilməmişdir. Ermənistan tərəfi danışıqlar prosesini gecikdirmək üçün müxtəlif bəhanələrdən istifadə edir və status-kvonu saxlamağa çalışır. Ötən ilin sonlarında danışıqlarda müşahidə edilən canlanma bizə 2014-cü ildə irəliləyiş olacağı ilə bağlı müəyyən ümidlər verdi. Ermənistan rəhbərliyi başa düşməlidir ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç zaman imkan verməyəcəkdir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və həll ediləcəkdir. Münaqişə həll olunmadıqca, Ermənistan

dövləti bütün transmilli və regional layihələrdən kənarda qalacaq, erməni xalqının acınacaqlı vəziyyəti daha da pisləşəcək və ölkənin bütün imkanları tamamilə tükənəcəkdir.

**S u a l: Azərbaycan 2015-ci ildə I Avropa oyunlarına ev sahibliyi edəcəkdir. Hazırlıq prosesi necə gedir?**

**C a v a b:** 2014-cü il I Avropa oyunlarına hazırlıq baxımından çox əhəmiyyətli ildir. Bildiyiniz kimi, bu cür genişmiqyaslı yarışlara hazırlıq prosesi 7-8 il vaxt tələb edir. Avropa oyunlarını keçirmək üçün bizim yalnız 2 il yarım vaxtımız var. Əminəm ki, yarışlarla əlaqədar bütün məqsədlərə nail olacağıq. Təşkilat Komitəsi yaradılmışdır və olduqca məhsuldar fəaliyyət göstərir. Oyunların keçiriləcəyi məkanların tikintisi bu ilin sonunadək tamamlanacaqdır. Amma hazırlıq prosesi müxtəlif binaların tikintisi ilə məhdudlaşmır. Təhlükəsizlik, nəqliyyat, Olimpiya Kəndinin yaradılması, qonaqların və idmançıların yerləşdirilməsi, məşqlərin keçirilməsi və s. məsələlər böyük diqqət və səy tələb edir. Azərbaycanın mövcud potensialını, müasir idman infrastrukturunun mövcudluğunu və beynəlxalq tədbirlərin keçirilməsi sahəsində təcrübəsini nəzərə alsaq, əminəm ki, I Avropa oyunlarını gözləniləndən də yüksək səviyyədə təşkil edəcəyik. Faktiki olaraq, I Avropa oyunları ilə bağlı Azərbaycanda yaradılmış standartlar gələcək Avropa oyunları üçün əsas təşkil edəcəkdir.

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ MARQVELAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Gürcüstanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycanın böyük dostu Eduard Amvrosiyeviç Şevardnadzenin vəfatı ilə əlaqədar Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, bütün Gürcüstan xalqına dərin hüznlə başsağlığı verirəm.

Eduard Şevardnadzenin bütün həyat yolu, qardaş Gürcüstanın firavanlığı naminə yüksək dövləti fəaliyyəti ona haqlı olaraq bütün dünyada nüfuz, dərin hörmət və ehtiram qazandırmışdır.

Azərbaycan və Gürcüstan xalqları arasında çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələrinin qorunub saxlanmasına, inkişafına və möhkəmləndirilməsinə Eduard Şevardnadzenin şəxsi töhfəsi böyükdür. Qardaş ölkələrimizin keyfiyyətcə yeni dövlətlərarası münasibətlərinin, strateji tərəfdaşlığının təşəkkülünün və inkişafının əsası Azərbaycanın ümummilli lideri Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən qoyulmuşdur.

Azərbaycan xalqı qardaş Gürcüstan xalqı ilə birlikdə kədərlənir və dərdinizə şərik olur. Bu ağır itki ilə əlaqədar bir daha Sizə dərin hüznlə başsağlığı verir və kədərinizi bölüşürük.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyul 2014-cü il*

## CƏNAB PAATA ŞEVARDNADZEYƏ

Hörmətli Paata Eduardoviç!

Sizin atanız, Azərbaycan xalqının böyük dostu Eduard Amvrosiyeviç Şevardnadzenin vəfat etməsi xəbəri məni dərindən sarsıtdı. Bütün dünyada haqlı hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi, bütün gücünü qardaş Gürcüstana fədakarcasına xidmətə həsr etmiş gözəl insan dünyasını dəyişmişdir. Xalqlarımızın iki dahi oğlunun – Heydər Əliyevin və Eduard Şevardnadzenin böyük dostluğu bizim xatirimizdə həmişəlik qalacaqdır.

Sizin və bütün ailəniz üçün bu ağır anda öz adımdan və bütün ailəmiz adından Sizə dərin hüznlə başsağlığı verir və kədərinizi bölüşürük. Bu ağır və əvəzsiz itki ilə əlaqədar kədərinizə və dərdinizə ürəkdən şərik oluruq.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyul 2014-cü il*

## AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN 5-ci MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*7 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin 5-ci müşavirəsində iştirak etmişdir.*

*Xarici İşlər naziri Elmar Məmmədyarov müşavirəni açdı.*

**Elmar Məmmədyarov:** Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Bildiyiniz kimi, diplomatik xidmət orqanları rəhbərlərinin növbəti 5-ci müşavirəsi Azərbaycan Respublikasında diplomatik xidmətin 95 illiyi kimi əlamətdar bir vaxtda keçirilir.

Müstəqilliyimiz bərpa olunduqdan sonra digər sahələrdə olduğu kimi, diplomatiyamız da əldə etdiyi uğurlara görə ümummilli lider Heydər Əliyevə borcludur. Böyük dövlət xadiminin hakimiyyətə qayıdışı ilə ölkəmizin tarazlaşdırılmış xarici siyasətinin həyata keçirilməsi Azərbaycanı beynəlxalq birliyin nüfuzlu üzvünə çevirmişdir. Bu gün müstəqilliyimizin möhkəmləndirilməsi, iqtisadi imkanlarımızın və hərbi qüdrətimizin artırılması, sosial rifahımızın yaxşılaşdırılmasına yönəlmiş xarici siyasət strategiyamız Sizin, cənab Prezident, müəyyən etdiyiniz kursa uyğun olaraq çevik və qətiyyətlə həyata keçirilməkdədir.

Möhtərəm cənab Prezident, diplomatik xidmət orqanları rəhbərlərinin 2012-ci ildə keçirilmiş 4-cü müşavirəsindən sonrakı müddət ərzində Xarici İşlər Nazirliyi sisteminin fəaliyyəti barədə məlumat vermək istərdim.

Son 2 il ərzində ölkəmizin İsveçrə Konfederasiyasında, Avstraliya İttifaqında və Vyetnam Sosialist Respublikasında yeni səfirlikləri, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində baş konsulluğu, Kolumbiya və Uruqvayda isə təmsilçilik ofisləri açılmışdır. Azərbaycanda isə Əfqanıstan İslam Respublikasının, Sudan Respublikasının, Kolumbiya Respublikasının, İsveç Krallığının, İspaniya Krallığının və Malayziyanın səfirlikləri, habelə bir sıra digər dövlətlərin fəxri konsulluq və nümayəndəlikləri fəaliyyətə başlamışdır. Hazırda Azərbaycan Respublikasının xarici ölkələrdə 57 səfirliyi, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 9 baş konsulluğu, 7 təmsilçilik ofisi və 7 fəxri konsulluğu fəaliyyət göstərir. Respublikamızda isə 58 dövlətin səfirliyi, 4 baş konsulluq, 10 fəxri konsulluq və 20 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur.

Son müşavirə zamanı verdiyiniz tapşırıqların icrası ilə əlaqədar bildirmək istərdim ki, keçən dövr ərzində də xarici siyasətimizin prioritet istiqamətlərindən olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Xarici İşlər Nazirliyinin fəaliyyətinin əsasını təşkil etmişdir. Ermənistanın işğalçı siyasətinin ifşası, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması xarici dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən əməkdaşlıq zamanı gündəliyimizdə duran əsas məsələ olmuşdur. Azərbaycan Respublikasının ərazi bütövlüyünün münaqişənin həlli üzrə aparılan danışıqların predmeti olmadığı birmənalı olaraq bütün görüşlərdə tərəf-müqabillərimizin diqqətinə çatdırılmışdır. Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi, aparılmış etnik təmizləmə siyasəti nəticəsində doğma yurd-yuvalarından qovulmuş soydaşlarımızın geri qayıtması üçün zəruri diplomatik və hüquqi əsasların yaradılması istiqamətində aparılan işlər daha da genişləndirilmişdir. Azərbaycan xalqının XX əsrdə yaşadığı ən dəhşətli faciələrdən biri olan Xocalı soyqırımının tanıdılması və anılması, Qarabağ

həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, bu günə qədər Amerika Birləşmiş Ştatlarının 15 ştatında, Kolumbiya, Çexiya, Rumıniya, Serbiya, Honduras, Peru, Panama, Pakistan, Meksika, İordaniya, Bosniya və Herseqovina parlamentlərində Xocalı soyqırımı rəsmən tanınmış, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə edilmiş, o cümlədən ölkəmiz bu dövlətlər tərəfindən etibarlı strateji tərəfdaş kimi qiymətləndirilmişdir.

Eyni zamanda, Azərbaycanın səyləri ilə BMT-nin «Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya»sı çərçivəsində Ermənistan ərazisində yeni Metsamor nüvə reaktorunun tikilməsi ilə əlaqədar Ermənistan Respublikasının Espoo Konvensiyası üzrə öhdəliyini pozduğuna dair qərar qəbul edilmiş və Konvensiyanın implementasiya komitəsinə məsələnin nəzarətdə saxlanılması, eləcə də aidiyyəti üzrə monitorinq edilməsi barədə mandat verilmişdir. Digər tərəfdən, Azərbaycanda həyata keçirilən neft və qaz layihələrinin icrası ilə əlaqədar Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı qaldırılmış iddia əsassız hesab edilərək, Azərbaycan tərəfinin öhdəliklərini pozmadığı haqqında Espoo Konvensiyası üzrə yekun qərar qəbul edilmişdir.

Xarici İşlər Nazirliyi bundan sonra da Ermənistanın işğalçı siyasəti ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması və radikal erməni lobbisinə qarşı təsirli əks-hücumun təşkili istiqamətlərində fəaliyyətini daha da gücləndirəcəkdir.

Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında 2012–2013-cü illəri əhatə edən ikiillik fəaliyyəti dövründə dünyada təhlükəsizliyin və sülhün bərqərar olması, eləcə də sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına dair beynəlxalq gündəlikdə duran ən aktual məsələlər üzrə müxtəlif səviyyələrdə müzakirələr və qərarların qəbul

edilməsində bilavasitə iştirak etmişdir. Bu 2 il ərzində Azərbaycan 2 dəfə – 2012-ci ilin mayında və 2013-cü ilin oktyabrında Təhlükəsizlik Şurasına sədrlik etmiş və bir sıra əhəmiyyətli mövzular üzrə müzakirələr, eləcə də yüksək səviyyəli tədbirlər təşkil etmişdir. 2012-ci ilin mayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi və BMT-nin Baş katibi Pan Gi Munun iştirakı ilə Təhlükəsizlik Şurasının «Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə törətdiyi təhdidlər: terrorçuluqla mübarizə üzrə öhdəliklərin yerinə yetirilməsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi» mövzusunda yüksək səviyyəli iclası keçirilmiş və yekun sənəd kimi, Təhlükəsizlik Şurası sədrinin bəyanatı qəbul edilmişdir. 2013-cü ilin oktyabrından etibarən BMT Təhlükəsizlik Şurasında başlayan ikinci sədrlik dövründə isə BMT tarixində ilk dəfə olaraq, Azərbaycanın təşəbbüsü ilə qurumun «Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi» mövzusunda yüksək səviyyəli iclası təşkil edilmişdir. Azərbaycanın Təhlükəsizlik Şurasında fəaliyyəti müddətində 4 qətnamə, o cümlədən Afrika və Yaxın Şərqlə bağlı bir sıra sənədlər qəbul olunmuşdur. Afrikadakı Böyük Göllər bölgəsinə regional səfərlər təşkil edilmiş və Afrika Birliyinin BMT Təhlükəsizlik Şurası ilə birgə tədbirləri həyata keçirilmişdir.

BMT Təhlükəsizlik Şurası ilə yanaşı, Azərbaycan BMT-nin digər strukturları, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Körfəz Əməkdaşlıq Şurası, Afrika İttifaqı, Ərəb Dövlətləri Liqası və digər beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlığını davam etdirmişdir. Bir çox hallarda məhz Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində və səmərəliliyinin artırılmasında mühüm rol oynamışdır.

İkitərəfli əsasda həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanın qonşu dost dövlətlərlə əməkdaşlığı daha da

dərinləşmiş, Uzaq Şərq, Cənub və Cənub-Şərqi Asiya ölkələri ilə əlaqələri inkişaf etmiş, Latın Amerikası və Afrika regionlarında tərəfdaşlarının sayı artmışdır.

Xarici İşlər Nazirliyinin nəzdində təsis edilmiş Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) beynəlxalq humanitar və yardım proqramlarına, eləcə də davamlı inkişafa xidmət edən layihələrinin sayını artırmışdır. Xarici tələbələr üçün təqaüd proqramı çərçivəsində Fələstin, Sent-Vinsent və Qrenadindən olan tələbələr Azərbaycanın ali məktəblərində təhsil almışlar. Anqola, Əlcəzair, Çad, Kamerun, Fil Dişi Sahili, Liviya, Mavritaniya, Misir, Nigeriya, Sudan, Kolumbiya, Vyetnam, Oman, Küveyt və sair dövlətlərin mütəxəssisləri üçün neft-qaz istehsalı üzrə ixtisasartırma kursları təşkil edilmişdir. Əfqanıstanda «Elektron hökumət»in yaradılması layihəsinə töhfə verilmiş, Fələstinə, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Etimad Fonduna, BMT-nin Fövqəladə Hallara qarşı Mərkəzi Cavab Fonduna, BMT-nin Vyana ofisinin dəstəklənməsi layihəsinə, BMT-nin İnsan Alveri Qurbanlarına Könüllü Yardım Fonduna, Qara Dəniz–Xəzər Dənizi Əməkdaşlığı və Tərəfdaşlığı Fonduna maliyyə və texniki yardımlar edilmişdir. Panama, Qvineya-Bisau, Filippin, Serbiya, Bosniya və Herseqovinada baş vermiş təbii fəlakətlərin fəsadlarının aradan qaldırılması üçün humanitar və maliyyə yardımları göstərilmişdir. Bütün bu fəaliyyətlər, heç şübhəsiz, Azərbaycan Respublikasının beynəlxalq arenada nüfuzunun artırılmasına və mövqeyinin möhkəmləndirilməsinə xidmət etməkdədir.

Keçən dövr ərzində Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Azərbaycan Diplomatik Akademiyası əsasında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 yanvar tarixli Sərəncamı ilə ali təhsilin bütün səviyyələri üzrə kadr hazırlığını, ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan ADA Universiteti yaradılmışdır. Universitetdə həyata keçirilən təlim və tədris proqramları daha da genişləndirilmiş, dünyanın aparıcı ali təhsil və tədqiqat müəssisələri ilə əlaqələri, təcrübə və tələbə mübadilə proqramları artırılmışdır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən dövlətimizin uğurlu xarici siyasət kursunun həyata keçirilməsinin vacib istiqamətlərindən biri də xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və soydaşlarımızın hüquqlarının müdafiəsidir. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrə səfərlərinin asanlaşdırılması və konsulluq sahəsində əməkdaşlığın genişləndirilməsi çərçivəsində aparılmış işlər nəticəsində bir sıra ölkələrlə, o cümlədən Avropa İttifaqı ilə viza sadələşdirilməsi və readmissiya haqqında sazişlər imzalanmışdır.

Möhtərəm cənab Prezident, əmin ola bilərsiniz ki, yüksək dövlət qayğısı ilə əhatə olunmuş diplomatik xidmət orqanlarının əməkdaşları Sizin tərəfinizdən müəyyən olunmuş və dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsi, suverenliyinin və ərazi bütövlüyünün bərpa olunması məqsədi daşıyan xarici siyasət kursunun həyata keçirilməsində bundan sonra da öz səy və bacarıqlarını əsirgəməyəcəklər.

Diqqətinizə görə təşəkkür edirəm.

*Dövlətimizin başçısı müşavirədə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli səfirlər, xanımlar və cənablar!

Bugünkü müşavirənin çox böyük əhəmiyyəti vardır. Müşavirə iki ildən bir keçirilir, xarici siyasətimizin müxtəlif aspektləri müzakirə edilir və yeni istiqamətlər müəyyənləşdirilir. Bir sözlə, hesab edirəm ki, bu çox uğurlu formatdır və bizə imkan verir ki, xarici siyasətimizi ardıcıl şəkildə aparaq.

Xarici siyasətimiz daxili siyasətimizin davamıdır. Bu gün Azərbaycanın xarici siyasəti prinsipiallığı və müstəqilliyi ilə seçilir. Bunun əsas səbəbi, əlbəttə ki, güclü siyasi iradənin mövcudluğudur. Çünki güclü siyasi iradə olmasa, heç bir ölkə müstəqil siyasət apara bilməz. Bu siyasi iradə vardır. Bu siyasi iradə özünü həm daxili, həm xarici siyasət məsələlərində göstərmişdir. Eyni zamanda, ölkəmizin uğurlu inkişafı və son

illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə imkan verir ki, xarici arenada da öz sözümüzü deyək, öz maraqlarımızı müdafiə edək.

Ona görə son illərdə həm siyasi, həm iqtisadi islahatların aparılması ölkəmizin çox böyük inkişafına səbəb olmuşdur. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, gələcəyini özü müəyyən edir, tam şəkildə müstəqil siyasət aparır. Azərbaycanda iqtisadi müstəqillik tam təmin edilibdir. Azərbaycan özünü təmin edən ölkədir.

Yəni bu daxili amillər, iqtisadi gücümüz, dünyada artan nüfuzumuz bizə imkan verir ki, bundan sonra da prinsipial xarici siyasətimizi aparaq. Deyə bilərəm ki, bu siyasət beynəlxalq birlik tərəfindən də təqdirlə qarşılanır. Azərbaycanın beynəlxalq nüfuzu, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş və etibarlı dost kimi təsdiq edə bilmişdir. Təsadüfi deyil ki, beynəlxalq təşkilatlarda Azərbaycana olan rəğbət göz qabağındadır. Bunun əyani sübutu BMT Təhlükəsizlik Şurasına seçilməyimiz idi. Bu, tarixi bir hadisə idi. Dünyanın birinci aparıcı qurumu olan BMT Təhlükəsizlik Şurasına seçilməyimiz gənc müstəqil dövlət üçün böyük diplomatik və siyasi uğurdur. Əslində bu, ölkəmizin imicini, qısa müddət ərzində nə qədər böyük yol keçdiyini göstərir. Beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti – 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir, bizə inanmışdır və bilirəm ki, bu inama görə peşman olmamışdır. Çünki biz bəyan etdiyimiz kimi, 2 il ərzində BMT Təhlükəsizlik Şurasında beynəlxalq hüququ və ədaləti müdafiə etmişik. Bu gün də müdafiə edirik və hər zaman müdafiə edəcəyik.

Bir sözlə, beynəlxalq imicimiz çox müsbətdir. Bunun müxtəlif amilləri vardır. Bir daha demək istəyirəm ki, ilk növbədə, ölkəmizin uğurlu inkişafı, prinsipial mövqeyi, ədaləti, hüququ hər şeydən üstün tutmağımız, eyni zamanda, diplomatik orqanların uğurlu fəaliyyəti də burada çox mühüm rol oynamışdır. Buna görə mən Xarici İşlər Nazirliyinin bütün əməkdaşlarını təbrik etmək

istəyirəm. Azərbaycanın çox uğurlu xarici siyasəti vardır və əminəm ki, gələcək illərdə ölkəmizin artan gücü və nüfuzu hesabına biz beynəlxalq arenada mövqemizi daha da möhkəmləndirəcəyik.

Xarici siyasətlə bağlı əsas məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Əfsuslar olsun ki, son müşavirədən keçən dövr ərzində bu sahədə heç bir irəliləyiş olmamışdır. Əlbəttə ki, müxtəlif bəyanatlar səslənmişdir, müxtəlif səylər göstərilmişdir. Minsk qrupunun həmsədrləri bölgəyə dəfələrlə səfərlər etmişlər. Ancaq heç bir nəticə yoxdur. Bunun başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi və münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq cəhdləridir.

Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə birbaşa məşğul olan vasitəçilər tərəfindən Ermənistana heç bir ciddi siqnal verilməmişdir. Bizdə belə fikir yaranır ki, məsələ ilə məşğul olan vasitəçilər bu vəziyyəti daha çox bu şəkildə saxlamaqda maraqlıdırlar. Onların əsas marağı ondan ibarətdir ki, bölgədə sabitlik pozulmasın, müharibə olmasın. Biz də sülh istəyirik. Ancaq dəfələrlə bəyan etmişəm ki, biz torpaqlarımızı, haqq-ədalətin bərpasını, beynəlxalq hüququn təntənəsini istəyirik.

Son illər ərzində Ermənistanın bu mövqeyi imkan vermir ki, məsələ danışıqlar yolu ilə həllini tapsın. Əlbəttə ki, məsələnin həlli başqa yolla da mümkündür. Biz bunu heç vaxt inkar etməmişik və açıq bəyan etmişik ki, hərbi yol da istisna edilmir. Çünki son aylarda, illərdə beynəlxalq arenada müşahidə olunan mənzərə onu göstərir ki, əfsuslar olsun, beynəlxalq hüquq işləmir. Güc amili əsas rol oynayır. «Kim güclüdür, o da haqlıdır» prinsipi, əfsuslar olsun ki, beynəlxalq əlaqələrin konstruksiyasına böyük zərbə vurmuşdur.

Bu reallıqdır. Biz real dünyada yaşayırıq və reallıqlarla hesablaşmalıyıq. Ona görə bizim ordu quruculuğu ilə bağlı ardıcıl siyasətimiz bu gün bir daha göstərir ki, bu nə qədər düzgün və nə qədər vaxtında atılan addımlar idi. Bu gün biz

hərbi potensialımızı gücləndirərək, məsələni hərb yolu ilə də həll edə bilərik. Sadəcə olaraq, hesab edirik ki, hələ danışıqlar potensialı tükənməyib. Biz siyasi, iqtisadi, o cümlədən hərbi təzyiqlərdən istifadə edərək çalışacağıq ki, məsələ dinc yolla həll edilsin. Ancaq həll edilsin. Bu məsələ dondurulmuş vəziyyətdə qala bilməz. Bunu hər kəs bilməlidir. Bu məsələ ilə məşğul olan vasitəçilər də bunu bilməlidirlər və bilirlər.

Hesab edirəm ki, son vaxtlar vasitəçilərin fəaliyyətində müşahidə edilən fəallıq bizim artan iqtisadi və hərbi gücümüzlə əlaqəli olan məsələdir. Çünki onlar da Ermənistan kimi, çox yaxşı dərk edirlər ki, istənilən vaxtda biz hərbi gücümüzdən istifadə edərək, Qarabağ məsələsini birdəfəlik həll edə bilərik. Bu gün güc amili, bir daha demək istəyirəm ki, həlledici rol oynayır. Biz daha da güclü olmalıyıq, oluruq da. İqtisadi, siyasi və hərbi potensialımız kifayət qədər güclüdür və danışıqlarda bu amil müsbət rolunu oynayacaqdır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Tarixi və hüquqi nöqteyi-nəzərdən Qarabağ həmişə Azərbaycan torpağı olmuşdur. Azərbaycan xalqı Dağlıq Qarabağda və işğal edilmiş digər torpaqlarda əsrlərboyu yaşamış, yaratmışdır. Bütün tarixi abidələrimiz, toponimlərimiz, kəndlərin, şəhərlərin adları Azərbaycan mənşəlidir. Bu həqiqətdir. Əlbəttə ki, biz bunu bilirik, dünya da bunu bilir və bilməlidir.

Hesab edirəm ki, diplomatların fəaliyyəti ilk növbədə, bu istiqamətə yönəlməlidir. Çünki hələ ki, geniş dünya ictimaiyyəti Qarabağla bağlı həqiqətləri bilmir. Erməni lobbisi çalışır ki, faktları dünya ictimaiyyətinə təhrif edilmiş şəkildə çatdırsın. Biz isə çalışmalıyıq ki, real faktları dünya ictimaiyyətinə çatdıraq, o cümlədən İrəvan xanlığı ilə bağlı olan həqiqətləri də çatdırmalıyıq.

Bilirsiniz ki, alimlərimiz mənim təşəbbüsümlə İrəvan xanlığı haqqında böyük elmi əsər yaratmışlar. Bunun çox böyük əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox faktoloji və elmi məsələləri əks etdirir. Hesab edirəm ki, daha geniş auditoriyaya çatdırmaq üçün kiçikhəcmli broşürlər də buraxılmalıdır. Hesab

edirəm ki, Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Mədəniyyət və Turizm Nazirliyi birlikdə belə broşürlər hazırlamalıdırlar ki, müxtəlif dillərdə nəşr edilsin və xarici ictimaiyyətə çatdırılsın. O cümlədən İrəvanın 1918-ci ildə Ermənistana verilməsi faktları da geniş auditoriyaya məlum deyildi. Bu məsələni mən birinci dəfə qaldıranda, bu bəziləri üçün, necə deyərlər, bir yenilik kimi görünürdü. Ancaq bu reallıqdır, bunu hazırda Azərbaycanda hər kəs bilir və imkan düşdükcə biz bunu beynəlxalq konfranslarda, forumlarda, tədbirlərdə daim qeyd etməliyik. Çünki bu, tarixi həqiqətdir.

Beynəlxalq hüquqda tarixi amillər öz rolunu oynayıb, presedent hüququ vardır. Ona görə bizim mövqemizi möhkəmləndirən kifayət qədər çox amillər var: tarixi, hüquqi və siyasi. Bir sözlə, həm tarixi, həm hüquqi tərəf bizim mövqemizi dəstəkləyir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, erməni silahlı qüvvələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. Siz bunu yaxşı bilirsiniz. Digər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul etmişlər. Yəni bu, artıq çox möhkəm hüquqi zəmindir. Düzdür, bu hələ ki, real nəticəyə çevrilməmişdir. Ancaq bu tarixi və hüquqi zəmin vardır. Belə olan halda təbii ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılması qətiyyən mümkün deyildir. Əlbəttə ki, Azərbaycan dövləti buna heç vaxt imkan verməyəcək və heç bir ölkə qondarma «Dağlıq Qarabağ respublikasını» müstəqil qurum kimi tanımayacaqdır. Orada keçirilən qanunsuz referendumlar dünya birliyi tərəfindən tanınmayıb və tanınmayacaqdır. Məsələnin həlli ölkəmizin ərazi bütövlüyü çərçivəsində olacaqdır. Başqa variant yoxdur! Mən bunu bir daha bəyan etmək istəyirəm. Heç vaxt Azərbaycan ərazisində ikinci erməni dövləti yaradıla bilməz! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir! Biz sadəcə olaraq, istəyirik ki, bunu nə qədər mümkündürsə tez edək. Ancaq edəcəyik.

Onu da qeyd etməliyəm ki, bu münaqişədən xalqımız, qaçqınlar və köçkünlər əziyyət çəkir. Ancaq biz məsələni köklü şəkildə həll etməliyik. Yəni məsələnin yarımçıq şəkildə həll

edilməsi sadəcə, bir mərhələ ola bilər və təbii ki, mərhələli həll üstünlük təşkil edir və edəcəkdir. Ancaq biz əsas hədəfi yaddan çıxarmamalıyıq. Azərbaycanlılar işğal edilmiş torpaqlara, Dağlıq Qarabağa – o da işğal edilmiş torpaqdır – qayıtmalıdırlar. Azərbaycan öz suverenliyini bərpa etməlidir. Erməni xalqı Azərbaycan dövləti çərçivəsində yüksək muxtariyyət statusuna malik olan şəraitdə yaşaya bilər. Biz bunu təklif etmişik və bu yanaşma dünyada və Avropada ən müsbət təcrübəyə əsaslanır. Siz diplomatlar yaxşı bilirsiniz və biz bu məsələni öyrənmişik – dünyada, Avropada nə qədər muxtariyyətlər vardır. Orada bütün məsələlər çox gözəl tənzimlənir. Bizim məsələdə də bu yanaşma üstünlük təşkil etməlidir.

Əlbəttə ki, gələcəkdə xalqımız bütün tarixi torpaqlara qayıdacaq, qayıtmalıdır. Mən əminəm ki, o gün gələcəkdir. Çünki bu gün ölkəmizin siyasi çəkisi, iqtisadi potensialı və demoqrafik vəziyyətimiz belə deməyə əsas verir. Bizim əhalimiz artır, artacaq, Ermənistan əhalisi azalır və azalacaqdır. Bizim Ermənistanı müəyyən dərəcədə təcrid edilmiş vəziyyətdə saxlamağımız, bax, bu məqsədi güdür. Biz onları bütün iqtisadi və enerji layihələrindən təcrid etmişik və buna görə tənqid olunmuşuq. Bu gün də tənqid olunuruq, siz də bunu yaxşı bilirsiniz. Ancaq biz öz məqsədimizə çatmalıyıq. Tənqid əsaslıdırsa, biz, əlbəttə ki, bu tənqidi qəbul edə bilərik. Ancaq əsassız tənqidi biz heç vaxt nəzərə ala bilmərik. Ona görə Ermənistan bundan sonra da təcrid edilmiş vəziyyətdə qalacaqdır. Belə olan halda, çox kiçik daxili bazarı və ixrac imkanları sıfıra bərabər olduğu üçün, əlbəttə, Ermənistanın inkişaf potensialı yoxdur. Bunun səbəbidir ki, ildən-ilə oradan miqrasiya artır və onların rəsmi statistikasına görə bu ilin birinci rübündə 40 min erməni ölkəni tərk edib. Amma real rəqəmlər ondan da böyükdür. Bu, il ərzində 100 mini keçəcəkdir. Azərbaycan güclənir, Ermənistan zəifləyir. Ermənistanı ayaqda saxlayan ancaq xarici yardımdır, diaspordur və bəzi ölkələrin Ermənistana xüsusi münasibətidir. Bunu da siz yaxşı bilirsiniz ki, burada bu amil də öz rolunu oynayır.

Ancaq dünyada gedən proseslərin inkişafı onu göstərir ki, biz hər il, hər ay öz məqsədimizə yaxınlaşırıq və məqsədimiz ərazi bütövlüyümüzü bərpa etmək, Azərbaycan bayrağını Şuşada, Xankəndidə qaldırmaqdır. Budur bizim əsas vəzifəmiz və bu məqsədə çatmaq üçün nəinki diplomatlar, bütün cəmiyyət öz səylərini birləşdirməlidir, birləşdiribdir. Bu bizim milli məsələmizdir. Azərbaycanda bundan vacib məsələ yoxdur və bu məqsədə çatmaq üçün biz hər gün çalışırıq və çalışacağıq.

Bizim xarici siyasətimizlə bağlı olan əsas istiqamətlər müəyyən edilib. Mən bir neçə məsələ haqqında fikirlərimi bildirmək istəyirəm. Çünki, əlbəttə ki, bizim xarici siyasətimiz əsaslıdır və strateji xətt seçilibdir, davam edir. Ancaq, əlbəttə ki, vaxtaşırı bu məsələlərə aydınlıq gətirmək lazımdır, prioritetlər düzgün müəyyən edilməlidir və belə olan halda bizim xarici siyasətimiz daha da uğurlu olacaqdır. Qonşularla münasibətlərimiz çox müsbətdir. Hesab edirəm ki, biz bu münasibətləri bundan sonra da inkişaf etdirməliyik. Bütün qonşularla – təbii ki, Ermənistan istisna olmaqla – bizim çox sağlam münasibətlərimiz vardır. Bu münasibətlər bərabərhüquqlu münasibətlərdir, çox möhkəm zəmin üzərində qurulubdur. Artıq bütün qonşularla münasibətlərimiz ikitərəfli maraqları təmin edir. Belə də olmalıdır. Biz bu bölgədə, bu coğrafiyada yaşayırıq. Ona görə qonşu ölkələrlə sağlam, mehriban qonşuluq münasibətləri hər bir ölkə, o cümlədən Azərbaycan üçün önəmlidir. Mən çox şadam ki, bizim bütün qonşularla çox gözəl bərabərhüquqlu və əsaslı münasibətlərimiz vardır. Burada həm siyasi, həm iqtisadi komponent mövcuddur. Əlbəttə ki, tarixi, mədəni əlaqələr də öz rolunu oynayır və hesab edirəm ki, biz gələcək illərdə qonşularımızla münasibətlərimizi daha da möhkəmləndirəcəyik. Çünki biz də istəyirik ki, hər yerdə inkişaf, hər yerdə sülh olsun və əlbəttə ki, qonşuluğumuzda da vəziyyət daim sabit olsun. Çünki Azərbaycanın indiki reallıqları bundan ibarətdir ki, ölkədə daxili təhlükə mənbəyi yoxdur. Heç bir narahatedici məqam da yoxdur. Azərbaycanın sürətli inkişafı, sabitliyin qorunması,

xalqla iqtidar arasındakı birlik, xarici və daxili siyasətlə bağlı uğurlarımız, bax, belə vəziyyəti yaradıbdır. Daxili təhlükə mənbəyi yoxdur.

Ona görə də biz istəyirik ki, ətrafda da təhlükə mənbəyi olmasın. Biz qonşularımızla bu istiqamətdə ikitərəfli və çoxtərəfli formatda çalışırıq, işləyirik. Hesab edirəm ki, gələcək illərdə də bu, prioritet olaraq qalmalıdır. Eyni zamanda, son illərdə yenə də bizim təşəbbüsümüzlə üçtərəfli formatlar da müəyyən edilmişdir. Onu da qeyd etməliyəm ki, bu, Azərbaycanın təşəbbüsüdür və bu gün belə formatlar vardır. Azərbaycan–Türkiyə–Gürcüstan, Azərbaycan–Türkiyə–İran və son vaxtlar Azərbaycan–Türkiyə–Türkmənistan üçtərəfli formatları vardır. Xarici işlər, iqtisadiyyat və sənaye nazirlikləri səviyyəsində görüşlər keçirilir. Artıq prezidentlər səviyyəsində də bir görüş keçirilmişdir. Bunun da çox böyük faydası vardır. Burada, əlbəttə ki, həm siyasi və iqtisadi, həm də enerji məsələləri müzakirə edilir. Bu çox uğurlu bir əməkdaşlıq formatıdır. Deyə bilərəm ki, bu formatın çox gözəl nəticələri vardır. Belə görüşlərin keçirilməsi özlüyündə çox müsbət əlamətdir. Çünki burada regional əməkdaşlıq daha da möhkəmlənir. Biz isə həmişə çalışmışıq ki, regional əməkdaşlıq güclənsin. Hər bir ölkə, o cümlədən Azərbaycan regional əməkdaşlıq hesabına öz maraqlarını daha dolğun şəkildə təmin edə bilər. Ona görə, bax, belə təşəbbüslər, əlbəttə ki, uğur gətirəndə bu bizi sevindirir. Çünki bizim xarici siyasətimiz yerində durmur. Biz daim axtarışda olmalıyıq, daim yeni əməkdaşlıq formaları haqqında fikirləşməliyik, təşəbbüs göstərməliyik ki, Azərbaycanın xarici siyasəti daha da uğurlu olsun.

Biz, əlbəttə ki, ikitərəfli formata üstünlük veririk. Biz bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı maraqlar üzərində qurulan münasibətlərin tərəfdarıyıq. Buna nail ola bilmişik. Əlbəttə ki, ikitərəfli format ən uğurlu formatdır.

Müsəlman ölkələri ilə əlaqələrimiz çox möhkəmdir. Azərbaycan islam aləminin bir parçasıdır. İslam Əməkdaşlıq

Təşkilatı çərçivəsində çox fəal iş aparırıq. Bu təşkilatın xətti ilə Azərbaycanda çoxsaylı tədbirlər keçirilmişdir. Biz islam həmrəyliyinin gücləndirilməsi istiqamətində öz töhfəmizi veririk. Əlbəttə ki, beynəlxalq arenada, xüsusilə BMT-də müsəlman ölkələrinin dəstəyi çox əhəmiyyətlidir. Bu qarşılıqlı dəstək artıq bir reallığa çevrilibdir və bu bizi daha da gücləndirir. Bizim müsəlman ölkələri ilə tarixi əlaqələrimiz vardır. Bu əlaqələr bu gün yeni müstəviyə qalxıbdır. Ona görə bundan sonrakı illərdə də müsəlman ölkələri ilə əlaqələr daim inkişafda olmalıdır. Burada, əlbəttə ki, müxtəlif variantlar mümkündür. Siyasi əlaqələr təbii ki, çox yüksək səviyyədədir. Hesab edirəm ki, biz iqtisadi sahədə fəaliyyəti gərək bir az artıraq. Buna imkan vardır. Hesab edirəm ki, Azərbaycan investisiyalarını müsəlman ölkələrinə qoymaqla, biz iqtisadi sahədə də vəziyyəti yaxşılaşdıra bilərik.

Avropa ölkələri bizim ənənəvi tərəfdaşlarımızdır. Burada da ikitərəfli format hesab edirəm ki, bizim maraqlarımıza cavab verir. Avropanın əksər ölkələri ilə bizim çox işgüzar və səmimi münasibətlərimiz vardır. Mənim Avropa ölkələrinə səfərlərim, Avropanın dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunu əyani şəkildə göstərir. Avropa bizim əsas ticarət tərəfdaşımızdır. Bizim ixrac məhsullarımız daha çox Avropa məkanına göndərilir.

Əlbəttə ki, ikitərəfli əlaqələrin inkişafı üçün gözəl imkanlar vardır. Burada da münasibətlər qarşılıqlı maraqlar üzərində qurulubdur. Biz Avropaya daha yaxın olmaqla Azərbaycanda siyasi islahatları dərinləşdiririk. Bu bizim üçün çox önəmlidir. Biz Avropanın bu sahədəki müsbət təcrübəsini öyrənirik və götürürük. Çünki bu, ölkəmizin uğurlu inkişafı üçün lazımdır.

Eyni zamanda, Avropa texnologiyaları bizə lazımdır. Biz bu gün ölkəmizi sürətlə inkişaf etdiririk. Müasirləşmə, sənayeləşmə prosesləri gedir. Nəinki Bakıda, hər bir yerdə çox böyük inkişaf vardır. Ona görə yeni texnologiyalar olmadan bu inkişafa nail olmaq mümkün deyil. Düzdür, bu texnologiyaları bizə heç kim pulsuz vermir. Biz bunları alırıq və heç bir

problem yoxdur. İndi bizə texnologiyaları satmaq istəyən şirkətlərin sayı o qədərdir ki, burada heç bir çətinlik yoxdur. Ancaq hesab edirəm ki, bu məsələ də ikitərəfli formatda öz yerini tutmalıdır. Xüsusilə nəzərə alsaq ki, Avropanın bəzi ölkələrində iqtisadi və maliyyə böhranının fəsadları hələ aradan qalxmayıbdır, əlbəttə, Avropa şirkətlərinin Azərbaycanda fəaliyyət göstərmələri onlar üçün də böyük maraq doğurur.

Azərbaycanda infrastruktur, neft-qaz layihələri həyata keçirilir. Bildiyiniz kimi, yaxın illərdə 10 milyardlarla dollar sərmayə qoyulacaqdır. Burada, əlbəttə ki, Avropa şirkətləri fəal iştirak edəcəkdir. Hesab edirəm ki, bizim Avropa ölkələrində fəaliyyət göstərən diplomatlar üçün, bax, bu iqtisadi maraqlar ön planda olmalıdır. Çünki bu gün Azərbaycan dünyada nadir ölkələrdəndir ki, burada heç bir böhran, heç bir çətinlik, heç bir asılılıq yoxdur. Əksinə, bizim artan iqtisadi gücümüz, maliyyə potensialımız imkan verir ki, nəinki ölkə daxilində, Avropada da investisiyalar qoyaq.

Əlbəttə, son illər Asiya ölkələri ilə bizim əməkdaşlığımız çox sürətlə inkişaf edir və mən bunu çox müsbət qiymətləndirirəm. Çünki biz müstəqilliyimizi əldə etdikdə, əlbəttə ki, xarici siyasətimiz ilk illərdə özünü sanki bizə olan marağın cavabı kimi göstərirdi. Yəni kim Azərbaycana maraq göstərirdi, biz onlarla daha çox əlaqələr qururduq. Təbii ki, ilk belə maraq göstərən Avropa ölkələri – Qərb ölkələri olmuşdur. Xüsusilə neft-qaz sektoruna olan maraq orada əsas rol oynamışdır. Biz də təbii ki, münasibətlərimizi ilk növbədə, o ölkələrlə qurduq.

Ümumiyyətlə, ilk illərdə belə bir təsəvvür var idi ki, bizim əsas tərəfdaşlarımız Qərb dünyasıdır. Əlbəttə ki, biz təxminən 23 ildir müstəqillik şəraitində yaşayırıq və indi bizim üçün dünyada heç bir sirr yoxdur. Ona görə müstəqilliyin ilk illərində Asiya ölkələri ilə münasibətlərimiz bir müddət o qədər də yüksək səviyyədə olmamışdır. Ancaq bu gün bu bizi tam qane edən səviyyədədir.

Mənim səfərlərim, Asiya ölkələrinin rəhbərlərinin Azərbaycana səfərləri, qarşılıqlı maraqlar və qarşılıqlı hörmət bu gün

bu münasibətləri təcəssüm etdirir. Asiya ölkələri ilə siyasi və iqtisadi əməkdaşlıq aparmaq üçün çox böyük potensial vardır. Azərbaycana da çox böyük maraq vardır. Bu həm ölkənin potensialı, eyni zamanda, bayaq qeyd etdiyim məsələ – müstəqil siyasət ilə əlaqədardır.

Çünki bu gün dünyada tam şəkildə müstəqil siyasət aparan ölkələrin sayı o qədər də çox deyildir. Bəzi hallarda bu müstəqil siyasət adı altında birtərəfli və radikal siyasət aparılır. Biz bunun da tərəfdarı deyilik. Biz heç bir ölkə ilə qarşıdurma siyasəti aparmaq niyyətində deyilik. Yəni bu bizim maraqlarımıza cavab vermir. Biz hər bir qarşıdurmaya hazırıq. Lazım gəldikdə sözümüzü deyirik, maraqlarımızı müdafiə edirik. Ancaq özümüz buna heç bir ehtiyac duymuruq. Biz, əksinə, bütün ölkələrlə çox xoş münasibətlər qurmaq əzmindəyik və buna nail olmuşuq. Ancaq milli maraqlarımızın hesabına yox – əsas məsələ bundadır – bərabərhüquqlu münasibətlərin hesabına.

Ona görə müstəqil siyasətimiz və beynəlxalq məsələlərlə bağlı göstərdiyimiz prinsipiallıq Asiya ölkələrinin bizə olan rəğbətini artırır. Biz, əlbəttə ki, bundan sonra da bu istiqamətdə fəal işləyəcəyik.

Beynəlxalq təşkilatlarla əməkdaşlığımız artıq uzun illərdir ki, aparılır. Hesab edirəm ki, Azərbaycan beynəlxalq təşkilatlarda çox uğurlu siyasət aparır. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bunu əyani şəkildə göstərir. BMT-də bizim fəaliyyətimiz, əlbəttə ki, prioritet təşkil edir. Çünki BMT yeganə təşkilatdır ki, bütün dünya ölkələri orada cəmləşir və əslində, beynəlxalq ictimaiyyət deyəndə ilk növbədə, BMT nəzərə alınmalıdır.

Əfsuslar olsun ki, son vaxtlar kütləvi informasiya vasitələrində «beynəlxalq ictimaiyyət» sözü çox işlədilir və bu söz bir qrup ölkələri nəzərdə tutur. Ancaq beynəlxalq ictimaiyyət BMT-dir və beynəlxalq ictimaiyyət Azərbaycanı dəstəkləyir, öz dəstəyini göstərmişdir. Ona görə indi bizim böyük, əvəzolunmaz təcrübəmiz vardır və biz BMT-də səylərimizi

genişləndirməliyik. BMT-də ikitərəfli əlaqələri, xüsusilə o ölkələrlə ki, münasibətlərimiz lazımi səviyyədə deyil, biz onlarla bu əlaqələri möhkəmləndirə bilərik və bunu edəcəyik.

Biz digər beynəlxalq təşkilatlarda, ATƏT-də, əlbəttə ki, çox fəal iştirak edirik. Əfsuslar olsun ki, ATƏT Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində öz sözünü deyə, heç bir nəticə hasil edə bilməyib. Sadəcə olaraq, 20 ildən artıqdır ki, məsələ nə hərb, nə sülh vəziyyətindədir. Baxmayaraq ki, ATƏT işğal edilmiş torpaqlara 2 dəfə faktaraşdırıcı və qiymətləndirmə missiyası göndərmişdir. Onlar da məruzə hazırlamışlar, sonra çalışmışlar ki, bu məsələni tarazlaşdırsınlar. Bunu necə tarazlaşdırmaq olar?! Bizim torpaqlarımız işğal edilib, daş-daş üstə qalmayıb. Bütün şəhərlər, məscidlər, tarixi abidələr, qəbirlər dağıdılıb və burada hansı bir tarazlaşdırılmış məruzədən söhbət gedə bilər?! Əlbəttə ki, bu riyakarlıqdır, dözülməz bir yanaşmadır. Amma buna baxmayaraq – yəni həqiqətləri də tam şəkildə inkar edə bilmirlər – bu missiyaların hesab edirəm ki, müsbət nəticələri olmuşdur.

Bu yaxınlarda Bakıda ATƏT Parlament Assambleyasının toplantısı keçirilmişdir. Biz bu kürsüdən də öz sözümüzü dedik və deyəcəyik. Çünki biz üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda prinsipial mövqemizi daim ifadə edirik və edəcəyik. Çünki bir daha demək istəyirəm ki, bizimlə məntiqi nöqteyi-nəzərdən mübahisə etmək mümkün deyildir. Çünki biz həqiqəti deyirik və bu həqiqət bəzilərinin xoşuna gəlmir. Bu onların işidir. Amma biz həqiqəti deyirik. Biz istər Qarabağ məsələsi ilə, istər digər məsələlərlə, istər daxildəki vəziyyətlə, ümumiyyətcə, dünyada gedən proseslərlə bağlı həqiqəti deyirik. Həqiqəti inkar etmək mümkün deyildir. Ona görə də ATƏT-də, əlbəttə ki, bizim fəaliyyətimiz bundan sonra da çox fəal olacaqdır.

Mən İslam Əməkdaşlıq Təşkilatı haqqında danışdım. Hesab edirəm ki, bizim bu təşkilatda fəaliyyətimiz çox uğurludur. Çünki İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial

qətnamələr qəbul etmişdir. Mən hesab edirəm ki, biz bu təşkilat çərçivəsində və müsəlman ölkələri ilə ikitərəfli formatda Qarabağ həqiqətlərini daha dolğun şəkildə onların diqqətinə çatdırmalıyıq. Əlbəttə, bunu bilirlər və bilməsələr bu qətnamələr qəbul olunmaz. Ancaq biz nəyi görürük? Ermənistan çalışır ki, müsəlman ölkələri ilə ikitərəfli münasibətləri qursun, ya da möhkəmləndirsin. Burada bəzi hallarda məlumat qıtlığı bu imkanları onlar üçün yaradır. Ancaq hesab edirəm ki, bütün müsəlman ölkələrinin vəzifəli şəxsləri ermənilərin Dağlıq Qarabağda və ətraf yerlərdə məscidləri dağıtdıqlarını bilsələr, inanmıram Ermənistan bu münasibətləri qurmaqda uğur qazansın.

Ona görə yenə də hesab edirəm ki, Azərbaycanın dağıdılmış abidələri, dini abidələri barədə şəkillərdən və məlumatlardan ibarət 5–10 səhifəlik müxtəlif formada broşürlər, kitabçalar, jurnallar dərc edilməlidir. Bunlar hər bir xarici idarəyə, hər bir ölkənin Xarici İşlər Nazirliyinə, mətbuat orqanlarına, «beyin» mərkəzlərinə göndərilməlidir ki, bilsinlər məscidləri dağıdan ölkə müsəlman ölkələri ilə necə uğurlu əməkdaşlıq edə bilər?! Ermənistan isə, əlbəttə ki, bu həqiqətləri gizlətmək, danmaq istəyir, biz isə buna imkan verməməliyik. Ona görə – burada, əlbəttə ki, diplomatik səylər öz yerində – eyni zamanda, güclü təbliğat qurulmalıdır. Əslində qurulur, müsbət nəticələri vardır. Sadəcə olaraq, istəyirəm ki, daha da müsbət olsun.

Bizim digər beynəlxalq təşkilatlar ilə də əlaqələrimiz uğurludur. Biz indi Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edirik. Bu yaxınlarda Strasburqda olarkən sədrliklə bağlı öz prioritetlərimizi ifadə etdim, təkrar etmək istəmirəm. Ümumiyyətlə, bu təşkilat çərçivəsində fəaliyyətimizlə bağlı fikirlərimi dəfələrlə bildirmişəm. Əfsuslar olsun ki, o təşkilatda antiazərbaycan qruplaşması vardır və uzun illərdir fəaliyyət göstərir. Diplomatlar yaxşı bilirlər ki, o qruplaşma Azərbaycanı Avropa Şurasına qəbul etmək istəmirdi. O vaxt bizə qarşı əsassız ittihamlar irəli sürülürdü. Hətta bəziləri deyirdilər ki, Azərbaycan Avropa Şurasına üzv olsa, bu təşkilatın qan tərkibi dəyişəcəkdir. Görün nə qədər rasist, ksenofob və faşist

mövqedə olan insanlardır. Belə insanlar vardır və heç kim bunu dana, inkar edə bilməz.

Onların arxasında dayanan erməni lobbisidir. Çünki siz yaxşı bilirsiniz ki, bu gün erməni lobbisi üçün bir nömrəli hədəf Azərbaycandır. Bütün səylərini birləşdirib Azərbaycana qarşı kampaniya aparırlar. Onların nümayəndələri, əlbəttə ki, mediada, başqa ölkələrin hökumətlərində, ictimai qurumlarda vardır. Onlar möhkəm kök salmışlar və Azərbaycanı bir nömrəli hədəf seçmişlər, çalışırlar ki, bizi hər tərəfdən vursunlar. Ancaq buna baxmayaraq, bizim uğurlu inkişafımıza təsir edə bilmirlər. Yaxşı olardı ki, onlar indi Ermənistanın acınacaqlı vəziyyətini daha dərindən dərk etsinlər və sual versinlər ki, nə üçün Ermənistan belə bərbad vəziyyətdədir, nə üçün bu ölkə getdikcə tamamilə öz müstəqilliyini itirir və müstəqil siyasət aparmaq imkanı yoxdur, sadəcə olaraq, ona-buna qulluq etməklə məşğul olur və öz gələcəyini bunda görür?! Ona görə erməni lobbisi, eyni zamanda, Azərbaycana qarşı qərəzli mövqedə olan deputatlar, əlbəttə ki, Avropa Şurası Parlament Assambleyasında vardır. Biz onların cavabını vermişik. Hələ mən orada nümayəndə heyətinin rəhbəri olan zaman onların cavabını vermişəm. Bu dəfə də cavablarını verdim. Çünki yenə də deyirəm, bizimlə məntiq üzərində mübahisə aparmaq mümkün deyildir. Yalan danışmaq olar, ancaq biz orada olanda o yalanın üstünü açırıq, çünki yalan yalandır. Yenə də deyirəm, tənqid əsaslıdırsa, biz bunu alqışlayırıq və bu bizə kömək edir. Ancaq əsassız tənqid sadəcə olaraq, ölkəmizə qarayaxma cəhdidir.

Hesab edirəm ki, bizim Avropa Şurasında uğurlu fəaliyyətimiz vəziyyəti tamamilə dəyişdiribdir. Çünki keçən ilin yanvar ayında Azərbaycana qarşı hazırlanan qərəzli məruzə iflasa uğradı. O məruzəni təqdim edən deputat, demək olar ki, tamamilə biabır olmuşdur. Avropa Şurası Parlament Assambleyası o əsassız, qərəzli, yalan üzərində yazılmış məruzəni rədd etdi. Bu bizim böyük qələbəmizdir. Ona görə biz Avropa Şurasında bundan sonra da fəal işləyəcəyik. Bilirəm ki, son vaxtlar bizə qarşı aparılan kampaniyalar, qarayaxma cəhdləri, qara piar

kampaniyaları Azərbaycan ictimaiyyətini, əlbəttə, həm incidir, həm də ki, müəyyən dərəcədə narahat edir. Mənə gələn məlumatlar və suallar ondan ibarətdir ki, nə üçün biz bu qədər ədalətsizliyə cavab verməməliyik?! Biz cavab veririk.

Nə üçün biz yenə də Avropa siyasətimizi hələ ki, prioritet kimi xarici siyasət prioritetləri sırasında saxlayırıq?! Mən həmişə deyirəm ki, biz öz hədəfimizə doğru getməliyik və gedirik. Əgər biz oradan-buradan ayağımıza dolaşmaq istəyənlərə fikir versək, hesab edirəm ki, bu, düzgün olmaz. Çünki mahiyyət etibarilə bu gün bizim Avropa ölkələri ilə çox möhkəm və sağlam ikitərəfli münasibətlərimiz vardır. Mənim Avropa ölkələrinə çoxsaylı səfərlərim, Avropa dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunu göstərir. Mən sizə açıq deyə bilərəm ki, ikitərəfli səfərlər zamanı Avropa liderləri ilə ikitərəfli görüşlər əsnasında bu 11 il ərzində bir dəfə də olmayıb ki, Azərbaycana qarşı hansısa bir hörmətsizlik və yaxud işimizə qarışma cəhdi görüm. Heç vaxt. Burada özünü müxalifət və yaxud hüquq müdafiəçisi adlandıran bəziləri hesab edirlər ki, bizə kimsə nə isə deyəcək, biz də onu edəcəyik. Bunlar sadəlövh insanlardır. Yumşaq desək, ya özləri sadəlövhdürlər, ya da ki, sadəcə olaraq, belə rəy yaratmaq istəyirlər. Bu 11 il ərzində bizim daxili siyasətimizlə bağlı ikitərəfli formatda heç vaxt Avropa liderləri tərəfindən mənə bir söz deyilməyib. Bu gün mən bunu ilk dəfə deyirəm. Əlbəttə, beynəlxalq təşkilatlar deməlidir. Yəni bunların siyasi həyat tərzi belədir. Biz bunu sadəcə olaraq bilməliyik.

Əlbəttə ki, hər bir əsassız ittihama görə biz cavab verməliyik və artıqlaması ilə veririk. Bizim diplomatlarımız da çalışdıqları ölkələrdə həmişə bunu izləməlidirlər və mətbuata, hansısa bir qeyri-hökumət təşkilatının əsassız ittihamına cavab verməlidirlər. Ancaq yenə də deyirəm, bu məsələ bizi ümumi hədəfdən döndərməməlidir. Bizim hədəfimiz inkişaf etmiş ölkəyə çevrilməyimizdir. Bizim hədəfimiz ərazi bütövlüyümüzün bərpasıdır, Azərbaycan xalqının bundan sonra da uzun illər ərzində gözəl həyatının təmin edilməsidir. Biz bu

hədəfə doğru gedirik. Biz hər bir istiqamət üzrə hədəfə doğru gedirik. Bizim daxili siyasət, iqtisadi siyasət, sosial siyasət, ordu quruculuğu siyasəti, xarici siyasət ilə bağlı düşünülmüş konseptual yanaşmaya söykənən siyasətimiz vardır. Bizim uğurlarımızın səbəbi bundan ibarətdir. Bir çox hallarda xarici qonaqlar məndən soruşurlar ki, Azərbaycanın uğurları nə ilə bağlıdır? Bunu mən necə izah edim? Bunu izah etmək üçün gərək 10 ilin tarixini biz yenidən nəzərdən keçirək. Bu, ardıcıl siyasətin nəticəsidir.

Ona görə hesab edirəm ki, biz bütün ikitərəfli formatlarda və beynəlxalq təşkilatlarda fəaliyyətimizi sadəcə olaraq daha da fəallaşdırmalıyıq. Öz sözümüzü deməliyik, deyirik. Bərabərhüquqlu münasibətlərin təmin edilməsi hesab edirəm ki, Azərbaycanın artan gücü hesabına mümkün olmuşdur.

Əlbəttə ki, diaspor təşkilatları ilə bizim səfirliklərimiz fəal əlaqədə olmalıdırlar. Bilirəm ki, bu belədir. Əvvəlki illərdə müəyyən ziddiyyətlər olmuşdur. Diaspor nümayəndələri ilə keçirilən görüşlərimdə də, ondan sonra keçirilən qurultayda da dəfələrlə demişəm ki, diaspor təşkilatları səfirliklərlə bir yerdə olmalıdır. Çünki səfirlik Azərbaycanın xarici siyasətini aparan qurumdur. Diaspor təşkilatları səfirliklər ətrafında birləşməlidirlər. Öz aralarında mübahisə aparmamalıdırlar və öz fəaliyyəti ilə ölkəyə zərbə vurmamalıdırlar.

Əlbəttə, hesab edirəm ki, bizim dövlət siyasətimiz burada öz nəticəsini göstərmişdir və bilirəm ki, indi əksər hallarda diaspor təşkilatları səfirliklərlə bir yerdə işləyirlər, çalışırlar, tədbirlər keçirirlər. Hesab edirəm ki, bu bizim gücümüzü artırır, eyni zamanda, diaspor nümayəndələri də özlərini daha rahat hiss edirlər. Çünki bilirlər ki, möhkəm, güclü Azərbaycan dövləti onların arxasında dayanıb. Onlar da bilirlər ki, Azərbaycan dövləti öz vətəndaşlarını daim müdafiə edir və edəcəkdir. Bir çox hadisələr bunu artıq göstərmişdir.

Bizim artan iqtisadi imkanlarımız, əlbəttə ki, xarici siyasətə də müsbət təsir göstərir. Bir daha demək istəyirəm ki, bu gün xaricdə investisiyalara çox böyük ehtiyac vardır. Siz də yaxşı bilirsiniz ki,

bəzi Avropa ölkələrinin böhrandan çıxmaq üçün əsas siyasət istiqamətləri investisiyaları çoxaltmaqdır. Amma nəyin hesabına? Əgər daxili resurs yoxdursa, nəyin hesabına investisiyaları yönəltmək mümkündür? Ancaq xarici investisiyaların hesabına. Xarici investorların əksəriyyəti – hər halda bizim təcrübəmiz onu göstərir – Qərb ölkələridir. Orada indi böhran yaşanır. Ona görə investisiya imkanları olan ölkələrə indi çox böyük maraq vardır. Azərbaycan da o ölkələrdəndir. Ona görə hesab edirəm ki, bizim iqtisadi diplomatiyamız da çox fəal olmalıdır. Mən burada bir neçə istiqamət görürəm. İlk növbədə, Azərbaycan investisiyalarını xarici ölkələrə yönəltmək. Əslində bu gün bu, siyasətimizin tərkib hissəsidir. Çünki iqtisadi qanunlar vardır. Biz bundan sonra ölkə iqtisadiyyatına kütləvi həcmdə investisiyalar qoya bilmərik. Çünki bu, inflyasiyanı sürətləndirə, digər xoşagəlməz proseslərə gətirib çıxara bilər. Biz investisiyanı tənzimləyici həcmdə qoyuruq. Maliyyə resurslarımız da vardır. Ona görə biz indi xarici bazarlara – o ölkələrə ki, onlarla bizim yaxşı münasibətlərimiz vardır – öz investisiyalarımızla çıxırıq. Bax, bu da çox önəmlidir.

Ona görə hesab edirəm ki, burada İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Dövlət Neft Fondu, Xarici İşlər Nazirliyi birlikdə çalışmalıdır. Biz xaricə qoyulan investisiya portfelini, əlbəttə ki, təsdiq edirik. Azərbaycan şirkətlərini xarici bazarlara çıxarmaq üçün bizim səfirliklər çalışırlar. Keçən müşavirədə də mən qarşıya bu vəzifəni qoymuşam. Son vaxtlar xaricdə Azərbaycan şirkətlərinin sayı da, onların fəaliyyəti də artır.

Enerji diplomatiyamız – bu da, əlbəttə ki, çox önəmli məsələdir. Çünki bu gün enerji təhlükəsizliyini ölkələrin milli təhlükəsizliyindən ayırmaq mümkün deyildir. Azərbaycan enerji təhlükəsizliyini tam şəkildə təmin edib və başqa ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında fəal iştirak edir. Son vaxtlar imzalanan sazişlər bizim imkanlarımızı xeyli artıracaq və Azərbaycanı dünya üçün, Avropa üçün daha da önəmli ölkəyə çevirəcəkdir. «Şahdəniz-2», TANAP, TAP layihələri Avropanın ən böyük infrastruktur layihələridir. Azərbaycan liderliyi öz üzərinə götürüb. Bu layihələrin icrası nəticəsində biz böyük bazara

çıxış əldə edəcəyik. Avropa məkanı da yeni qaz mənbəyinə çıxış əldə edəcəkdir. Yeni qaz mənbəyi – ən önəmlisi budur, yeni marşrut yox, yeni qaz mənbəyi. Avropa üçün bu gün yeni qaz mənbəyi sadəcə olaraq, Azərbaycandır. Başqa yeni mənbə yoxdur və yaxın zamanlarda olmayacaqdır.

Ona görə bu məsələ ilə bağlı – eyni zamanda, bu layihələrin icrası zamanı onlarla, yüzlərlə xarici şirkət çalışacaq – kontraktlar imzalanacaqdır. Artıq bir çox kontraktlar imzalanmışdır və bu kontraktlar o şirkətlər üçün böyük gəlir mənbəyidir. Burada da hesab edirəm ki, əlbəttə, bütün bu məsələlər açıq tender yolu ilə həll ediləcəkdir. Ancaq yenə də Azərbaycan bu layihələrin lideri, təşəbbüskarı kimi, öz sözünü deyə bilər və deyəcəkdir. Burada da hesab edirəm ki, həm iqtisadi parametrlər, eyni zamanda, bizim ikitərəfli əlaqələr də nəzərə alınmalıdır. Ona görə biz bu layihələrin icrası nəticəsində bir neçə hədəfə çatacağıq. Əminəm ki, bu böyük layihələri vaxtında icra edəcəyik.

Bir daha demək istəyirəm ki, Azərbaycan prinsipial, ardıcıl xarici siyasət aparır. Müstəqil xarici siyasət aparır və bundan sonra da aparacaqdır. Azərbaycanın diplomatik korpusu uğurla fəaliyyət göstərir. Sizin fəaliyyətinizdən mən bütövlükdə razıyam. Əlbəttə, müxtəlif nöqsanlar, çatışmazlıqlar ola bilər. Ancaq bütövlükdə Azərbaycan diplomatiyası inkişaf dövrü yaşayır. Mən sizə fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Sağ olun.

# GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ DAVİD USUPAŞVİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Gürcüstan parlamentinin Sədri David Usupaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimizin uğurla inkişaf etdiyini bildirdi. Parlamentlərimiz arasında əlaqələrin önəmini vurğulayan prezident İlham Əliyev parlamentlərarası, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın inkişafından məmnunluğunu ifadə etdi. Prezident qanunvericilik sahəsində təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edərək, parlamentlər arasında əlaqələrin ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verdiyini bildirdi.*

*Gürcüstan parlamentinin Sədri David Usupaşvili rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərində məqsədin iki ölkə parlamentləri arasında qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsindən ibarət olduğunu bildirdi. Qonaq qarşılıqlı faydalı və strateji münasibətlərimizin qurulması işində deputatların rolunu qeyd edərək, Gürcüstanda yeni seçilmiş parlamentin Azərbaycan ilə bundan sonra da uğurlu əməkdaşlığı davam etdirəcəyini məmnunluqla vurğuladı.*

## NATO DƏSTƏK AGENTLİYİNİN BAŞ MENECERİ MAYK LAYDEN İLƏ GÖRÜŞ

*7 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də NATO Dəstək Agentliyinin baş meneceri Mayk Laydeni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə NATO arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Azərbaycan Respublikası Prezidentinin NATO-nun baş qərargahına son səfərinin və səfər zamanı keçirdiyi görüşlərin əlaqələrimizin inkişafı baxımından önəmi qeyd edildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA XALQ PARTİYASININ VƏ MƏRKƏZÇİ DEMOKRATLAR İNTERNASİONALININ BAŞ KATİBİ ANTONİO-LOPEZ İSTURİZ İLƏ GÖRÜŞ

*7 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Avropa Xalq Partiyasının və Mərkəzçi Demokratlar İnternasionalının baş katibi Antonio-Lopez İsturizi qəbul etmişdir.*

*Görüşdə Yeni Azərbaycan Partiyası ilə Avropa Xalq Partiyası və Mərkəzçi Demokratlar İnternasionalı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA**

Hörmətli cənab Prezident!

Monqolustanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monqolustan arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 iyul 2014-cü il*

# NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY İLƏ GÖRÜŞ

*8 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul etmişdir.*

*NATO ilə Azərbaycan arasında əlaqələri yüksək qiymətləndirən alyansın baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay uğurlu əməkdaşlığa, xüsusilə Azərbaycan sülhməramlılarının Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəyə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı NATO baş qərargahına son səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlatdı, Azərbaycan ilə NATO arasında əlaqələrin razılıq doğurduğunu bildirdi, əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən layihələr, əlaqələrimizin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*9 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli səfirlər, mən sizi ürəkdən salamlayıram. Müqəddəs Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Bizim ölkələrdə ənənələrə böyük hörmət var. Bir çox məsələlər, ənənələr bizim xalqlarımızı birləşdirir. Fürsətdən istifadə edərək xahiş edirəm ki, mənim səmimi salamlarımı və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Biz sizinlə il ərzində müxtəlif tədbirlərdə, təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarının, digər yüksək vəzifəli şəxslərin Azərbaycana səfərləri zamanı dəfələrlə görüşmüşük. Bir sözlə, il ərzində biz tez-tez təmasda oluruq. Amma müqəddəs Ramazan ayında bizim görüşümüzün, əlbəttə ki, xüsusi əhəmiyyəti vardır.

Mən çox şadam ki, təmsil etdiyiniz ölkələr ilə Azərbaycanın çox sıx əlaqələri var. Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir, humanitar sahədə, mədəniyyətlə bağlı məsələlərin həllində biz çox fəal əməkdaşlıq edirik.

Əlbəttə, biz hamımız istərdik ki, iqtisadi sahədə də əlaqələr yüksək səviyyədə olsun və buna çalışırıq. Hesab edirəm ki, indiki şəraitdə birgə iqtisadi təşəbbüslər, investisiya layihələri,

biznes qurumlarının birgə fəaliyyəti əlaqələrimizi möhkəmləndirə bilər.

Bu yaxınlarda Azərbaycan səfirləri ilə keçirdiyim görüşdə qeyd etdim ki, müsəlman ölkələri ilə bizim əlaqələrimiz xarici siyasətimizin prioritetlərindən biridir. Biz hamımız çalışmalıyıq ki, islam həmrəyliyini gücləndirək, müsəlman ölkələri arasındakı birliyi daha da möhkəmləndirək.

Mən şadam ki, beynəlxalq arenada biz daim bir-birimizi dəstəkləyirik, beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq edirik, xüsusilə BMT-də. BMT-də bir-birimizə göstərdiyimiz dəstək bizim mövqelərimizi gücləndirir və haqq-ədalət də bunu tələb edir. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli işində müsəlman ölkələrinin BMT-də göstərdiyi dəstək bizi xüsusilə sevindirir. Uzun illərdir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri işğal altındadır. Beynəlxalq hüquq normaları Ermənistan tərəfindən kobudcasına pozulub. Ermənilər bizə qarşı etnik təmizləmə siyasəti aparmışlar, Xocalı soyqırımını törətmişlər. İşğal edilmiş torpaqlarda bizim bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılmışdır.

Bu münaqişə dünyada nadir münaqişələrdəndir ki, BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması ilə bağlı 4 qətnamə qəbul etmişdir. Ona görə, əlbəttə ki, Azərbaycanın mövqeyinin dəstəklənməsi həm beynəlxalq hüquqa göstərilən hörmətdir, eyni zamanda, qardaşlıq, dostluq nümunəsidir.

Biz də öz tərəfimizdən üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrinin maraqlarını müdafiə edirik, bundan sonra da müdafiə edəcəyik. Bilirsiniz ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də çox fəal iştirak edir, öz rolunu artırır. İslam Əməkdaşlıq Təşkilatının beynəlxalq nüfuzunun qaldırılması işinə biz praktiki töhfəmizi veririk. 2 il ərzində Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü olmuşdur. Bu 2 il ərzində 2 dəfə bu mötəbər quruma sədrlik etmişdir. 2 dəfə bizim tərəfimizdən irəli sürülmüş təşəbbüs

nəticəsində məsələlər müzakirəyə çıxarılmışdır. Onlardan biri beynəlxalq terrorizmə qarşı mübarizə məsələlərinə aid idi. Beynəlxalq terrorizmə qarşı mübarizə bizim ümumi işimizdir. İkinci mövzu isə İslam Əməkdaşlıq Təşkilatı ilə BMT arasındakı əməkdaşlıq məsələləri idi. Bu əslində bizim prioritetlərimizi əyani şəkildə göstərir. Əminəm ki, gələcəkdə də bizim ölkələrimiz İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edəcək və biz bir-birimizi daim dəstəkləyəcəyik.

Eyni zamanda, mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün Azərbaycan praktiki addımlar atır. Bildiyiniz kimi, İslam Əməkdaşlıq Təşkilatı ilə Avropa Şurası arasındakı əlaqələrin inkişafında bizim xüsusi rolumuz vardır. 2008-ci ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası ölkələri nazirlərinin birinci birgə tədbiri keçirilmişdir. Bu təşəbbüsə «Bakı prosesi» adı verilmişdir. Artıq «Bakı prosesi» beynəlxalq aləmdə tanınan və hörmətlə qəbul edilən bir prosesdir.

Hazırda Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edir, öz prioritetlərini açıq şəkildə bəyan etmişdir. Çalışacağıq ki, mədəniyyətlərarası, dinlərarası dialoqun gücləndirilməsi üçün əlavə töhfəmizi verək. Buna çox böyük ehtiyac vardır. Əfsuslar olsun ki, Avropanın bəzi ölkələrində islamofobiyaya qarşı adekvat münasibət göstərilmir. Bəzi ölkələrdə antimüsəlman meyilləri güclənir və aidiyyəti dövlət qurumları adekvat tədbirləri görmürlər. Biz öz tərəfimizdən çalışırıq ki, islam mədəniyyəti, dini, tarixi haqqında Avropa ictimaiyyətini geniş şəkildə məlumatlandıraq, göstərək ki, islam sülh, mərhəmət dinidir.

Bizim ölkələrimizin çox zəngin və qədim tarixi, mədəniyyəti var. Bu məqsədlə müxtəlif ölkələrdə Azərbaycan günləri, Azərbaycan mədəniyyət tədbirləri mütəmadi qaydada keçirilir. Hesab edirəm ki, bəzi tədbirləri biz təmsil etdiyiniz ölkələrlə birgə keçirə bilərik.

Bildiyiniz kimi, yaxın 3 il ərzində Bakıda həm Avropa, həm İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Əlbəttə, bu oyunlar

böyük idman bayramı olacaqdır. Eyni zamanda, hesab edirəm ki, bu oyunların keçirilməsi mədəniyyətlərarası dialoqun inkişafına da öz müsbət təsirini göstərəcəkdir.

Bir sözlə, əziz dostlar, birgə səylərimiz, fəaliyyətimiz nəticəsində əminəm ki, bizim ölkələrdə, bölgədə və dünyada proseslər daha müsbət istiqamətdə gedəcəkdir.

Müsəlman ölkələrinin çox böyük potensialı, böyük əhalisi, təbii resursları, iqtisadi potensialı vardır. Çalışmalıyıq səyləri birləşdirək ki, xalqlarımız üçün daha da gözəl gələcək yaradaq. Sağ olun.

**H ə s ə n H a m i** *(Mərakeş Krallığının Azərbaycandakı səfiri):* Zati-aliləri cənab İlham Əliyev!

Bu gün bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edirik!

Azərbaycanda təmsil olunan bütün müsəlman ölkələrinin səfirləri və müvəqqəti işlər vəkilləri adından Sizə müqəddəs Ramazan bayramı və qarşıdan gələn fitrə bayramı münasibətilə ən xoş arzularımı çatdırıram. Allah Sizi, ailənizi və qardaş Azərbaycan xalqını qorusun.

Zati-aliləri, Azərbaycan heyrətamiz şəkildə inkişaf edir və ölkənizin iqtisadiyyatı dünyanın ən dinamik inkişaf edən iqtisadiyyatları sırasındadır. Ümumi daxili məhsul 3,4 dəfə artmış, strateji valyuta ehtiyatları 50 milyard dollara çatmış, iqtisadiyyata 170 milyard dollara yaxın sərmayə yatırılmışdır. Eyni zamanda, bu siyasət siyasi, iqtisadi və sosial islahatlarla müşayiət olunur. Bu hər mənada böyük bir nailiyyətdir.

Ötən illər ərzində Azərbaycan mədəniyyətlərarası dialoq, insan inkişafının təhlükəsizliyi, ətraf mühitin qorunması, enerji və digər mövzulara həsr olunmuş beynəlxalq konfranslara ev sahibliyi etmişdir. Bu sırada Humanitar Forumu, Davos Dünya İqtisadi Forumunu və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə dəstək üzrə beynəlxalq konfransı qeyd etmək olar. İnsanları yaxınlaşdıran bu yanaşma təqdirəlayiqdir.

Əminəm ki, Azərbaycan məhz bu ovqatla 2015-ci ildə ilk Avropa oyunlarını və 2017-ci ildə İslam Həmrəyliyi oyunlarını

təşkil edəcəkdir. Bu mötəbər tədbirlərin keçirilməsində Azərbaycana uğurlar diləyirik.

Zati-aliləri, bütün bu nailiyyətlər Azərbaycanın sabit və təhlükəsiz ölkə olduğunu təsdiq edir. Sizin müdrik və tarazlaşdırılmış siyasətiniz nəticəsində Azərbaycan regional və beynəlxalq əhəmiyyətli məsələlərin sülh yolu ilə həllinə töhfə verir.

Bu baxımdan, İslam Əməkdaşlıq Təşkilatının mövqeyini bir daha vurğulayır və ümid edirik ki, Dağlıq Qarabağ münaqişəsi danışıqlar yolu ilə, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll ediləcəkdir.

Zati-aliləri, icazə verin, bir daha Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə gələcəkdə də tərəqqi və çiçəklənmə arzulayım.

Təşəkkür edirəm.

## NİKARAQUA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SAMUEL SANTOS LOPEZ İLƏ GÖRÜŞ

*9 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Nikaraqua Respublikasının Xarici İşlər naziri Samuel Santos Lopezi qəbul etmişdir.*

*Xarici İşlər naziri Samuel Santos Lopezin Azərbaycana səfərinin Nikaraquadan ölkəmizə ilk yüksək səviyyəli rəsmi səfər olmasının önəmini vurğulayan dövlətimizin başçısı gələcəkdə bu cür səfərlərin intensivləşəcəyinə əminliyini ifadə etdi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələsinə toxunan prezident İlham Əliyev Azərbaycan ilə Nikaraqua arasında siyasi, iqtisadi, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.*

*Nikaraquanın Xarici İşlər naziri Samuel Santos Lopez ölkəmizə ilk rəsmi səfərindən məmnunluğunu bildirdi. Nazir Azərbaycanda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

## NAZİRLƏR KABİNETİNİN 2014-cü İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK*

*10 iyul 2014-cü il*

*İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Nazirlər Kabinetinin bugünkü iclasında biz ilin 6 ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, ilin birinci yarısında ölkəmizin uğurlu inkişafı təmin, qarşıda duran bütün məsələlər də uğurla icra edilmişdir. Bir dənə də olsun icra edilməmiş məsələ yoxdur. Əlbəttə, bu, deməyə əsas verir ki, ilin sonuna qədər də bütün vəzifələr icra ediləcək, ölkəmizin dinamik uğurlu inkişafı davam edəcəkdir.

Bizim uğurlarımızın təməlində düşünülmüş siyasət, sabitlik dayanır. İqtisadi sahədə aparılan islahatlar da mühüm yer tutur.

* Назирляр Кабинетинин 2014-ъц илин бириnъи йарысынын сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласında Игтисадиййат вя Sянайе назири Шащин Мустафайев, Кянд Тясяррцфаты назири Щейдяр Ясядов, Ямяк вя Əщалинин Sосиал Мцдафияси назири Сялим Мцслцмов çıxış etdilər.

Çünki bu islahatlar sayəsində Azərbaycanın dayanıqlı inkişafı mümkün olmuşdur.

Siz də yaxşı xatırlayırsınız ki, vaxtilə bizim uğurlarımızı bəziləri ancaq neft amili ilə bağlayırdılar.

Belə bir fikir irəli sürülürdü ki, Azərbaycanın nefti var və buna görə ölkə iqtisadiyyatı inkişaf edir. Əlbəttə, son illərdə bu amil öz rolunu oynamışdır. Ancaq bizim uğurlu siyasətimizin nəticəsində bu gün neftdən asılılıq böyük dərəcədə aşağı düşmüşdür və ümumi daxili məhsulumuzun böyük hissəsi qeyri-neft sektorunda yaranır.

Bu, düşünülmüş siyasətin nəticəsidir və bizim islahatlarımız mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Mötəbər beynəlxalq maliyyə qurumları öz proqnozlarını müəyyən edərkən, Azərbaycanın bundan sonra da uzun illər ərzində uğurlu inkişafını qeyd edirlər. Bizim islahatlarımız müxtəlif qurumların reytinqlərində də özünü göstərir. Dünyanın aparıcı reytinq agentlikləri bizim kredit reytinqlərimizi artırır. Bu gün xarici maliyyə bazarlarından kredit resurslarının cəlb edilməsi üçün bizdə heç bir problem yoxdur. Əksinə, biz bu məsələyə bir qədər təmkinlə yanaşırıq. Çünki hesab edirik ki, daha çox daxili imkanlardan istifadə etməliyik. Davos Dünya İqtisadi Forumu – dünyanın bir nömrəli iqtisadi forumu Azərbaycan iqtisadiyyatının rəqabətqabliyyətliliyini yüksək qiymətləndirərək bizi 39-cu yerdə yerləşdiribdir. Hesab edirəm ki, gənc müstəqil ölkə üçün bu çox böyük göstəricidir.

Bir sözlə, müxtəlif amillərin nəticəsində ölkəmizin uğurlu inkişafı mümkün olmuşdur. Ölkəmizdə çox gözəl investisiya şəraiti vardır. Xarici və daxili investorlar Azərbaycana inamla yanaşırlar. Daxili sabitlik, xalqla iqtidar arasındakı birlik, cəmiyyətdə ölkəmizin gələcəyi ilə bağlı nikbin fikirlərin üstünlük təşkil etməsi dinamik iqtisadi inkişafımıza təkan verir.

Birinci 6 ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir – iqtisadiyyat 2,1 faiz artmışdır. Bəlkə də əvvəlki dövrlərlə müqayisədə bu o qədər də böyük rəqəm deyil. Ancaq bu gün dünyada, bölgədə və Avropada yaşanan iqtisadi çətinliklər fonunda hesab edirəm ki, bu çox gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, – mən bunu sevinc hissi ilə qeyd edirəm – son illər

ərzində qeyri-neft sektorumuz uğurla artır və qeyri-neft sektorumuzda inkişaf 7 faiz səviyyəsindədir. Bu da, əlbəttə ki, dediyim məsələlərin nəticəsidir. Əgər vaxtilə neft kapitalını insan kapitalına, infrastruktur layihələrinə yönəltməsəydik, bu gün qeyri-neft sektorumuz bu qədər arta bilməzdi. Bəlkə də tənəzzülə uğrayardı və onda biz ancaq neft amilindən asılı ola bilərdik. Gələcək illərdə ayrılan vəsait və aparılan islahatlar qeyri-neft sektorunun daha da böyük çəkiyə malik olmasına gətirib çıxaracaqdır.

İnflyasiya Azərbaycanda nəinki birrəqəmlidir, hətta 1,6 faiz təşkil edir. Bu çox gözəl göstəricidir. Xüsusilə nəzərə alsaq ki, ölkəmizə bu qədər həm daxili, həm xarici investisiyalar qoyulur, maaşlar, pensiyalar ildən-ilə qaldırılır, sovet vaxtından qalmış əmanətlər kompensasiya şəklində, MDB-də ən böyük əmsalla, ən qısa müddət ərzində insanlara qaytarılmışdır – bütün bu amillərə baxmayaraq, inflyasiya cəmi 1,6 faizdir. Əhalinin pul gəlirləri isə 4,7 faiz artıb, yəni inflyasiyanı 3 dəfə üstələyir. İstənilən ölkə üçün bu ən arzu olunan balansdır. Ona görə bu amillər, iqtisadiyyatımızın əsas göstəriciləri bizə ümid verir deyək ki, biz bu templəri ilin sonuna qədər saxlayacağıq. Ümid edirəm belə də olacaq, ümumi daxili məhsul daha da artacaqdır.

Kənd təsərrüfatında inkişaf müşahidə olunur. Kənd təsərrüfatımız təxminən 6 faiz artıb və indi aparılan islahatlar nəticəsində biz gələn illərdə daha da böyük artıma nail olacağıq.

Ölkəmizin maliyyə vəziyyəti çox sabitdir. Mən dəfələrlə demişəm, bizim iqtisadi və maliyyə vəziyyətimiz müstəqilliyimizi şərtləndirən əsas amillərdən biridir. Azərbaycan böyük maliyyə resurslarına malikdir. Bu resursları biz özümüz yaratmışıq, bizə heç kim kömək etməmişdir. Azərbaycan xalqının istedadı və düşünülmüş siyasət nəticəsində bunu əldə etmişik. Bu gün dünya miqyasında adambaşına düşən valyuta ehtiyatlarına görə, hesab edirəm ki, Azərbaycan aparıcı, yəni ən qabaqcıl yerlərdədir. Bizim 54 milyarddan çox valyuta ehtiyatlarımız var. Bu da bizə inam, əminlik verir, imkan verir

ki, bundan sonra da böyük infrastruktur və sosial layihələrimizi icra edək.

Bunu da xüsusilə qeyd etməliyəm ki, biz bu vəsaitdən çox qənaətlə istifadə edirik, ən vacib olan sahələrə yönəldirik. Eyni zamanda, ölkə daxilində dövlət tərəfindən qoyulan investisiyaların artırılmasına da imkan verməməliyik. Çünki bu, xoşagəlməz hallara gətirib çıxara, inflyasiyanı sürətləndirə bilər və buna ehtiyac yoxdur. Biz növbəti illərdə bu templə inkişaf etsək, hesab edirəm ki, kifayətdir.

İl ərzində valyuta ehtiyatlarımız artıb. İldən-ilə, aydan-aya valyuta ehtiyatlarımızı artırırıq. Buna baxmayaraq biz bu ehtiyatlardan çox qənaətlə istifadə edirik. Biz populist vədlərdən tamamilə uzağıq, heç vaxt bunu etməmişik. Ancaq praqmatik, düşünülmüş siyasət aparmışıq və bu siyasət imkan verdi ki, biz bütün çətinliklərdən şərəflə, üzüağ çıxa bildik.

Dünyanı bürümüş iqtisadi, maliyyə böhranı Azərbaycan əhalisinə, iqtisadiyyatına bir faiz də təsir etmədi. Bunu yəqin ki, gələcəkdə alimlər araşdıracaqlar və təhlil aparacaqlar ki, nə üçün belə olub. Bizim buna vaxtımız yoxdur, biz işlə məşğuluq və işimiz göz qabağındadır. Biz böyük maliyyə resurslarına malik olan ölkəyik. Bir daha qeyd etmək istəyirəm, biz ildən-ilə maliyyə resurslarını artırırıq, artıracağıq. Bu resurslardan səmərəli şəkildə istifadə etməyimiz bizə əlavə gəlirlər gətirir və bu gün öz investisiya portfelimizi şaxələndiririk – həm sahələr üzrə, həm də xaricdə qoyulan investisiyaların coğrafiyası genişlənir.

Bu il üçüncü regional inkişaf proqramı qəbul edilmişdir. Bu proqramın icrası nəticəsində artıq ilin 6 ayında 65 min yeni iş yeri açılmışdır ki, onlardan 52 mini daimi iş yeridir. 2003-cü ildən bu günə qədər – bu proqramlar icra edilməyə başlayandan sonra 1 milyon 300 min iş yeri açılmışdır ki, onlardan təqribən 1 milyonu daimi iş yeridir. Demək olar ki, işsizlik böyük dərəcədə aradan qaldırılmışdır, çox aşağı səviyyədədir. Ancaq onu nəzərə almalıyıq ki, uğurlu iqtisadi və siyasi addımlar nəticəsində Azərbaycanda – bu da çox sevindirici bir haldır –

əhali sürətlə artır. İldən-ilə artan əhali hökuməti də, əlbəttə ki, daha fəal olmağa çağırmalıdır. Bu onu deməyə əsas verir ki, yeni iş yerlərinin açılması daimi proses olmalıdır. Biz deyə bilmərik ki, artıq 1 milyon daimi iş yeri açılıbdır, gəlin indi bu məsələyə diqqət yetirməyək. Yox, bu, daimi proses olmalıdır. Sənayeləşmə, kənd təsərrüfatı, yüksək texnologiyalar, digər sahələr sürətlə inkişaf etməlidir ki, biz insanlarımızı gələcəkdə də iş yerləri ilə təmin edə bilək.

Ona görə hesab edirəm, vaxt gəlib çatıb ki, bu məsələ ilə bağlı düşünülmüş bir konsepsiya hazırlansın. Bu günə qədər bu bir qədər kortəbii proses kimi gedirdi. Ancaq bizim əhalimiz bundan sonra da artacaq. Əhali nə qədər artsa, sonrakı illərdə o faiz də bir o qədər böyük rəqəmlərlə ölçüləcək. Bir var ki, 8 milyon əhali 1 ya 2 faiz artır, biri də var ki, 10 milyon əhali. Yəni rəqəmlər də mütləq böyüyəcək. Ona görə biz uzunmüddətli məşğulluq konsepsiyasının müzakirəsini başlamalıyıq. Müəyyən işlər görülmüşdür, biz bunu gərək daha da konkretləşdirək ki, hansı sahələrdə nə qədər iş yerləri açılmalıdır. Buna görə biz nə etməliyik, hansı institusional islahatlar aparılmalıdır, buna nə qədər investisiyalar cəlb edilməlidir? Hesab edirəm ki, bundan sonra dövlət investisiya xərclərinin müəyyən edilməsində bu amil əsas olmalıdır. Çünki biz əvvəlki illərdə, hətta indi də vəsaiti ən çox inkişafa ehtiyacı olan sahələrə yönəldirik. İnfrastruktur, sosial layihələr, müdafiə xərcləri, əlbəttə, bu lazımdır və düşünülmüş siyasətdir. Ancaq biz məşğulluq məsələlərini indi daha da ciddi nəzərə almalıyıq. Üçüncü regional inkişaf proqramının icrası nəticəsində 2018-ci ilə qədər bizim bütün əsas infrastruktur və sosial məsələlərimiz öz həllini tapmalıdır. Əminəm ki, belə də olacaq.

Bakı və onun qəsəbələrinin inkişaf proqramı icra edilir. Bu proqram daha qısamüddətlidir, 2016-cı ilə qədər başa çatmalıdır. Hesab edirəm ki, bu sahədə də hər şey cədvəl üzrə gedir, heç bir problem yoxdur.

Sosial məsələlərin həlli bu 6 ayda da diqqət mərkəzində olmuşdur. Orta əməkhaqqı artıb, indi 440 manat və ya 560 dollar təşkil edir. Əminəm ki, daha da artacaqdır.

Sosial infrastruktur layihələri icra edilir. 80-dən çox təhsil müəssisəsi, 40-dan çox səhiyyə ocağı təmir olunur, tikilir. Yəni bu da sosial sahəyə ayrılan vəsaitin, diqqətin hesabına olan məsələlərdir.

Eyni zamanda, əhalinin sosial müdafiəsi istiqamətində ciddi islahatlar aparılır, şəffaflıq təmin edilir. Bu, əhali tərəfindən böyük rəğbətlə qarşılanır. Əminəm ki, islahatlar daha da dərinləşəcəkdir. İslahatlar şəffaflıq nöqteyi-nəzərindən daha da dərinləşməlidir. Dünyanın aparıcı ölkələrinin bu sahədə böyük təcrübəsi vardır. Biz bu təcrübəni, əlbəttə ki, öyrənirik, tətbiq edirik. Azərbaycanda sosial sahədə vəziyyət dünyanın aparıcı ölkələrindən geri qalmamalıdır. Buna nail olmaq üçün, hesab edirəm ki, bütün imkanlarımız vardır.

Biz bu 6 ayda hərbi məsələlərə xüsusi diqqət göstərmişik. Ordu quruculuğu prosesi uğurla gedir, orduda islahatlar dərinləşir, nizam-intizam artır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, gündən-günə artır. Ordu günündə və bu yaxınlarda cəbhə bölgəsində keçirilmiş təlimlər həm praktik nöqteyi-nəzərdən, həm də gücümüzü nümayiş etdirmək nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malik məsələlərdir. Bu yaxınlarda səfirlərlə görüşdə bu məsələ ilə, ümumiyyətlə, xarici siyasətlə bağlı sözlərimi kifayət qədər geniş demişəm, təkrar etmək istəmirəm. Sadəcə olaraq, bir daha demək istəyirəm ki, ərazi bütövlüyü beynəlxalq hüququn əsas norma və prinsipidir. Dağlıq Qarabağ münaqişəsi ancaq bu prinsip çərçivəsində öz həllini tapa bilər.

Bu 6 ayda neft-qaz sahəsində, xüsusilə «Cənub Qaz Dəhlizi» ilə bağlı ciddi addımlar atılmışdır. İlkin tenderlər elan edilmişdir. TANAP layihəsinin icrası, demək olar ki, artıq başlamışdır. Tikintiyə hazırlıq dövrü çox uğurla gedir. Hesab edirəm ki, biz bu böyük layihəni vaxtında icra edəcəyik. «Cənub Qaz Dəhlizi»nin təşəbbüskarı Azərbaycandır. Bu

layihənin icrası nəticəsində həm Azərbaycan, həm də onun qonşuları və Avropa ölkələri böyük fayda götürəcəklər. Azərbaycan bu sahədə də liderlik keyfiyyətlərini göstərmişdir. Bu 3 layihə – «Şahdəniz-2», TANAP və TAP Avropanın enerji xəritəsini dəyişdirəcək, Azərbaycanı çox önəmli iqtisadi və enerji tərəfdaşına çevirəcək və ən vacibi, Azərbaycan xalqının bundan sonra da iqtisadi və maliyyə məsələlərinin həlli sahəsində rifahını təmin edəcəkdir. Biz bu layihənin icrası nəticəsində bundan sonra ən azı 100 il ərzində qaz ixracatından böyük fayda götürəcəyik və Azərbaycanın dünyadakı rolu daha da artacaq.

Bu gün bizim dünyada oynadığımız rol çox önəmlidir. Azərbaycanın nüfuzu, önəmi, təsir imkanları gündən-günə artır. Bütün bunları biz özümüz qazanmışıq, əldə etmişik.

Enerji siyasətimiz bu gün ümumi siyasətimizin tərkib hissəsidir, nəinki bizim üçün, həmçinin bütün ölkələr üçün milli təhlükəsizlik məsələsidir. Son aylarda bölgədə, Avropada bu sahədə müşahidə olunan hadisələr və müəyyən gərginlik bir daha göstərir ki, enerji təhlükəsizliyi olmadan heç bir ölkə özünü rahat hiss edə bilməz, tam müstəqil siyasət apara bilməz.

Biz isə öz enerji təhlükəsizliyimizi çoxdan təmin etmişik və bu gün başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolumuzu oynayırıq. Bu rol müsbət roldur. Bunu bizim tərəfdaşlar qiymətləndirirlər. Azərbaycan heç vaxt öz enerji resurslarından başqa məqsədlər üçün istifadə etməmişdir. Bizim bu sahədəki fəlsəfəmiz və yanaşmamız ondan ibarətdir ki, enerji resursları əməkdaşlığı dərinləşdirməlidir, birliyi möhkəmləndirməlidir və əlbəttə ki, biz bu siyasəti apararaq öz milli maraqlarımızı təmin edirik. Bu gün həm bölgədə, həm dünyada bizim maraqlarımız təmin edilir.

Növbəti illərdə TANAP layihəsinin icrası ilə bağlı Azərbaycanda on minlərlə yeni iş yeri açılacaqdır. Azərbaycan şirkətləri bu layihələrdə iştirak edəcəkdir. Son vaxtlar imzalanan kontraktlar üzrə tenderlərdə Azərbaycan şirkətləri ya birbaşa, ya da xarici şirkətlərlə birlikdə qalib gəlmişlər və bir neçə milyard

dollar həcmində kontraktların icrası da Azərbaycan şirkətlərinə həvalə edilmişdir. Bu da dövlətin özəl sektora göstərdiyi diqqət və qayğıdır.

Birinci böyük layihələrin icrası nəticəsində şirkətlərimiz, demək olar ki, ayağa qalxa bilmişlər, kapital, təcrübə toplamışlar. Ondan sonra Azərbaycana investisiya qoymağa başlamışlar. Mən də onlara bunu tövsiyə edirdim və eyni zamanda, Azərbaycanda belə bir şərait yaratmışıq ki, buraya investisiya qoymaq ən sərfəli yoldur. İndi başqa ölkələrə investisiya qoymaq, əlbəttə, lazımdır və biz də dövlət kimi, bunu edirik. Ancaq burada yaşayan və çalışan şirkətlər buraya investisiyalar qoysa, onlar üçün daha yaxşı olar. Gəlir burada daha yüksəkdir, investisiyalar dövlət tərəfindən qorunur. Ona görə TANAP, «Şahdəniz-2» layihələrinin icrası nəticəsində bizim inşaatla, xidmətlə, digər sahələrlə və əlbəttə, energetika sahəsi ilə bağlı şirkətlər də hazır olmalıdır. Tenderlərdə iştirak etməli və orada yaxşı təklif verməlidirlər ki, qalib gəlsinlər. Beləliklə, daha çox vergi ödəyəcəklər, daha çox iş yerləri yaradılacaqdır. Bir sözlə, bizim enerji siyasətimiz bu yolla ölkə iqtisadiyyatının inkişafına xidmət etməlidir, nəinki qazanılan pulların sonra infrastruktur layihələrinə yönəldilməsi ilə. Bu təbii ki, olacaq. Bu layihələrin icrası nəticəsində biz böyük miqdarda vəsait əldə edəcəyik, o vəsaiti də ölkə iqtisadiyyatının inkişafına, sosial məsələlərin həllinə qoyacağıq. Ancaq kontraktların icrası nəticəsində yerli şirkətlərin fəaliyyəti hesabına iş yerlərinin açılması, yeni sənaye sahələrinin yaradılması prosesi də sürətlə gedəcəkdir.

Biz dövlət olaraq buna hazırıq. Bu məqsədlə artıq neçə ildir ki, sənayeləşmə siyasəti aparılır, texnoparklar yaradılır, digər təşəbbüslər vardır və olacaqdır. Bu barədə sonra danışacağam. Bir sözlə, bizim sənayemiz də buna hazır olmalıdır. Müəyyən dərəcədə hazırdır, ancaq hesab edirəm ki, 1-2 il ərzində sənaye məsələlərinə həm dövlət xətti ilə, həm özəl qurumlar hesabına daha böyük diqqət göstərilməlidir.

Bir sözlə, bizim 6 ayda gördüyümüz işlər yüksək qiymətləndirilməlidir. Ölkədə çox gözəl ab-hava vardır. Çox gözəl

ictimai-siyasi vəziyyət müşahidə olunur. Sabitlik tam şəkildə təmin edilir. Sabitliyin qarantı Azərbaycan xalqıdır və gördüyümüz işlərdir. Azərbaycan xalqının rifahı, cəmiyyətdə bərqərar olan ədalət, o cümlədən sosial ədalət və xoşagəlməz hallarla mübarizə bu müsbət meyilləri daha da gücləndirir.

## YEKUN NİTQİ

Əminəm ki, ilin sonuna qədər qarşımızda duran bütün məsələlər öz həllini tapacaq və Azərbaycan 2014-cü ili də böyük uğurlarla başa vuracaq.

Gələn 6 ayda biz, əlbəttə, çalışmalıyıq ki, nəzərdə tutulmuş bütün infrastruktur layihələrini başa çatdıraq. Son illərdə bu istiqamətdə böyük işlər görülmüşdür, amma hələ ki, görüləsi işlər çoxdur. Xüsusilə nəzərə alsaq ki, ölkə qarşısında maliyyə problemi kimi bir problem durmur – mən bunu giriş sözümdə də demişəm, bizim maliyyə vəziyyətimiz yaxşıdır, kifayət qədər vəsaitimiz vardır – ona görə infrastruktur layihələrinin icrası ilə bağlı heç bir yubanma olmamalıdır. Burada əsas şərt keyfiyyət və sürətdir. Əlbəttə ki, bütün aidiyyəti qurumlar keyfiyyətə ciddi diqqət yetirməlidirlər. Elə etməlidirlər ki, xərclənən vəsait lazımi səviyyədə təmin edilsin.

İnfrastruktur layihələri arasında biz son vaxtlar daha çox kənd yollarının tikintisinə diqqət göstəririk. Çünki buna böyük ehtiyac vardır. Yerlərdən gələn xahişlər də bunu göstərir. Bəlkə ona görə ki, son illər digər infrastruktur layihələrinə, xüsusilə elektrik enerjisi, qazlaşdırma ilə bağlı böyük investisiyalar qoyulmuşdur. Ancaq bu sahədə vəziyyət hələ bizi tam şəkildə qane etmir. Buna baxmayaraq, müəyyən uğurlu addımlar atılmışdır.

Kənd yolları isə hər bir insanı narahat edən məsələdir. Bütövlükdə son illərdə kənd yollarının tikintisinə ayrılan vəsait artır və əhalimizin böyük əksəriyyəti, xüsusilə kəndlərdə yaşayan əhali yaxşı yollarla artıq təmin edilib. Ancaq hələ ki, bərbad vəziyyətdə olan yollar çoxdur. Mənim bölgələrə səfərlərim zamanı bu məsələ daim müzakirə edilir. Yerlərdən

gələn təkliflər sonra dövlət investisiya proqramına salınır. Üçüncü regional inkişaf proqramında kənd yollarının tikintisi xüsusi yer tutur. Eyni zamanda, vətəndaşlar tərəfindən il ərzində də müraciətlər olur. İl ərzində çalışıram ki, Prezidentin ehtiyat fondundan da kənd yollarının tikintisinə vəsait ayırım. Bəlkə də Prezidentin ehtiyat fondundan ayrılan vəsaitin böyük hissəsi kənd yollarının tikintisinə gedir. Çünki bu məsələ öz həllini tapmalıdır. Hesab edirəm ki, biz indiki templəri saxlasaq, növbəti 3-4 il ərzində Azərbaycanda bir dənə də təmirsiz kənd yolu olmayacaqdır. Məsələ də belə qoyulub. Bütün kənd yollarında asfalt olmalıdır, keyfiyyətli tikilməlidir ki, vətəndaşlar əziyyət çəkməsinlər.

İçməli su və kanalizasiya layihələri bütün ölkə üzrə gedir, o cümlədən Bakıda. Dövlət büdcəsi hesabına böyük investisiyalar qoyulur, həm də kreditlər verilir. Şəhərimizdə artıq bir neçə belə layihə başa çatıb. Mən də açılışlarda iştirak etmişəm. Vətəndaşlarla söhbət əsnasında onların bu məsələyə müsbət yanaşmasını görmüşəm. Uzun illər keyfiyyətsiz sudan əziyyət çəkən vətəndaşlar bu gün artıq 24 saat fasiləsiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun olan içməli suya malikdirlər. Elə etməliyik ki, bütün şəhərlərimizə içməli su xətləri çəkək. Eyni zamanda, kəndləri də içməli su ilə təmin edirik. Həm «Azərsu» şirkəti, həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyi çaylar boyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırır. O ərazilərdə yaşayan təxminən yarım milyona qədər vətəndaş indi təmiz içməli su ilə təmin olunub.

Qazlaşdırma ilə bağlı qeyd etməliyəm ki, bu il bu proses bir qədər ləng gedir. Əvvəlki illərdə daha sürətlə gedirdi, biz çalışmalıyıq ki, qazlaşdırmanı Azərbaycanda 95, bəlkə də 97 faizə qaldıraq. Ona nail olmaq üçün imkanlar vardır. Dövlət büdcəsində də vəsait nəzərdə tutulubdur. Eyni zamanda, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti öz vəsaitindən də istifadə etməlidir. Bu sahədə işlər daha da sürətlə getməlidir. Mənə yeni qazlaşdırılan kəndlərin, demək olar ki, hər ay

mütəmadi qaydada siyahısı verilir. Ona görə bu məsələ mənim nəzarətimdədir. Son vaxtlar o arayışlarda hər ay 1, 2, maksimum 3 kəndin qazlaşdırıldığı göstərilir. Bu qəbuledilməzdir, dözülməzdir. Dövlət Neft Şirkəti, «Azəriqaz» bu işləri daha da sürətlə aparmalıdır.

Meliorasiya ilə bağlı. Bu il Şəmkirçay su anbarının istifadəyə verilməsi nəzərdə tutulur. Bu, böyük infrastruktur layihəsidir. On minlərlə hektar torpağı suvaracaq. Bu, Taxta-körpü su anbarı ilə birlikdə Azərbaycanda suvarma və içməli su ilə təminatı  xeyli yaxşılaşdıracaqdır. Mən keçən müşavirələrdə də məsələni qaldırmışam ki, suvarılacaq torpaqların dəqiq ölçüləri olmalıdır. Çünki hələ ki, mənə verilən məlumat daha çox şifahi xarakter daşıyır və deyilir ki, 10 min, 20 min, ya da ki, 50 min hektar torpaq suvarılacaqdır. Ancaq hansı torpaq, bu uçotu kim aparıbdır, kim dəqiqliklə deyə bilər 10 min, ya da 20 min?! Ona görə burada ciddi bir nəzarət sistemi olmalıdır. Biz bu məsələlərə böyük vəsait ayırırıq. Əlbəttə, bu layihələr ölkə iqtisadiyyatı, sosial məsələlərin həlli üçün çox vacibdir. Ancaq biz dəqiq bilməliyik ki, neçə min hektarda vəziyyət yaxşılaşdırılacaq və neçə min hektar suvarılacaqdır. Ona görə yaxın aylarda belə məlumat əldə edilməlidir. Bütün aidiyyəti qurumlar işləsinlər və mənə məlumat versinlər. Ondan sonra, əlbəttə ki, biz baxacağıq kreditləri hansı sahələrə ayıraq, o torpaqlarda hansı kənd təsərrüfatı məhsulu yetişdirilməlidir ki, bu işlər kortəbii yox, sistemli şəkildə aparılsın.

Bu il ölkə iqtisadiyyatına böyük həcmdə investisiyalar qoyulmuşdur. Burada bu rəqəm səsləndi – 7,6 milyard manat. Yəni 6 ayda 11,5 milyard dollar investisiya qoyulmuşdur. Bu çox böyük rəqəmdir. Əminəm ki, bu il də ölkəyə qoyulan investisiyaların həcmi 20 milyardı ötəcəkdir. Biz bu templəri saxlayırıq. Bu bizə imkan verir ki, bütün infrastruktur, sosial layihələri icra edək.

İnflyasiya, qeyd etdiyim kimi, çox aşağı səviyyədədir. Çalışmalıyıq ki, aşağı səviyyədə də qalsın. Makroiqtisadi sabitlik bizim iqtisadi inkişafımızın əsas məsələsidir.

Kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyim sərəncamlar və hazırda aparılan işlər, islahatlar deməyə əsas verir ki, biz bu sahədə də daha sürətli inkişafa nail olacağıq. İndi kənd təsərrüfatı ilə bağlı ciddi islahatlar, o cümlədən struktur islahatları aparılır. İri fermer təsərrüfatlarının fəaliyyəti müsbət qiymətləndirilməlidir. Biz əgər belə demək mümkünsə, kiçik bir layihədən, birinci layihədən – 5 min hektar layihəsindən başlamışıq. Orada görünür ki, məhsuldarlıq nə qədər yüksəlir. Burada verilən məlumata görə, hazırda 30 min hektar torpaqda 19 iri fermer təsərrüfatının yaradılması prosesi gedir. Nəticə etibarilə, biz mövcud olan torpaqlarda məhsuldarlığı artıraraq özümüzü tam şəkildə taxılla təmin edə bilərik. Məhsuldarlıq 56 sentnerdir, ancaq orta hesabla ölkə üzrə təxminən 25-26 sentnerdir. Yəni yeni təsərrüfatlarda məhsuldarlıq 2 dəfə artır. Ən müasir texnologiya, texnika, gübrələr, aqroxidmət göstərilir. Çalışmalıyıq ki, bu təcrübəni biz bundan sonra o qədər də böyük olmayan təsərrüfatlara da tətbiq edək. Əlbəttə ki, həcm baxımından bu fərqlənəcək, amma yanaşma eyni olmalıdır. Əslində biz iri fermer təsərrüfatlarının müasir səviyyədə yaradılması ilə ölkəmizdə bir standart müəyyən edirik. Bundan sonra Azərbaycanda kənd təsərrüfatının inkişafı dünyanın aparıcı təcrübəsinə əsaslanmalıdır.

Əlbəttə, məhsuldarlığın artırılması bütün sahələrdə təmin edilməlidir. Eyni zamanda, yeni əkin sahələrinin dövriyyəyə buraxılması dediyim o meliorasiya layihələrinin icrası nəticəsində də nəzərdə tutulur. Belə olan halda, bir daha demək istəyirəm, biz dəqiqliklə bilməliyik hansı rayonda neçə min hektar dövriyyəyə buraxıla bilər ki, orada bütün infrastruktur layihələri təmin edilsin, yollar və digər məsələlər öz həllini tapsın. Əminəm ki, biz bu istiqamətdə uğurlu inkişafa nail olacağıq. Bunu mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, belə olan halda yeni ixrac bazarlarının müəyyən edilməsi məsələsi gündəliyə gəlir. Ənənəvi bazarlara daha da geniş şəkildə çıxışımız təmin edilməlidir.

Yeni bazarlara çıxmalıyıq, regional bazarlara çıxırıq. İndi bu istiqamətdə də işlər görülür və çalışmalıyıq ki, Avropa bazarlarına da böyük həcmdə kənd təsərrüfatı məhsulları ilə çıxa bilək. Buna nail olmaq üçün keyfiyyət yüksək səviyyədə

olmalıdır. Bu gün Azərbaycanda bu sahədə tətbiq olunan yanaşma hesab edirəm ki, keyfiyyəti də təmin edir. İndi Azərbaycanda elə məhsullar var ki, ən yüksək keyfiyyətə malikdir. Nə vaxt kı biz bu sahədə özümüzü tam şəkildə təmin edəcəyik və keyfiyyətli, rəqabətqabliyyətli məhsullar Azərbaycanın emal sənayesində üstünlük təşkil edəcəkdir, o vaxt əminəm ki, biz Dünya Ticarət Təşkilatına da üzv olmağa hazır olacağıq. Əgər biz bunu bu gün etsək fermerlərimiz ziyan çəkəcək, məhsulumuz azalacaq, Azərbaycan bazarına xaricdən ucuz, keyfiyyətsiz mallar gələcək və beləliklə, iqtisadi inkişafımız, xüsusilə kənd təsərrüfatındakı inkişafımız lazımi səviyyədə olmayacaq. Ona görə Dünya Ticarət Təşkilatına üzv olmaq üçün indi hazırlıq prosesi gedir. Bu bizim hədəfimizdir. Biz hədəf kimi bunu saxlayırıq, amma həm kənd təsərrüfatı, həm də sənaye sahəsində hazırlıq işləri getməlidir, bu islahatlar aparılmalıdır.

Elektron kənd təsərrüfatı sistemi, yeni texnikanın, damazlıq mal-qaranın alınması – bütün bunlar bir məqsədi güdür ki, biz fermerlərin həyatını yüngülləşdirək, onlar üçün əlavə gəlir mənbəyi təmin edək. Əlbəttə, bu, məsələnin bir tərəfidir, sosial məsələdir, çünki əhalimizin təxminən yarısı kənd təsərrüfatı ilə məşğuldur, aqrar zonalarda yaşayır. Biz bu məsələyə sosial məsələ kimi baxırıq, eyni zamanda, bu, böyük iqtisadi potensiala malik olan məsələdir. Hələ ki, biz ondan tam şəkildə istifadə etmirik və birinci mərhələdə özümüzü əsas kənd təsərrüfatı məhsulları ilə 100 faiz səviyyəsində təmin etməliyik. Biz buna yaxınlaşırıq. Hər il regional inkişaf proqramının müzakirəsi zamanı biz bu məsələyə toxunuruq. Ondan sonra da kənd təsərrüfatı məhsullarının dünya bazarlarına çıxarılması bununla paralel olaraq təmin edilməlidir.

Bu il «Sənaye ili»dir. Əlbəttə ki, sənayenin inkişafı diqqət mərkəzindədir. Həm xaricdən, həm daxildən investisiyaların cəlb edilməsi müsbət haldır. Biz investisiyaları xüsusilə sənaye istehsalının artırılmasına yönəldirik, yönəldəcəyik və bu məqsədlə yeni struktur islahatları göz qabağındadır. Texnoparklar yaradılır, dövlət burada da öz üzərinə böyük məsu-

liyyət götürür, böyük maliyyə töhfəsini verir. Çünki texnoparkların yaradılması, orada təmizlik işlərinin aparılması, infrastrukturun qurulması, yollar, xətlər və sair – bütün bunlar dövlət hesabına olan məsələlərdir. Biz bunu dövlət büdcəsi hesabına özəl sektorun fəaliyyəti üçün edirik. Yəni biz özəl sektora qayğı göstəririk, real praktik addımlar atırıq. İnanmıram ki, indi hansısa bir ölkədə dövlət bu məsələlərlə bu qədər məşğul olsun.

Biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Əlbəttə ki, bu bizim üçün yeganə məqbul olan yoldur. Eyni zamanda, dövlət siyasətimiz, sənaye, kənd təsərrüfatı ilə bağlı olan addımlarımız sırf sosial xarakter daşıyır. Dövlət fermerləri torpaq vergisindən başqa, bütün vergilərdən azad edib. Subsidiyalar, güzəştli şərtlərlə gübrələr, yanacaq verilir, yollar çəkilir, meliorasiya layihələri icra edilir, Taxtakörpü, Şəmkirçay su anbarlarına yüz milyonlarla manat qoyulur ki, suvarılan torpaqların sahəsi artsın. Kreditlər verilir. Fermerlərə güzəştli şərtlərlə 300 milyon manat kredit verilib. Həmçinin tövsiyələr, metodik təlimatlar verilir ki, bu kreditlərdən necə istifadə edilsin. Hansı ölkədə bu qədər qayğı, diqqət göstərilir?! Mən sizə deyim ki, heç bir ölkədə. Bu bizim siyasətimizin əsas istiqamətidir və biz bunun hesabına qeyri-neft sektorunun inkişafına nail ola bilmişik.

Sənaye sahəsində də eyni yanaşma tətbiq olunur. Dövlət öz hesabına texnoparklar yaradır. Ora şirkətləri cəlb etmək üçün lazım gəldikdə kreditlər ayırır və bu istiqamətdə təşviqedici addımlar kifayət qədər çoxdur.

Hesab edirəm ki, texnoparklarla yanaşı, biz sənaye klasterlərinin yaradılmasına başlamalıyıq. Bu da dünyada uğur gətirən bir təcrübədir. İnkişaf etmiş ölkələrdə bu var. Bütün məhsulun tsikli bir yerdə cəmləşməlidir – xüsusilə bu layihənin icrası nəticəsində poladtökmə, metallurgiya kombinatının, alüminium sənayesinin inkişafı sahəsində biz bütün bu zənciri – istehsal, emal, kiçik və orta sahibkarlığın inkişafını təmin etməliyik ki, Azərbaycanda son

məhsul buraxılsın. Hesab edirəm ki, bu istiqamətdə əlavə tədbirlər də görülməlidir.

Əvvəlki müşavirələrdə qeyd etmişəm ki, hər bir rayonda sənaye zonaları olmalıdır. Bu istiqamətdə də işlər gedir və getməlidir. Dövlət, əlbəttə ki, əsas yükü öz üzərinə götürür. Belə də olmalıdır. Azərbaycanda dövlət siyasəti bu istiqamətdə aparılır. Biz bu sahədə ölkəmizdə sənayenin, iqtisadiyyatın və kənd təsərrüfatının inkişafını sürətləndirmək üçün dünyada gedən təcrübəni də bilirik. Mövcud olan təcrübəni öyrənirik və görürük ki, orada banklar bu sahədə çox müsbət rol oynayır. Banklar iqtisadiyyatın real sektoruna vəsait ayırır. Bizdə də belə olmalıdır. Bizdə isə belə deyildir. Bu sahəyə çox ciddi fikir verilməlidir. Bu gün dövlət büdcəsində banklara güzəştli şərtlərlə nəzərdə tutulan 300 milyon manat kredit verilir ki, banklar bu vəsaiti sahibkarlara paylasınlar. Yəni bu, bankların öz resursları deyil, dövlətdən verilən resurslardır. Banklar bunu paylayır, hələ pul da qazanırlar. Yəni bu, Azərbaycan dövlətinin özəl banklara olan böyük bir imtiyazıdır, güzəştidir. Hansı ölkədə dövlət özəl banklara pul verir, özü də bu şərtlərlə?! Amma bizdə Mərkəzi Bank lazım gəldikdə özəl banklara kredit resursları verir ki, onlar pul qazansınlar. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə banklara hər il 300 milyon manat verilir ki, pul qazansınlar. Bəs onlar nə üçün iqtisadiyyatın real sektoruna kreditlər ayırmırlar? Nə üçün daha çox istehlak kreditləri verirlər? Pul qazanmaq üçün.

Mən etiraz etmirəm, ancaq dövlətin siyasəti vardır və dövlət özəl bankları dəstəkləyir. Qeyd etdiyim kimi, kreditlər verir, şərait yaradır ki, pul qazansınlar. Onlar da öz məsuliyyətini dərk etməlidirlər. Dövlət siyasətini, xüsusilə ölkəmizin inkişafı ilə bağlı olan siyasəti görərək, kənarda durmaq nə dərəcədə mümkündür?! Əgər belədirsə dövlət o banklara niyə kömək göstərməlidir?! Ona görə burada çox ciddi islahatlar aparılmalıdır. Birinci növbədə, məsələ təhlil edilməlidir. Yəqin ki, bu təhlil var. Mənə məlumat verilməlidir ki, Azərbaycanın özəl bankları iqtisadiyyatın real sektoruna hansı həcmdə, nə qədər vəsait qoyur. Onların kredit portfelində iqtisadiyyatın real sektoruna ayrılan vəsait ya investisiya, ya kredit şəklində nə qədərdir və onlar digər sahələrə nə qədər kredit

ayırırlar? Mən bunu bilməliyəm və ondan sonra öz qərarımı verəcəyəm. Yenə də deyirəm, mən Azərbaycanın özəl sektorunun inkişafına çox böyük dəstək verirəm. Əgər belə olmasaydı, bu gün bu qədər inkişaf olmazdı. Ancaq eyni zamanda, özəl sektor da öz məsuliyyətini dərk etməlidir və ümumi işimizə töhfə verməlidir.

Xoşagəlməz hallara qarşı mübarizə davam edir. Bu, daim diqqət mərkəzində olan məsələdir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə gözəl nəticələr verir. Bunu əhali də görür, təqdirlə qarşılayır. Beynəlxalq qurumlar da bunu qeyd edirlər. Hesab edirəm ki, biz bu sahədə köklü dəyişiklərə nail ola bilmişik. Burada əvvəlki, dəfələrdə qeyd etdiyim kimi, müxtəlif amillərin rolu xüsusi məna daşıyır – inzibati tədbirlər, cəza tədbirləri, institusional tədbirlər, şəffaflıq, yeni metodların tətbiqi.

«ASAN xidmət»in fəaliyyəti xüsusi əhəmiyyətə malik olan fəaliyyətdir. İl yarım ərzində 2 milyondan artıq müraciət olmuşdur. Bu nəyi göstərir? Onu göstərir ki, insanlar bu quruma inanırlar, görürlər ki, orada onlardan rüşvət tələb etmirlər, süründürməçilik yoxdur, şəffafdır, gənclər xidmət göstərirlər, yüzlərlə könüllü bu işlərə cəlb olunub. Görün insanların rahatlığı, gənc nəslin yetişdirilməsi, hazırlanması, vətənpərvərliyin möhkəmləndirilməsi, gücləndirilməsi üçün bunun nə qədər böyük faydası vardır. Ümumiyyətlə, bu sistem cəmiyyətə yeni bir ab-hava, ictimai xidmətlər sahəsinə yenilik gətirdi. Biz indi səyyar avtobusları bölgələrə göndəririk. Mənə yerlərdən məlumat gəlir ki, orada insanlar bu avtobusları bir bölgədən başqa bölgəyə getməyə qoymurlar. Nə üçün?! Çünki bölgələrdə onlardan rüşvət tələb edilir. Əgər belə olmasaydı, onda bu avtobuslara bu qədər maraq göstərilməzdi. Ona görə hesab edirəm ki, aidiyyatı qurumlar, prokurorluq və digər qurumlar, icra nümayəndələri bu məsələyə çox ciddi diqqət verməlidir. Bizdə hər yerdə şəffaflıq təmin edilməlidir. O ki qaldı «ASAN xidmət»in fəaliyyətinə, hesab edirəm ki, biz avtobusların sayını artırmalıyıq. İndi cəmi 2 avtobus vardır. Biz onların sayını 10-a çatdırmalıyıq. Ona görə Maliyyə Nazirliyi məsələyə baxsın və təklif versin. Qısa müddət ərzində 10 avtobus daim hərəkətdə olmalıdır ki, insanlar razı qalsınlar.

Nəqliyyatla bağlı məsələlər öz həllini tapır. Burada mən 2 məsələni qeyd etməliyəm. Bakı–Tbilisi–Qars dəmir yolunun Azərbaycanda olan hissəsinin tikintisi bu yaxınlarda başa çatmalıdır. Beləliklə, Gürcüstan ərazisində bu işlər tamamilə başa çatandan sonra biz öz payımıza düşən hissəni icra etmiş oluruq. Bir də ki, Ələt Beynəlxalq Ticarət Limanının birinci mərhələsinin istismara verilməsi məsələsidir. Bu da yaxın aylarda olmalıdır. Birinci mərhələ, ondan sonra ikinci mərhələ. Artıq bir neçə aydan sonra biz birinci mərhələni istifadəyə verməliyik. Ondan sonra indi şəhərin mərkəzində yerləşən liman köçürüləcək və orada əvvəllər də dediyim kimi, ictimai zonalar, ictimaiyyət üçün parklar yaradılacaq, digər məsələlər öz həllini tapacaqdır. Çünki indi gördüyünüz kimi, Bakıda boşaldılan bütün ərazilərdə insanların rahatlığı, istirahəti üçün ictimai yerlər salınır.

Şəhər nəqliyyatının təkmilləşdirilməsi üçün yeni avtobuslar gətirilməlidir. Əslində, yeni qurum yaradılır – «BakuBus» şirkəti. Burada ən yüksək xidmət göstərilməlidir və gətiriləcək avtobuslar dünyanın ən gözəl avtobuslarıdır. Məhz məsələni belə qoymuşuq ki, Bakı sakinləri ən gözəl texnika ilə, maşınlarla, avtobuslarla təmin edilməlidir. Hesab edirəm ki, yeni avtobuslar bir neçə aydan sonra artıq gətiriləcəkdir. Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılıb ki, o vaxta qədər bütün bu məsələlər – onların parkinq yerləri, sürücülər, sistem, şəffaflıq öz həllini tapmalıdır. Bu, dünya miqyasında bir nömrəli sistem olmalıdır.

Metro tikintisi sürətlə gedir. Hesab edirəm ki, biz bu sahəyə əlavə vəsait də ayırmalıyıq. Çünki bəzi layihələrin icrası vəsaitin çatışmazlığı ucbatından müəyyən qədər ləngiyir. Vəsaitin çatışmazlığı ona görə baş vermir ki, nəzərdə tutulmayıb, sadəcə olaraq, işlər sürətlə gedir. Biz bu işləri daha da sürətləndirməliyik, çünki metro əsas nəqliyyat vasitəsidir. Metroda həm istismarda, həm metro tikintisində aparılan islahatlar hesab edirəm ki, vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Yerlərdən gələn təkliflər də bunu göstərir.

Biz məcburi köçkünlərin problemlərini həmişə olduğu kimi, bu il də yüksək səviyyədə həll edəcəyik. Bu il də ən azı 20 min

köçkün yeni evlərə, mənzillərə köçürüləcəkdir. Bu proses artıq uğurla gedir. Həm Bakıda, həm bölgələrdə yeni massivlər tikilir, yeni qəsəbələr salınır və biz bu işləri ən yüksək keyfiyyətlə görürük.

Böyükşor gölünün təmizlənməsi burada qeyd olundu. Layihə icra olunur. Bu çox böyük layihədir, rəmzi xarakter daşıyır. Bakının ətrafında çirklənmiş göllərin sayı 10-dan çoxdur. Onlardan ən böyüyü, ən çirklənmişi Böyükşor gölüdür və biz məhz bu göldən başlamışıq. Bu gölü biz tədricən təmizləyəcəyik. Hələ ki, 2 yerə bölmüşük, ola bilsin 3 yerə böləcəyik. Eyni zamanda, yol da salınacaq. Artıq bənd tikilir. Bu, şəhər nəqliyyatı üçün də faydalı olacaq. Bu gölü hissə-hissə təmizləmək daha asandır. Hesab edirəm ki, gələn ilin yayına qədər birinci hissə artıq istifadəyə veriləcək. 300 hektar təmiz göl şəhərin mərkəzində vətəndaşların sərəncamına veriləcəkdir. Gölün ətrafında yaşıllıq, gəzinti zolaqları, bulvar, yəni şəhər üçün böyük bir park və göl yaradılacaqdır. Bu da həm ekoloji cəhətdən, həm də insanların istirahəti üçün çox böyük əhəmiyyət daşıyan məsələdir.

Bununla paralel olaraq Zığ gölünün təmizlənməsi də artıq nəzərdə tutulur. Biz yəqin ki, yaxın aylarda bu gölün təmizlənməsinə başlamalıyıq. Biz hələ ki, 2 göldən başlayıb, növbəti illərdə bütün gölləri təmizləyəcəyik. O göllərə illər ərzində çirkab sular, lay, neft, kanalizasiya suları axıdılırdı. Bu göllər bu gün bir ekoloji fəlakət mənbəyidir, şəhərimizi zəhərləyir. Amma biz bu gölləri təmizləyib, gözəl ekoloji layihəyə çevirəcəyik və bu, şəhərin ekologiyasına çox müsbət təsir göstərəcəkdir.

İndi Balaxanı zibilxanasının təmizlənməsi, orada zibilyandırma zavodunun, poliqonun yaradılması ətraf mühitə nə qədər böyük təsir göstərmişdir. İndi əvvəlki illərdə olduğu kimi, şəhəri bürüyən zərərli tüstü yoxdur. İndi şəhərin havası dəyişir. Biz «Avro» standartına keçmişik. «Avro» standartından aşağı səviyyədə olan avtomobillər artıq Azərbaycana idxal edilmir. Bu da böyük dərəcədə müsbət təsir göstərəcəkdir. Çünki havanı çirkləndirən əsas amil avtomobillərdir. Həmçinin neftayırma zavodumuzda yenidənqurma

işləri nəzərdə tutulur. Artıq layihə təqdim edilibdir. Mən hələ ki, bu barədə geniş danışmaq istəmirəm. Bəlkə də, biz bunu ayrıca müzakirə edəcəyik. Ancaq bizim zavodumuzda ən azı «Avro-5» benzinin istehsalı nəzərdə tutulur və vaxt qoymuşam ki, biz bu məsələni 3 il ərzində həll etməliyik.

Göllərin, neftlə çirklənmiş yerlərin təmizlənməsi, torpaqların rekultivasiyası. Bibiheybət buxtasının əvvəlki görüntülərinə nəzər salsaq görərik ki, biz nə dərəcədə böyük işlər görmüşük. İndi orada ağaclar əkilib, park salınıb. O, böyük bir fəlakət zonası idi. Ceyms Bond haqqında filmi orada çəkmişdilər. Təqribən 10 il bundan əvvəl böyük bir fəlakət zonası kimi çəkmişdilər. Bibiheybətin o filmdəki və indiki vəziyyətinə baxmaq olar. İndi biz orada incəsənət, idman şəhərcikləri salırıq. Avropa oyunlarına hazırlıq məqsədi ilə orada böyük Su İdmanı Sarayı və açıq meydançalar tikilir. Böyük hovuzlar, istirahət zonaları, idman meydançaları olacaqdır. Oyunlardan sonra isə onlardan vətəndaşlar da istifadə edəcəklər.

Bax, budur bizim gördüyümüz işlər. Ekologiya məsələlərinin həllinə də daim diqqət göstərilir. 6 ayda həm Bakıda, həm bölgələrdə 2 milyondan çox ağac əkilibdir. Mən həmişə deyirəm ki, bu, daimi proses olmalıdır. Biz nə qədər çox ağac əksək, xüsusilə Abşeron yarımadasında, o qədər də insanların sağlamlığına xidmət etmiş oluruq.

Yəni bizim gördüyümüz işlərin həcmi o qədər böyükdür ki, bir müşavirədə bu barədə danışmaq mümkün deyildir. Mən bu gün sadəcə olaraq, əsas məsələləri qeyd etdim. Yenə də demək istəyirəm ki, 6 ayın nəticələri ümidvericidir. Ölkəmiz inamla, dinamik şəkildə inkişaf edir. Ölkə iqtisadiyyatı dayanıqlıdır. Əminəm ki, biz ilin sonuna qədər bütün vəzifələri uğurla icra edəcəyik. Nazirlər Kabinetinin üzvlərinə isə uğurlar arzulayıram.

Sağ olun!

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu gün Azərbaycan–Fransa münasibətləri öz zəngin tarixi ənənələrinə uyğun olaraq müvəffəqiyyətlə inkişaf etməkdədir. Ölkələrimiz arasındakı yüksək səviyyəli siyasi təmaslar, iqtisadi sahədə daim genişlənən qarşılıqlı faydalı əməkdaşlığımız, çoxşaxəli və davamlı humanitar, mədəni əlaqələrimiz Azərbaycan–Fransa münasibətlərinin səciyyəvi cəhətlərindəndir.

Sizin bu yaxınlarda Azərbaycana səfəriniz, apardığımız danışıqlar, imzalanan sənədlər, şübhəsiz ki, ikitərəfli münasibətlərimizin inkişafına mühüm təkan vermişdir.

Biz Fransanın Cənubi Qafqazda sülh və əmin-amanlığın bərqərar olmasında marağından məmnunluq duyuruq. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzünün, ərazilərimizin 20 faizinin işğal olunması, soydaşlarımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi ilə müşayiət olunmuş münaqişənin ağır nəticələrinin beynəlxalq hüquq normaları əsasında, tezliklə və ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və şəxsən Sizin, cənab Prezident, səylərinizdən gözləntilərimiz böyükdür.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2014-cü il*

**MONTENEQRO DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB FİLİP VUYANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Monteneqronun milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Monteneqro əlaqələrinin hazırkı dinamik inkişafı məmnunluq doğurur. Ümidvaram ki, dost ölkələrimiz arasında qarşılıqlı maraq doğuran əməkdaşlığın dərinləşdirilməsi yolunda səylərimiz bundan sonra da davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2014-cü il*

## GÜRCÜSTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN VƏFATI İLƏ ƏLAQƏDAR BU ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNƏ BAŞSAĞLIĞI

*10 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Gürcüstanın ölkəmizdəki səfirliyində olmuşdur.*

*Dövlətimizin başçısı Gürcüstan Respublikasının sabiq prezidenti Eduard Şevardnadzenin vəfatı ilə əlaqədar başsağlığı vermiş, matəm kitabına ürək sözlərini yazmışdır.*

## QEYDLƏR

**1. Vyetnam,** Vyetnam Sosialist Respublika-sı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min km$^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 5–38, 315.

**2. Truonq Tan Sanq** (d.1949) –2011–2016-cı illərdə Vyetnam Respublikasının Prezidenti olmuşdur. – 5–13, 34–37.

**3. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə

aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 74, 34, 38, 40, 44, 87, 88, 89, 100, 196, 223.

**4. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi,

azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəl-

xalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 7, 13, 16, 35, 36, 42, 57, 72, 75, 76, 77, 87, 88–89, 91, 92, 93, 94, 98, 100, 102, 115, 117, 134, 144, 191, 194, 309, 310.

**5. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azər-

baycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 9, 311, 316.

**6. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 12, 14, 13, 43, 47, 48, 82, 84, 85, 113, 114, 121, 124, 125, 126, 129, 188, 205, 225, 231, 236,239, 246, 251, 272, 274, 286, 294, 307, 312, 318, 319, 320, 328, 340.

**7. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 12, 17, 18, 46, 47, 77, 124, 125, 168, 183, 231, 243, 247, 272, 285, 286, 306, 313, 314, 317,320, 240.

**8. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qara-

bağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 19, 76, 322.

**9. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. –19, 274, 322.

**10. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t B a ğ ı o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 25–28.

**11. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 40–50, 64.

**12. Şanxay** – Çində şəhər - liman. Çinin ən iri sənaye, nəqliyyat və ticarət mərkəzi. Sahəsi 6,2 min km$^2$, əhalisi 24,1 milyon nəfərdir. Şəhər tarixi memarlıq abidələri ilə zəngindir. – 40–50.

**13. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXP Mərkəzi Hərbi Şurasının Sədridir. – 41–49, 64.

**14. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 45, 46, 57, 61, 67, 70, 82, 148, 154– 161, 163–169, 176, 217,221, 222, 277.

**15. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi, akademik və səfir. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 45, 46, 67.

**16. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 47, 168, 286, 312, 340.

**17. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 49.

**18. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 53, 217, 221, 262, 309, 310.

**19. Georgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013-cü ildən Gürcüstan Respublikasının Prezidentidir. – 53, 309.

**20. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 57, 90, 188.

**21. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-

ci ildən Avropa Şurasının üzvüdür. – 54, 83, 168, 183, 205, 229, 235–263, 285, 306, 314.

**22. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 57, 113, 132, 134, 142, 147, 150–151.

**23. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 60, 132.

**24. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 60, 61, 132, 134, 142, 247, 286, 294, 298, 313.

**25. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yox-

dur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 61, 119–129, 312.

**26. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 67, 176, 277.

**27. Türkmənistan,** Türkmənistan Respublika- sı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 68, 82, 142, 157–160, 167, 169.

**28. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 68, 69, 157–160, 169.

**29. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 76.

**30. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 76.

**31. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 72–89.

**32. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 83, 144, 125, 183, 188, 231, 239, 247, 251, 272, 286, 298.

**33. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan türklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1501–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdı. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14 354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 84.

**34. İrəvan** – qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu

(1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin ermənilərі İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 84, 248.

**35. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası Hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 84.

**36. Oqtay Sadıxzadə,** O q t a y S e y i d H ü s e y n o ğ- l u (1921–2014) – Azərbaycan boyakarı və qrafiki, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Xalq rəssamı. Yazıçı, publisist Seyid Hüseynin oğludur. Əsasən, kitab qrafikası sahəsində fəaliyyət göstərmişdir. Boyakarlıq əsərləri də çəkmişdir. Azərbaycan şairlərindən Qətran Təbrizi, Qönçəbəyim, Heyran xanımın portretlərinin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 86.

**37. Elmira Axundova,** E l m i r a H ü s e y n q ı z ı (d.1953 ) – nasir, publisist, tərcüməçi. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 88–89.

**38. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 89.

**39. Pyotr Poroşenko** (d.1965) – biznesmen və siyasətçi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali Radasının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014-cü ildən Ukrayna Respublikasının Prezidentidir. – 90.

**40. Didye Burkhalter** (d.1960) – İsveçrə siyasətçisi. 2014–2015-ci illərdə İsveçrənin prezidenti olmuşdur. – 119–129, 292.

**41. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 132, 148, 234–263, 286.

**42. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 61, 130, 132, 148, 172, 230–231, 232–233, 247, 248, 278–279, 286.

**43. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 142, 298.

**44. *bp*,** «British Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 135, 144–146, 147, 152.

**45. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 138.

**46. «Şahdəniz» –** Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 138, 206.

**47 Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 142, 177–194.

**48. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 142, 150.

**49. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi

idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında bir yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 142, 143, 177–194.

**50. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 142, 143, 177–194, 299, 202, 204, 205, 210, 212, 217, 225, 249, 253, 254, 306, 314, 316.

**51. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 144–146, 152.

**52. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğan ilə Ədalət və

İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 155, 161, 163–169, 176.

**53. Vaqif Səmədoğlu,** V a q i f V ə k i l o v (1939–2015) – Azərbaycanın Xalq şairi, dramaturq, publisist, ictimai xadim. Azərbaycanın Əməkdar incəsənət xadimi. «Bəxt üzüyü», «Yaşıl eynəkli adam» və s. pyeslərin müəllifidir. Bir çox şeir kitabları çıxmışdır. 2000–2005-ci illərdə Milli Məclisin üzvü olmuşdur, Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. . – 162.

**54. Misir,** M i s i r Ə r ə b R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1,01 milyon km$^2$, əhalisi 97 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 171, 315.

**55. Əbdülfəttah Əs-Sisi** (d.1954) – Misirin siyasi və hərbi xadimi. 2014-cü ildən Misir Ərəb Respublikasının Prezidentidir. – 171.

**56. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 172.

**57. Cəmil Çiçək** (d.1946) **–** hüquqşünas. 2011–2015-ci illərdə Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 176.

**58. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 180, 195–226, 262.

**59. Karolos Papulyas** (d.1929) – yunan siyasətçisi, 2005–2015-ci illərdə Yunanıstan Respublikasının Prezidenti olmuşdur. – 199–206, 223–226.

**60. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 225, 298, 314, 335, 338.

**61. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 230–231.

**62. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 248, 287.

**63. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997-ci il). 2005-ci ildə Özbəkistan qurumu tərk etdi. – 261, 263, 314.

**64. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 266.

**65. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014–2015 və 2015-ci ildən indiyə kimi Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 277.

**66. Sergey Narışkin** (d.1954) – Rusiyanın dövlət xadimi. 2008–2011-ci illərdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 2011–2016-cı illərdə Rusiya Federasiyası Dövlət Dumasının Sədri olmuşdur. Hal-hazırda Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 278–279.

**67. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 291.

## Şəxsi adlar göstəricisi


**II Abdullah** – 51
**Axundova Elmira** – 88–89
**Alan Əfqan** – 70
**Arximed** – 224
**Appaturay Ceyms** – 338
**Aristotel** – 224
**Atambayev Almazbek** – 174
**Bakoyannis Dora** – 251
**Barrozu Joze** – 142, 177–194
**III Beniqno Akino** – 173
**Berdıməhəmmədov Qurbanqulu**– 68, 69, 157–160,169
**Bleyer Toni** – 254
**Brasör Ann** – 55, 235, 238–263
**Böyük İsgəndər** – 224
**Burkhalter Didye** – 119–129, 292
**Caparidze** – 261
**Cəmiloğlu Mustafa** – 261
**Çavuşoğlu Mövlud** – 277
**Çiçək Cəmil** – 176
**Dadli Robert** – 144–146, 162
**Davudoğlu Əhməd** – 45, 46, 67
**De Kirşner Kristina** – 52
**Dinh Tien Dunq** – 9
**Djakupov Kabibulla** – 175
**Elbeqdorj Saxiaqiyn** – 337
**Əliyev Heydər** – 7, 13, 16, 35, 36, 42, 57, 72, 75, 76, 77, 87, 88–89, 91, 92, 93, 94, 98, 100, 102, 115, 117, 134, 144, 191, 194, 309, 310
**Əliyeva Leyla** – 89

**Əliyeva Mehriban** – 5, 34, 38, 40, 87, 88, 89, 100, 196, 223
**Əs-Sisi Əbdülfəttah** – 171
**Əsədov Heydər** – 59
**Əsədov Oqtay** – 291
**Ərdoğan Rəcəb Tayyib** – 67, 176, 277
**For Jak** – 114
**Fostervold Kare** – 142
**Nizami Gəncəvi** – 224
**Gül Abdullah** – 155, 161, 163–169, 176
**Hadi Abdurabbih** – 39
**Hami Həsən** – 342–343
**Hendri Çarlz** – 142, 150–151
**Həsənov Ramil** – 168
**Həsənov Zakir** – 266
**Ho Şi Min** – 14, 21, 35, 36
**İsgəndərov Fuad** – 180
**İsturiz Antonio-Lopez** – 336
**Jeenbekov Asilbek** – 174
**XIV Karl Qustav** – 131
**Kemeron Devid** – 142, 150
**Kıdırəli Darxan** – 168
**Koks Tini** – 254
**Kristoferson** – 256
**Krivokapiç Ranko** – 282, 291, 293, 296–297
**Qraf Dandi** – 252
**Qribauskayte Dalya** – 65
**Quliyev Ramiz** – 85–88
**Leyla Yunus** – 256
**Lavrov Sergey** – 230–231
**Layden Maykl** – 335
**Lokli** – 259
**Lopez Samuel** – 344
**Maknamara Maykl** – 250
**Mard Malena** – 142, 180

**Marqvelaşvili Georgi** – 53, 309
**Meimarakis Vangelis** – 208–209
**Meredov Rəşid** – 68
**Məhəmmədov Tofiq** – 24
**Məmmədli Anar** – 250
**Məmmədov Cəlal** – 23, 27
**Məmmədov Fazil** – 9
**Məmmədov İlqar** – 250
**Məhtumqulu Fəraqi** – 159
**Mirzə Sadıq Əsəd** *(Sadıqcan)* – 88, 202
**Məmmədyarov Elmar** – 9, 311–316
**Nağıyev Tofiq** – 88
**Napolitano Ciorcio** – 71
**Narışkin Sergey** – 278–279
**Nazarbayev Nursultan** – 156, 165, 175
**Nəcəfova Ruhəngiz** – 98–100
**Nkurunziza Pyer** – 276
**Nquyen Phu Tronq** – 30–31
**Nquyen Tan Danq** – 32–33
**Nobel Alfred** – 190
**Obama Barak** – 142, 298
**Ottinger Günter** – 142
**Papulyas Karolos** – 199–206, 223–226
**Pham Binh Minh** – 9
**Pinçer Kristofer** – 113
**Popov İqor** – 114
**Poroşenko Pyotr** – 90
**Platon** – 197
**Putin Vladimir** – 172, 230, 231
**Roqozin Dmitri** – 232–233
**Rəfiyev Namiq** – 24
**Rəhimov Azad** – 110, 202
**Sadıxzadə Oqtay** – 86
**Samaras Antonis** – 207, 212, 220
**Santos Xuan** – 264

**Səmədoğlu Vaqif** – 162
**Si Cinpin** – 41–49, 64
**Silva Anibal** – 170
**Sokrat** – 197, 224
**Smit Kristofer** – 294
**Solberg Erna** – 142
**Şevardnadze Eduard** – 309
**Şevardnadze Paata** – 310
**Şpilman Din** – 237
**Şukla** – 253
**Terida Dias** – 258
**Tsipras Aleksis** – 211
**Tsounqas Dimitrios** – 180
**Truonq Tan Sanq** – 5–13, 34–37
**Uiker Rocer** – 294
**Ulyukayev Aleksey** – 130
**Uonq Tyu Lıu** – 21
**Uorlik Ceyms** – 114
**Usupaşvili David** – 334
**Venizelos Evangelos** – 202, 210
**Van Staa Herviq** – 229
**Vəliyev İsmayıl** – 91
**Vu Xuan Honq** – 14, 22, 24
**Vud Endryu** – 133, 140
**Yada Ram** – 66
**Yaqland Torbörn** – 54, 236
**Yusifzadə Xoşbəxt** – 25–28
**Zaoralek Lubomir** – 153

## Coğrafi adlar göstəricisi


**Afrika** – 307
**Afina** – 195–226, 262
**Albaniya** – 216, 221
**Almaniya** – 60, 132
**Amerika Birləşmiş Ştatları** – 60, 61, 132, 134, 142, 247, 286, 294, 298, 313
**Anqola** – 315
**Aralıq dənizi** – 20, 136, 222, 262, 289
**Argentina** – 52
**Asiya** – 46, 47, 48, 49, 192, 289, 306, 325
**Astana** – 165
**Aşqabad** – 159
**Avropa** – 48, 49, 83, 124, 138, 139, 143, 144, 182, 192, 206, 217, 222, 243, 246, 289, 290, 306, 324, 325
**Avstraliya** – 312
**Avstriya** – 61
**Balkan** *(yarımada)* – 221, 222
**Banqladeş** – 45
**Belçika** – 58
**Bern** – 123
**Birləşmiş Ərəb Əmirlikləri** – 312, 315
**Bolqarıstan** – 221, 262
**Bodrum** – 154–161, 163–169
**Bosniya və Herseqovina** – 313
**Böyük Britaniya** – 57, 113, 134, 142, 147, 150–151
**Burundi** – 274

**Cənub-Şərqi Asiya** – 315
**Cənubi Qafqaz** – 48, 115,145, 191, 214
**Çad** – 315
**Çex Respublikası** – 153, 313
**Çin** – 40–50, 64, 132
**Dağlıq Qarabağ** – 12, 14, 13, 43, 47, 48, 82, 84, 85, 113, 114, 121, 124, 125, 126, 129, 188, 205, 225, 231, 236,239, 246, 251, 272, 274, 286, 294, 307, 312, 318, 319, 320, 328, 340
**Dubay** – 312
**Estoniya** – 58
**Əfqanıstan** – 298, 312, 315
**Əlcəzair** – 315
**Fil Dişi Sahili** – 315
**Filippin** – 173
**Fransa** – 132, 148, 234–263, 286
**Göyçə** – 84
**Gürcüstan** – 53, 217, 221, 262, 309, 310, 334
**Hanoy** – 5–38
**Hindistan** – 57
**Honduras** – 313
**Xankəndi** – 19, 274, 322
**Xəzər dənizi** – 20, 49, 132–149, 158, 159, 191, 262, 289
**Xocalı** – 47, 168, 286, 312, 340
**İordaniya** – 51, 313
**İran** – 58
**İrəvan** – 84, 248
**İspaniya** – 58, 265, 312
**İsveç** – 131, 132
**İsveçrə** – 61, 119–129, 312
**İtaliya** – 58, 61, 71, 132, 139, 216,

221, 222, 262
**Kamerun** – 315
**Kəlbəcər** – 76
**Kolumbiya** – 264, 312
**Krım** – 264
**Küveyt** – 315
**Qazaxıstan** – 57, 142, 156, 167, 175
**Qəbələ** – 164, 278
**Qətər** – 45
**Qırğızıstan** – 164, 174
**Qara dəniz** – 20, 136
**Laçın** – 76
**Latın Amerikası** – 307, 315
**Latviya** – 58
**Litva** – 65
**Liviya** – 315
**Macarıstan** – 58
**Malayziya** – 312
**Mavritaniya** – 315
**Meksika** – 313
**Misir** – 171, 315
**Monqolustan** – 337
**Monteneqro** – 293
**Neftçala** – 91–105
**Nepal** – 66
**Niderland** – 58
**Nigeriya** – 315
**Norveç** – 142
**Nikaraqua** – 344
**Oman** – 315
**Orta Şərq** – 289
**Özbəkistan** – 57
**Pakistan** – 313
**Panama** – 313
**Peru** – 313

**Portuqaliya** – 170
**Rumıniya** – 313
**Rusiya** – 130, 132, 148, 172, 230–231, 232–233, 247, 248, 278–279, 286
**Serbiya** – 313
**Strasburq** – 234–263
**Sudan** – 312, 315
**Soçi** – 41
**Şanxay** – 40–50
**Şuşa** – 19, 76, 322
**Tibet** – 42
**Türkiyə** – 57, 61, 67, 70, 82, 148, 154–161, 163–169, 176, 217, 221, 262, 277
**Türkmənistan** – 62, 82, 142, 157–160, 167, 169
**Urumçi** – 64
**Ukrayna** – 57, 90, 188
**Vyetnam** – 5–38, 315
**Yaponiya** – 61
**Yəmən** – 39
**Yunanıstan** – 180, 195–226, 262
**Zəngəzur** – 84

# MÜNDƏRİCAT

VYETNAM SOSİALİST RESPUBLİKASINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*19 may 2014-cü il*.......................................................................................5

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*19 may 2014-cü il*.......................................................................................6

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*19 may 2014-cü il*.......................................................................................7

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*19 may 2014-cü il*.......................................................................................9

VYETNAM RESPUBLİKASININ PREZİDENTİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*19 may 2014-cü il*.....................................................................................10

AZƏRBAYCANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN VYETNAMLI MƏZUNLARI İLƏ GÖRÜŞ

*19 may 2014-cü il*.....................................................................................14

VYETNAM MİLLİ ASSAMBLEYASININ SƏDRİ NQUYEN SİNH HANQ İLƏ GÖRÜŞ

*19 may 2014-cü il*.....................................................................................29

VYETNAM KOMMUNİST PARTİYASININ BAŞ KATİBİ NQUYEN PHU TRONQ İLƏ GÖRÜŞ

*19 may 2014-cü il*.....................................................................................30

VYETNAM SOSİALİST RESPUBLİKASININ BAŞ NAZİRİ
NQUYEN TAN DANQ İLƏ GÖRÜŞ

*19 may 2014-cü il*.......................................................................................32
ALİ QONAĞIN ŞƏRƏFİNƏ DÖVLƏT ZİYAFƏTİNDƏ İŞTİRAK

*19 may 2014-cü il*.......................................................................................34

YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ABDURABBİH MƏNSUR HADİYƏ

*19 may 2014-cü il*.......................................................................................39

ÇİN XALQ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*19 may 2014-cü il*.......................................................................................40

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ Sİ CİNPİN İLƏ GÖRÜŞ

*20 may 2014-cü il*.......................................................................................41

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ
VERİLƏN ZİYAFƏTDƏ İŞTİRAK

*20 may 2014-cü il*.......................................................................................44

ASİYADA QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMAD
TƏDBİRLƏRİ ÜZRƏ MÜŞAVİRƏNİN 4-cü ZİRVƏ
TOPLANTISINDA İŞTİRAK

*21 may 2014-cü il*.......................................................................................45

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ
NAHARDA İŞTİRAK

*21 may 2014-cü il*.......................................................................................50

İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAH İBN AL
HÜSEYNƏ

*21 may 2014-cü il*.......................................................................................51

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ
XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

*21 may 2014-cü il*.......................................................................................52

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ MARQVELAŞVİLİYƏ

*21 may 2014-cü il*.......................................................................................53
AVROPA ŞURASININ BAŞ KATİBİ TORBÖRN YAQLAND İLƏ GÖRÜŞ

*22 may 2014-cü il*.......................................................................................54

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ ANN BRASÖRÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2014-cü il*.......................................................................................55

XX AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ VIII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*22 may 2014-cü il*.......................................................................................56

GƏNC ALİMLƏRİN ÜMUMDÜNYA BAKI FORUMUNUN İŞTİRAKÇILARINA

*26 may 2014-cü il*.......................................................................................62

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*26 may 2014-cü il*.......................................................................................64

LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

*26 may 2014-cü il*.......................................................................................65

NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM BARAN YADAVA

*26 may 2014-cü il*.......................................................................................66

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2014-cü il* ........ *67*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD MEREDOV İLƏ GÖRÜŞ

*26 may 2014-cü il* ........ *68*

TÜRKİYƏ RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ ƏFQAN ALAN İLƏ GÖRÜŞ

*26 may 2014-cü il* ........ *70*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

*27 may 2014-cü il* ........ *71*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2014-cü il* ........ *72*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*27 may 2014-cü il* ........ *74*

UKRAYNA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PYOTR POROŞENKOYA

*28 may 2014-cü il* ........ *90*

NEFTÇALA RAYONUNA SƏFƏR

*28 may 2014-cü il* ........ *91*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ NEFTÇALA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 may 2014-cü il* ........ *92*

ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULMUŞ TAĞIYEV–SAHİL AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*28 may 2014-cü il* ........ *106*

RESPUBLİKA İDMAN TİBB, DİAQNOSTİKA VƏ
REABİLİTASİYA İNSTİTUTUNUN AÇILIŞI MƏRASİMİ

*29 may 2014-cü il*......................................................................................*109*

BÖYÜK BRİTANİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI
DOSTLUQ QRUPUNUN SƏDRİ KRİSTOFER PİNÇERİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 may 2014-cü il*......................................................................................*113*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*31 may 2014-cü il*......................................................................................*114*

XXI BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ
NEFT KİMYASI» SƏRGİSİ VƏ KONFRANSININ
İŞTİRAKÇILARINA

*2 iyun 2014-cü il*.......................................................................................*115*

AZƏRBAYCAN GƏNCLƏRİNİN
VII FORUMUNUN İŞTİRAKÇILARINA

*2 iyun 2014-cü il*.......................................................................................*117*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ DİDYE
BURKHALTERİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 iyun 2014-cü il*.......................................................................................*119*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ DİDYE
BURKHALTER İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*2 iyun 2014-cü il*.......................................................................................*120*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*2 iyun 2014-cü il*.......................................................................................*121*

İSVEÇRƏ PREZİDENTİ DİDYE BURKHALTER İLƏ BİRGƏ
MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*2 iyun 2014-cü il*.......................................................................................*123*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ NAHARDA İŞTİRAK

*2 iyun 2014-cü il*.......................................................................................... *129*

RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ
ALEKSEY ULYUKAYEV İLƏ GÖRÜŞ

*2 iyun 2014-cü il*.......................................................................................... *130*
İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*3 iyun 2014-cü il*.......................................................................................... *131*

XXI BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ
NEFT KİMYASI» SƏRGİSİ VƏ KONFRANSININ AÇILIŞI
MƏRASİMİNDƏ İŞTİRAK

*3 iyun 2014-cü il*.......................................................................................... *132*

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ, BAŞ NAZİRİN
AZƏRBAYCAN, QAZAXISTAN VƏ TÜRKMƏNİSTAN İLƏ
TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ ELÇİSİ ÇARLZ HENDRİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 iyun 2014-cü il*.......................................................................................... *150*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
ROBERT DADLİ İLƏ GÖRÜŞ

*3 iyun 2014-cü il*.......................................................................................... *152*

ÇEX RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ LUBOMİR
ZAORALEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*3 iyun 2014-cü il*.......................................................................................... *153*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*4 iyun 2014-cü il*.......................................................................................... *154*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL
İLƏ GÖRÜŞ

*4 iyun 2014-cü il*.......................................................................................... *155*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*4 iyun 2014-cü il........................................................................................156*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*4 iyun 2014-cü il........................................................................................157*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN ADINDAN DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLƏN ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*4 iyun 2014-cü il........................................................................................161*

XALQ ŞAİRİ VAQİF SƏMƏDOĞLUNA

*5 iyun 2014-cü il........................................................................................162*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ IV ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*5 iyun 2014-cü il........................................................................................163*

AZƏRBAYCAN, TÜRKİYƏ VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*5 iyun 2014-cü il........................................................................................169*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*6 iyun 2014-cü il........................................................................................170*

MİSİR ƏRƏB RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*9 iyun 2014-cü il........................................................................................171*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*9 iyun 2014-cü il........................................................................................172*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB III BENİQNO AKİNOYA

*9 iyun 2014-cü il*.......................................................................................*173*

QIRĞIZ RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ ASİLBEK
JEENBEKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*13 iyun 2014-cü il*.......................................................................................*174*

QAZAXISTAN RESPUBLİKASI MƏCLİSİNİN SƏDRİ
KABİBULLA DJAKUPOVUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyun 2014-cü il*.......................................................................................*175*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ CƏMİL
ÇİÇƏYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*13 iyun 2014-cü il*.......................................................................................*176*

AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL
BARROZUNUN AZƏRBAYCANA SƏFƏRİ

*14 iyun 2014-cü il*.......................................................................................*177*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 iyun 2014-cü il*.......................................................................................*178*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 iyun 2014-cü il*.......................................................................................*180*

AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU
İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*14 iyun 2014-cü il*.......................................................................................*181*

SƏNGƏÇAL TERMİNALI İLƏ TANIŞLIQ

*14 iyun 2014-cü il*.......................................................................................*190*

AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ DAĞÜSTÜ PARKI ZİYARƏT

*14 iyun 2014-cü il*...................................................................................... *193*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNİ ZİYARƏT

*14 iyun 2014-cü il*...................................................................................... *194*

YUNANISTAN RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*15 iyun 2014-cü il*...................................................................................... *195*

AFİNA AKROPOLUNU ZİYARƏT

*15 iyun 2014-cü il*...................................................................................... *196*

NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

*16 iyun 2014-cü il*...................................................................................... *198*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*16 iyun 2014-cü il*...................................................................................... *199*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYAS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*16 iyun 2014-cü il*...................................................................................... *200*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*16 iyun 2014-cü il*...................................................................................... *201*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*16 iyun 2014-cü il*...................................................................................... *202*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYAS İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*16 iyun 2014-cü il*...................................................................................... *203*

YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ANTONİS SAMARAS İLƏ GÖRÜŞ

*16 iyun 2014-cü il*........................................................................................ *207*

YUNANISTAN PARLAMENTİNİN SƏDRİ VANGELİS MEİMARAKİS İLƏ GÖRÜŞ

*16 iyun 2014-cü il*........................................................................................ *208*

YUNANISTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ EVANGELOS VENİZELOS İLƏ GÖRÜŞ

*16 iyun 2014-cü il*........................................................................................ *210*

YUNANISTAN PARLAMENTİNDƏ ƏSAS MÜXALİFƏT OLAN DEMOKRATİK SOLÇULAR BİRLİYİNİN LİDERİ ALEKSİS TSİPRAS İLƏ GÖRÜŞ

*16 iyun 2014-cü il*........................................................................................ *211*

YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ANTONİS SAMARAS VƏ YÜKSƏK SƏVİYYƏLİ İŞ ADAMLARI İLƏ GÖRÜŞ

*16 iyun 2014-cü il*........................................................................................ *212*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*16 iyun 2014-cü il*........................................................................................ *223*

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNƏ

*17 iyun 2014-cü il*........................................................................................ *227*

AVROPA ŞURASI YERLİ VƏ REGİONAL HAKİMİYYƏTLƏR KONQRESİNİN PREZİDENTİ HERVİQ VAN STAA İLƏ GÖRÜŞ

*18 iyun 2014-cü il*........................................................................................ *229*

RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*18 iyun 2014-cü il*........................................................................................ *230*

RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyun 2014-cü il*............................................................................................ *232*

FRANSA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*23 iyun 2014-cü il*............................................................................................ *234*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ
ANN BRASÖR İLƏ GÖRÜŞ

*24 iyun 2014-cü il*............................................................................................ *235*

AVROPA ŞURASININ BAŞ KATİBİ TORBÖRN YAQLAND İLƏ
GÖRÜŞ

*24 iyun 2014-cü il*............................................................................................ *236*

İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN SƏDRİ DİN
ŞPİLMAN İLƏ GÖRÜŞ

*24 iyun 2014-cü il*............................................................................................ *237*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ
SESSİYASINDA İŞTİRAK

*25 iyun 2014-cü il*............................................................................................ *238*

KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB XUAN MANUEL SANTOSA

*25 iyun 2014-cü il*............................................................................................ *264*

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

*25 iyun 2014-cü il*............................................................................................ *265*

AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN
YARADILMASININ 96-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ
MÜDAFİƏ NAZİRLİYİNİN, DAXİLİ İŞLƏR NAZİRLİYİNİN
DAXİLİ QOŞUNLARININ VƏ DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN
BİRLƏŞMƏ VƏ HİSSƏLƏRİNİN İRİMİQYASLI BİRGƏ
ƏMƏLİYYAT-TAKTİKİ TƏLİMLƏRİNİN ƏSAS
MƏRHƏLƏSİNİN İZLƏNMƏSİ MƏRASİMİ

*26 iyun 2014-cü il*............................................................................................ *266*

BURUNDİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PYER NKURUNZİZAYA

*27 iyun 2014-cü il......................................................................................276*

TÜRKİYƏ RESPUBLİKASININ AVROPA BİRLİYİ İŞLƏRİ ÜZRƏ
NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*27 iyun 2014-cü il......................................................................................277*

RUSİYA DÖVLƏT DUMASININ SƏDRİ SERGEY NARIŞKİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 iyun 2014-cü il......................................................................................278*

«KORRUPSİYAYA QARŞI MÜBARİZƏ: BEYNƏLXALQ
STANDARTLAR VƏ MİLLİ TƏCRÜBƏLƏR» MÖVZUSUNDA
BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*28 iyun 2014-cü il .....................................................................................280*

ATƏT PARLAMENT ASSAMBLEYASININ BAKIDA
KEÇİRİLƏN 23-cü İLLİK SESSİYASININ PLENAR İCLASININ
AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*28 iyun 2014-cü il......................................................................................282*

MONTENEQRO PARLAMENTİNİN SƏDRİ, ATƏT PARLAMENT
ASSAMBLEYASININ PREZİDENTİ RANKO KRİVOKAPİÇİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 iyun 2014-cü il......................................................................................293*

ABŞ SENATORU ROCER UİKERİN VƏ KONQRESMEN
KRİSTOFER SMİTİN BAŞÇILIQ ETDİKLƏRİ NÜMAYƏNDƏ
HEYƏTLƏRİ İLƏ GÖRÜŞ

*28 iyun 2014-cü il......................................................................................294*

ATƏT PARLAMENT ASSAMBLEYASININ
23-cü İLLİK SESSİYASININ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ
ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*28 iyun 2014-cü il......................................................................................295*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*1 iyul 2014-cü il* ........................................................................................ *298*

AVROPANIN «NEUROPE.EU» İNFORMASİYA PORTALINA MÜSAHİBƏ

*1 iyul 2014-cü il* ........................................................................................ *299*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ MARQVELAŞVİLİYƏ

*7 iyul 2014-cü il*........................................................................................ *309*

CƏNAB PAATA ŞEVARDNADZEYƏ

*7 iyul 2014-cü il* ........................................................................................ *310*

AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN 5-ci MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*7 iyul 2014-cü il* ........................................................................................ *311*

GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ DAVİD USUPAŞVİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 iyul 2014-cü il* ........................................................................................ *334*

NATO DƏSTƏK AGENTLİYİNİN BAŞ MENECERİ MAYK LAYDEN İLƏ GÖRÜŞ

*7 iyul 2014-cü il* ........................................................................................ *335*

AVROPA XALQ PARTİYASININ VƏ MƏRKƏZÇİ DEMOKRATLAR İNTERNASİONALININ BAŞ KATİBİ ANTONİO-LOPEZ İSTURİZ İLƏ GÖRÜŞ

*7 iyul 2014-cü il* ........................................................................................ *336*

MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA

*8 iyul 2014-cü il* ........................................................................................ *337*

NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ
ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY
İLƏ GÖRÜŞ

*8 iyul 2014-cü il* ........................................................................................ *338*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN
AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK
NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*9 iyul 2014-cü il* ........................................................................................ *339*

NİKARAQUA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
SAMUEL SANTOS LOPEZ İLƏ GÖRÜŞ

*9 iyul 2014-cü il* ........................................................................................ *344*

NAZİRLƏR KABİNETİNİN 2014-cü İLİN BİRİNCİ
YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ
YEKUNLARINA VƏ QARŞIDA DURAN
VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*10 iyul 2014-cü il* ...................................................................................... *345*

YEKUN NİTQİ

*10 iyul 2014-cü il* ...................................................................................... *353*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB FRANSUA OLLANDA

*10 iyul 2014-cü il* ...................................................................................... *364*

MONTENEQRO DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB FİLİP VUYANOVİÇƏ

*10 iyul 2014-cü il* ...................................................................................... *365*

GÜRCÜSTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ
EDUARD ŞEVARDNADZENİN VƏFATI İLƏ ƏLAQƏDAR
BU ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNƏ
BAŞSAĞLIĞI

*10 iyul 2014-cü il* ..................................................................................... *366*

QEYDLƏR......................................................................................................*367*

*Şəxsi adlar göstəricisi* ..........................................................................................*387*

*Coğrafi adlar göstəricisi*.......................................................................................*391*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.